AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XXI cild

# DASTANLAR

## XI kitab

BAKI – 2010

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*AMEA Folklor İnstitutu*
*Elmi Şurasının qərarı ilə çap olunur*

**REDAKSİYA HEYƏTİ**

**Hüseyn İsmayılov,** filologiya elmləri doktoru, prof. **(sədr);**
**İsrafil Abbaslı,** filologiya elmləri doktoru, professor;
**Teymur Bünyadov,** akademik;
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü;
**Məhərrəm Cəfərli,** filologiya elmləri doktoru, professor;
**Paşa Əfəndiyev,** filologiya elmləri doktoru, professor;
**Oruc Əliyev,** filologiya elmləri namizədi;
**Qara Namazov,** filologiya elmləri doktoru, professor;
**Azad Nəbiyev,** AMEA-nın müxbir üzvü;
**Əziz Ələkbərli,** filologiya elmləri namizədi;
**Ağaverdi Xəlil,** filologiya elmləri namizədi;
**Seyfəddin Rzasoy,** filologiya elmləri namizədi **(məsul katib).**

**TƏRTİB EDƏNLƏR: f.e.d. prof. Hüseyn İSMAYILOV**
**f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru külliyyatı, XXI cild, Dastanlar (XI kitab), Bakı,** "Nurlan" nəşriyyatı, 2010, -392 səh.

Azərbaycan folkloru külliyyatının bu cildində 5 cildlik "Azərbaycan dastanları" kitabının görkəmli folklorşünaslar M.H.Təmasib və Ə.Axundovun tərtib etdiyi 1-ci, 2-ci, 3-cü cildlərindəki və AMEA Folklor İnstitutunun Folklor arxivindəki mətnlərdən istifadə olunmuşdur.

**4603000000**
**A ---------------- Qrifli nəşr**
**N-098-2010**

**©Folklor İnstitutu, 2010**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QUL MAHMUD

## USTADNAMƏ

İnsan payız ölə, yazda dirilə,
Zimistanda boran, qarı çəkməyə.
Günü gündən işi düşə müşgülə,
Hərgiz namus, qeyrət, arı çəkməyə.

İnciməyin qoca aşığın yaşından,
Sinəm vaqif olub eşq ataşından,
Bülbül gül yolunda keçər başından,
Əyər gül göysünə xarı çəkməyə.

Eşqin ataşına qatalar məni,
Qul deyə, Həbəşdə satalar məni,
Qoyub top ağzına atalar məni,
Bəlkə canım bu azarı çəkməyə…

Xəstə könül gəzir bu təmənnada,
Mərdlərin mövlası sən yetiş dada,
Mərd igidə ölüm haqdı dünyada.
Yoxsul olub ahı-zarı çəkməyə!…

Ələsgər, əlini üzmə damandan,
İstə mətləbini sahib-zamandan,
Məhəmməd Hümməti çıxmaz zindandan,
Taki mövlam zülfiqarı çəkməyə!

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, birini də deyək, iki olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yığdın bu dünyanın malü dövlətin,
Əllini keçirdin, yüzə nə qaldı?
Ayaq getdi, əl gətirdi diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora həlqə salma dəmirdən,
Aydı, gündü, gələr, keçər, ömürdən,
Tələsirik, görən yaza nə qaldı?

Haraya baxıram hava məxşuşdu,
Gördüyüm oylaqlar yadıma düşdü.
Bir gün eşidərsən Alı da köçdü,
Sındı simli sazı, tara nə qaldı?

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin rəngi solsun.

Ay ağalar, gəlin sizə söyləyim,
Bu dünyada keçməz işi namərdin.
Yeriyib evinə bir qonaq gəlsə,
Açılmaz qabağı, qaşı namərdin.

Dərdə düşsən, ondan diləmə dərman,
Üzünə xoş baxar, dalınca düşman,
Dilərəm üzünə çıxsın bir yaman,
Müdam zəhər olsun aşı namərdin.

Əmir der: sirrini vermə har yada,
Dərdi olan batar qəmdən dəryada,
Dilərəm mövladan fani dünyada,
Müdam qala düşsün başı namərdin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təbriz şəhərində qoca Alı adlı sövdəyər var idi. Varlı-dövlətli bir adam idi. Ancaq qoca Alının nə qədər züryəti olurdu, o qədər də tələf olurdu. Alı həmi uşaq fikrindən, həmi də qocalıqdan lap əldən-ayaqdan düşmüşdü. Axır vaxtlar bunun külfətinin boynuna bir uşax düşdü. Arvad yükünü yerə qoymaq vaxtı olanda qoca Alı kasıb-kusuba nəzir-niyaz verdi ki, siz də mənə dua eləyin, allah bunu mənim əlimdən almasın.

Arvad yükünü yerə qoyan vaxtı bir ağa dərviş qapıda haqqı-hüy çəkdi. Qoca Alı o biri otaqdan dərvişin səsini eşidib, onun qabağına yüyürdü, dedi:

– Ağa dərviş, məndən nə istəyirsən?

Dərviş dedi:

– Mən pay alan dərvişlərdən deyiləm. Sənin uşağının adını qoymağa gəlmişəm. Bir yaşından yüz yaşına kimi onun barını yeyəcəksən. Mən onun adını qoydum Qul Mahmud.

Kişi dərvişin əlindən öpdü. Dərviş çıxıb getdi.

Aylar, illər keçdi, uşax gəlib məktəb yaşına çatdı. Kişi dedi:

– Arvad, bunu harda oxudaq?

Arvad dedi:

– Özün bil.

Kişi dedi:

– Arvad, İsfahanda Şah Abbasın bir məktəbi var, oranı oxuyan padşaha layıq böyük adam olur. Ya vəzir olur, ya da ki, qoşun böyüyü.

Qul Mahmudu atası aparıb bu məktəbdə oxutmağa qoymaqda olsun, sizə kimdən xəbər verim, Şah oğlu Şah Abbasın vəziri Əhməd vəzirdən. Əhməd vəzirin də gözünün ağı-qarası Leyli adlı bir qızı var idi ki, Əhməd vəzir onu da bu məktəbə qoymuşdu.

Bəli, hər iki cavan məktəbdə bir-birinə yaman məhəbbət bəslədilər. Yeməkləri bir, gəzməkləri bir, oxumaqları bir yerdə olurdu. Vaxt gəldi keçdi, Qul Mahmud məktəbi tamam elə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

di. Müəllimləriynən, yoldaşlarıynan halal-hümmət eləyib, öylərinə getməyə üz qoydu. Qul Mahmud bir neçə qədəm getmişdi, vəzirin qızı Leyli gəldi qabağını kəsdi. Qız saçından bir neçə tel qopartdı, verdi Qul Mahmuda, dedi:

– Qul Mahmud, bunu sənə nişanə verirəm, ha vaxt məni unutsan od olsun, səni yandırsın!

Qul Mahmud da baş darağını qıza nişanə verdi, dedi:

– Sən də məni unutsan, bu da səni od olub yandırsın!

Hər ikisi biri-birinə nişanə verib, halal-hümmət eləyib ayrıldılar.

Qul Mahmud qızın həvəsindən quş kimi qanad çaldı, özünü yetirdi Təbrizə, atasının öyünə.

Qohum-qardaş, dost aşna gəldilər onu görməyə, yeyib-içib dağılandan sonra oğlan anasına dedi:

– Ana, mənim bir səfərim var, mən gedəcəm.

Anası ağlayıb dedi:

– Oğul, yenicə gəlib çıxıbsan, hara gedirsən?

Qul Mahmud götürüb, anasına görək nə deyir, anası ona nə cavab verir.

Aldı Qul Mahmud:

Uzax yollar üstündəyəm,
Ana, mən gedirəm gedir.
Şirin canın qəsdindəyəm,
Ana, mən gedirəm gedir.

Aldı anası, görək nə dedi:

Mahmud, gedirsən pünhana,
Oğul, allah amanatı.
Tapşırıram o sübhana,
Oğul, allah amanatı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qul Mahmud:

Haqdan yazılıbdı yazım,
Başa çatsın xoş avazım,
Verin nəziri-niyazım,
Ana, mən gedirəm gedir.

Aldı anası:

Sən gedirsən İsfahana,
Məni qoyma yana-yana,
Tapşırıram yaradana,
Oğul, allah amanatı.

Aldı Qul Mahmud:

Qul Mahmud da öz elinnən,
Haqqı qoyammaz dilinnən,
Tutub ağamın əlinnən,
Ana, mən gedirəm gedir.

Aldı anası:

Sən gedirsən İsfahana,
Məni qoydun yana-yana,
Tapşırıram o sübhana,
Oğul, allah amanatı.

Camaat, mollalar buna kinayəynən dedilər:

– Sən gərək böyük bir adam oleydin, gəlib aşıq olubsan, özü də təkcə çıxıb gedirsən. De görək, qardaşın yox, bir şeyin yox, təkcə hara gedirsən?

Mahmud anasıynan halal-hammət eləyib, başladı getməyə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamı anasına ürək-dirək verirdi ki, a balam, nolacaq, qoy getsin. Anası Söylü aldı, görək nə deyir:

Könlüm sızıldar, qan tökər gözlərim,
Elə bil çovğuna, qara düşmüşəm.
Kərəmsiz bəndəyəm, fələk əlindən,
Halım dönüb, intizara düşmüşəm.

Arvadların biri dedi:

– Allah qoysa, Mahmud qayıdıb gəlsə, mənə muştuluq nə verərsən?

Söylü dedi:

Təbibimsənsə gəl yaramı sarı,
Güldürmədi mənim təki ağları,
Sinəmə çəkilib oğul dağları,
Ayrılıqdan intizara düşmüşəm.

Söylüyəm, qürbətdə ellərdə xəstə,
Gözüm muştuluqda, qulağım səsdə,
Apardı oğlumu əlimdən nəsdə,
Gözüm görmür, çox kənara düşmüşəm.

Qul Mahmud o qədər yol getdi ki, Məzə dağına çatdı. Ustadlar deyir, bu dağdan İsfahana qırx günlük yoldu. Bura çiçəkli, güllü-bülbüllü bir dağdı. Dağın belindən Cəfər sövdəyar baxırdı. Bir də gördü k, qəflə-qatırdan bir qırıx aralı, dağın təpəsində bir aşıq saz çalır. Görək burda Qul Mahmud nə deyirdi:

Sənə deyim, Məzə dağı,
Leylim səndə gəzdimola?
Açılıbdı gül-çiçəyin,
Gələn bahar yazdımola?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qadir allah yetər dada,
İyid başı çəkər xata.
Cəh-cəh vurub bağda, amma,
Ördək kimi qazdımola?

Qul Mahmud da yana-yana,
Yandı bağrım, döndü qana,
Səfərimdi İsfahana,
Mənzil girən azdımola?

Bu səsi Cəfər sövdəyər eşitdi. Gəldi gördü ki, bu oğlan gül kimi bir aşıqdı. Qul Mahmud onun çox xoşuna gəldi, dedi:

– Oğul, mən də bu sazdan xəbərdaram, bir az da şairliyim var. De görüm hara gedirsən?

Qul Mahmud bunun salamını aldı, amma ayrı cavab vermədi. Cəfər sövdəyər bir də xəbər aldı.

– Oğul, hara gedirsən?

Gördü ki, Qul Mahmud yenə də dinmir. Aldı Cəfər sövdəyər, görək ona nə dedi:

Başına döndüyüm, ay cavan oğlan,
Söylə görüm, nə məkana gedirsən?
Eşqin cürəsinə giryan olubsan,
Pərvanətək yana-yana gedirsən.

Aldı Qul Mahmud:

Başına döndüyüm, sövdəyər başı,
Üz tutuban bu diyara gedirəm.
Fələyin gərdişi, qəzanın işi,
Yan çöyürüb bu diyara gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Sövdəyər:

Söylə görüm, bala, sənə nə oldu?
Eşqin saf cürəsi sinənə doldu.
İsfahan deyilən çox uzaq yoldu,
Nahax, balam, sən əfsanə gedirsən.

Aldı Qul Mahmud:

Gözəl olan sığal verər özünə,
Aşıq olan dərdin söylər sazına,
Mən aşığam Əhməd vəzir qızına,
Üz tutuban bu diyara gedirəm.

Sövdəyər öz-özünə dedi: nə gözəl oğlandı: Ürəyindən keçdi ki, elə nə olaydı, qızımı bu oğlan alaydı. Odu ki, Cəfər sövdəyər götürüb dedi:

Cəfər sövdəyərə söyləmə nağıl,
Unutma, başına cəm elə ağıl.
Mən sənə ata ollam, sən mənə oğul,
Nahax, bala, o zindana gedirsən.

Aldı Qul Mahmud:

Qul Mahmudam mən gedərəm hər yana,
Dərdimi söylərəm mən yana-yana,
Sıtqımı bağladım şahi-mərdana,
Leyli deyib, bir canana gəzirəm.

Qul Mahmud getmək istəyəndə Cəfər sövdəyər dedi:
– Oğul, dayan, birini də deyim, sonra istərsən gedərsən.
Cəfər sövdəyər dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəribsən qürbətdə, ay cavan oğlan,
Xoş gəlibsən bu diyara, dur gedək.
Könül xəstə, can intizar gəzirəm,
Sən loğmansan, mən bimara, dur gedək.

Aldı Qul Mahmud:

Üz çöyürüb bir məkana gedirəm,
Gör necə görükür haralar mənə.
Gözü yolda, intizarda yarım var,
Vurma dürlü-dürlü yaralar mənə.

Aldı Cəfər:

Dinim müsəlmandı, özüm sövdəyər,
Düşdüm qocalığa, oldum ixtiyar.
Cavan oğlan, səndən qeyri kimim var,
Doğru sözə, düz ilqara, dur gedək.

Aldı Qul Mahmud:

Qohumdan, qardaşdan kənar olmuşam,
Alışıb, od tutub yanar olmuşam,
Dindirmə, yuxalıb sınar olmuşam,
Olarmı bəndədən qaralar mənə.

Aldı Cəfər:

Cəfərəm, getmişəm külli hər yana,
Gəncəyə, Tiflisə, Hində, İrana,
Səni and verirəm şahi-mərdana,
Minnətdaram sən bimara, dur gedək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qul Mahmud:

Görükmür gözümə, dostlarım hanı?
Çağırıb gedirəm şahi-mərdanı.
Qul Mahmudam, qəm köçünün sarvanı,
Geydirib libasi-qaralar mənə.

Sövdəyər bu sözdən sonra Mahmudu apardı öyünə. Qızına dedi:

– Qızım, mən Mahmudu gətirdim, indən belə iş səndən aşacaq. Deyirlər ki, cavanların ağlı gözündə olar, apar onu bir bağ-bağçanı gəzdir, bəlkə xoşuna gələ, buralarda qala, bizə oğul ola.

Qız bunu qırx gün buralarda gəzdirdi, amma oğlandan heç bir hərəkət görmədi. Qırx günün tamamında Qul Mahmud yuxuda gördü ki, qız ona deyir: Qul Mahmud, bə ilqar, iman məgər belə olar? Qul Mahmud yuxudan qalxıb, tez sazı döşünə basıb deyir:

Bir ilahim, qibləgahım,
Çatmamışam kana, gedim.
Var ki, firsət gedib əldən,
Yoxdu bir imkana, gedim.

Çarxı-fələk, dərd ucundan,
Olmuşam divanə gedim.
Tut əlimdən, görsət mənə,
Hansı bir məkana gedim.

Dindirərlər haqq öyündə,
Nahaq yerin dar olacaq.
Könlüm ada, özüm qəvvas,
Dəryayi-ümmana gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sirrin haxdı, yaradan,
Gör necə əyan deyirəm.
Dərd verən dərman da verər,
Demə ki, loğmana gedim.

Qul Mahmud halal-hümmət eləyib yola düşəndə qız ağladı. Qız ağlayanda Qul Mahmud sazı götürüb dedi:

Ahu gözlüm, ayrılığın günüdü,
Sən allah, sən tanrı, gəl ağlamaynan.
Bəlkə haxdan yazım belə yazılıb,
Tökmə göz yaşını, sel ağlamaynan.

Qadir movlam özü yetər dadlara,
Şirin canım yanar oldu odlara.
Sirr vermə özgəyə, uyma yadlara,
Bağrım qana döyür, gəl ağlamaynan.

Qul Mahmudam, qızıl güldə budağam,
Gülündən ayrılmış virana bağam.
Yadından çıxmasın, necə ki, sağam,
Bülbüləm, ölüncə gül, ağlamaynan.

Qul Mahmud qıznan halal-hümmət eliyib yola düşdü. Bir qədər gedəndən sonra yolda borana düşdü. Yolunu itirdi, bir daşa sövkənib, götürüb görək nə deyir:

Axşam çağı gənə qanım qaraldı,
Dad sənin əlindən, aman, ay fələk!
Qohumdan, qardaşdan aralı düşdüm,
Eylədin halımı yaman, ay fələk!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çəkib qovğaları bəlalı başım,
Axır damar-damar qanlı göz yaşım,
Cavankən qürbətə atılıb daşım,
Düşübdü sinəmə güman, ay fələk!

Uzaqdı yollarım, aranı kəsdi,
Huş başımdan getdi, bədənim əsdi.
Biçarə Mahmudun burda bikəsdi,
Bağlayıb yolları duman, ay fələk!

Sonra duman-çən bir az aralandı. Mahmud bir xeyli yol gedib, gördü yolun kənarında iki dərviş əyləşib. Mahmudu görən kimi bu dərvişlər ərəbcə bir-biriynən danışdılar ki, bunu özümüzə yoldaş eləyək, pul qazanandan sonra öldürək. Bunların sirri Qul Mahmuda əyan oldu. Odu ki, Qul Mahmud dedi:

– Ağa dərviş, qoyun sizə bir neçə xanə deyim:

Ərz eləyim, pünhan sirri sən də bil,
Əldə tutub bir nişana gedirəm.
Dönübdü yığbalım yenilməz daşa,
Baxdım küsüb, biyabana gedirəm.

Axtar sirr dostunu, qəlbindən ara,
Dönüb tərlan könlüm meyl etməz sara.
Bihudə gəzirəm mən də səyyara,
Pərvanəyəm, yana-yana gedirəm.

Özüm bir qonağam, Qul Mahmud adım,
Sinəmdə görünür eşqü muradım.
Mənə bir yol göstər, kamil ustadım,
Ağa dərviş, İsfahana gedirəm.

Dərvişlər fikirlərindən dönüb, ona yol göstərdilər. Mah-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mud İsfahan şəhərinə yola düşdü.

Əhməd vəzirin bir gözəl bağı varıydı. Leyli xanım qırx incə belli qıznan orda gəzirdi. Bağın bir qoca bağbanı varıdı. Qul Mahmud özünü bağın qırağına yetirib, baxıb gördü qızlar gəzirlər. Qul Mahmud bağbana dedi:

– Qoca əmi, icazə ver bağda dincəlim.

Qoca bağban cavab verdi:

– Oğlum, olmaz, bura Leyli xanımın bağıdı.

Mahmud dedi:

– Qoca bağban, indi ki, qoymursan, onda qoy bir neçə kəlmə söz deyim.

Aldı Qul Mahmud, görək nə dedi:

Aylar, illər həsrətini çəkdiyim,
Dostumu şad gördüm, gül üzüm barı.
Həsrətin çəkirəm, divanə, bağban,
İzn ver, bağından gül üzüm barı.

Xal düşüb Leylimin ay qabağında,
Bahar meyl eləyir gül yanağında,
Yetişib dərməyə yarın bağında,
Alması, heyvası, gül, üzüm barı.

Qul Mahmud, diləyin qəlbində haxdı,
Hax yazan yazıya demə nahaxdı.
Göz kamal yetirib, əl çatan vaxtdı,
Səbəbkardı, qoymur gül üzüm barı.

Bağban icazə verdi bağa girməyə. Qul Mahmud baxdı ki, qızlar oynayıb gülür, Leyli xanım da qızların içindədi. Ürəyi tab gətirməyib aldı, görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Könlüm səni görmək istər,
Qəsd eləmə cana, bülbül!
Açıbdı çiçəklər, güllər,
Bəzən donnan-dona, bülbül!

Hər çiçəyin yarpağından,
Qızıl gülün budağından,
Küsübsən bağça-bağından,
Niyə döndün yana, bülbül!

Bülbül olan meyli güldə,
Adın dastan olub dildə,
Qul Mahmudam qürbət eldə,
Döndü bağrım qana, bülbül!

Leyli Qul Mahmudun səsini eşitdi. Onun yanına yüyürdü. On iki saçından tel ayırıb, şəkər məmələrinin üstünə basıb, aldı, görək nə dedi:

Yan çöyürübdü diyara,
Mahmud, xoş gəldin, xoş gəldin!
Vədə verdiyin ilqara,
Mahmud, xoş gəldin, xoş gəldin!

Mən bir güləm sən bülbülə,
De danış sən gülə-gülə,
Yolun düşüb bizim elə,
Mahmud, xoş gəldin, xoş gəldin!

Mahmud düşüb qəmgin çağa,
Canım canına sadağa.
Qədəm qoyub bizim bağa,
Mahmud, xoş gəldin, xoş gəldin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Mahmud cavabında, görək nə dedi:

Qarşımda duran, ay gözəl,
Leyli, xoş gördük, xoş gördük!
Məni oda salan gözəl,
Leyli, xoş gördük, xoş gördük!

Mahmud gördü ki, qızlar çox təəccüb eləyir ki, Leyli bu naməhrəmi haradan tanıyır. Odu ki, Mahmud götürüb deyir:

Qaynayıb peymanam dolar,
Saralıb irəngim solar.
İşarədən qanan olar,
Leyli, xoş gördük, xoş gördük!

Qul Mahmudam, yana-yana,
Yandı bağrım, döndü qana.
Məni salallar zindana,
Leyli, xoş gördük, xoş gördük!

Söz tamama yetişən kimi qızlar xəbər apardılar. Əhməd vəzirin cəlladları Qul Mahmudun qollarını bağlayıb apardılar. Mahmud götürüb, görək cəlladlara nə dedi:

Qolu bağlı aparma o zindana,
Bu şəhərdə nazlı yarım var mənim.
Öldürmə məni bu zülüm-dərdinən,
Mən cavanam, qiryət, arım var mənim.

Cəlladların birisi sual elədi:
– Oğul, sən haralısan, əslin, nəcabətin varmı sənin?
Aldı Qul Mahmud:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir anam var mənim, şux baxışlıdı,
Bir atam var, əli tərlan quşludu.
Cəmi tay-tuşlarım gözü yaşlıdı,
Dağlar boyu çoxlu varım var mənim.

Qul Mahmudam, bilin, bağrı qan mənəm,
Eşq oduna alışıb yanan mənəm.
Şah oğluyam, şahzadayam, xan mənəm,
Təbriz kimi bir mahalım var mənim.

Apardılar Mahmudu saldılar zindana. Qul Mahmud burada əzab çəkməkdə olsun, bir gün Şah Abbas gəlib zindanı yoxlayırdı ki, görsün dustaqların əhvalı necə keçir. Şah gördü ki, burada bir uşaq oxuyur. Özü də deyir ki, mənim günahım yoxdu. Bu necə şeydi? Odu ki, xəbər alıb, onun adını yazdı. Gedib taxta əyləşən kimi adam göndərdi ki, gedin, o dustağı gətirin. Bu tərəfdən də Əhməd vəzir hazırlıq görürdü ki, Mahmudu asdırsın. Şah Mahmudu gətirib dedi:

– Sən aşıq adamsan, niyə gedib kənddə-kəsəkdə oxumursan, gəlib naməhrəm qızların içində oxuyursan?

Mahmud icazə alıb, sazı götürdü, görək nə dedi:

Əlif allah, bey bəladan saxla sən,
Alnıma yazdığın xətadan məni.
Həsrət qoydun qohum-qardaş, anama,
Tifilkən ayırdın atadan məni.

Qəribəm, qürbətdə el qonağıyam,
Könlüm intizardı, göz dustağıyam.
Leylisiz, virana bostan tağıyam,
Saxla nəzərində, yaradan, məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qul Mahmud, yetişsin ağana səsim,
Bülbüləm bir gülə, çoxdu həvəsim.
Hanı, dar günümdə gələ bir kəsim,
İlahi, sən qurtar oradan məni.

Sözlər şaha təsir elədi. Şah fikrə getdi. Bunu görəndə aldı Qul Mahmud, görək dübarə nə dedi:

Düz qəlbinən dedim səni,
Ey ədalət şahım mənim.
Qulluğunda bir sözüm var,
Sən olsan pənahım mənim.

Biləsən ki, dağ yandırar,
Nalə çəksəm, ahım mənim.
Bircə söylə görüm nədi,
Taxsırım, günahım mənim.

Yazıq Leylinin ucundan,
Salıbsan zindana məni.
Dar günümdə kömək durar,
O doğru ilahım mənim.

Şahım, çox da qəzəblənmə,
Dağ qopsa tufanmı olar?
Olmasa bir kəs pənahım,
Cahanda insanmı olar?

Öldürsələr Qul Mahmudu,
Cənnəti-məkanım olar?
Yaradanım səcdə qılar,
Hər axşam, sabahım mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahın bir aşığı var iydi, adı Mehdi idi. Əhməd vəzir bu aşığı gətirtdi ki, Qul Mahmud nə çox yaradannan çağırır. İndi bizim aşığımız tutub onun sazını əlindən alar. O saat aşıx Mehdi gəldi, dedi:

– Aşıq, nə çox yaradannan danışırsan? İndi mənə cavab ver görüm, nə cür aşıqsan?

Aldı Mehdi:

Məndən salam olsun aşıq olana,
De görüm, sözümün neçə bəndi var?
O nədi ki, gəşt eləyir dünyanı?
Nə quşdu qanadı, nə səməndi var?

Nə yazıdı, nə pozudu söz kimi,
Yandırır sinəsi hərdən köz kimi.
Cövlan vurur dağı-daşı düz kimi,
Bağlanmaz, nə qıfıl, nə kəməndi var.

Mehdiyəm, sözlərim axtarıb ara,
Haq vuran yaraya heç olmaz çara.
Baş tutmaz sövdadı, çəksən bazara,
Deyərlər sərrafın gör nə fəndi var.

Aldı Qul Mahmud:

Al, cavabın verim, aşıq qardaşım,
Deyəcəm sözüyün neçə bəndi var.
O fikirdi haxdan bizə verilib,
Nə quşdu qanadı, nə səməndi var.

Hərdən havalanıb yaxşı haldayam,
Hərdən qeyzə gəlir, qeyli-qaldayam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hərdən coşa gəlib, xoş kamaldayam,
Tutub haqq əlində bir kəməndi var.

Qul Mahmud da qulluğunda dayandı,
Gizli döyül sirrin, mənə əyandı.
Gözəl şahın özü qiymət qoyandı,
Nəhlət bu şeytana, gör nə fəndi var.

Aldı təzədən Qul Mahmud:

O hansı alimdi götürüb qələm,
Bilmirəm dəstindən yazdı, nə yazdı?
Gözüm gördüyünə bir misal çəkim,
Nə yazı var, nə payızı, nə yayı.

Nə ərəb, nə farsı, nə qurancadı,
Nə cafyadı, nə kəməndi heç adı.
Nə fitnədi, nə feyildi, nə cadı,
Kim yanında hesabladı, nə yazdı.

Qul Mahmud diləyin istəyər haxdan,
Nə axşamdı, nə günorta, nə də dan.
Nə örtüynən, nə gizdiynən, nə də dan,
Söz keçər isbata desək nə yazı.

Söz tamama yetişdi. Qul Mahmud aftafa götürüb eşiyə çıxdı, gördü bir qızıl ilan bir sağsağanı sıçradı tutdu, başını sorub öldürdü. Aşıq bu əhvalatı görüb gəldi ki, camaata söyləsin. Aşıq Mehdi dedi:

– Aşıq yaxşı aşıqdı, amma qafiyələri düz demir.

Qul Mahmud dedi:

– İndi ki, mən düz demirəm, qulaq as.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gün bir pəhlivan gördüm,
Atdığı meydana baxın!
Kəmənd atıb, qılınc vurur,
Tökdüyü al qana baxın!

Söylə nədən binası var,
Əl-əlvan xanası var.
Hər yanda bir hanası var,
Çəkilib pünhana baxın!

Qul Mahmud söyləməz yalan,
Könlünə düşməsin talan.
Yaranmış pəncə çalan,
Yaradan sübhana baxın!

Söz tamama yetişdi. Şah Abbas dedi:

– Əhməd vəzir, bir qız bir oğlanındı, verməliyik qızı bu oğlana. Görürəm bu ağıllı-kamallı adamdı.

Əhməd vəzir dedi:

– Qibleyi-aləm, əmr sənindi.

Şah Abbas öz xərciynən toy eləyib qoşunnan-zadnan buları cahı cəlalnan yola saldı oğlanın öz torpağına. Onlar öz torpaqlarına gəlib, təzədən toy etdilər. Bir aşıq aşağıdakı duvaqqapma ilə toyu başa verdi.

Of, fələk, yandım, fələk,
Görəndə dildarı, fələk!
Of, fələk, öldüm, fələk!
Olanda üz bəri, fələk!
Of, fələk, çıxart, fələk,
Aradan əğyarı, fələk!
Of, fələk, saxla, fələk,
Amandı, o yarı, fələk!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Of, fələk, şəfqət elə,
Bax bir bizə sarı, fələk!

Of, fələk, şükür sənə,
Dostun üzün gördüm bu gün.
Can olan, eşqə salan,
İşvə-nazı gördüm bu gün.
Ev yıxan, süzgün baxan,
Qumral gözü gördüm bu gün.
Daşınan, ənbərfəşan,
Şirin sözü gördüm bu gün.
Of, fələk, ləzzət verdi,
Nə şuxdu göftarı, fələk!

Of, fələk, gülə-gülə,
Necə durur qabaxları.
Baxanda göz qamaşır,
Şəfəq salır yanaxları.
Balmıdır, qaymaxmıdır
Bəxtəvərin dodaxları?!
Açılmış qönçə gülə
Tənə edər buxaxları.
Of, fələk, alma kimi

Əhmərdi rüsxarı, fələk!
Of, fələk, bədnəzərə,
Uğramasın başı bunun.
Aymıdır, hilalmıdır,
Qələmmidir qaşı bunun?
Dürmüdür, incimidir,
Sədəfmidir dişi bunun?
Ləlmidir, yaqutmudur,
Mərmərmidir döşü bunun?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Of, fələk, əndamı tək
Olmaz dağın qarı, fələk!

Of, fələk, ağlım alır
Qarşımda mail durması.
Ləzzətli laçın kimi
Özün çəkib oturması.
Məclisi aludə elər
Zülflərinin hər burması.
Təşbihdir çənəsinə
Bağdad elnin xurması.
Of, fələk, budur mələk,
Gözəllər sərdarı, fələk!

Of, fələk, sən ol kömək,
Muradına çatsın Cuma.
Bu cavan məhbubunan
Sarmaşıban yatsın Cuma.
Nigaranlı canını
Həm canına qatsın Cuma.
Qurğuşundan bağlanan
Qəm şələsin atsın Cuma.
Of, fələk, diləyimi
Elə qəbul, barı, fələk!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# NOVRUZ

## USTADNAMƏ

Abu atəş, xakü baddan xəlq olduq,
Neçə şirin-şirin canlar qocalır.
Gəl çox da qəm yemə, divanə könlüm,
Hökumət sahibi xanlar qocalır.

Yaxşı adam bu dünyada ölməsin,
Yaman adam uzun ömür sürməsin,
Kişinin övladsız varı olmasın,
Hər sabah malını sanar, qocalır.

Binamusun arı olmaz nəbadə,
Dostunun sirr sözün tez verər yada;
Bir igid ki, yoxsul olsa dünyada,
Hər yetən üzünü danlar, qocalır.

Yazıq aşıq Mənsur[1] şad olub gülməz,
Gözündən tökülən qan-yaşı silməz;
Adam var yaxşı ilə yamanı bilməz,
Adam var bir sözdən anlar, qocalır.

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun, düşmənlərin gözü oyulsun.

Bivəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bivəfanı özümə dost elədim,
Yolunda canıma çox qəst elədim,
Söyüddən bağ saldım, peyvəst elədim,
Almasın, heyvasın, narın görmədim.

Ələsgər, elmində olan nabələd,
Doğru söylə, sözün çıxmasın qələt;
Şahiddə insaf yox, bəydə ədalət,
Qazıların düz ilqarın görmədim.

Ustadlar ustadnaməni üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun!

Adam oğlu, yol, ərkanı tanı, bil,
Yol, ərkan bilənin yeri dar olmaz;
Sirrini söyləmə qamu aləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

İgid odu tənə oxun atmaya,
Halal mayasına haram qatmaya;
Bir oğul ki, rəqibinə çatmaya,
O oğulda namus, qeyrət ar olmaz.

Öz süründən qurban desən deyərsən,
Öz yunundan şal toxuyub geyərsən,
Bəslədiyin bağın barın yeyərsən,
Yad bağından sənə heyva, nar olmaz.

Dəllək Murad, çəkmə bir bunca qəmi,
Burda duran olmaz, gedərlər hamı,
Fələk biçinçidi, bu dünya zəmi,
Biçilən zəmidən mürğzar olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Diyarbəkirdə Kərim adlı bir paşa var idi. Paşanın varı, dövləti həddən ziyada idi. Amma sinni keçmişdi, hələ bir övladı yox idi. Kərim paşa mahalın ağsaqqal, qarasaqqalının tədbirinə görə, dövlətinin yarısını fağır-füqəraya payladı ki, bəlkə tanrının ona rəhmi gəlib, bir övlad verə.

Aylar, günlər keçdi, padşahın bir qəşəng, göyçək oğlu oldu. Oğlan Novruz bayramı günü anadan olduğu üçün adını da Novruz qoydular. Uşağı dayaya tapşırdılar. Daya uşağı bəsləməyə başladı. Ta ki, uşaq yeddi, səkkiz yaşa çatanda atası onu molla yanına oxumağa qoydu.

Gün keçdi, ay dolandı, Novruz oxuyub bütün kitabları sinədəftər elədi. Kərim paşa böyük məclis düzəldib, qırx gün, qırx gecə şadlıq keçirdi. Bütün camaatı qohum-ağrabalarını, dost-tanışlarını qonaq çağırdı. Şadlıq məclisində bir də bir aşıq gətirdilər. Aşıq əvvəl könül açan, dərd dağıdan mahnılardan oxudu. Sonra əhli-məclisin xahişinə görə bir yaxşı dastan başladı. Novruz ömründə belə bir əhvalat eşitməmişdi. Dastan ona elə əsər eləmişdi ki, heç məclisin qurtarmağını da bilməmişdi. Bir vaxt ayılıb gördü ki, məclis qurtarıb, hamı dağılıb gedib. Elə məyus, fikirli yıxılıb yatdı. Bir də gördü aləmi-vaqiədə bir nurani dərviş başının üstündə durub deyir:

– Oğlum, niyə fikir dəryasına qərq olub, qəflət yuxusuna cumubsan? Al, bu badəni nuş elə, mətləbinə çatarsan.

Novruz diqqətlə dərvişə baxanda gördü ki, həm dərvişdən, həm də badədən bir nur qalxıb, asimana bülənd oldu. Bu möcüzəyə məhəttəl qalıb dedi:

– Ağa dərviş, bizlərdə o badə haram buyrulub. Biz şərab içmirik.

Dərviş Novruzun cavabında dedi:

– Bala, bu badə o badələrdən döyül. Bu badə Yusifi Züleyxaya yetirən badədəndi.

Novruz badəni dərvişdən alıb nuş elədi. O saat sinəsi dəmirçi kürəsi kimi yanmağa başladı. Bərkdən qışqırdı ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ağa dərviş, yandım, mənə əlac!

Dərviş barmağını onun gözünün qabağına tutub dedi:

– Oğul, barmağımın arasından bax, gör nə görürsən?

Novruz dedi:

– Uzaq-uzaq yollar görürəm.

Dərviş dedi:

– Daha nə görürsən?

Novruz dedi:

– Bir böyük şəhər, şəhərdə bir saray, içində bir gözəl qız görürəm.

Dərviş dedi:

– Oğlum, həmən gördüyün şəhər Misirdi. Sarayın içindəki qız da Misir padşahı Cəlal padşahın qızı Qəndab xanımdı. Onu sənə, səni də ona buta verdim. İndi bir geri bax, gör gələn kimdi?

Novruz geri baxanda dərviş yox oldu. Novruz o saat bihuş olub yerə yıxıldı.

Sabah açılanda atası Kərim paşa, anası Zeynəb xanım Novruzun yanına gəldilər. Nə qədər əlləşdilərsə onu ayılda bilmədilər. Həkim, loğman, dünyagörmüş adam qalmadı, çağırtdılar ki, bəlkə onlar Novruzu ayıldalar. Axırda bir dünya görmüş qoca dedi:

– Qorxmayın! Bununku vergidi. Öz vaxtında ayılacaq.

Novruz düz on bir gündən sonra özünə gəldi. Baxdı ki, atası, anası, qohum-ağrabası hamı onun başına yığılıb. Novruz dedi:

– Mən dərdimi dilnən sizə desəm, dilim yanar. Mənə bir saz gətirin!

Kərim paşanın əmrinə görə o dəqiqə bir saz tapıb Novruza verdilər. Novruz sazı sinəsinə basıb, görək nə dedi:

Tifil ikən qulluq etdim ustada,
Oxudum dərsimi, kamalın gördüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sazınan, sözünən zay etdi məni,
Atam Kərim paşa əməlin gördüm.

Girdim bağa, bağım təğayir oldu,
Xoryat əli dəydi, tağ ayır oldu.
Gözüm gördü, ağlım təğayır oldu,
Çayi-səlsəbilin zülalın gördüm.

Novruzam, qalmışam bir can içində,
Bir canı bəslədim bir can içində,
Ağam badə verdi bir cam içində,
Misirdə Qəndabın camalın gördüm.

Anası dedi:

– Yaxşı başa düşmədim, bir əməlli-başlı de görüm dərdin nədi?

Novruz dedi:

– Ana, Misir padşahının qızı Telli Qəndabı mənə buta veriblər. Butamın dalınca gedəcəyəm.

Onlar anladılar ki, onunku vergidi. Zeynəb xanım oğlunun ətəyindən tutdu, ağlaya-ağlaya görək nə dedi:

Başına döndüyüm gül üzlü oğul,
Oğul, gəl getmə sən, aman günüdü!
Başına çevirim qəndinən noğul,
Oğul, gəl getmə sən, aman günüdü!

Atan xarac alır divanxanadan,
Ölmədik qurtaraq bu qəmxanadan;
Oğul necə kəsər meylin anadan?
Oğul, gəl getmə sən, aman günüdü!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu Zeynəb xanımı ağlar qoyma gəl!
Sinəsinə əlvan dağlar qoyma gəl!
Atan qapısını bağlar qoyma gəl!
Oğul, getməgilən aman günüdü![2–3]

Novruz anasının cavabında sazı sinəsinə basıb dedi:

Candan çox sevdiyim istəkli ana,
Ana, himmət eylə, himmət günüdü!
Əmmişəm südünü mən qana-qana,
Ana, himmət eylə, himmət günüdü!

Mən qurbanam ustadların pirinə,
Bizi də yetirsin biri-birinə;
Babam bağışlasın tacı-sərinə,
Ana, himmət eylə, himmət günüdü!

Mənə bu gecədə verilib buta,
Xudayi-Zülcəlal dadıma yetə;
Novruz, əlin yarın əlinə çata,
Ana, himmət eylə, himmət günüdü![4]

Anası ağlaya-ağlaya dedi:

– Ay bala, gəl sən ətəyindən bu daşı tök! Bu səfərə getmə! Diyarbəkirdə hər kimin qızını istəsən sana alax. Hələ məndən olsa, elə əmin qızcığazını alarsan. Necə deyərlər «ellini ülküt, axsağına yapış». Misir hara, biz hara ki, Misirdən danışırsan?!

Novruz anasının sözlərinə qulaq asıb, bir fikrə getdi. Fikirləşdi, fikirləşdi, sonra sazın sinəsinə basıb, oxumağa başladı:

Ay bimürvət, ay biinsaf, ay zalım,
Yaxşı dosta yalan satmaq olurmu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlqarı unudub, əhdi tərk edib,
Namusu, qıryəti atmaq olurmu?

İyidin könlündən keçər paşalıq,
Aslan kimi girib gəzə meşəlik.
Şeytanla qohumluq, qurdla aşnalıq,
Şahmarın qoynunda yatmaq olurmu?

Novruzam, ürəyim eylədi tələb,
Səndə mürvət yoxdu, fələkdə insaf;
Sümükdən şiş gördüm, poladdan kabab,
Uydurub bir-birinə taxmaq olurmu?

Novruz sözünü tamam eyləyən kimi, ayağa qalxdı, atını minib getmək istəyəndə anası ağlaya-ağlaya atın culovundan yapışdı, bu dillərlə ona yalvarıb dedi:

Doqquz ayı sinəm üstə götürdüm,
Getmə, oğul, getmə, qoymaram səni.
Çox möhnətlə boya, başa yetirdim,
Getmə, oğul, getmə, qoymaram səni.

Aldı Novruz:

Başına döndüyüm gül üzlü ana,
Ana, halal eylə, mən gedər oldum.
Südünü əmmişəm mən qana-qana,
Ana, halal eylə, mən gedər oldum.

Aldı Zeynəb xanım:

Qoymaram gedəsən dövlətxanadan,
Qurtarmaram bu qüssədən, bəladan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heç üz döndərərmi oğul anadan?
Getmə, oğul, getmə, qoymaram səni.

Aldı Novruz:

Canım qurban ərənlərin pirinə,
Çatdırar aşiqi biri-birinə;
Atam bağışlasın tacı-sərinə,
Ana, halal eylə, mən gedər oldum.

Aldı Zeynəb xanım:

Mən rüsxət versəmdə, sənə qıymaram,
Dolannam başına, səndən doymaram;
Baxdı qara mən biçara Zeynabam,
Getmə, oğul, getmə, qoymaram səni.

Aldı Novruz:

Canım qurban olsun o min bir ada,
Yarsız can dözərmi fani dünyada?
Sən dua qıl, mən də yetim murada,
Ana, halal eylə, mən gedər oldum.

Zeynəb xanım çox dedi, Novruz az eşitdi, axırda çar-naçar razı olub dedi:

– Oğul, get, allah amanında olasan, amma tez qayıt.

Novruz atasıynan, anasıynan, qohum-qardaşlarıynan halallaşıb, öpüşüb yola düşdü, Misirə getməyin binasını qoydu. Az getdi, üz getdi, dərə-təpə düz getdi, ta ki, bir dərya kənarına çıxdı. Elə təzə yetişmişdi, bir də gördü gəmi yola düşdü. Novruz tək-tənha limanda qaldı. Bir tacir gəmidən onu gördü. Əmr elədi, gəmini saxladılar. Novruz gəmiyə mindi. Tacir gör-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dü Novruz çox qəmlidi, özü də gözlərindən yaş gəlir. Tacir Novruzdan soruşdu:

– Oğlan, nəçisən? Niyə ağlayırsan?

Novruz sazı sinəsinə basdı, görək tacirə nə cavab verdi:

Əzzim tacir, gözüm tacir,
Qəndab Misirdə, Misirdə.
Sana qurban özüm, tacir,
Qəndab Misirdə, Misirdə.

Tacir dedi:

– Ay oğlan, sənin Misirdə nəyin var ki, Misir, Misir deyirsən?

Noruz dedi:

– Gerisinə qulaq as.

Aldı Novruz:

Mən olmuşam yola naşı,
Tökərəm gözümdən yaşı;
Uçubdu könlümün quşu,
Gəzir Misirdə, Misirdə.

Tacir dedi:

–Ay oğlan, vallah səni başa düşə bilmirəm, sözüvü açıq de.

Novruz aldı gerisini:

Dərsimi verib lafəta,
İrəhm eylə, əziz ata,
Qəndabı Novruza buta
Yazıb Misirdə, Misirdə.

Tacirin Novruza rəhmi gəldi, dedi:

– Oğul, fikir eləmə, mən səni Misirə aparacağam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, gəmi yola düşdü. Üç gün, üç gecə yol getmişdilər ki, dəryanın kənarına çatdılar. Birdən bərk tufan qopdu, gəmi üzüquylu çevrildi. Novruz bir taxta parçasının üstündə qaldı. Ata, anası, sevgilisi, eli, obası yadına düşdü. Aldı, görək öz halına münasib nə dedi:

Gecə ayaz, gündüz bulud,
Qaldım bu dərya üzündə.
Ana, yaş köynəyim qurut,
Qaldım bu dərya üzündə.

Mən çəkdiyim dadü ahdı,
Sinəmə toxunan oxdu;
Bir beş arşın kəfən yoxdu,
Qaldım bu dərya üzündə.

Novruz nə yaman haldadı?
Peymanam dolhadoldadı;
Qəndabın gözü yoldadı,
Qaldım bu dərya üzündə[5].

Yel elə əsirdi ki, dərya elə mövcə gəlirdi ki, ləpələr Novruzu o tərəfə, bu tərəfə çırpırdı. Novruz gördü ölüm vaxtıdı. Götürdü, görək ona buta verən dərvişi nə cür haraya çağırdı:

Yeri, göyü, ərşi, gürşü yaradan,
Kərəm eylə, qoyma məni dəryada!
Qarlı dağlar gəldi keçdi aradan,
Kərəm eylə, qoyma məni dəryada!

Övliyalar, ənbiyalar, ərənlər[6],
Hanı məndən doğru yola varanlar?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qərq oldu dəryaya neçə min canlar,
Kərəm eylə, qoyma məni dəryada!

Novruz da çağırır səni imdada,
Bir dərviş donunda vermişdin bada;
Tut məni dəstimdən, yetir Qəndaba,
Kərəm eylə, qoyma məni dəryada![7]

Böyük ustadların dediyinə görə, Novruzun ağzından söz qurtarmamış Xıdır İlyas[8] dərviş paltarında hazır olub, Novruza dedi:

– Gözünü yum!

Novruz gözünü yumdu. Bir zaman gözünü açıb, özünü dəryadan kənar gördü.

Novruz o yana, bu yana baxıb, dərvişi görmədi. İstədi qalxsın, qalxa bilmədi. Elə halsız, elə yorğun idi ki, elə oradaca başını yerə qoyub, dəryanın qırağında huşa getdi.

Qəzadan Qavvas[9] Əhmədin yolu bu tərəfdən düşdü. Belə, xətti-xalı bənövşə kimi, qəddi-qaməti sərv ağacı kim bir cavanı taqətsiz, huşda görəndə rəhmi gəlib aldı, görək onu necə oyatdı:

Xab içində yatan, ay cavan oğlan,
Oğul, dur götürüm xanama səni.
Nədən belə tərki-vətən olubsan,
Oğul, dur götürüm xanama səni.

Yatşından bilirəm yad diyarrısan,
Bir sevda ucundan ah-zarrısan.
Qalx ayağa, görüm hansı yerrisən,
Oğul, dur götürüm xanama səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğul deyib, səni burdan götürrəm,
Götürübən səni məkanına yetirrəm.
Mən Əhmədəm, mətləbini bitirrəm,
Oğul, dur götürüm xanama səni[10].

Novruz huşa gəlib, Qavvas Əhmədi başının üstündə gördü. Əhmədin cavabında görək nə dedi.

Aldı Novruz:

Qadir sübhan, özün yaxşı bilirsən,
Necə pərişandı hallarım mənim.
Mən bülbüləm, güldən ötrü gəzirəm,
Saralıb, solubdu güllərim mənim.

Qurbanam bir ala gözün özünə,
Eşq əlindən yuxu gəlmir gözümə;
Necə baxım Qavvas Əhməd üzünə,
Telli Qəndab gözlür yollarım mənim.

Sarı sinavardı, hazar peşədi,
Ağ eyvan otaqdı, büllur şüşədi,
Mən Novruzam, atam Kərim paşadı,
Hanı sağı-solda qullarım mənim?![11]

Qəvvas Əhməd Novruzun adlı-sanlı nəsildən olduğunu bilib, ona daha da məhəbbəti qondu. Onu götürüb evinə apardı. Novruz burada yaxşı yeyib, içib dolanmaqda olsun, Qəvvas Əhmədin qızı Gülşan xanım onu belə gözəl oğlan görüb, könülü əldən verdi. Bir könüldən min könülə Novruza aşiq oldu, amma sevgisini biruzə vermədi. Başladı Novruza qulluq eləməyə. Gülşan Novruzu elə yaxşı saxlayırdı, onu elə əyləndirirdi ki, sevgisi-zadı yaddan çıxmışdı. Həmişə yeməkdə, içməkdə, gəzməkdə, keyfdə, damaqda idilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün Gülşanla Novruz bağa seyrə çıxmışdılar. Yaz fəsli olduğundan çiçəklər açmışdı, bülbüllər cəh-cəh vura-vura bir gülün üstündən qalxıb, o biri gülün üstə qonurdu. Bir bülbül gülün bir yarpağını dimdiyinə götürüb, göydə oynadırdı. Birdən külək vurub, gül yarpağını bir qaratikan kolunun üstünə saldı. Bülbül şığıyıb gül yarpağını götürmək istəyəndə qaratikan onun ürəyinin başından batıb, kürəyinin arasından çıxdı. Bülbül o saat başını qızılgül yarpağı üstünə qoyub, yarının qucağında canını qurban verdi. Novruz bunu görəndə tez bülbülün yanına gəldi. Telli Qəndab onun yadına düşdü. Dedi:

– Ay dili-qafil, mənim bu dilsiz-ağızsız quş qədər də vəfam yoxdu. Gör məşuqundan ötrü canını necə qurban verdi?

Novruzun köhnə yarası təzələnib, görək məşuqu yolunda canını qurban verən bülbülə nə dedi:

Aldı Novruz:

Səhər gəşt eylədim gülzar üstünə,
Gör necə tutubdu işini bülbül…
Gah gəlir, gah gedir qonça başına,
Axıdır didədən yaşını bülbül…

Bağın həm bağçanın barı gərəkdi,
Alması, heyvası, narı gərəkdi,
Hər kəsin öz dostu, yarı gərəkdi,
Sevməz özgə yarın qaşını bülbül…

Novruz necə çəksin Qəndab dağını,
Əritdi, ürəyimin aldı yağını,
Yel vuruban saldı gül yarpağını,
Söyküyüb can verir başını bülbül.

Novruz sözünü tamam eyləyəndən sonra Misir butası Telli Qəndabın dalınca getmək fikrinə düşdü. Gülşan xanım bunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilib, gözünün yaşını leysan kimi töküb dedi:

– Bə məni haraya atırsan? Olmaya məndən küsdün? Ya məni öldür, ya da səni getməyə qoymayacağam.

Gülşan diliylə dediyi kimi, söznən də dedi:

Mən sənə dedim, zalım bivəfa,
Getmə, oğlan, getmə, qoymaram səni!
Bu fani dünyada sürmədik səfa,
Getmə, oğlan, getmə, qoymaram səni!

Aldı Novruz:

Başına döndüyüm, ay nazlı dilbər,
Ağlama Gülşanım, gözlə yar məni!
Gözü yolda mənim bir məşuqəm var,
Ağlama, Gülşanım, gözlə yar məni!

Aldı Gülşan:

Mənim kimi olmaz şamlı, əcəmli,
İşi ahu vaylı, ürəyi qəmli,
Çarxı dönmüş fələk qoydu ələmli,
Getmə, oğlan, getmə, qoymaram səni!

Aldı Novruz:

Mən pozmaram bu sevdayi-əzəli,
Yarım yada düşüb, yaram təzəli,
Unutmaram sənin təki gözəli,
Ağlama, Gülşanım, gözlə yar məni!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Gülşan:

Gözü yaşlı qoyma bu Gülşanı ta,
Ayrılıq həsrəti qaldı canımda,
O ruzi-məhşərdə, haqq divanında,
Tutaram yaxandan, qoymaram səni!

Aldı Novruz:

Novruz gedib qürbət eldə qalmasa,
Saralıban gül tək rəngi solmasa,
Əcəl gəlib peymanəmiz dolmasa,
Ağlama, Gülşanım, gözlə yar məni![12]

Novruz and içdi ki:

– Havax tanrı əcəldən macal versə, butamı ələ keçirən kimi səni də alacağam.

Gülşan naəlac qalıb, Novruzun vədəsinə razı oldu. Novruz o gözəllə halallaşıb, Misirə tərəf yola düşdü. Az gedib, çox gedib, axırda Qaradağa yetişdi. Bu dağda boran Novruzu tutdu. Novruz sazı sinəsinə basıb, görək o başı çisginli, dumanlı dağlara nə dedi:

Aldı Novruz:

Mən ki, oldum vətənimdən didərgin,
İtirdim Qəndabtək maralı, dağlar!
Duman, çiskin səndə qaydadı müdam,
Yanan çıraqlarım qaralı, dağlar!

Mənim sağlığıma kim güman eylər,
Tübü-boran halım çox yaman eylər;
Qarlı dağlar gündə nahaq qan eylər,
Yarı salıb məndən aralı, dağlar!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kim var ki, burada məni dindirə,
Dindirib də halım yara bildirə,
Qorxuram ki, bu dərd məni öldürə,
Novruzam, sinəsi yaralı, dağlar![13]

Bir xeyli vaxtdan sonra çən çəkilib, duman, çiskin aralananda Novruz yoluna davam eylədi. Mənzil eyləyə-eyləyə günlər, aylar keçdi, axır ki, gəlib Misirə çatdı. Soruşa-soruşa gəlib çıxdı Cəlal padşahın imarətinə. Soruşdular:

– Kimsən?

Dedi:

– Qəribəm.

Bəli, onu qonaq otağına apardılar. Novruz burada qalmaqda olsun, al xəbəri İstanbullu Mahmud paşadan. İstanbullu Mahmud paşa Qəndabın gözəlliyini eşitmişdi. O, Qəndabı zorla gətirmək fikrinə düşdü. Mahmud paşa qoşun çəkib Misirin üstə hücum eylədi. O, davadan əvvəl Cəlal padşaha qasid yolladı ki, ya öz razılığıyla qızı Qəndabı mana ver və ya zornan apracağam. Qasid bu xəbəri Cəlal padşaha gətirdi. Cəlal padşah qorxuya düşdü. Vəzir ona dildarlıq verib, Mahmud paşaynan dava eləməyi məsləhət gördü. Padşah vəzirin məsləhətinə razı olub, qoşunla bərabər Mahmud paşanın davasına getdi. Çox davadan sonra bacarmayıb basıldı. Novruz halı belə görəndə bir köhlən ata minib, meydana girdi, Mahmud paşaya dedi:

– Ağıllı, camaat dolandıran paşa qoşunu qırdırmaz. Sən o qoşunun pəhlivanısan, mən də bu qoşunun. İndi razı olsan mənim meydanıma gəl! Hər kim ölsə, Qəndab salamat qalanındı.

Mahmud baxdı ki, bir cavan onu meydana çağırır. O, həzəratdan ar eyləyib, Novruzun meydanına getdi. Cəlal şahın xəbəri olmadan o iki pəhlivan üç gün, üç gecə dava elədilər. Axırda Novruz Mahmud paşanı öldürdü. Mahmud paşanın qoşunu böyüklərini ölmüş görüb, qaçıb öz yerlərinə getdilər. Novruz şad-şadyana, gül kimi açılmış halda Cəlal padşahın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanına gəlib, əhvalatı ona söylədi. Padşah Novruzun alnından öpüb dedi:

– Oğlan, məndən nə istəyirsən?

Novruz öz-özünə dedi: «Gəl fikrini söylə! Ölmək ölməkdi, xırıldamaq nə deməkdi?» Sazı sinəsinə basıb dedi:

Könlümün mətləbin aça bilmirəm,
Qorxuram ki, şahın tuta qəzəbi,
İyid gərək ilqarından dönməsin,
Yar ucundan mən çəkirəm əzabı.

Ayaq torpağına ziyarətim var,
Dildə kəlmə, gözdə işarətim var,
Nə müddətdi səndə əmanətim var,
Üzüm gəlmir deyəm sözün hesabı.

Nə müddətdi qaldım şahın qovlunda,
Bir kəsdəm də yoxdu Misir elində,
Bir canımı verrəm yarın yolunda,
Novruzam, istərəm Telli Qəndabı[14].

Novruzun bu sözünə padşahın qəzəbi tutub dedi:

– Ay çörək basan, sən qonaqsanmı, yoxsa qız alansanmı? Sən nə cürətlə mənim qızımı istəyirsən? Cəllad, vur bunun boynunu!

Vəzir padşahın qəzəbləndiyini görüb ərz eylədi:

– Tasaddığın olum, bu cavanı öldürmək yaxşı deyil. Onda bizi el töhmət elər ki, qonağı öldürürlər. Buyurun, zindana salsınlar.

Padşah vəzirin tədbirinə razı olub, Novruzu zindana saldırdı. Zindanda Novruzun keyfi qarışdı. Dünya, aləm onun başına hərləndi, aldı görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə bəlaya düşdü bəlalı başım,
Səbəb nəydi mən bu hala yetişdim?
Gəlmədi yanıma qohum-qardaşım,
Qolu bağlı mən bu qala yetişdim.

Bülbülün naləsi bağı yandırar,
Şamlar şölə çəkər, yağı yandırar.
Mənim naləm uca dağı yandırar,
Əbəs yerdə bu münvala yetişdim.

Ağlaram, sızlaram, yalvarram mərdə,
Bar ilahı, fürsət vermə namərdə,
Atam Kərim paşa Diyarbəkirdə,
Novruzam, Misirdə qalaya düşdüm[15].

Sözün tamam eyləyib, quru kərpic üstünə üzüquylu düşdü.

İndi sizə kimdən xəbər verim, Telli Qəndabdan.

Telli Qəndab Novruzun başına gələnləri eşidib, atasından xəlvət kənkan çağırıb, öz imarətindən zindana lağım atdırdı.

Novruz zindanda Telli Qəndabın dərdini çəkirdi, bir də gördü altdan lağım açıldı, bir nazənin-sənəm lağımdan çıxdı. Qız Novruza baş əyib dedi:

– Qəndab xanım səni çağırır.

Novruz Qəndab adı eşidən kimi dik qalxdı, kənizin dalınca gedib, Qəndabın otağına çıxdı. Bəli, Qəndab Novruzu hərdən yanına gətirib, hərdən zindana göndərməkdə olsun, bir gün Qəndab özünü naxoşluğa vurdu. Anası Şahnaz xanım onun yanına gəlib dedi:

Mən səni bəslədim allar içində,
Qızım, dərdin nədi, gəl mənə söylə!
Dastana yetirdim dillər içində,
Qızım, dərdin nədi, gəl mənə söylə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qəndab:

Açılıb dağların əlvan lalası,
Ana, mənim dərdim Novruz dərdidi.
Mən çəkdiyim – nazlı yarın bəlası,
Ana, mənim dərdim Novruz dərdidi.

Aldı Şahnaz xanım:

Sən necə balasan, mən necə ana,
Az qalır dərdindən ciyərim yana;
Yeddi oğul bir yana, sənsə bir yana,
Qızım, dərdin nədi, gəl mənə söylə!

Aldı Qəndab:

Bir namə yazaram babam şanına,
Qoy qisasım qalsın haqq divanına,
Ölsəm qat qanımı Novruz qanına,
Ana, mənim dərdim Novruz dərdidi.

Aldı Şahnaz xanım:

Gətirrəm üstünə həkimü-loğman,
Eylərəm dərdinə davayü-dərman,
Şahnazın canı da Qəndaba qurban,
Qızım, dərdin nədi, gəl mənə söylə!

Aldı Qəndab:

Gətirmə üstümə həkimü loğman,
Eyləmə dərdimə dəvayü dərman,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahnaz da, Qəndab da Novruza qurban,
Ana, mənim dərdim Novruz dərdidi[16] .

Şahnaz xanım dedi:

– Ay qızım, allah bilir ki, mən səni nə qədər çox istəyirəm. Amma özün bilirsən ki, atan yaman acıqlıdı. Mən bunu ona deyə bilmərəm.

Bunlar burada qalsın, sənə xəbər verim Cəlal padşahdan. Cəlal padşah imarətində bir qəfəsin içində bir bülbül saxlayırdı. Bülbülün yanına dibçəkdə bir gül qoymuşdu. Yuxarıdan da bir şamdan asdırmışdı. Bir gecə yuxuda gördü ki, bir qızıl quş imarətə daxil olub, şamı söndürdü. Şamın sönməyindən qəfəsdəki bülbül öldü, gülün də yarpaqları töküldü. Cəlal padşah yuxudan diksinmiş qalxdı. Vəzirin çağırıb yuxunu dedi.

Vəzir yuxunu yozmaqda aciz qaldı. Şəhərə çıxıb nə ki, yozucu var hamısının yanına getdisə də, heç biri bacara bilmədi. Axırda fikrə cumub dedi: «Ay dili-qafil, deyirlər axır dəmiri ocaqdan dəmir çıxardar, gəl bir Qəndabın da yanına get». Vəzir bu fikirlə Qəndabın yanına yola düşdü.

Vəzir gəlməkdə olsun, o tərəfdən də Qəndab Novruzdan ötrü qəm-qüssə içində oturmuşdu. Elə bu vaxt üzündən, gözündən nur bülənd olan bir dərviş onun yanına gəlib dedi:

– Qızım, nə ah-zardı çəkirsən? Dərdini mənə söylə, bəlkə mən əlac elədim.

Qız əhvalatı əvvəldən axıra kimi dərvişə nağıl eyləyirdi ki, vəzir başı yalovlu içəri girdi. Qəndab üzünü vəzirə tutub dedi:

– Ağa vəzir, siz heç bura gələn deyildiniz. Nə olub şeytanın ayağını qırıbsınız?

Vəzir əhvalatı tamamən söylədi. Dərviş diqqətlə qulaq asıb dedi:

– Nə verərsən, mən şahın yanına gedim, o yuxunu yozum?

Vəzir bütün evini, malını vəd eylədi. Dərviş gülüb dedi:

– Vəzir, biz pay alan dərvişlərdən deyilik, pay verən dər-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vişlərdənik. Novruzun xətrinə bu yuxunu yozaram.

Dərviş onunla bərabər şahın hüzuruna gəldi. Şah vəziri görəndə buyurdu:

– Vəzir, deyəsən özün yoza bilməyib, yozucu gətiribsən? İzndi, qoy yozucu yozsun.

Dərviş dedi:

Bülbülü salıbsan qəfəs içinə,
Şan-şövkətin ahnan yanar, sultanım!
İyid gərək ilqarından dönməyə,
Şah da qələmindən dönər sultanım?![17]

Əzəl başdan andü qəsəm eylədin,
Saldırdın zindana, bədnam eylədin,
Sən iki canana sitəm eylədin,
Alışan çırağın sönər, sultanım!

Quranda oxunar ayə doğru sin,
Doğru yeydi, doğru əlif, doğru sin,
Dərvişəm, söylərəm sözün doğrusun,
Novruz Qəndab deyib yanar, sultanım!

Dərviş söznən deyəndən sonra diliynən də dedi:

– Cəlal padşah, eşit və inan, şamdandakı şamlar sənin oğlanlarındı, qəfəsdəki bülbül Novruz, gül də Qəndabdı. Haman şamı keçirən quş allahın bəlasıdı. Əgər Qəndabı Novruza verməsən, onda oğlanların da, qızın da öləcək, taxtın tarmar olacaqdı.

Padşah qəzəblənib dedi:

– Tutun bu dərvişi!

Padşah çığıranda dərviş qeybə çəkildi. Vəzir, vəkil, ağsaqqal, qarasaqqal şaha ərz elədilər ki:

– Padşahımız, bu sən deyən dərvişlərdən deyil. Bu Yusifi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Züleyxaya yetirən dərvişlərdəndi. Sənin qızın Qəndabı Novruza yetirmək üçün buraya gəlibmiş. İndi o iki sevgi görüşməsə, inan ki, o dərviş deyənlər olasıdı.

Padşah dərvişdən qorxub, o saat Novruzu zindandan çıxartdırdı. Onun doğrudan da haqq aşığı olduğunu bilmək üçün gözlərini bağlatdı. Vəzirin, vəkilin, qazının qızlarını, bir də çuvala tay olub qalan topal bir qızı Qəndabla bərabər bir yerə qoydurdu. Sonra Novruza dedi:

– Oğlan, indi Qəndab bir dəstə qızla gəlib buradan keçəcək. Əgər tanıdın, sənindi, tanımadın, bu həzəratın başı üçün, boynun fərmandadı. Sonra padşah qızlara işarə elədi ki, bir-bir gəlib keçsinlər. Qızlar hərəkətə gələndə Novruzun da eşqi coşdu, sazı sinəsinə basdı, qızlar qabağından keçəndə bu dillərlə qızları bir-bir nişan verdi.

Aldı Novruz:

Mənim bu müşgül işimə,
Yetiş sən, ey rəbbim, haray!
İçmişəm qırxlar əlindən,
Eşq ilə şərabım, haray!
Səni tutar təbim, haray!

Hanı mənim xanımanım?
Kimsəyə yoxdu gümanım.
Vəzir qızı, Göhər xanım,
Haqq versin mətləbim, haray!
Səni tutar təbim, haray!

Hanı mənim taxtü tacım?
Kimsəyə yox ehtiyacım,
Qazı qızı Xanım bacım,
Sən deyilsən babım, haray!
Səni tutur təbim, haray!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə qurban olum, tanrı,
Çıxart könlümdən qubarı,
Vəkil qızı Sənəm pəri,
Sən deyilsən babım, haray!
Səni tutar təbim, haray!

Əlindəki nə ələkdi,
Fikrində çərxi-fələkdi,
Bu gəlib keçən Mələkdi.
Gül üzlü məhtabım, haray!
Səni tutar təbim, haray!

Əyninə geyibdi ağı,
Sinəmə çəkibdi dağı,
Misirin köhnə axsağı,
Sən deyilsən babım, haray!
Səni tutar təbim, haray!

Novruzam, getməm buradan,
Mətləbim versin yaradan,
Gözəllər keçdi aradan,
Süz, yeri, Qəndabım, haray!
Səni tutar təbim, haray![18]

Novruz gözü bağlı ola-ola butasını tanıdığına görə hamı ərz eylədi:

– Padşahımız, Novruzun haqq aşığı olmasına heç söz ola bilməz.

Padşah Novruzun Qəndaba, Qəndabın da Novruza aşiq olduqlarını gözüylə görəndə daha bir şəkk-şübhəsi qalmadı, bir busatlı toyla qızını Novruza verdi. Novruz sevgilisiylə bir müddət Misirdə qalandan sonra Cəlal padşahdan, Şahnaz xanımdan izn alıb, əhli-şəhərlə halal-hümmət eləyib, Qəndabla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bərabər Diyarbəkirə tərəf yola düşdü. O qədər getdilər ki, axırda Qaradağa yetişdilər. Yaz fəsli idi. Dağın başı əlvan-əlvan güllərlə, çiçəklərlə bəzənmişdi. Qızlar, gəlinlər gəzməkdə, mal-qoyun otdamaqda, könül açan gözəl quşlar cəh-cəh vurmaqda idi. Gahdan bir də göy guruldayır, yağış yağır, qövsi-qüzeh çıxır; gahdan da gün çıxır, qarlar əriyib, sellərə, sullara qarışıb çaylarda, dərələrdə qıjıldayırdı. Novruz şad-şadyana sazı sinəsinə basıb, bu vəzifə gəlməz mənzərəni görək necə tərif eləyir:

Hey yağır yağışın, qalxır dumanın,
Axır boz bulanıq sellərin, dağlar!
İndi belə xoş səfalı çağındı,
Köçür, qonur ağır ellərin, dağlar!

Hər dağlardan uca Nuhun dağıdı,
Çahar ətraf tamam cənnət bağıdı,
Tülək, tərlan, laçın, quş yığnağıdı,
Sonalar arzular güllərin dağlar!

Şükür olsun haqqa, dada yetişdi,
Ağamın əlindən bada yetişdi,
Yazıq Novruz xoş murada yetişdi,
Əcəb seyrəngahdı bellərin, dağlar!

Novruz sözün tamam eyləyib yoluna düzəldi. Bir mənzil gedəndən sonra bir göy çəmənliyə çatdılar. Burada düşdülər. Demə, bu yer Kəlləgözün imiş. Kəlləgöz bu mahalın xanı ilə düşmən imiş. Ona görə də qaçıb burada məsgən salmış imiş. Sonra xanı da, yaxın adamlarını da qırıb dağıtmışdısa da, yenə də elə burada qalıb, gəlib-gedəni çalıb çapırdı. Bəli, Kəlləgöz pəhlivan biçənəyində adam görəndə onların yanına gəlib dedi:

– Ay qulbeçələr, buraya quş gəlsə qanad salar, qatır gəlsə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dırnaq salar, siz hara, bura hara?

Novruz cavab verdi ki:

– Biz Diyarbəkirə gedirik. Dincəlmək üçün burada oturmuşuq.

Kəlləgöz pəhlivan dedi:

– Çox yaxşı, indi mən sənin özünü soyaram, nişannını da əlindən alaram, onda görərsən dincəlmək necə olar.

Novruz dedi:

– Kəlləgöz, igid bir iş görməmiş ağzını avara qoyub söyləməz.

Kəlləgöz bu sözdən acıqlandı, Novruzun üstünə hücum çəkdi. Novruz dedi:

– İgidlərdə üç nişan olar. Biri-birinə hərbə-zorba gəlmək, at oynatmaq, güləşmək. Mən səninlə üçünə də varam.

Kəlləgöz Novruzun belə ürəkli-ürəkli danışmağından daha da hirsləndi. Nərə çəkib, görək Novruza nə hərbə-zorba gəlir:

Əcəm oğlu badə içdi
Ol şahi-Mərdan əlindən,
Oynadıb gözəl kəkliyi
Alaram, güman əlindən.

Aldı Novruz cavabında:

Barilahım, azad elə
Məni bu yaman əlindən!
Qurtarmır qovğalı başım
Bədəsil düşman əlindən.

Aldı Kəlləgöz:

Burdan keçməz ağır ellər,
Gözünə çəkərəm millər,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neyləsinlər beçə qullar,
Mən bəbrü aslan əlindən.

Aldı Novruz:

İgid meydanda hərləni,
Vurram başın dığırlanı,
Meydan gumbur-gumburlanı,
Hazaran qalxan əlindən.

Aldı Kəlləgöz:

Kəs səsini, ay heyvərə,
Gününü eylərəm qara;
Ellər tamam gəlib zara
Kəlləgöz qəhrəman əlindən.

Aldı Novruz:

Novruz burda qalmaq istər,
Misri qılınc çalmaq istər,
Kor yapalaq almaq istər,
Sonanı tərlan əlindən[19].

Hərbə-zorbadan sonra meydana atıldılar. Çox vuruşdular, qol yordular axırda Novruz Kəlləgözü öldürdü. Başını kəsib xurcuna qoyanda gördü ki, qalaçada bir qız ağlayır. Novruz onun yanına gedib xəbər aldı:

– Gözəl qız, dərdin nədi? Niyə ağlayırsan? Nə cür olub ki, bu qalaçaya düşübsən?

Qız gözlərinin yaşını silib, Novruzun üzünə baxdı, dedi:

– Ey oğlan, bil və agah ol, mən Ərəbistan padşahının qızı Şəhriyaram. İzn ver dərdimi sənə sazla deyim.

Novruz dedi:

– De!

Şəhriyar xanım saçından iki tel ayırıb sinəsinə basdı, aldı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gərək nə dedi:

Başına döndüyüm, ay qərib oğlan,
Buyur bir yanımda qal, sənə qurban!
Nə müddətdi mənim könlüm məluldu,
Bu qəmli könlümü al, sənə qurban!

Aldı Novruz:

Başına döndüyüm, a nazlı dilbər,
Söyləsən halını, yar, sənə qurban!
Mən bülbüləm, güldən ötrü yanıram,
Layiq deyil qona xar, sənə qurban!

Aldı Şəhriyar:

Pünhan danış, heç kəs səsin duymasın,
Şirin cana heç özgələr qıymasın,
Öldürsə öldürsün, burda qoymasın,
Yalvar, yapış yara, dil sənə qurban!

Aldı Novruz:

Başına döndüyüm, telli Şəhriyar!
Mənim gözü yolda bir Gülşanım var.
Allah amanatı bircə canım var,
Candan qeyri küllü var sənə qurban!

Aldı Şəhriyar:

Yaxşı olar ilqar elə etibar,
Gözəl oğlan, səndən qeyri kimim var?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Özüm ərəb qızı, adım Şəhriyar,
Yaz məni Qəndaba qul, sənə qurban!

Aldı Novruz:

Gözüm qaldı buxağında, telində,
Laçın könlüm sona qoymaz gölündə.
Bir canım var üç gözəlin yolunda,
Ölüncə, Novruzam, yar, sənə qurban![20]

Şəhriyar xanım Novruzu sevdiyini sazla dediyi kimi dillə də dedi:

– Ay cavan, bil, agah ol. Çapolçu Kəlləgöz pəhlivan mənim gözəlliyimə aşiq olub, atamdan istədi. Atam vermədi. Günlərin bir günü mən bağçamızda seyr eyləyirdim. Demə, Kəlləgöz pusquda imiş. Məni götürüb həmin bu qalaçaya gətirdi. Ha eylədi, ona rəy vermədim. Məni zindana saldı. Mən canımı qurtarmaq üçün dedim:

– Ay pəhlivan, mən əsil-nəslimin qorxusundan sənə rəy verə bilmərəm. Əgər vüsalıma yetişmək istəyirsənsə, onda atamı, qohum-əqrabamı qır, qurtar, sənə rəy verim. O, vədəmə inandı, atamla çox dava eylədi. Atamın varı, dövləti çoxudu. Özü də arxalı idi. Onun üçün də bata bilmədi. Mən tamam yeddi ildi bunun əlində giriftaram. İndi qorxuram ki, gəlib çıxa, səni mənə, məni də sənə qata.

Novruz Şəhriyarın cavabına gülüb dedi:

– Çox yaxşı, ancaq yol gəlmişik, susuzuq, o xurcundakı qarpızı gətir, kəsək, yeyək, sonra başımıza çara çəkərik.

Şəhriyar gedib xurcuna baxanda Kəlləgözün başını görüb, Novruzun əl-ayağına düşüb, alqış eyləyə-eyləyə dedi:

– Sən ki, mənim canımı bu zalımın əlindən xilas eləmisən, mən səndən ayrılan deyiləm.

Bəli, Novruz Qəndabla, Şəhriyarla o qalaçada xeylək qa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

landan sonra vəzində yüngül, qiymətdə ağır şeylərdən götürüb yola düşdülər. Az gedib, çox gedib Gülşan xanımgilə çatdılar. Gülşan xanım hər üçüylə görüşüb öpüşdü. Aldı, görək nə dedi:

Şükür haqqa, genə olduq üzbəüz,
Ala gözlü, bəy Novruzum, xoş gəldin!
Əyləşəydik, əhdim buydu, dizbədiz,
Ala gözlü, bəy Novruzum, xoş gəldin!

Gəl sən gedək mənim o dəmxanama,
Genə müjdə etsin ata-anama,
Tifil kimi səni alım sinəmə,
Ala gözlü, bəy Novruzum, xoş gəldin!

Süsən-sünbül, tər bənövşə, ireyhan,
Ətirşah tək təzə güldən Gülşan,
Səni gördü gözüm, oldu lap rövşan,
Ala gözlü, bəy Novruzum, xoş gəldin!

Elə o günün sabahı Novruz hər üç gözəli də götürüb Diyarbəkir sənsən, yola düşdü. Düşərgələrdə qala-qala bir müddətdən sonra Diyarbəkirə yaxınlaşdılar. Bir yandan Novruzun səfəri neçə il çəkdiyindən, o biri yandan duman-çiskin hər yanı bürüdüyündən onlar Diyarbəkir yolunu itirib, çöl-biyabana düşdülər. O qədər getdilər ki, axırda Diyarbəkirin yaylağına çatdılar. Novruz haman yaylaqda özlərinin Dəli çobanına rast gəldi. Dəli çoban şəhər sayağı geymiş bir oğlanın yanında üç gözəl qız görəndə ağzının suyu dabax dəymiş öküzün ağzının suyu kimi axıb döşünü islatdı. Novruzu tanımadığından istər sözlə, istərsə hərbə-zorbayla onun nişanlılarını əlindən almaq fikrinə düşdü. Çomağı saz eləyib döşünə basdı, görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəl əzəl başdan danışaq,
Bil, ağlım, kamalım, oğlan!
Zərblə çəkibən çəliyi,
Vurum, atdan salım, oğlan!

Aldı Novruz:

Gəlirdim Misir elindən,
Duman aldı yolum, çoban!
Gər çəksəm misri qılıncı,
Sənə fərzdi ölüm, çoban!

Aldı Dəli çoban:

Vuruban atdan yıxaram,
Yıxanda yerə çaxaram,
Birini sənə pay çıxaram,
İkisini alım, oğlan!

Aldı Novruz:

Uğrayıb şeytan felinə,
Əl vurma sonam telinə;
Vermərəm xoryat əlinə,
Mən bülbüləm, gülüm, çoban!

Aldı Dəli çoban:

Oğlan, bir gəl sən insafa,
Çəkmişəm bu yolda cəfa;
Üç ay yayda sürüm safa,
Payız yola salım, oğlan!

Novruz gördü ki, çoban heç zad qanmır. Yalvarmaqla bu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nun dəyənəyinin əlindən qurtarmaq olmaz. Ona görə də hərbə-zorbaya başlayıb dedi:

Gözəllər sağü soldadı,
Misri qılıncda belimdədi,
Atamın gözü yoldadı,
Necə burda qalım, çoban?!

Aldı Dəli çoban:

Mən Dəli çobanam, dəli,
Etmərəm fikir, xəyalı,
Qucmalı Qəndabın beli,
Xoş keçər iqbalım, oğlan!

Aldı Novruz:

Novruzam, sinə dağlıyam,
Dərdimi kimə ağlıyam?
Kərim paşanın oğluyam,
Diyarbəkir elim, çoban!

Dəli çoban Kərim paşanın, Diyarbəkirin adını eşidən kimi o saat bildi ki, bu, ağasının itən oğlu Novruzdu. Çoban tutduğu işdən peşman olub dedi:

– Ağa, məni bağışla, səni tanımadım. İndi siz bu yolla yavaş-yavaş gəlin, mən ağama, xanıma xəbərə gedim. Çoban onları gəlməkdə qoyub, ağasına muştuluğa tərpəndi. Yetişəndə ağasına, xanımına Novruzun sevgilisini də gətirib salamat gəlməyini belə xəbər verdi:

Köçübdü Misir elindən,
Novruz gəldi, Novruz gəldi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üç durna telli gözəllə
Novruz gəldi, Novruz gəldi!

Gəldilər mənim yanıma,
Sevdanı saldı canıma,
Muştuluq Zeynəb xanıma,
Novruz gəldi, Novruz gəldi!

Adı çoban, özü dədə,
Qulluq edibdi ustada,
Kam alıb yetə murada,
Novruz gəldi, Novruz gəldi!

Kərim paşa oğlunun gəlməyi xəbərini eşidəndə çobana bütün otardığı sürünü muştuluq verib, yola saldı. Sonra ağsaqqal, qarasaqqal, cahıl, comərd ilə oğlunun pişvazına çıxdı, nişannıları ilə bərabər evlərinə gətirdi.

Ata-anası Novruzu, onun gətirdiyi qızları bağırlarına basıb, üzlərindən, gözlərindən öpdülər.

Kərim paşa Diyarbəkiri əlvan-əlvan güllərlə, çiçəklərlə, xəlilərlə bəzədi, bir qəşəng toy məclisi qurdurdu. O məclisə bütün Diyarbəkir əhlini qonaq çağırdı. Doqquz gün, doqquz gecə toy vurdurandan sonra Qəndabın kəbinini Novruza kəsdirdi, onun əlini Novruzun əlinə tapşırdı.

Camaat toyu təbrik edib dedi:

– İldızlarınız barışsın! Ruzunuz göydən yağsın, yerdə bitsin! Şanınız daha da ucalsın!

Çox şənlikli bir toy oldu, hamı ac qarınnar doydu.

Məşhur ustadların deməyinə görə, Novruzun əlinə Qəndabın əli verilən vaxt bir aşıq onların məclisinə gəlib, duvaqqapmalarını belə bağladı:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yüz mahi-münəvvər ola, könlüm səni istər,
Yüz şəmsi-müdəvvər ola könlüm səni istər,
Yüz sərvi-sənubər ola, könlüm səni istər,
Yüz saqiyi-kövsər ola, könlüm səni istər.
Yüz qaməti ərər ola könlüm səni istər.

Yüz mah-məsəl, afəti-can, gözləri xummar,
Yüz sibzəğən, qünçədəhan, nərgizi-bimar,
Yüz zülfi-pərişanü bəlacu, büti-xunxar,
Yüz qaşı kaman, şux pərizadi-cəfakar,
Yüz kirpiyi xəncər ola, könlüm səni istər.

Yüz ləli-gühərbar ola, yüz gülşəni-rəngin,
Yüz qaşı kəman, incə miyan, ləbləri şirin,
Yüz qaməti rəna ola, yüz kakili pürçin,
Yüz mahi-məlihət, büti-ziba, güli-nəsrin,
Yüz zülfü müənbər ola, könlüm səni istər.

Yüz sinbədən, incə miyan, gözləri məstan,
Yüz dilbər ola hur-liqa, nazinü casban,
Yüz xali həbəş, gərdəni mina, xəti reyhan,
Yüz sinəsi mərmər, dişi dür, afəti-dövran,
Yüz bakirə düxtər ola, könlüm səni istər.

Yüz şahidi-Şirazu, Hələb, Misru, Səmərqənd,
Yüz zinəti-aləm, fərəhəfza, şəhi-fərxənd,
Yüz şəmi-diləfruz ola, yüz ləli-şəkərxənd,
Yüz mən kimi biçarə Kərim hüsnünə həsbənd,
Cümlə sana çakər ola, könlüm səni istər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ALI XAN

### USTADNAMƏ

Qafil könlüm, bu nə yoldu tutubsan,
Sərf elərsən nə kamaldı dünyada?
Dövlətə qul olub, gül tək açılma,
Çox sənin tək güllər soldu dünyada.

Küfrdən qəlbində bərkitmə barı,
Top dəyər, dağıdar burcu, hasarı;
Çox sənin tək çöldə gəzən şahmarı,
Fələk kəməndinə saldı dünyada.

Guşunda sırğadı, sinəndə dağdı,
Ağıllı unutmaz necə ki, sağdı;
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Fələk xarab etdi abadanları,
Zülmlə söndürdü yanan şamları;
Hayıf, gözəllərin gül əndamları
Mara-mura qismət oldu dünyada.

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu qoca dünyada yox ömrə vəfa,
Görün olacaqdı nələr dünyada.
İnsan olan şirin-şirin danışar,
Heyvan olan gedər mələr dünyada.

Yeddi yerir, səkkiz çəkər, beş mələr,
Mənəm deyənlərin yurdu «heş»* mələr;
Axar çaylar, qaynar bulaq, çeşmələr,
Necə olacaqdı sular dünyada?

Üstündən el köçmüş dağlar görmüşəm,
Dağılmış, talanmış bağlar görmüşəm;
Mənəm deyənləri ağlar görmüşəm,
Kimsə ağlar, kimsə gülər dünyada.

Səməd ki, var, bir quruca cəsəddi,
Dünyada hamıya ölüm rəsətdi;
Qanlı fələk, bəs bu necə mürvətdi–
Cavan oğlanlar da ölər dünyada?!

Ustadlar ustadnaməni üç deyər, biz də deyək üç olsun, düşmən ömrü heç olsun!

Əgər bu dünyada ömr etsən yüz il,
Əlində təsbehin düzülhadüzül.
Nuh da ömr eylədi min doqquz yüz il,
Sanasan ki, bir gün, bir axşam qaldı.

Təkəbbür insana salam eyləməz[1],
Seyrəqib kimsəyə ənam eyləməz[2],
Heç kəs bu dünyanı tamam eyləməz,
Çoxlar cəhd eylədi, natamam qaldı.

--------------------
*Heç.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qul Allahquluyam, ay nəsib eylə!
Şəcərdən baş verib, ay nəsib eylə[3],
İsgəndər mülküdü, aynası beylə,
Nə Cəmşid padşah, nə də Cəm qaldı[4].

Sizə ərz eyləyim Pitlis şəhərindən. Pitlis şəhərində kimdən, Hacı Sayaddan.

Pitlis şəhərində Hacı Sayad adlı varlı-karlı bir kişi var idi. Bunun dünyada heç şeydən əskikliyi yox idi. Amma bir oğul-züryəti yox idi ki, öləndən sonra mal-dövlətinə sahib olsun. Hacı Sayad bir gün qazanları asdırıb, qoyunları kəsdirib, ehsan verdi, bütün ac qarınları doydurdu, yalavacları geydirdi, özü də əhd elədi ki, bir züryəti olsa, Qanlı çaya körpü saldırsın. Arvadı hamilə qaldı.

Hacı Sayad bunu görən kimi Qanlı çaya körpü saldırdı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqədən sonra arvad yükünü yerə qoydu. Bundan bir cüt, yəni ekiz uşaq oldu: biri oğlan, biri qız. İndi təzəcə anasından olmuş uşaqlar ağlamaqda olsunlar, sən eşit Hacı Sayaddan. Arvad yükünü yerə qoyanda Hacı evdə yox idi, məsciddə namaz qılmağa getmişdi. Elə ki, ona muştuluq verdilər, məsciddən çıxdı, həyətdən keçəndə qulağına bir çağa səsi gəldi. Çönüb hücrəyə baxanda gördü bir uşaqdı, əsgiyə büküb, atıblar Hücrəyə. Hacı uşağı abasına büküb evə gətirdi, arvadına dedi:

– Ay arvad, şükr allahın böyüklüyünə! Biz birini istəyirdik, o, üçünü verdi.

Arvad uşağı alıb, üz-gözünə baxdı, Hacıya qaytarıb dedi:

– Mən halal südümü haramzadaya verə bilmərəm. Apar qonşuluqdakı Xanı qarıya ver, o saxlasın. Buları da mən özüm saxlıyım, amma hələ adlarını qoymuyaq.

Uşağı verdilər Xanı qarıya saxlamağa. Üç gündən sonra uşaqlara ad qoymağa başladılar. Bütün qarıları yığdılar.

Qarılar cürbəcür olur: Pərcahan, Hürcahan, Zorcahan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Napak qarı, İpək qarı, Köpək qarı…

Pərcahan qarı dedi:

– Oğlanın adını mən qoyacam. Bax, bunun adı olsun Sicimqulu. Ömrü də sicim kimi uzun olsun.

Bu qarını eşiyə çıxartdılar ki, səndən ad qoyan olmaz. Bu səfər Hürcahan qarı gəldi, dedi:

– Oğlanın adını Örkəmqulu qoyacam. Həm enlənsin, həm də uzansın.

Buna da acıqları tutub, eşiyə çıxartdılar. Sonra Zorcahan qarı gəldi, dedi:

– Oğlanın adını qoyacağam Çatıqulu.

Bunu da qovdular. İndi də gəldi Napak qarı:

– Oğlanın adını qoyacam Poladqulu ki, heç ölməsin.

Köpək qarı bunu eşidəndə irəli gəlib dedi:

– Oğlanın birinin adını Dəmirqulu, birini də Poladqulu qoyacam ki, adları kimi möhkəm olsunlar.

Bunu da çölə çıxardıb, İpək qarını çağırdılar. İpək qarı dedi:

– O qarılar qələt eləyir. Mən oğlanın adını qoyuram Məhəmməd, qızın adını Pəri, o tapılan oğlanın da adını Tapdıq.

Bəli, gün, ay gəlib keçdi, uşaqlar yaşa doldular. Oxuyub məktəbi qurtardılar. Bir gün çovuş[5] gəldi ki, hər kim Məkkəyə gedir gəlsin.

Hacı Sayad hər il Məkkəyə gedərdi. Çovuşun səsini eşidən kimi dedi:

– Mən gedirəm Məkkəyə.

Hacı Sayadın arvadı Gülüstan dedi:

– Mən də gedəcəm.

Oğlu Məhəmməd dedi:

– Mən də gedəcəm.

Bunlar yol tədarükü gördülər. Yola düşəndə Hacı Sayad Tapdığı çağırdı, dedi:

– Oğlum, bacını sənə tapşırıram, səni də allaha. Məkkədən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

doqquz aya kimi gələcəyik. Sən ona kimi bacına yaxşı muğayat ol. Qoyma darıxsın.

Qərəz, bacısını Tapdığa tapşırıb, yola rəvan oldular. Bunlar getməkdə olsun, Tapdıq bacısıynan altı ay bacı-qardaş kimi rəftar elədi. Yeddinci aya ayaq qoyanda Xanı qarı onu küçədə gördü. Qarı Tapdığın halın soruşandan sonra dedi:

– Oğul, nə qayırırsan? Bir şey əldə eliyibsən?

Tapdıq dedi:

– Qarı nənə, nə əldə eləyəcəyəm ki?

Qarı dedi:

– Necə nə əldə eləyəcəksən? Pəri xanımı. O sənin bacın ha döyül.

Tapdıq dedi:

– Bacım döyül?

Qarı dedi:

– Xeyir. O sənin bacın döyül. Əgər o sənin bacın olsa, onda bir qardaşın adını Məhəmməd qoyanda sənin də adını Əhməd qoyardılar. Səni məsciddən tapıblar. Onun üçün də sənin adını Tapdıq qoyublar.

Bic söz həmişə bicin beyninə batar. Tapdıq bu sözü qarıdan eşidəndə çox sevindi. Tez bazara qayıdıb, nişanbazlıq üçün bir yaylıq aldı, gəldi Pəri xanımın yanına. Pəri xanım çox oxumuşdu. Ərəb, fars dillərində olan bütün kitabları qurtarmışdı. Gördü ki, Tapdığın gətirdiyi yaylıq xeyirli yaylıq deyil, soruşdu:

– Qardaş, bu nə yaylıqdı?

Tapdıq dedi:

– Xeyr, mən sənin qardaşın deyiləm. Mən səni alacam. Bu da nişan yaylığıdı, sənə almışam.

Pəri xanım dedi:

– Ay Tapdıq, allaha bax, mən sənin bacınam. Belə şey olmaz.

Tapdıq dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xeyr elədi ki, var. Mən səni alacağam. Öldü var, döndü yoxdu.

Pəri xanım dedi:

– Qardaş, bilirəm, şeytan sənin qəlbinə girib, amma lənət şeytana deyinən. Bu şər işdən çəkin!

Tapdıq tir deyib, sözünün üstə durdu. Pəri xanımın yaxasından əl çəkmədi. Pəri xanım yasəmən tellərindən üç dənə ayırıb, sinəsinə basdı, qardaşına yalvarmağa başladı:

Başına döndüyüm, qurban olduğum,
Çıxma yoldan, qardaş, aman günüdü!
Alışıb oduna büryan olduğum,
Çıxma yoldan, qardaş, aman günüdü!

Mən tutaram ətəyindən dadınan,
Pərvanayam, qovrulmuşam odunan,
Məni rüsvay etmə bədnam adınan,
Çıxma yoldan, qardaş, aman günüdü!

Gələndə nə deyim mən o Hacıya?
Şirincə nemətim döndü acıya;
Heç qardaş da kəc baxarmı bacıya?
Tapdıq, çıxma yoldan, aman günüdü!

Bu dərd qalar Pəri xanın canında,
Pərvanətək yanar şamlar yanında;
Üzü qara durrux haqq divanında,
Çıxma yoldan, qardaş, aman günüdü![6]

Tapdıq başını bulayıb dedi:

– Mənə qəzəl oxuma! Elə şey yoxdu, alacam səni.

Pəri xanım dedi:

– Zərər yoxdu. Gəl çıxaq balaxanaya[7]. Qırx pilləkəndən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxdıqca mən nə desəm, sən də onu deynən. Sonra danışarıq.

Bəli, bunlar balaxanaya çıxmağa başladılar. Ayaqlarını pilləkənə qoyanda Pəri xanım dedi:

– Lənət şeytana!

Tapdıq da dedi:

–Lənət şeytana!

Belə-belə otuz doqquzunu çıxana kimi Tapdıq lənət şeytana dedi; qırxıncıya gələndə Pəri xanım soruşdu:

– Qardaş necəsən?

Tapdıq dedi:

– Xeyr, elə şey yoxdu. Səni alacam.

Pəri xanım bu sözü eşidən kimi yerdən aftafanı götürdü, onun təpəsinə elə çırpdı ki, dığırlanıb düşdü pilləkənin dibinə. Pəri xanımın genə ürəyi durmuyub, yendi Tapdığın yanına, başından ipək çarğatı açıb, onun başını sarıdı, götürdü otağa, bir həkim çağırıb, yarasını sağaltdı. Gün keçdi, ay dolandı, bir gün Tapdıq çıxıb eşikdə gəzirdi, birdən çovuş carraya-carraya gəlib, darvazadan içəri daxil oldu. Tapdıq soruşdu:

– Hacılar salamatdımı, çovuş?

Çovuş dedi:

– Hamısı salamatdı, budu gəlirlər.

Tapdıq hamıdan xəlvət bir at yəhərləyib mindi, özünü yetirdi hacıların qabağına. Hacıları ziyarət eləyib, salamlaşdı. Hacı Sayad dedi:

– Oğul, başına nə olub ki, sarımısan?

Tapdıq dedi:

– Əmi, heç soruşma! Burada desəm, ayıbdı. Sonra deyərəm.

Hacı Sayad dedi:

– Yox, oğul, gərək deyəsən.

Təpdıq dedi:

– Əmi, nə deyim? Mənim yanımda bir qız qoyub gedibsən ki, məni beynamus elədi. Hər gün bir kişi gətirirdi. Mən öyüd-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəsihət verəndə vurub başımı da bu cür dağıtdı. Nə vaxtdı yatıram.

Hacı Sayad oğlu Məhəmmədi çağırıb dedi:

– Oğul, sən atını min, o üzü qara olmuş qızı öldür, köynəyini mənə gətir! Bizi beynamus eləyib, papağımızı yerə soxub. Mənim gözüm onu görməsin.

Hacı Məhəmməd atını minib, getdi qızın yanına.

Qız gördü ki, Məhəmməd gəlir. Özünü yetirdi ki, Məhəmmədin ayaq torpağını ziyarət eləsin. Məhəmməd qoymadı, dedi:

– Bacı, əvvəl böyük allahdı, sonra böyük ata-anamızdı. Gedək, əvvəl onları ziyarət elə, sonra məni ziyarət eləyərsən.

Pərixanım istədi ki, at gətirsin, Məhəmməd qoymadı dedi:

– Bir at bəsdi, gəl tərkimə min, gedək!

Pəri xanımı tərkinə götürüb, hacılar gələn tərəfə yox, bir başqa tərəfə atı sürdü. Pəri xanım dedi:

– Qardaş hacılar o tərəfdən gəlmirmi? Atı bu tərəfə niyə sürürsən?

Məhəmməd dedi:

– Xeyr, indi bu yolnan gəlirlər.

Sürhasür, gedib bir qəbirsanlığa çatdılar. Məhəmməd burada atı əylədi, dedi:

– Bacı, düş! Atamın buyruğudu, səni öldürəcəm.

Beynava Pəri ağlaya-ağlaya düşüb dedi:

– Ay qardaş, məni niyə öldürürsən?

Məhəmməd dedi:

– Bacı, atamın buyruğudu. Tapdıq deyib ki, sən beynamus işlər görmüsən. Gərək öləsən.

Pəri xanım dedi:

– Qardaş, mən beynamus olmamışam. Beynamus Tapdıq olub. O məni almaq istədi, mən razı olmadım. Məndən əl çəkmədi. Vurdum başını yardım.

Məhəmməd inanmayıb, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, atamın əmridi, gərək səni öldürəm.

Pəri xanım ağlaya-ağlaya dedi:

– Qardaş, qoy bir neçə kəlmə söz deyim, sonra öldür.

Pəri xanım saçından üç tel ayırıb, sinəsinə basdı, görək qardaşına nə dedi:

Aldı Pəri xanım:

Başına döndüyüm, gül üzlü qardaş,
Öldürmə, xudaya bağışla məni!
Ağlaram, didəmdən gedər qannı yaş,
Öldürmə, allaha bağışla məni!

Məhəmmədin Pəri xanıma yazığı gəldi. Aldı, onun cavabında dedi:

Başına döndüyüm, gül üzlü bacı,
Bacı, qarı görmə bu işdə məni!
Öldürəcəm səni, yoxdu əlacı,
Bacı, qarı görmə bu işdə məni!

Aldı Pəri xanım:

Qardaş, söylə görüm taxsırım hanı?
Silinsin, könlümün qalmasın pası;
Məni öldürəndə özün tut yası,
Adın Məhəmmədə bağışla məni!

Aldı Məhəmməd:

Ay bacı, mən neyləmişəm, neylərəm,
Xəncərinən qara bağrım teylərəm;
Bir canım var, sənə qurban eylərəm,
Bacı, qarı görmə bu işdə məni!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Pəri xanım:

Mən Pəriyəm, yalvarıram dadınan,
Pərvanayam, qovrulmuşam odunan;
Sən məni öldürmə bədnam adınan,
Adın Məhəmmədə bağışla məni!

Aldı Məhəmməd:

Çərxi-fələk gör nə işlər qayırdı,
Səni məndən, məni səndən ayırdı;
Hacı Sayad Məhəmmədə buyurdu,
Bacı, qarı görmə bu işdə məni![8]

Söz tamama yetdi. Məhəmməd baxdı ki, gözləri baxa-baxa bacısını öldürməyə əli varmayacaq. Çox fikirləşib dedi:

– Bacı, mən sənə inanıram. Daha səni öldürməyəcəyəm. Gəl atdan düşək, burda bir qədər dincələk, sonra gedərik, əhvalatı atama deyərəm.

Pəri xanım atdan yerə düşən kimi Məhəmməd daldan ona bir qılınc vurdu. Qılınc Pəri xanımın kürəyinin arasından dəyib parçaladı. Məhəmməd onu ölmüş bildi, qanlı paltarını götürüb, geri qayıtdı, atasının qulluğuna getdi.

Atası soruşdu:

– Oğul öldürdünmü?

Məhəmməd dedi:

– Bəli, öldürdüm.

Hacı Sayad dedi:

– Oğul, çörəyim sana halal olsun! Yaxşı oldu ki, mən o çəpəlin üzünü görmədim.

İndi sizə kimdən xəbər verim, Pəri xanımdan. Pəri xanım gecənin bir vaxtı ayılıb gördü ki, bərk tərləyib. Əlini o tərəfinə, bu tərəfinə vurdu, baxdı ki, xeyr, bu tər deyil, qandı. Baxdı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, qardaşı onun kürəyini iki parça bölüb. Yaraları sız-sız sızıldayır. Aldı, görək ağlaya-ağlaya nə dedi:

Namərd fələk, nələr gətdin başıma?!
Mədəd allah, səndən mənə bir imdad!
Bilməm kimlər zəhər qatdı aşıma,
Mədəd allah, səndən mənə bir imdad!

Həsrət qaldım vətənimə, elimə,
Qan bulaşıb müşk-ənbər telimə,
Qardaş adı daha gəlməz dilimə,
Mədəd allah, səndən mənə bir imdad!

Ülkər doğub, odu, aydan ucadı,
Gələn bəzirgandı, gedən xocadı;
Bir deyən yox Pəri xanım necədi,
Mədəd allah, səndən mənə bir imdad!

Pəri sözünü tamama yetirdi, sürünə-sürünə yaxındakı meşəyə girdi. Az süründü, çox süründü, bir də gördü ki, bir başı kəsik çinar var. Çinarın üstünə çıxmaq istəyəndə ayağı sürüşüb, düşdü çinarın oyuğuna. Yarası elə bərk ağrıdı ki, özündən gedib, qaldı çinarın oyuğunda.

İndi sizə hardan xəbər verim, vanlı Alı xandan. Alı xan gecə vayğasında gördü ki, bir tərlan tapıb, amma qənədi qırıxdı. Sabah açılan kimi Qara Vəziri çağırdı, dedi:

– Qara Vəzir, bir vayğa görmüşəm, onu yoz!

Qara Vəzir dedi:

– Yozaram, de görüm nə görmüsən?

Alı xan yuxusunu Qara Vəzirə nağıl elədi Qara Vəzir dedi:

– Bir yaxşı şey tapacağıq. Amma budu deyirəm, nə tapsaq, gərək yarı bölək. Özü də o şey meşədədi.

Alı xan dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yaxşı, bölərik. İndi sən atları yəhərlə, işıqlanmamış gedək meşəyə. Bəlkə güzarımıza xeyir şey düşdü.

Atlarını yəhərləyib, başladılar yola. Ağızları düşdü həmən qız qalan qəbirsannıxdan. Qəbirsannıxda bir kəklik gördülər. Alı xan kəkliyi vurmaq istədi. Kəklik uçub Pəri xanım olan ağacın başına qondu.

Alı xan Qara Vəzirə dedi:

– Vəzir, deyəsən uğrumuz xeyir olmadı. Birinci ovumuz boşa çıxdı.

Vəzir kəkliyin dalınca gedib ağaca çatanda gördü ki, bir işıq gəlir. Vəzir işığa yaxınlaşıb gördü bu bir gözəl qızdı, yaralayıb atıblar buraya. Bu şox da bunun şoxudu. Qara Vəzir istədi kəkliyi vurub aparsın, amma bu gözəlin burda olmasını Alı xana deməsin. Bir də dedi, xeyr, Alı xan bilər, məni öldürər. Gəl qayıt, de, amma qoyma qızı aparsın. Əgər aparsa, sağalıb Alı xana gedəcək, məni bəyənməyəcək. Bəli, vəzir qayıdıb gəldi Alı xanın yanına, dedi:

– Alı xan vayğamız hasil olub. O ki, sən vayğa görmüşdün: bir quş, qanadı da qırıq, mən də yozmuşdum ki: bir yaxşı şey tapacağıq, bir gözəl qız imiş, özü də yaralı, odu, oturub ağacın oyuğunda.

Alı xan dedi:

– Gedək görək.

Getdilər həmən qız olan ağacın yanına. Gördülər ki, bu bir elə gözəldi ki, heç belə gözəl yoxdu. Bunlar qızı çağırdılar. Qız özündən getmişdi. Bunların səsinə ayılıb, öz-özünə fikirləşdi ki, utanmaqdan keçib; gəl bunlardan paltardan-zaddan istə. Odu ki, dedi:

– Ay səsi gələn, allahı sevərsən, mana bir dəst paltar ver, geyinim. Yaralıyam, çılpağam. Özüm də zənən xaylağıyam. Geyinim, sonra bir neçə kəlmə sözüm var.

Alı xan atın tərkindən bir dəst öz paltarından çıxardıb atdı ona tərəf. Pəri xanım geyinib paltarı elə ki, çıxdı, Alı xan gör-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dü bu elə bir gözəldi ki, tayı-barabarı yoxdu. Özünü saxlaya bilməyib, aldı, görək nə dedi:

Səhər seyri bir ov çıxdı qarşıma,
Könül sevdi sənin kimi maralı.
Üzündü mahitab, camalın günəş,
Eylə bildim yerin, göyün qaralı.

Aldı Pəri xanım:

Başına döndüyüm, ay cavan oğlan,
Könlüm dərd əlindən olub yaralı.
Gecə-gündüz mən eylərəm ahu zar,
Gəlməyir səbrimin əsla qəralı*.

Aldı Alı xan:

Səyrağıblar bir araya gəlməsin!
Danışıban gizlin sirrin bilməsin!
Tanrı səni məndən ayrı salmasın!
Dəli könül dönməz səndən aralı.

Aldı Pəri xanım:

Səyrağıblar bir araya gəldilər,
Danışıban gizlin sirri bildilər,
Qara bağrım dəlik-dəlik dəldilər,
Pünhan-pünhan gül irəngim saralı.

----------------------
*Qərarı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Alı xan:

Çapardan ayrılıb gəlmişəm pünhan,
Deyim məkanımı nişanbənişan;
Xəbər alsan – mənəm vanlı Alı xan,
Söylə görüm, sənin əslin haralı?

Aldı Pəri xanım:

Səhər-səhər doğan dan ulduzuyam,
Aşıqların söhbətiyəm, sazıyam;
Adım Pəri, Hacı Sayad qızıyam.
Xəbər alsan o Pitlisin maralı[9].

Bunlar sözlərini qurtaran kimi Qara Vəzir dedi:

– Xan, atını sür, gedək! O xeyirli adam deyil. Əgər xeyirli adam olsaydı, onu yaralayıb buraya atmazdılar. Kim bilsin nə yuvanın quşudu?

Alı xan bir vəzirə baxdı, bir də qıza baxıb, atın boynuna vurdu, getmək istədi.

Pəri xanım gördü ki, Qara Vəzir Alı xana bəd qandırdı. Bunnar gedəcək, amma özü burada qalacaq. Can şirindi, əgər burda qalsa öləcək. Aldı, görək Alı xanı nə təhər geri qaytardı:

Atamı, anamı yaman qandırdı,
Zalım Tapdıq, xan, başına döndüyüm!
Zalım qardaş şan-şan etdi sinəmi,
Yaram verir qan, başına döndüyüm!

Uğradım çöllərə, mən oldum ahu,
Yetişsin dadıma şahların şahı;
Qismət belə yazıb əlbət ilahi,
Qəbul eylə sən, başına döndüyüm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən sığındım məzar sandıq daşına,
Bir rəhm eylə gözdən axan yaşıma,
Pəriyəm, Alı xan dönnəm başına,
Apar məni, can, başına döndüyüm![10]

Alı xanın ürəyi yumşaldı, geri qayıdıb dedi:

– Qara Vəzir, gəl bunu götürüb aparaq. Yazıqdı. Baxarıq, əgər yaxşı adam oldu, bir zatı yaxşı adama verərik. Əgər pis adam oldu, biz də bir axmaq adama verərik, yaxamızdan rədd olub gedər.

Alı xan əlini uzadıb, Pəri xanımın əlindən tutdu, aldı tərkinə, gətirdi öz evinə. O saat bir həkim gətirdi. Həkim başladı Pəri xanımın yarasını müalicə etməyə. Pəri xanımın yarası sağaldıqca gözəlliyi də ziyadalaşırdı. Elə ki, Pəri xanımın yarası sağaldı, gözəlliyi oldu birə beş. Qızın eşqi Alı xanın sinəsinə düşdü. Alı xanın ürəyi başladı eşqdən alışıb yanmağa. Amma Qara Vəzir işi bururdu ki, bururdu. Bir gün vəzir Alı xana dedi:

– Çox da ki, aşiq olmusan. Biz buna şərikik. Gərək qızı ortasından iki bölək. Aramızda şərtimiz var.

Camaat – ağıllı, dəli yığılıb dedilər ki, sağ adamı öldürmək olmaz. Hərəniz bir üzük qayıtdırın, adınızı da üstünə yazdırın göndərin qıza. Kimə getmək istəsə, onun üzüyünü götürsün. Daha onda dava da kəsilər. Onlar iki üzük qayıtdırdılar. Birini Qara Vəzir adına, birini də Alı xan adına. Hər üzüyü bir məcməyinin içinə qoyub, üzünə də sərpuş çəkdilər, Pəri xanıma göndərdilər. Pəri xanım üzüklərin üstünü oxudu, Alı xanın üzüyünü qoydu gözünün üstünə, sonra keçirtdi barmağına. Bu işdən sonra Qara Vəzirin sözü olmadı danışsın. Amma ki, qarnında xayınlıq saxladı.

Bəli, bu gündən Alı xan toy tədarükü gördü. Yeddi gün, yeddi gecə toy çaldırıb, Pəri xanımı aldı.

İndi onlar ömür sürməkdə olsunlar; bir neçə müddət gəldi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keçdi. Pəri xanımın bir cüt oğlu oldu. Birinin adını Məhəmməd, birinin adını Əhməd qoydular. Bunlar böyüyüb, səkkiz yaşa çatdılar. Məktəbdə oxumağa başladılar. Bir günləri Məhəmmədnən Əhməd məktəbdən gəldikləri yerdə gördülər ki, anaları ağlayır. Məhəmməd dedi:

– Ana, niyə ağlayırsan?

Pəri xanım dedi:

– Oğul, bəs mən ağlamayım kim ağlasın? Mənim də elim, obam, atam, anam var.

Uşaqlar gedib əhvalatı atalarına söylədilər. Üstəlik xahiş elədilər ki, onları Pitlis şəhərinə göndərsin.

Alı xan hökm elədi, qırmızı kəcavələr quruldu. Qoşun cəm oldu. Qırmızı kəcavəyə Pəri xanım minib, Məhəmmədnən Əhmədi də bahəm kəcavədə mindirdi. Alı xan Qara Vəziri qoşuna sərkərdə elədi. Kəcavə yeriyəndə Alı xanın ürəyi durmuyub dedi:

– Pəri xanım, əylən, sənə deyiləsi sözüm var, qulaq as!

Aldı Alı xan:

Başına döndüyüm, ala göz Pərim,
Pərim, gedərgisən, haçan gələssən?
Sənə qurban olsun canınan sərim,
Pərim gedərgisən, haçan gələssən?

Aldı Pəri xanım:

Başına döndüyüm, qurban olduğum,
Yarım, gedərgiyəm, genə gələrəm.
Zay olmasın ağlın, huşun, kamalın,
Yarım, gedərgiyəm, genə gələrəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Alı xan:

Sizin yerlər bağçalımı, barlımı?
Gilaslımı, heyvalımı, narlımı?
Çünki aparırsan bir cüt oğlumu,
Pərim, gedərgisən, haçan gələssən?

Aldı Pəri xanım:

Uca dağdan cada yollar aşıbdı,
Qürbət eldə qara bağrım bişibdi,
Sayad atam genə yada düşübdü,
Bəyim, gedərgiyəm, genə gələrəm.

Aldı Alı xan:

Alı xan deyərlər mənim adıma,
Darda qalsam, qırxlar yetər dadıma;
Hər vaxt mənim Pəri düşər yadıma,
Pərim, gedərgisən, haçan gələssən?

Aldı Pəri xanım:

Atam məni bağlamışdı nəzirə,
Qürbət eldə yurdum oldu cəzirə;
Mən Pərini tapşırmazdın Vəzirə,
Bəyim, gedərgiyəm, genə gələrəm.[11]

Sözlərini tamama yetirdilər. Amma Alı xan Pəri xanımın işarəsini başa düşmədi. Pəri xanım da sözünü açıq deyə bilmədi. Kəcavələr yola düşdü. Pəri xanım Alı xandan ayrıldı. Gündə bir mənzil, teyyi-mənazil, çox getdilər, az getdilər, bir neçə gündən sonra gedib bir meşəyə çatdılar. Gecəni bu me-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şədə qalası olanda Qara Vəzir qoşun əhlinə dedi:

– Bu gecə qaraulu özüm çəkəcəm. Hamınız yıxılın rahat yatın!

Qoşunda olanlar beş-bir, üç-bir dağılıb, meşənin içində yatdılar. Gecədən bir az keçəndə Qara Vəzir Pəri xanımın çadırına daxil oldu. Pəri xanım onu görəndə işi başa düşdü. Amma özünü bilməməzliyə vurub dedi:

– Vəzir, gecənin bu vaxtı nə üz verib ki, gəlmisən?

Qara Vəzir cavab verdi:

– Sən onu bilirsənmi ki, biz səni Alı xannan şərik tapmışıq?

Pəri xanım dedi:

– Nə demək istəyirsən? Tapmayaydınız, sizə yalvarmırdım ki, gəlib məni tapasınız.

Qara Vəzir dedi:

– Onu demək istəyirəm ki, indiyə kimi Alı xanın idin, indi də atangilə gedib qayıdana qədər mənim olacaqsan.

Pəri xanım başladı Qara Vəzirə dəlil-dəlalət eləməyə. Amma nə qədər dedisə, kar eləmədi. Axırda Qara Vəzir dedi:

– Mənnən başbirlik eləməsən, böyük oğlunu öldürəcəm.

Pəri xanım cavab verdi ki:

– Oğlumu yox, özümü də öldürərsən, heç elə şey ola bilməz.

Qara Vəzir bərk acıqlandı. O saat Pəri xanımın böyük oğlu Məhəmmədin yanına gəldi, qılıncı çəkdi, yatdığı yerdə başını kəsmək istəyəndə Pəri xanım gözlərinin yaşını tökdü. Aldı, görək nə dedi:

Başına döndüyüm, ay Qara Vəzir,
Öldürmə oğlumu, aman günüdü!
Allah üstümüzdə hazırdı, hazır,
Öldürmə oğlumu, aman günüdü!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəhm elə bağmana, pozma bu bağı,
Ana ürəyinə gəl vurma dağı;
Əridi, könlümün qalmadı yağı,
Öldürmə oğlumu, aman günüdü!

And içirəm mərd igidlər sərinə,
Yaradanın ərəninə, pirinə,
Qiya baxsam, səni salar dərinə,
Öldürmə oğlumu, aman günüdü!

Mən Pəriyəm, həsrət qaldım beş günə,
Fələk kəmənd atdı ömrüm köşkünə;
Adı bəlli Məhəmmədin eşqinə,
Öldürmə oğlumu, aman günüdü![12]

Qara Vəzir onun yalvarmağına baxmayıb, Məhəmmədin başını kəsdi. Dedi:

– Min yalvarsan da, ağlasan da səndən əl çəkmərəm. İndi nə deyirsən? Əgər genə də razı olmasan, kiçik oğlun Əhmədin də başını kəsəcəm.

Pəri xanım ağlaya-ağlaya dedi:

– Oğlanlarımın başını kəsməyəsən, neyləyəsən, genə də razı olmaram.

Qara Vəzir o saat çəkib qılıncı, Əhmədin də başını kəsdi.

Pəri xanım şivən elədi, oğlanlarının qanına boyandı, amma zalım vəzirin ona ürəyi yanmadı, ondan əl çəkmədi. Pəri xanım qaçmaq üçün kələk qurub dedi:

– Çox gözəl, mənim də istədiyim bu idi. Uşaqlar sirrimizi açardı. İndi sən mənimsən, mən də sənin. Bu gündən sonra kef sürərik.

Qara Vəzir ona yaxınlaşmaq istədi. Pəri xanım dedi:

– Ancaq hələlik mənə yaxın gəlmə. Ürəyim çox pəjmürdədi. Qoy bir çölə çıxım, bəlkə hava dəyə mənə, bir az kefim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

açıla.

Qara Vəzir dedi:

– Qaçarsan.

Pəri xanım dedi:

– İndi ki, inanmırsan, belimə kəndir bağla.

Qara Vəzir buna razı oldu. Bir kəndir gətirdi, bir ucunu Pəri xanımın belinə bağladı, o biri ucundan də özü bərk-bərk tutdu. Pəri xanım yeriyə-yeriyə belindən kəndiri açdı, bir kola bağladı. Çarğatını da kolun başına atıb, asta qaçan namərddi, meşə ilə qaçmağa başladı.

Qara Vəzir çox gözlədi, Pəri xanımdan səs çıxmadı. Kəndirdən tuta-tuta gedib baxdı ki, Pəri xanım hayandadı? İp kola bağlanıb. Qara Vəzir işi belə görəndə tez qılıncını sivirib, öz bədənini bir neçə yerdən yaraladı. Çığır-bağır qoparıb, qoşunu topladı ki:

– Ay aman, özünüzü yetirin! Haramılar tökülüb uşaqları qırdılar, Pəri xanımı da apardılar.

Qoşunda olanlar istədilər Pəri xanımın dalınca gedələr, Qara Vəzir qoymadı. Qorxdu ki, işin üstü açılsın. Əmr elədi kəcavəni qara bəzədilər, uşaqların meyitlərini kəcavəyə qoyub, geri qayıtdılar. Bunlar geri dönməkdə olsunlar, sizə Pəri xanımdan xəbər verim.

Pəri xanım meşəynən qaçıb, atasının Qanlı suya saldırdığı körpünün üstünə gəldi. Qələmi çıxardıb, ağlaya-ağlaya görək nə yazdı:

Gedər bəzirganlar, gələn xocalar,
Bu kağızı Alı xana yetirin!
Evim yıxdı ay qaranlıq gecələr,
Bu kağızı Alı xana yetirin!

Yazımı yazanın sına qələmi,
Qaraymış yazısı, bədmiş kəlamı;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlanlarım qırdı zalım haramı,
Bu kağızı Alı xana yetirin!

Dərmanım bir ikən dərdim oldu yüz,
Bir həkimdi, bir loğmandı, bir də siz;
Öz adım Pəridi, məkanım Pitlis,
Bu naməni Alı xana yetirin![13]

Pəri xanım kağızı yazıb, körpünün üstə bir daş altına qoydu. O biri tərəfdən də bir sövdayar karvanı gəlib körpünün kənarında əyləndi. Sövdayarbaşı nökərini çağırıb dedi:

– Oğul, get bir az su gətir!

Nökər suya gedəndə gördü ki, körpünün üstə bir işıq düşüb. Özü də bəni-insan işığıdı. Bir addım irəli atıb gördü körpünün üstə bir qız oturub ağlayır. İşıq da onun işığıdı. Nökər buna valeh olub, fikirli-fikirli qabı çaya basdı. Qabın çölü islandı, içinə su dolmadı. Nökər qabı aparıb sövdayara verdi ki, su içsin. Sövdayar gördü qabın içi boşdu, nökərdən soruşdu:

– Bəs niyə qabı boş qaytarmısan?

Nökər cavab verdi:

– Sövdayar sağ olsun, körpünün üstündə bir gözəl qız gördüm, ağlım başımdan çıxdı. Taxsır məndə deyil.

Sövdayar qız adı eşitcək tələsik başmağının birini əlinə alıb, birini də ayağına geyib, körpüyə yüyürdü. Getdi gördü ki, lələ köçüb, yurdu ağlayır. Heç kim yoxdu. Ancaq bir kağız var. Kağızı oxuyub, məzmunundan hali oldu. Sövdayar şəhərbəşəhər, kəndbəkənd kağızı gəzdirib, sahibini axtarmaqda olsun, eşit Qara Vəzirdən.

Qara Vəzir kəcavəni qara boyuyub, Vana çatdı. Alı xan işdən halı olub, başına gözünə döydü. Uşaqlarını dəfn eləyib, gecə-gündüz dərd çəkməkdə olsun, eşit Pəri xanımdan.

Pəri xanım bir təpənin başına çıxmışdı. Gördü ki, bir sürü qoyun otlayır, bir çoban da çomağa söykənib, qoyunun yanında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

durub. Çoban Pəri xanımı görüb, ona tərəf getmək istədi. Baxdı ki, qız ondan qorxur, dedi:

– Bacı, qorxma, irəli gəl, görüm nəçisən?

Pəri xanım irəli gəlib dedi:

– Çoban qardaş, sənə deyiləsi bir neçə sözüm var, mən deyim, sən qulaq as!

Aldı Pəri xanım:

Nagah yerdən urcah oldum,
İmdad eylə mənə, qardaş!
Mən fağırın bu günündə,
İmdad eylə mənə, qardaş!

Aldı çoban:

Nagah yerdən urcah oldun,
Dərdin söylə mənə, bacı!
Bəlkə bir ilac eyləyəm,
Dərdin söylə mənə, bacı!

Aldı Pəri xanım:

Mənim bu halım bilərlər,
Əl açıb yaman gülərlər;
İndi dalımca gələrlər,
İmdad eylə mənə, qardaş!

Aldı çoban:

Dərin dəryaya dalaram,
Canım odlara salaram,
Sənin qısasın alaram,
Dərdin söylə mənə, bacı!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Pəri xanım:

Pəriyəm, nədi günahım?
Ərşə dayanıbdı ahım;
Bir Alı xandı pənahım,
İmdad eylə mənə, qardaş!

Aldı çoban:

Nə gəzirsən dağdan-dağa?
Canım canına sadağa;
Qadan gəlsin bu Budağa,
Dərdin söylə mənə, bacı![14]

Pəri xanım dillə nə dedi:

– Qardaş, ikimiz də and içək. Qardaş-bacı olaq!

Çoban dedi:

– Olaq!

Hər ikisi and içib, bacı-qardaş oldular. Pəri xanım dedi:

– İndi gəl paltarını ver mənə geyim. Mənim də paltarımı sən bas xurcuna, bərabər gedək, anan-bacın varsa, apar onların yanına.

Çoban razı oldu. Gətirib ona bir dəst kişi paltarı verdi. Pəri xanım kişi paltarını geyindi, öz paltarını xurcuna basıb, qoydu eşşəyin belinə. Keçələ oxşamaqdan ötrü başına da bir qarın sələsi keçirib, saçını içinə doldurdu. Çoban qoyunun qabağına düşüb, qoyunu çəkdi. Pəri xanım da qoyunun dalında, kağız çıxardıb, ağlaya-ağlaya bu sözləri yazdı:

Başına döndüyüm, ay çoban qardaş,
Harda görsən, Alı xana de gəlsin!
Didəmdən tökürəm mən qan ilə yaş,
Harda görsən, Alı xana de gəlsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yəqin tanıyarsan görcəyin onu,
Oddan köynəyidi, alovdan donu;
Yaxandan tutaram qiyamət günü,
Harda görsən, Alı xana de gəlsin!

Adım Pəri xanım, Alı xan butam,
Çərx-fələk eylədi mənə yüz sitəm;
Qoymadı mətləbə, murada çatam,
Mənsur kimi çəkdi dara, de gəlsin![15]

Kağızı yazıb tamama yetirdi, çomağın ucuna bağlayıb, çobanın dalınca tulladı, qaçıb, genə özünü meşəyə saldı. Çoban bir də baxdı ki, Pəri yoxdu. Sürünü haylayıb, kəndə apardı. Hər kəsin qoyununu özünə verdi, Pəri xanımın paltarı olan xurcunu da çomağının başına keçirib, onu axtarmağa getdi. İndi eşit Pəri xanımdan.

Pəri xanım özünü yetirdi Pitlis şəhərinə. Gördü ki, Tapdıq oturub kulafirəngidə. Pəri xanım ona yaxınlaşıb dedi:

– Ay qardaş, mən qərib bir oğlanam. Məni nökər tutarsanmı?

Tapdıq cavab verdi:

– Yaxşı gəlmisən. Elə sənin kimi bir bəduğur keçəl lazımdır ki, hər gördükcə kəffarə verək.

Bu dəmdə Hacı Sayad eşiyə çıxdı. Pərini keçəl libasında görüb dedi:

– Oğul, irəli gəl görüm, nə işin sahıbısan?

Pəri xanım irəli gələndə Hacı Sayad gördü ki, bunun gözü lap Pəri xanımın gözünə oxşuyur. Bir ah çəkdi, dudu-dumağına ləzzət verdi. Dedi:

– Oğul, əlindən nə iş gəlir?

Pəri xanım dedi:

– Hər bir şey əlimdən gələr. Amma simavar qoymaq, istəkən yumaq olsa, lap yaxşı olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hacı dedi:

– Oğul, gəl. Danışmaq da lazım deyil. Nə istəsən, verəcəm.

Pəri xanım burda qalmaqda olsun, sənə kimdən xəbər verim, Alı xandan.

Alı xan fikir elədi ki, bir toğlusu, çəpişi itən axtarır, sənin Pəri xanım kimi vəfalı yarın itib, niyə durmusan? Dəmirçiyə bir dəmir hasa, bir dəmir çarıx qayıtdırdı, and içdi ki, bu hasa gödələnə, çarıx dağılana kimi Pəri xanımı gəzəcəm.

Qara Vəziri də çağırıb, özü ilə götürdü, hər ikisi dərvişlibas olub, yola düşmək istəyəndə Alı xanın anası razı olmadı. Bu zaman Alı xan götürdü, görək anasına nə dedi:

Qadir allah, sən bilirsən,
Nə bəlalı başım mənim!
Durum, başım alım gedim,
Artıbdı təşvişim mənim!

Əlimdən uçurtdum bazım,
Dərdimi kağıza yazım;
Gərək gedim qürbət gəzim,
Dərvişlikdi işim mənim!

Baxar gözüm, yarı görməz,
Qoçaq qoçaqdan iz sormaz,
Axar çeşmim seli, durmaz,
Ceyhun olub yaşım mənim.

Alı xan eyləyir nəzər,
Yaradan üstündə hazır;
Boynu sınmış Qara Vəzir
İtirdi sirdaşım mənim![16]



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetişdi. Alı xan anası ilə bülbül güldən ayrılan kimi görüşüb ayrıldı, İstanbula tərəf yola düşdü.

İndi Alı xan, yanında da Qara Vəzir İstanbula çatmaqda olsunlar, sənə deyim Nərgiz xanımdan.

Nərgiz xanım kulafəringidə əyləşib, ətrafa tamaşa eləyirdi, bir də gördü ki, budu, küçə ilə iki dərviş gəlir. Baxdı ki, dərvişlərin biri qara, kifir bir adamdı, amma ikincisi bir oğlandı ki, yemə, içmə, elə xətti-xalına tamaşa elə. Bir onluq qızıl qarabaşa verib dedi:

– Apar bunu o qabaxcan gələn dərvişin kəşkülünə sal, adını da xəbər al.

Qarabaş gətirib qızılı kəşkülə salanda dərviş qızılı çıxardıb, geri verdi, dedi:

– Bala, biz pul yığan dərvişlərdən deyilik. Bizim dərdimiz var, dərd əhliyik.

Qarabaş soruşdu:

– Bə adın nədi?

Dərviş cavab verdi:

– Mənim adım Alı dərvişdi, onun adı Qara dərviş.

Qız qayıdıb getdi, pulu Nərgiz xanıma verib dedi:

– Deyirlər biz pay alan dərviş deyilik, biz dərd əhliyik. Özü də o qabaxcan gələnin adı Alı dərvişdi, sonra gələninki Qara dərviş.

Nərgiz xanım bir könüldən min könülə Alı xana aşiq oldu. Onları evə dəvət elədi. Telindən bir tük ayırıb, görək Alı xana nə dedi:

Aldı Nərgiz:

İltimas eylərəm, ay Alı dərviş,
Gəl al məni, getmə bizim ellərdən!
Sən də mənim kimi eşq oduna düş,
Gəl al məni, getmə bizim ellərdən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Alı xan:

İltimas eyləmə, ay Nərgiz xanım,
Gedərgi qonağam, qala bilmərəm.
Nə müddətdi bir tərlanım itibdi,
Soraxçıyam, soraq ala bilmərəm.

Aldı Nərgiz xanım:

Mənəm bu yerlərin sultanı, xanı,
Tutmuşam dəstimdə gulü, reyhanı,
Mən səni sevirəm, sən də sev məni,
Gəl al məni, getmə bizim ellərdən!

Aldı Alı xan:

Mənim yarım geyər alı qırmızı,
İşvəsi, qəmzəsi yandırır bizi,
Bağın bənövşəsi, gülü, nərgizi,
Ondan qeyri gülü dərə bilmərəm.

Aldı Nərgiz xanım:

Sən mənim canımsan, canı-cananım,
Sabahım, sərtacım, dinim, imanım,
Sana qurban olsun bu Nərgiz xanım,
Gəl al məni, getmə bizim ellərdən!

Aldı Alı xan:

Leyliyə Məcnundu, Əsliyə Kərəm,
Nola, yar camalın bir də bir görəm;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qadir allah, səndən möhlət istərəm,
Alıyam, Pərisiz can da verməræm.

Nərgiz xanım Alı xanın dərdindən halı olub, onu yola saldı. Alı xan günə bir mənzil gedib, Həsən qalaya çatanda gördü bir böyük yığınaq var. İrəli gedib gördü bir sövdayar əlində bir kağız tutub deyir:

– Kimdi bu kağızın sahibi?

Alı xan kağızı ondan aldı, baxanda gördü ki, Pəri xanımın dəsti-xəttidi. Tez oxuyub məzmunundan xəbərdar oldu, aldı, görək sövdayara nə dedi:

Aldı Alı xan:

Başına döndüyüm, bəzirgan başı,
Bu kağızı yazan sonam necoldu?
Ayağına dəyməsin yolların daşı,
Bu kağızı yazan sonam necoldu?

Aldı bəzirgan:

Başına döndüyüm, ay dərviş qardaş,
Kağız mənə nagah yerdən tuş oldu.
Sən də mənim kimi yaman dərdə düş,
Kağız mənə nagah yerdən tuş oldu.

Aldı Alı xan:

Aləm bilir şirin candan bezaram,
Özüm öz dərdimi pünhan yazaram,
Pəri deyə, bu dünyanı gəzərəm,
Bu kağızı yazan sonam necoldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı bəzirgan:

Eşqin səməndini minib çapmışam,
Bənna olub, sınıq könül yapmışam,
Naməni çay üstə yoldan tapmışam,
Namə mənə nagah yerdən tuş oldu.

Aldı Alı xan:

Alı xan deyərlər mənim adıma,
Pərvanətək qovrulmuşam oduna,
Hər zaman düşəndə Pəri yadıma,
Bu kağızı yazan Pərim necoldu?

Aldı bəzirgan:

Yetişsin dadına Heydəri-kərrar,
Yolunda qoymuşam mal, mülk-hər nə var,
Sana qurban olsun Saleh sövdayar,
Kağız mənə nagah yerdən tuş oldu![17]

Alı xan mərd adam idi. Sövdayar nə ki, xərc eləmişdi, bütün xərcini verdi. Sonra kağızı da götürüb, yola düşdü. Çox getdi, az getdi, bir çobana urcah oldu. Çoban elə ki, Pəri xanımı axtardıqlarını bildi, öz başına gələn əhvalatı onlara danışdı. Üstəlik Pəri xanımın kağızını da göstərdi. Alı xan kağızı oxuyub, lap yəqin hasil elədi ki, Pəri sağdı, özü də bu aralardadı. Qərəz, çoban da bunlara qoşuldu, mənzilbəmənzil teyyimənazil gedib, çatdılar Pitlis şəhərinə. Bunlar Pitlis şəhərini gəzə-gəzə gəlib Hacı Sayadın qapısına çıxdılar. Pəri xanım qapıda durmuşdu, gördü ki, Qara Vəzir, Alı xan, bir də çoban, budu, gəlirlər. Özünü bir az da başqa şəklə salıb, onları qabaqladı, salam verdi. Alı xan baxdı ki, bu bir keçəl oğlandı, amma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nə isə gözə çox şirin gəlir. Alı xanın quşu qondu ona, soruşdu:

– Sən kimsən, adın nədi?

Pəri xanım dedi:

– Adım keçəl Əhmədi. Özüm də bu evdə nökərəm.

Alı xan soruşdu:

– Yaxşı bura kimin evidi?

Pəri xanım dedi:

– Bu evin sahibinə Pitlisli Hacı Sayad deyərlər. Çox dünyagörmüş, gəzmiş, dolanmış bir adamdı. Həmişə kimin hər nə dərdi olsa, onun yanına gələr. Əgər siz bir gecə ona qonaq qalsanız, ondan çox şey əxz eləyə bilərsiniz.

Alı xan soruşdu:

– Bəs biz necə eləyək ki, ona qonaq olaq?

Pəri xanım dedi:

– Siz burada gözləyin, mən gedim ona deyim.

Pəri xanım daban aldı içəri, Hacı Sayadın yanına girdi. Hacı Sayad baxdı ki, keçəl sözlü adama oxşayır, soruşdu:

– Keçəl, nə sözün var?

Pəri xanım dedi:

– Hacı, bizim yerlərdən iki qərib dərviş gəlib, bu gecə mənə qonaq olmaq istəyirlər.

Hacı dedi:

– Get, çağır gəlsinlər. Sənin qonağın, mənim qonağım, təfavütü yoxdu.

Pəri xanım qaçıb, Alı xangili içəri çağırdı. Dərvişlər yedilər, içdilər, gecə araya gələndə Hacıgil də gəldilər bu otağa. De oradan, buradan söhbət başlandı. Pəri xanım üzün tutdu Alı xana, dedi:

– Ağa dərviş, bir nağıldan-əhvalatdan deyin, qulaq asaq, gecəmiz keçsin.

Alı xan qızardı, dedi:

– Vallah, biz nağıl – zad bilən dərvişlərdən deyilik.

Nağıl adı gələndə çobanın kefi duruldu, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nağılın yaxşısı elə dədə-babadan keçəllər bilərlər. Sən birini danış, biz də qulaq asaq.

Yerbəyerdən hamı çobanın sözünü tasdıqladı. Pəri xanıma da elə bu lazım idi. Dedi:

– Çoban qardaş, mən bir nağıl deyərəm, amma ki, şərtim var. Mən nağılı qurtarana qədər gərək heç kəs bayıra çıxmaya.

Çoban o saat çomağın çiyninə qaldırıb dedi:

– O məndə. Duraram qapıda. Bir adamı yerindən tərpənməyə qoymaram.

Çoban bunu deyib, keçdi qapının yanına. Hamı gözün keçələ dikdi. Pəri xanım diz üstə əyləşib, bir Tapdığa baxdı, bir də dönüb Qara Vəzirə baxdı, nağıla başlayıb dedi:

– Ay Hacı əmi, günlərin bir günündə bu Pitlis şəhərində dövlətli bir Hacı vardı. Bu Hacının oğul-uşağı yoxudu. Əhd elədi ki, allah mənə züryət versə, Qanlı suyun üstündən körpü saldıracağam. Xüdavəndi-ələm ona bir cüt uşaq verdi – biri oğlan, biri qız. Haman gün Hacı bir uşaq da məsciddən tapdı, arvadına dedi:

– Arvad, biz ikisini istədik, amma xudavəndi-aləm bizə üçünü verdi.

Arvad cavab verdi:

– Mən halal südümü harama əmizdirə bilmərəm. O, yaxşı olsa idi, oraya atmazdılar.

Bu sözü eşidəndə Tapdıq Pərinin sözünü yarımçıq kəsib, Hacı Sayada dedi:

– Ay dədə, icazə ver bir eşiyə çıxım, gəlim.

Hacı Sayad dedi:

– Ədə, dayan görüm, bu deyəsən qəribə əhvalat danışır.

Tapdıq durdu ki, çölə çıxsın. Çoban çomağı hərləyib dedi:

– Nə qədər ki, başın üstündədi, yerində otu!

Tapdıq dönüb oturdu yerində. Hacı dedi:

– Oğul, danışginən, görək dalı nə oldu?

Keçəl dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hacı əmi, bir gün oldu ki, bu şəhərin hacıları haca getdilər. Bizim Hacı da qızı Pəri xanımla tapıb saxladığı oğlu Tapdığı evdə qoyub, haca getdi.

Günlərin bir günündə Tapdıq bazardan gələndə o qarı ki, onu saxlamışdı, onnan qabaqlaşdı. Qarı dedi:

– Oğul Pəriynən necə yola gedirsən? Nə işdəsən?

Tapdıq dedi:

– Dolanıram da, nə işdə olacam?

Qarı dedi:

– Bə niyə arayı qatmamısan? O sənin bacın deyil ha.

Tapdıq soruşdu:

– Bə mən neyləyim?

Qarı cavab verdi:

– Get bir nişan dəsmalı al, bu gecə arayı düzəlt.

Tapdıq getdi, bir dəsmal hazır eləyib, gəldi Pəri xanımın yanına, dedi:

– Nə cür olsa, gərək mənə gələsən.

Pəri xanım nə qədər yalvardısa əlac eləyə bilmədi, axırda aftafanın küpüynən onun təpəsini vurdu dağıtdı. Bir gün Məkkə çovuşu gəldi, xəbər verdi ki, hacılar gəlirlər. Tapdıq Pəri xanıma deməyib, xəlvət atın birini mindi, qabağa getdi. Ziyarət edəndən sonra Hacı ondan soruşdu:

– Oğul niyə bikefsən?

Tapdıq cavab verdi:

– Bir qız qoyub gedibsən ki, gündə filan qədər lotunu başına toplayıb, camaatın içində bizi biyabır eləyirdi. Bir dəfə üstə düşdüm, bir neçəsini bıçaqladım, onlar da məni bu günə salıb, doğradılar.

Hacı oğlunu çağırıb dedi:

– Oğul, apar bacın ləçəri öldür, qanlı paltarını mana gətir!

Oğlan gedib, bacısını atın tərkinə alıb, apardı öldürməyə.

Pəri belə deyəndə Hacı Sayadın gözündən yaş töküldü. Soruşdu ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, bəs qızın meyidi nə oldu?
Pəri dedi:
– Hələ dayan, Hacı əmi.
Pəri başladı nağılın dalına. Ta söhbət o yerə gəlib çıxdı ki, Alı xan Pərini kəcavəynən Pitlisə yola salır. Bu yerdə Qara Vəzir ayağa qalxdı ki:
– Ay çoban, qoy bir çölə çıxım, bu saat gəlirəm.
Çoban çomağı hərləyib dedi:
– A qara köpək, sən elə əvvəldən mənim gözümə birtəhər gəlirsən. Otu yerində, səndə əngəl var.
Qara Vəzir qayıdıb oturdu yerində. Alı xan dedi:
– Qurban olum sana, keçəl, de görüm dalı nə oldu?
Pəri xanım əhvalatı necə ki biz bilirik, əvvəldən axıra qədər danışdı, sonra Alı xanın naçağın götürüb, sinəsinə basdı, dedi:

O zaman ki, çıxdıq Vandan İrana,
Qatırlı, şuturlu, mayalı dərviş!
Dindirəndə kəlmə-kəlmə danışan,
Gəlindən, qızdan da hayalı dərviş!

O zaman ki, çıxdım yollara Vandan,
O qürbət ellərdən mən oldum candan,
Halımı xəbər al Budaq çobandan,
O bilir hər işi, əhvalı, dərviş!

Başım qoydum astanaya, daşa da,
Bir rəhm eylə gözdə axan yaşa da,
Mən də gördüm bir qaranlıq meşədə,
O sən itirdiyin maralı, dərviş!

Fələk məni çox ağlatdı, güldürdü,
Ağladıban göz yaşımı sildirdi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Duran Vəzir bir cüt oğlum öldürdü,
Mərd igid qanına qan alı, dərviş!

Pəri xanım bir ətrafına göz dolandırıb, aldı sözünün axır bəndini, dedi:

Səhər tezdən doğan dan ulduzuyam,
Atamın, anamın xoş avazıyam,
İsmim Pəri, Hacı Sayad qızıyam,
İstəsən göstərim camalı, dərviş![18]

Pəri sözü deyib, başından yağlı sələyi çıxartdı. On dörd hörük yasəmən saçları töküldü topuğuna. Hacı Sayad, qardaşı, anası, hərəsi bir yandan cumdu qızın üstünə. Çoban çomağıynan onların hərəsini bir yana itələyib dedi:

– Çəkilin kənara! Bacımı yeməyəcəksiniz ki? Heç öldürmək istəyəndə ürəyiniz yanmırdı. İndi niyə belə şirin olub?

Sonra çomağın ucundan paltarı götürüb, qoydu Pərini qabağına, dedi:

– Bacı, dur paltarını dəyiş! Səni heç kimə verəsi deyiləm. Öz evimizə aparacağam.

Hacı Sayad Tapdıqla vəziri göstərib dedi:

– İndi biz bunlara nə eləyək?

Çoban dedi:

– Onların da işinə özüm baxacağam. Hamıdan qabaq bax bu Tapdığın işinə baxacağam. Bir yerdə adam çörək yesə, ona xəyanət eləməz. O ola ki, qardaş, bacıya xəyanət eləyə. Bunun günahı çox böyükdü. İndi mən Tapdıqla vəziri qıyma-qıyma doğrayıb, peyinliyə tullayacağam.

Çoban bunu deyib, o saat Tapdıqla Vəziri parça-parça eləyib, alaqapının hər tərəfindən bir şaqqalarını asdı. O qarı ki, Tapdığı öyrətmişdi, onu da bağladı bir xam qatırın quyruğuna, dedi:

– Qarı bilər, qatır bilər, öz işləridi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu işlər hamısı qurtarandan sonra Alı xan Pəri xanıma yanaşmaq istədi. Hacı Sayad qoymayıb dedi:

– Ay Alı dərviş, daha mən qızımı sana verməyəcəyəm.

Hacı Sayad Alı xana belə deyəndə çoban çomağı qaldırıb dedi:

– O mənim bacımdı, heç kəsə dəxli yoxdu, heç kəsə də verəsi deyiləm. Bacı, dur gedək evimizə!

Çobana nə qədər dedilərsə, bir şey çıxmadı. Pəri xanım gördü ki, çoban sözünün üstündə möhkəm durub, atası da onu buraxmaq istəmir. İş belə olanda götürdü Pəri xanım, görək nə dedi:

Qanlı dağlar genə düşdü araya,
Haşa üzünüzdən, yaman ayrılıq!
Ölüm haqdı bu dünyada insana,
Ölümdən betərdi, aman, ayrılıq!

Dərdim bir dəryadı, könlüm bir ada,
Günbəgündən artdı, oldu ziyada;
Hərdən bir cüt oğul düşəndə yada,
Ucalır başımdan duman, ayrılıq!

Pəri gəlib bu meydanda durmağa,
Müjgan oxun şirin cana vurmağa;
Dünya beyvəfadı bir də görməyə,
Gəlmir sağlığıma güman, ayrılıq!

Alı xan davam gətirməyib, aldı Pərinin cavabında, dedi:

Başına döndüyüm, alagöz Pərim,
Ala gözlü yarım, Pərim, ağlama.
İstəyirlər səni məndən alalar,
Yaxşı yerə gəlib karım, ağlama!

Fələkdən dağıldı bürcü hasarım,
Yaxşı keçinmədi baxtım, iqbalım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən öləndən sonra saxla paltarım,
Səndə qalsın yadigarım, ağlama!

Alıyam, sığındım vəfalı yara,
Bu bitməz işlərə kim eylər çara?
Sən bivəfasanmış, a baxtı qara,
Kəsdin mənim etibarım, ağlama!

Pəri xanım tavus quşu kimi qanad açdı, aldı, görək nə dedi:

Uzaq yoldan gələn yarım,
Yoluna qurban olduğum!
Bircə danış tuti kimi,
Dilinə qurban olduğum!

Yoxdu səntək bir məndana,
Məni gətirmisən cana;
Gəl sarıl bəyaz gərdana,
Qoluna qurban olduğum!

Keçib bu dağlardan aşaq,
Mövc verib, dəryatək coşaq,
Pəri der: gəl qucaqlaşaq,
Belinə qurban olduğum!

Çoban da, Hacı Sayad da baxdılar ki, bunları bir-birindən ayırmaq heç insaf deyil. Hacı bir aşıq gətirdi. Pəri xanımla Alı xana yeddi gün, yeddi gecə toy vurdu. Çobana bir sürü qoyun Hacı Sayad, bir sürü də Alı xan bağışladı.

Toyun axırıncı günü ustad aşıq gəlib, bu duvaqqapma ilə onların toylarını bağladı:

Sallanıban yüz nazıla,
Gələn kimin yarıdı bu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəddi-qamət, nə qiyamət,
Xırdaca dilbəridi bu?
Qabağı vəchi-qəmər,
Yanağı əhməridi bu?
Qaşı kaman, kirpiyi ox,
Gözləri xumarıdı bu?
Sinəmdə dəftər olub,
Dilimin əzbəridi bu.
        Əzbər boy bəstə,
        Dəhanı püstə,
        Ləbləri məstə,
        Cənnət libasda,
        Dal gərdən üstə
Qıvrılmış siyah tellər.
Deyəsən şahmarıdı bu.

Heç tapılmaz bu misildə
Gözəllər sultanı deyim.
Ərşdə mələk, yerdə qılman,
Ol gülü xəndanı deyim.
Ləl, mərcan, cavahirdi
Dəhanı, dəndanı deyim.
Vəsfi düşübdü aləmə,
Dillərdə dastanı deyim.
        Dastan olmuş halı var.
        Ləblərinin balı var.
        Ağ üzünün xalı var.
        Nazik, incə beli var.
        Əcəb şirin dili var.
Ağzı xoş bülbül kimi
Kəlməsi şəkərdi bu.

Bircə baxın bu cavanın
Nə əcəb türfə çağı var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəsləyib hər tərəfdən,
Bir cüt şamama tağı var.
Açılıb sinəsi meydan,
Mərmərə bənzər ağı var.
Müşk-ənbər iyili.
Qoxusu, ətri, yağı var.
Bağına bağban oldum,
Cənnət misalı bağı var.
        Bağında lala.
        Həm sağu sola.
        Çıxanda yola
        Düşdüm xəyala.
        Başıma bəla.
Tərif deyim, qulaq asın,
Gözəllər sərdarıdı bu.

Çıxanda ceyran balası,
Necə gəlir düzdə, baxın!
Bir belə yeriş yeriməz
Ördək ilə qaz da, baxın!
Geyinib əlvan-əlvan,
Örtübdü gülgəz də, baxın!
Süsən-sünbül, tər bənəfşə,
Açılıbdı yazda, baxın!
Mən bu qədər vəsf edirəm,
İnanmırsız, siz də baxın!
        Baxın bu qaşı kamana,
        Batıbdı qara, dumana,
        Könülü düşdü gümana.
        Oylağında gül, çəmənə,
        Tez yetirin bircə mana.
Məhəmmədi dərdə salan,
Belə sitəmkarıdı bu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# LƏTİF ŞAH

## USTADNAMƏ

Yığdın bu dünyanın malın, dövlətin,
Əllini keçirdin, yüzə nə qaldı?
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora halqa salma dəmirdən,
Aydı, gündü gələr, gedər ömürdən,
Tələsərik: görən yaza nə qaldı?

Haraya baxıram hava məxşuşdu,
Gördüyüm oylaqlar yadıma düşdü;
Bir gün eşidərsən Alı[1] da köçdü,
Sındı simli tarı, saza nə qaldı?

Ustadlar ustadnaməni bir deməyib, iki deyər, biz də deyək iki olsun, düşmənin gözü oyulsun.

Ay ariflər, heç kəs yalqız olmasın,
Yalqız işə daşdan divar deyərlər.
Bəzirgansan, aç mətaın, xırd eylə,
Ararlar: yükündə nə var, – deyərlər.

Bəylər ələ alar alıcı quşu,
Sərraflar tanıyar qiymətli daşı,
Oğul atadan son artırsa işi,
El içində ona tavar deyərlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızılgülü dəstə-dəstə dərginən,
Dəribən də pünhanlara sərginən,
Hər nə versən öz əlinlə verginən,
Yüz qadanı başdan sovar deyərlər.

Neylərəm bağçanı barı olmasa,
Neylərəm heyvası, narı olmasa;
Bir igidin dünya varı olmasa,
Yeləksiz ox kimi çovar deyərlər.

İsgəndər atlandı, çıxdı zülmatdan,
Qasım, Xızr içdi abi-həyatdan;
Söz düşsə igiddən, qılıncdan, atdan,
Süfrəni hamıdan kübar deyərlər.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun!

Arif məclisində bir söz söylərəm,
Nə xilaf, nə çaşqın, nə qələt olmaz.
Loğmadan düz olan, nütfədən halal,
İnşallah, heç yerdə xəcalət olmaz.

Mənim bu sözümü sərraflar qanar,
Müxənnəslər etdiyindən utanar.
Varlıqda dost ola, yoxluqda kənar –
İgidəm deyəndə bu adət olmaz.

Ələsgər, mətləbin xudadan istə,
İnsaf olmaz müxənnəsdə, nakəsdə;
Bəylik, göylük, səylik olan məclisdə,
Qaç ki, orda xeyir-bərəkət olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar belə nağıl eyləyirlər ki, Yəmən şəhərində Dərdli şah adında bir padşah vardı. Bunun dövləti, məmləkəti, əsgəri, ləşgəri, xəzinələri – hər şeyi başdan aşıb-daşırdı. Özü də çox ədalətli şah idi. Amma ki, dünyada özündən sonra mal-dövlətinə sahib olacaq bir züryəti yox idi. Bunun üçün də çox dərd çəkib, dünya malına heç baxmırdı.

Dünyada həkim qalmamışdı, ziyarət qalmamışdı ki, padşah arvadı ilə getməsin. Amma heç bir yerdən bunun dərdinə çarə olmurdu. Padşah həmişə dərdlə gəzərdi, dərdlə oturub, dərdlə qalxardı. Buna görə də adına Dərdli şah deyərdilər.

Padşah bir gün vəzir-vüzəranı çağırıb dedi:

– Məndən sonra mənim mal-dövlətimə, xəzinələrimə, əsgərlərimə, ləşgərimə sahib olacaq bir züryətim yoxdu. Dünyada hər nə əlac dedilər elədim, amma bir çarə olmadı. İndi siz deyin, mənim bu dərdimə nə çarə var? Mən nə eləməliyəm ki, züryətim olsun.

Bu zaman vəzirlərin içindən Qoca Lələ adında biri dedi:

– Padşahım sağ olsun, yeddi yol ayrıcında bir ev tikdir. Oraya halal adamlardan gözətçi qoy. Gələnə-gedənə çörək ver, aş ver, qonaq elə. Bəlkə bir ağzıdualı kimsə rast gəldi, sizin dərdinizin çarəsini dedi.

Dərdli şah Qoca Lələnin sözünü qəbul eləyib, yeddi yol ayrıcında böyük evlər tikdirdi. Dillərdə söylənən hər cür ləzzətli yeməklər bişirtdirib, pulsuz-parasız gələnə, keçənə yedirtdi. Bu münvalınan həftələr, aylar keçdi. Bir gün padşah Lələni çağırıb dedi:

– Ay Qoca Lələ, neçə aydı ki, biz yeddi yol ayrıcında evlər düzəltmişik. Gəl dərvişlibas olub, həm ova çıxaq, həm də o evlərə baxaq, görək gəlib keçənə nə cür yemək verirlər. Bəlkə qulluqçular mənə xəyanət eləyib, gəlib-gedənə yemək vermirlər, onunçün də mənim züryətim olmur.

Qoca Lələ padşahın sözlərini qəbul elədi. Dərviş libası geydilər, axşama qədər gəzib, axşam üstü evlərin yanına gəl-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dilər. Elə təzəcə yaxınlaşırdılar ki, qulluqçular çıxıb bunları içəri dəvət elədilər. Zorla aparıb yedirtdilər, içirtdilər, sonra qulluqçulardan biri dedi:

– Ay dərviş babalar, sizin ağzınız dualı olar. Bizim padşahın züryəti yoxdu, dua eləyin, bəlkə allah ona bir oğul verdi.

Padşahla vəzir dua oxudular.

Bu evin yanında böyük bir gül bağı varıdı. Padşah ilə Lələ elə təzəcə bu bağa girmişdilər ki, birdən bir nurani dərviş onların qabağına çıxdı, padşaha salam verib dedi:

– Salami-əleyküm, Dərdli şah!

Padşah dedi:

– Sən mənim dərdli olmağımı haradan bilirsən?

Dərviş dedi:

– Üz-gözündən görürəm.

Padşah dedi:

– Onda sən mənim dərdimin çarəsini də bilərsən. De görüm, mənim dərdimin əlacı nədi?

Bu zaman dərviş cibindən bir qırmızı alma çıxardıb dedi:

– Ala, bu qırmızı almanı düz ortadan ikiliyə böl! Yarısını sən ye, yarısını da xanımına ver! Gün keçər, ay dolanar, bir oğlunuz olar. Amma mən gəlməmiş oğlanın adını qoymazsınız.

Dərviş sözünü tamama yetirən kimi yox oldu. Padşah nə qədər ah-tuh elədi, vaysındı, amma dərvişdən bir əsər də görə bilmədi. Padşah almanı götürüb, Lələ ilə bərabər evinə gəldi, soyunub əlini, üzünü yudu, sonra əmr elədi ki bir qızıl məcməyi ilə bir qızıl bıçaq gətirdilər. Padşah almanı ortadan bölüb, yarısın xanımına verdi, yarısın da özü yedi.

Doqquz ay, doqquz gün, doqquz saat tamam olduqdan sonra Soltan xanım bari-həmlini yerə qoyub, bir oğlan dünyaya gətirdi ki, misli görülməmişdi. Padşaha müjdə xəbəri getdi.

Böyük şadlıq keçirildi, çalğı çalındı, padşahın oğlunu bəsləmək üçün qırx incə qız ayrıldı.

Qızlar uşağı soyuqdan istiyə, istidən soyuğa göstərməz-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dilər. Nağıl uşağı tez böyüyər, uşaq böyüdü. Məktəbə verdilər. Amma uşağa ad qoymurdular. Onun adına şahzadə deyirdilər. Uşaq on yaşına girdi. Amma yenə adsız idi. Bir gün Soltan xanım padşaha dedi:

– Padşahım sağ olsun, aləm bizi söyür ki, dünyada bir oğul tapdılar, onun da adı yox. Gəl bir məclis çağıraq, şahzadəyə ad qoyaq.

Padşah dedi:

– Bunun adını biz qoya bilmərik. Şahzadənin adını bir nurani dərviş qoyasıdı. Qorxuram biz dərvişsiz ad qoyaq, sonra şahzadənin başına xata gələ. Dərviş gəlməsə, mən şahzadəyə ad qoymayacağam. O deyib uşağın olanda adını mən qoyacağam.

Padşah çox dedi, Soltan xanım az eşitdi, yalvardı, yaxardı, axırda padşahı razı saldı.

Padşah xanımının sözünü qəbul eləyib, sabahı gün bütün padşahlara xəbər verdi ki, bəs filan ayın filan günündə xeyirli işim var. Oğluma ad qoyacağam. Məni istəyən gəlməlidi. Toy üçün hazırlıq görüldü. Hər tərəfdən dəvət olunan qonaqlar gəldilər. Bir cümə axşamı gecəsi məclis yığıldı, uşağın adını qoymaq üçün söhbət başlandı. Kimisi dedi Məhəmməd olsun, kimisi dedi ki, Hüseyn olsun, bu qalmaqal içində birdən bir yaşlı abalı nurani, ağsaqqal dərviş içəri girib, salam verdi, ayaq üstə şahzadənin adını Lətif şah qoyuram, – deyib, yox oldu. Aşağı, yuxarı dərviş – dərvişi tapmadılar. Bütün məclis mat qaldı ki, bu nə hikmət idi. Bu zaman padşah barmağını dişləyib, başa düşdü ki, bu haman bağda alma verən dərviş imiş. Padşah daha da şad oldu. Bir həftə şadlıq keçirildi. Bir həftədən sonra məclis dağıldı.

Ay keçirdi, gün dolanırdı, Lətif şah da məktəbə davam eləyirdi. Bir gün yenə Lətif şah məktəbdə oturmuşdu, bir də gördü ki, iki atlı adam arxalarında tüfəngləri, qollarında heybələri, dallarında tazıları gedirlər. Molla nə qədər Lətif şaha dərs dedisə, Lətif şah gözlərini atlılardan ayırmadı. Bir az baxdıqdan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sonra soruşdu:

– O atlılar kimdilər?

Molla dedi:

– Onlar avçılardı. At belində gəzib, av eyləyirlər.

Lətif şan dedi:

– Nə olar, padşaha de, mənim üçün də at, silah alsın, mən də ava çıxım.

Molla Lətif şahı azad eləyib, özü də düz padşahın yanına getdi. Lətif şahın istədiyini padşaha söylədi.

Padşah dedi:

– Bala, Lətif şah, sən atanın-ananın bir oğlusan. Sənə nə lazımdı avçı olmaq? Get, oxu!

Şah nə qədər nəsihət elədisə, Lətif şah qəbul eləmədi. Axırda padşah Lətif şaha bir köhlən at, qılınc, avçı paltarı, bir də bir tazı verdi. Bu vaxt Lətif şahın on beş yaşı var idi. Padşah yeddi yüz yetmiş yeddi dəli də buna qoşdu. Lətif şah bu atlıları götürüb, Yəmən şəhərindən dağlara ava çıxdı.

Bunların atlarının ayaq səsindən harada bir maral, ceyran vardısa ürküb qaçırdı. Bunlar av tutmaq əvəzinə, nə qədər ki, av vardı ürkütdülər. Az gəzdilər, çox gəzdilər, gördülər ki, beləliklə bir şey vurmaq olmaz, axırda cüt-cüt olub, av axtarmağa başladılar. Hərə öz işində olsun, görək Lətif şah nə elədi. Lətif şah sabahdan günortaya kimi gəzdi, günorta vaxtı bir az çörək yeyib yatdı.

Bir az yuxulamışdı ki, haman dərviş yuxusuna gəlib eşq badəsini ona içirtdi. Ayineyi-dövranı çevirib, Hindistan şahının qızı Mehriban Soltanı ona göstərib dedi:

– Sənin qismətin budu. Bunu sənə buta verirəm.

Lətif şah qızı görən kimi bihuş olub, özündən getdi. Ağzından köpük gəldi. Yoldaşları gəlib gördülər ki, Lətif şah qan-tər içində yatıb, ağzından köpük gəlir. Üzü saralıb, bal mumuna dönübdü. Bunu haman saat qaldırıb, çadırına götürdülər. Handan-hana Lətif şah ayılıb özünə gəldi. Əhvalatı yoldaşlarına danışdı. Əhd eləyib, peyman bağladılar. Onlar da Lətif şaha qoşulub, yola düşdülər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlib, gəlib, Hindistan dağlarına çatdılar. Burada bir mağarada məsgən salıb, yaşamağa başladılar. İndi bunlar burada qalsınlar, sizə haradan xəbər verim, Hindistan şahından.

Hindistan şahı ki, varıdı, bir ədalətli, dövlətli şah olub, aləmdə adı söylənirdi. Bunun da Mehriban Soltan adlı bir qızı varıdı. Bu qızı hər nə qədər padşahlar istəyirdisə, qız heç kimsəyə getmək istəmirdi. Bir gün günorta vaxtı qız yuxuya getmişdi, aləmiröyada haman dərviş eşq badəsini ona içirtdi, ayineyi-dövranı çevirib, Hindistan dağlarında Lətif şahı ona göstərib dedi:

– Bu dünyada sənin qismətin ancaq bu oğlandı.

Qız bu oğlanı görən kimi bihuş olub, yerə yıxıldı, ağzından qanlı köpük gəldi. Bu gündən sonra Mehriban Soltanın üzü gülmədi, könlü qəmlə, gözləri yaşla dolu, saralıb solmağa başladı. Padşaha xəbər getdi ki: bəs niyə durmusan, qızın bərk xəstələnib. Padşah əmr elədi, həkimlər gəldi, cərrahlar gəldi, amma bir çarə olmadı. Axırda həkimlərdən biri dedi:

– Bunun dərdi sarılıqdı. Hindistan dağlarında bir bulaq var, onda çimsə yaxşı olar.

Padşah əmr elədi, səksən minlik qoşun hazır oldu. Kəcavələr qoşuldu, yola düşdülər.

Gethaget, günlərin birində Hindistan dağlarında haman bulaq olan yerə çatdılar. O gecə Mehriban Soltan bulaqda çımdi, xəstəliyi sağaldı. Dan ulduzu kimi işıqlanıb yanmağa başladı.

İndi gəl xəbəri sənə kimdən verim, Lətif şahdan. Həmin gecə Lətif şah qaraul çəkirdi. Gördü ki, çəməndə çadırlar qurulub. Lətif şah düz yaşıl çadırlı kəcavənin yanına getdi… Pərdni açıb baxdı, nə gördü? Evin yıxılsın, nə baxırsan, dərvişin göstərdiyi qız buradadı. Lətif şah qızın ay kimi camalını görəndə bihuş olub yerə yıxıldı. Mehriban Soltan da səsə kəcavədən çıxıb baxdı ki, nə baxırsan, dərvişin göstərdiyi oğlandı. Dayana bilməyib, əmr elədi ki, kəcavələr qoşulsun. Bəli, kəcavələr qoşuldu. Yola düşəndə Lələ Mehriban Soltandan soruşdu:

– Bu kimdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehriban Soltan dedi:

– Bu qərib avçıdı. Kim olduğunu indi özün bilərsən. Aldı sazı sinəsinə, görək yana-yana nə dedi:

Dərdü qəm içində yatan, ey oğlan[2],
Bir od saldın şirin cana, gedirəm.
Vallahi, kəsildi səbrim, qərarım,
Atəş alıb, yana-yana gedirəm.

İnciynən tikəydim yaşılı, alı,
Bundan belə gözüm gözləyər yolu.
Əmanətdi, verdim bu ərzi-halı,
Göhərəm, çatmışam kana, gedirəm.

Bu Mehriban sənə mübtəla oldu,
Gözüm gördü, könlüm intizar qaldı.
Mənzildən məkana üç aylıq yoldu,
Xəbər alsan, Hindistana gedirəm.

Söz tamam oldu. Onun dediklərini Lələ bir-bir yazdı. Bəli, kağızı Lətif şahın qoynuna qoyub, getdilər.

İndi gəl xəbəri kimdən verim, Lətif şahın yoldaşlarından. Bunlar aradılar, axtardılar, Lətif şahı tapmadılar. Hesab elədilər ki, əgər biz Lətif şahı tapmasaq padşah bizim dərimizə saman təpəcək. Hər biri bir tərəfə dağılıb, Lətif şahı axtarmağa başladılar. Sağ tərəfə gedənlər gördülər ki, Lətif şah bihuş olub yerə yıxılıb. Bunu beləcə götürüb gətirirdilər, şey-şüylərini də toplayıb, düz Yəmən şəhərinə yola düşdülər.

Dərdli şah oğlunu belə pərişan görən kimi başından duman çıxdı. Lələyə dedi:

– Sənə üç gün möhlətdi. Lətif şahın dərdinə dərman tapmasan, boynunu vurduracağam.

Lələ başa düşdü ki, Lətif şahın dərdi eşqdi. Durub onun ya-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nına gəldi, burdan, ordan söhbət saldı, axırda fürsət tapıb mətləbin üstünə gəldi, dərdinin səbəbini soruşdu:

Lətif şah dedi:

– Mən sözlə dərdimi desəm, dilim yanar. Sazla deyim, qulaq as!

Aldı sazı sinəsinə, görək nə dedi:

Əziz lələm, nə sorarsan bu könlümün cəfasını?
Etibarsız bu dünyanın kim görübdü vəfasını?
Bir tavar, bir gözəl gördüm ki, atdı peykan oxunu,
Xişm ilə tar-mar etdi ürəyimin səfasını.

Dərdə giriftar olmuşam qurtarmıram heç bəladən,
Bir tülək tərlandı məni öz hüsnünə heyran edən.
Səksən min sərdar içində o düşdü kəcavədən,
Ondan soruş bu qəlbimin, ürəyimin yarasını.

Lətif şah məzara gedər əgər əlacın bulmasa,
Əlac mənə mümkün olmaz, qədər öz yerin almasa,
Türbəmi ziyarət edən o şux tərlanım gəlməsə,
Loğman gəlsə tapa bilməz bu dərdimin davasını.

Lətif şah sözü tamam elədi, sonra da Hindistan padşahının qızı Mehriban Soltana aşiq olduğunu dedi. Lələ baxdı ki, eşq odu bunu yandırmaqdadı. Nə olursa-olsun, sevdiyini tapmalıdı. Gəlib padşaha dedi:

– Padşahım sağ olsun, şahzadə Hindistan şahının qızı Mehriban Soltana aşiq olubdu.

Padşah dedi:

– Mehriban Soltan olmasın, öz gözəllərimizdən biri olsun. Gətirin bütün qızları, kimi istərsə onu alarıq.

Qızların hamısını gül bağına topladılar. Lətif şahı da bunların yanına gətirdilər ki, bəlkə birini sevib alsın. Lətif şahın ürəyi yandı, aldı sazı, görək qızlara nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yığılıblar, seyrangahə çıxıblar,
Bu gün bayrammıdı günü qızların?
Sona kimi nazü qəmzə satırlar,
Məclislər saqisi hanı qızların?

Mahitab sinəmə çəkibdi dağı,
Şəmsinurun qoynu behiştin bağı,
Yaxşının gözləri hərami, yağı,
Baxışı heyran etdi məni qızların.

Güləşrəfin saçı gözəl bir təhər,
Sayalının qoynu yazıstan, şəhər,
Sara, Güllü, Sona, Yetər – hər səhər
Bülbül sədasıdı ünü qızların.

Dön bəri, qız, günəş çıxsın oyuna[3],
Mən qurbanam Telli, Əfruz boyuna;
Dəyməz bizim yarın bir tək muyuna,
Yığılıb cəm olsa mini qızların.

Nigar nəzakətdə bənzər xanıma,
Bağdagül bacımdı, gəlsin yanıma,
Huri bir od salsa şirin canıma,
Yox imiş imanı, dini qızların.

Lətif şah mayildi xəttü xalına,
Surahı qamətə, gül camalına,
Ala gözlü Mehribanın yoluna,
Tamam qurban olsun canı qızların![4]

Söz tamamına yetəndə Lətif şahın üzü saraldı. Onu tez evlərinə apardılar. Lələ baxdı ki, alma kimi oğlan günü-gündən saralıb solmaqdadı. Padşahın yanına gedib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah sağ olsun, mən bu işi belə qoya bilmərəm. İcazə ver mən Hindistana gedim, ya başımı verəcəyəm, ya da Lətif şahın vergisini tapacağam.

Padşah icazə verdi. Lələ hazırlaşıb yola çıxmaq istəyəndə Lətif şah Lələyə dedi:

– Mən özüm də səninlə gedəcəyəm.

Padşah, arvadı nə qədər yalvardılarsa, Lətif şaha söz kar eləmədi.

Axırda Dərdli şah qırx dəvə yükü xas gümüş, qızıl verib, Qoca Lələ ilə Lətifi Hindistan şəhərinə, bəzirgan sifətində yola saldı. Bunlar yola çıxıb, az-çox getdikdən sonra bir gün axşam vaxtı Yəmən dağlarına çatdılar. Gün batan vaxtı idi. Yəmən dağlarının başı yumurta kimi ağ görünürdü. Bu zaman Lətif şahın ürəyi dalğalanıb dedi:

– Biz gedirik, görəsən bir də qismət olacaqmı gəlib vətəni görək?!

Aldı sazı, dedi:

Kəsildi nişana, yad oldu vətən,
Gözdən itdi bizim yerin dağları!
Çünki Leyli intizarı-Məcnundu,
Fəğan elər səhər, sübhün çağları!

Aldı Lələ:

Sən səbr elə zülmün hər bəlasına,
O dərgahda sınanıbdı çoxları.
Bu darlığa bir sərbəstlik verən var,
Hikmətiylə var edibdi yoxları.

Aldı Lətif şah:

Uzaqdı mənzilim, möhlət daşıdı,
Cismimi yandıran eşq ataşıdı;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əcəl ayrılığı haqqın işidi,
Fələk bizdən cida saldı sağları!

Aldı Lələ:

Ərzilə içilməz fələyin zəhri,
Ox vurdun sinəmə, çəkirəm qəhri;
Talandı könlümün mahalı, şəhri,
Qırıldı qəddimin dal budaqları.

Aldı Lətif şah:

Lətif şah da vətənindən cidadı,
Əmr-qadir allah barı-xudadı.
Fələk hicran tapdağilə budadı,
Biçildi mehrimin gül budaqları[5].

Aldı Lələ:

Sərgərdan Lələyəm, çəkərəm əza,
Əksilməz bu yara, köhnəlməz, taza.
Günbəgün sinəmə dağ çəkər qəza,
Sönübdü könlümün şam çıraxları[6].

Sözü qurtarıb, yenə də yollarına davam elədilər. Gedə-gedə günlərin birində Hindistan şəhərinə daxil oldular. Mehriban Soltanın sarayına yaxın bir yerdə bir dükan kiralayıb, mallarını satmağa başladılar. Hindistan qumaşının, parçasının arşını otuz qəpiyə idisə, bunlar on dəfə yaxşı olan parçanın arşınını on qəpiyə verirdilər. Şəhərə səs düşdü. Hər kəsə parça lazım deyildisə, o da almağa gəldi. Bir gün Mehriban Soltanın kənizlərinə xəbər gəldi ki, filan küçəyə bir bəzirgan gəlib, parçanın arşınını dörd qəpiyə verir. Qızlar yığıldılar, Mehriban Soltana dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Üç ildi ki, sənin yanında işləyirik, bir dəfə də olsun, paltarımızı təzələməmisən. Gəl bu dəfə təzələ! Şəhərdə ucuz qiymətə parça satılır.

Mehriban Soltan qızların sözünü yerə salmayıb Topal qızı göndərdi ki, parça alsın. Topal qız gedib qırx top parça aldı. Qoca Lələ pulu istəyəndə Topal qız dedi:

– O cavan oğlanı yolla gəlsin, Mehriban Soltandan haqqını alsın.

Lələ də Lətif şahı onunla yolladı.

Mehriban xanım Lətif şahı görən kimi əmr elədi ki:

– O oğlanı mənim yanıma yollayın, pulunu özüm verəcəyəm. Siz də, ay qızlar, Topal qız gətirdiyi parçadan adama iki dəst tikdirin!

Qızlar parçanı biçməkdə olsunlar, Mehriban Soltan Lətif şahı gül bağına gətirib, dərdini sazla deməyə başladı.

Aldı Mehriban Soltan:

Mən səni görmüşdüm xanlar donunda[7],
Əlindəydi şah babanın fərmanı.
Xak etdim üzünü, eylədim rica,
Bəxş etmədin biçarəyə dərmanı.

Lətif şah Mehriban Soltanı tanıdı. Huşu başından çıxdı. Özünü bir təhər saxlayıb, görək cavabında nə dedi:

Aldı Lətif şah:

Bir baxışdan məni sərxoş eylədin,
Kaş ki, o gün görməyəydi yar səni!
Təğayir zülflərin nə zəhmi varmış,
Bu sayaqda hörməyəydi yar səni!

Aldı Mehriban Soltan:

Yolların gözlədim müddət çağında,
Sinəm qəm dağıdı, qəm duzağında.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yar, səhər çağında, gülşən bağında,
Qızıl güləm, bülbül kimi dər məni!

Aldı Lətif şah:

Qərar versən, qərarımda duraram,
Arzum budu, muradımı alaram.
Min günümü bir gününə verərəm,
Cani-dildən billəm xilaskar səni.

Aldı Mehriban Soltan:

Mehriban geyərdi al ilə qara,
Vücudum şəhrini vermişdim yara;
Əgər gəlməsəydin bizim diyara,
Yaxardı atəşin vərbəvər məni[8].

Aldı Lətif şah:

Sərgərdan Lətifi sən etdin belə,
Vücudum şəhrinə saldın vəlvələ;
Pəridən xoşliqa, qılmandan əla,
Mələkdən mən gördüm lütfkar səni.

Söz tamam oldu. Göyərçin balaları kimi bir-birinə sarmaşdılar. Lətif şah Mehriban Soltandan ayrılıb, isitməli adam kimi beli qırıla-qırıla Lələnin yanına gəldi. Lələ soruşdu:

– Ay balam, sabahdan bu vaxta qədər harada idin?

Lətif şah dedi:

– Lələ, söz ilə deyə bilmərəm. Od tutub dilim yanar. Əgər istəsən, sazla deyərəm.

Aldı sazı, görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dost bağına vardım, Lələ,
İşrətli divanı gördüm.
Bir əzim möcüzat ilə
Sanki Nuh tufanı gördüm.

Dövr etdim mən sağ, solnan,
Çıxıb pərvaz etdi gülnən.
Xilusi-qəlb, canü dilnən
Sevdiyim cananı gördüm.

Lətif şahım müşkünazı,
Ahınan çıxar avazı.
Hindistan şahının qızı,
Mehriban Soltanı gördüm[9].

Sözü qurtarandan sonra Lətif şah Lələyə dedi:

– Lələ, sən gərək gedib, Mehribanı gül bağında görəsən, danışasan.

Lələ Lətifin xatirini sındırmayıb, gül bağına getdi.

Mehriban gül bağında Ləläni görəndə dedi:

– Kimsən? Nə istəyirsən?

Lələ dedi:

– Əgər anlasan, sazla deyərəm.

Lələ aldı sazı, görək nə dedi:

İradəm var, qəbul eylə sözümü,
Rica üçün bir minnətə gəlmişəm.
Mən bilirəm hökmüllahi-aləmsən,
Hökmdarı hidayətə gəlmişəm.

Aldı Mehriban Soltan:

Yollarına inci düzüm xal kimi,
Sərim üstə, mərhəmətə gəlmisən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər nə desən, əmr, fərman sənindi,
Buyur, Lələ, nə ülfətə gəlmisən.

Aldı Lələ:

Lətif zara gəlmiş, bir məkansız quş,
Pünhan sirr içində olubdu beyhuş;
Kərəm qıl, soltanım, etmə fəramuş,
Müntəzirdi, əmanətə gəlmişəm.

Aldı Mehriban Soltan:

Kokəb bədirlənsə yenə ay olmaz,
Nə qədər çalışsa, yoxsul bay olmaz.
Xilaskarın heç əməyi zay olmaz,
Buyur, Lələm, iltifatə gəlmisən.

Aldı Lələ:

Şahzadəyə fəda Lələnin canı,
Kərəm qıl, soltanım, lütf et ehsanı;
İxtiyar səndədi, ey mürvət kanı,
Müşkülüm var, mərhəmətə gəlmişəm.

Aldı Mehriban Soltan:

Mehriban Soltanam, qıl sən qənaət,
Qorxma, Lələ, səni etməm xəcalət;
Fərman yazım, sənə verim vəkalət,
Hər nə mətlub, təklifatə gəlmisən.

Lələ dedi:
– Yaxşı budu ki, mən gedim, Lətif şahı sənin yanına göndərim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız razı oldu. Lələ gedib Lətif şahı qızın yanına göndərdi. İndi xəbəri sənə kimdən verim, fars padşahından.

Fars padşahının adı, sanı, dövləti dünyanı tutmuşdu. Bu padşah iyirmi beş yaşa dolmuşdu, evlənmək istəyirdi. Hər tərəfə səyyahlar yollamışdı ki, dünyanın hansı tərəfində bir gözəl qız görsələr, gizlindən şəklini alıb, ona yollasınlar. Bu səyyahlardan biri də Hindistan tərəfinə düşmüşdü. Bu tərəfə düşən səyyah Mehriban Soltanı görüb, şəklini çəkdi, düz aparıb fars padşahına verdi. Padşah Mehriban Soltanın şəklini görən kimi ağlı başından getdi. Vəzirlərinə əmr elədi ki, ya bir nəfər qalana qədər qırılacağıq, ya da qızı gətirəcəyik. Haman gündən elçilər yola düşdülər. Elçilərlə on min nəfərlik qoşun, bir də İsfəndiyar pəhlivan gedirdi.

Elçilər qoşun ilə günlərin birində gəlib Hindistana çıxdılar. Düz paşşahın hüzuruna gedib, allahın əmrilə Mehriban Soltanı fars padşahına verməyini xahiş elədilər. Amma Hindistan padşahı qızı vermədi. İsfəndiyar da bir dağda qoşunla çadır qurub, hazır dayanıb, şahın cavabını gözləməyə başladı.

İndi gəl xəbəri kimdən verim, Lətif şahdan.

Lətif şah Hindistanda Səyid adlı bir nəfərlə qardaşlıq olmuşdu. Bir gün Səyid bazardan keçəndə eşitdi ki, fars padşahının qoşunu gəlib, Hindistan padşahının qızı Mehriban Soltanı zorla aparmaq istəyir. Hindistan padşahı da yeddi yaşdan yetmiş yaşa kimi əli silah tutanı toplayır.

Səyid özünü tez Lətif şaha çatdırıb, əhvalatı ona nağıl eləyib dedi:

– Nə durmusan? Mehriban əldən gedir! Tez başına çarə qıl! Qoşun hər yeri bürüyüb.

Lətif şah bu xəbəri eşidən kimi Ləməni axtarıb tapdı, sazla Lələyə görək nə dedi:

Lələm, sənə şikayətə gəlmişəm,
Bu gün əhvalımın yaman günüdü;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dünyanın tədbiri təğayir oldu,
Dönüb dövran, çarxın azan günüdü.

Hanı xan babamın taciylə taxtı?
Fələk vurdu, tərki-diyar buraxdı.
Bu dərdli könlümün təğayir vaxtı.
Bəlalı başımın duman günüdü.

Mən Lətifəm açma qəmli sinəmi,
Fələk pozdu novrağımı, binəmi,
Tülək tərlan çəngə saldı sonamı,
Yar əldən üzülür, aman günüdü[10].

Lətif şah dil ilə dedi:

– Mənə bir köhlən at, bir qılınc, bir dəst də dava libası hazır elə! Ya öləcəyəm, ya da yarımı xilas edəcəyəm.

İndi gəl xəbəri kimdən verim, İsfəndiyar pəhlivandan. İsfəndiyar yalın qılınc Hindistan qoşununun içinə girib, taxıl kimi biçirdi. Bir kimsənə onun meydanında davam gətirə bilmirdi. Elə padşahlığı alhaal idi ki, Lətif şah atlı düz İsfəndiyar pəhlivanın meydanına getdi. Bəli, vuruşma başlandı. Bunlar gecə düşənə qədər didişdilər. Qaranlıq olanda İsfəndiyar dedi:

– Ay oğlan, at üstü dava elədiyimiz bəsdi, indi gəl atdan düşək, hansımız güc gəlsək, meydan onun olsun.

Bəli, hər ikisi atdan düşdülər. İsfəndiyar Lətif şaha hərbə-zorba gəlib dedi:

Öz-özünü salma düşmən qəhrinə,
Mən cəngiyəm, bu meydana gəlmişəm.
Cövlan edib şikarımı ararkən,
Sən şikarı övgahımda bilmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:

Bu sevdadı, məni yaxar alavı,
Mən bu eşqə düşən günü ölmüşəm.
Bir gözəlin atəşinə yanaram,
Pərvanətək ətrafına gəlmişəm.

Aldı İsfəndiyar:

Alaylar dağıdıb, tüplər pozaram,
Min düşməni bir qılınca düzərəm;
Qan etməyən günü qəmgin gəzərəm,
Mən bir qaniçici cəllad olmuşam.

Aldı Lətif şah:

Baxmagilən eşq əhlinin ahına,
Səni qərq elərəm qəm girdabına;
Sığınmışam mən də şahlar şahına,
O şahlar şahından səbir almışam.

Aldı İsfəndiyar:

İsmim İsfəndiyar, xışmım tamam nar,
Hindistanı mən etmişəm tari-mar;
Fars şahına peşkəş üçün bir gülzar,
Mehriban Soltanı şikar almışam.

Aldı Lətif şah:

Lətif şaham, mən də cana yağıyam,
Hicran möhnətinin qəm dustağıyam;
Mehriban Soltanın qurbanlığıyam,
Yar yolunda mən ölməyə gəlmişəm[11].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözü qurtarıb, qılıncları aldılar, yenə qavğaya başladılar. Üç gün, üç gecə dava elədilər. Axırda Lətif şah qəzəblənib, İsfəndiyar pəhlivanın başından elə bir qılınc vurdu ki, baş boranı kimi iki parça olub, yerə düşdü. Lətif şah özünü onun qoşununa vurdu. Bütün fars padşahının pəhlivanlarını qırıb, qoşunu sındırdı. Hindistan padşahına xəbər getdi ki, bir nəfər oğlan fars padşahının qoşununu, pəhlivanlarını qırdı, bizi bəladan qurtardı. Padşah dedi:

– Bizim düşmən qıran kimdisə, mənim yanıma gətirin! Onu elin çırağı eləyəcəyəm.

Lətif şahı padşahın hüzuruna apardılar. Hindistan padşahı onun alnından öpüb dedi:

– Sən mənin gözümün işığısan. Nə diləyin var, söylə, yerinə yetirim.

Lətif şah ədəblə təzim eləyib dedi:

– Padşah sağ olsun, mən diləyimi sazla deyəcəyəm.

Padşah izn verdi. Lətif şah sazı sinəsinə basıb, görək nə dedi:

Dinlə ey şökətlim, vəsf etdim halı,
Bilin, nə xəyala uyub gəlmişəm.
Çarxın çənbərindən keçdim, dolaşdım,
O əhlət daşına dəyib gəlmişəm.

Dərviştək olmuşam divanə, dəli,
İstəmərəm səndən dövləti, malı;
Tərk edib vətəni, obanı, eli,
Xan babamı ağlar qoyub gəlmişəm.

Aşiqəm, qurmuşam cəngi, davanı,
Uğrunda çəkmişəm cövrü, cəfanı.
Gəl, yetər, ağlatma mən binəvanı,
Mehriban Soltanı deyib gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lətifəm, minmişəm eşqin atını,
Almışam əlimə cəng alatını;
Gözüm görə-görə ölüm qatını
Əcəl köynəyini geyib gəlmişəm.

Şah razı oldu, qızı Mehriban Sotanı ona verdi. Əmr elədi, toy məclisi qurdular. Qırx gün, qırx gecə toy eləyib, Mehriban Soltanı Lətif şaha verdilər. Lətif şahla Mehriban Soltan murad hasil elədilər.

Bir gün Lətif şah dedi:

– Neçə vatdı ki, mən Hindistandayam, bir kərə də olsun qayığa minib, dənizdən bu şəhərə tamaşa eləməmişəm, görəm nə təhər quruluşu, küçələri, binaları var.

Bu fikir ilə bir cümə günü Lətif şah bir tutuquşu götürdü, qayığa minib, dəryaya çıxdı. Dəryadan Hindistan şəhərinə baxırdı ki, birdən dəli bir fırtına başladı. Fırtına Lətif şahın gəmisini dalğaların içində oynada-oynada balıq balası kimi götürdü, gözdən itirdi. Axşam oldu. Bütün şəhərdə işıqlar yandı. Elə idi, elə idi ki, şəhər göydəki ulduzlar kimi görünürdü. Amma fırtına qayığı o qədər uzağa aparmışdı ki, Hindistan şəhərinin ancaq bir dənə işığı quş gözü kimi parlayırdı. Bu zaman Lətifin ürəyi dolub, yana-yana bir namə yazdı, tutu quşunun boynundan asdı, düz Mehriban Soltanın yanına yolladı.

Lətif şah naməni quşun boynundan asanda görək quşa nə dedi:

Məlul-məhzun duran sən tutu quşu[12],
Qanad çal kənara, bir xəbər eylə!
Göydə uçan quşlar rəhm etsə bizə,
Uçub hər diyara bir xəbər eylə!

Nagahdan düşdüm girdab bəhrinə,
Yunis möhnətinə, Yusif qəhrinə[13].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İxtiyar Lələmə, Yəmən şəhrinə,
Atam ixtiyara bir xəbər eyə!

Lətifəm, görmədim qaşı kamanı,
Qanlı qiyamətə vüslət zamanı,
Yəqin ərşə qalxar dad-amanı,
İntizardı, yara bir xəbər eylə!

Quş uçub getdi, düz Mehriban Soltanın qucağına qondu. Mehriban Soltan quşun boynundakı kağızı açdı, oxudu, gördü ki, Lətif şah dardadı. Bu da qoca Lələyə qanlı göz yaşı ilə bir məktub yazdı, quşun boynundan asdı, sonra saçlarından üç tel ayırıb, sinəsinə basdı, görək quşa nə dedi:

Götür bu naməni qərib Lələyə,
Vəzir-vükəlayə bir niyaz etsin!
Yüz sürtsün babamın xaki-payına,
O taxti-vilayə bir niyaz etsin!

Lətif şahım müşgül qalmış dəryada,
Keçən günlər mənə gəlir röyada;
Qırxlar, üçlər yetişsinlər fəryada,
O Xızra, İlyaya, bir niyaz etsin!

Mehriban Soltanın əhdi, amanı,
Yaradandan heç kəsməsin gümanı.
Cansıza can verən, Sahib-Zamanı,
Ol hazır hüzrayə bir niyaz etsin![14]

Sözü qurtarıb,quşun boynundan məktubu asdı, Lələyə yolladı. Quş məktubu aparıb Lələyə çatdırdı. Lələ məktubu oxudu, qocanın beli elə bil ki, əyildi. Vəzirə, vəkilə, şaha xəbər verdi. Bunlar burda qalsınlar, indi gəl sənə xəbəri kimdən verim, Lətif şahdan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lətif şah bir həftə dəryanın üzündə ac-susuz qaldı. Mehriban Soltan xırda-xırda şəkər çörəyi qayırıb, quşun boynuna taxıb, Lətif şaha yollayırdı. Lətif şah da bununla dolanırdı. Bir gün Lətif şah nə qədər gözlədisə quş gəlmədi. Lətif şah bərk kədərləndi, yana-yana görək dəryaya nə dedi:

Qanlı dərya, heç insafın yoxmudu?
Gəl rəhm eylə, məlul-müşkül halıma!
Yar yolunda çox çəkmişəm cəfalar,
Həsrət qoyma mən bülbülü gülümə!

Mən səfili qərq eylədin coşquna,
İtirdim ağlımı, döndüm çaşqına.
Bir fərəc ver Rəsulillah eşqinə,
Hər tərəfdən hasar çəkmə yoluma!

Lətif şah der: hər yazılan silinməz,
Üç gün əvvəl başa gələn bilinməz,
Təqdir haqda, tədbir təğyir olunmaz,
Keçən xatirələr gəlir dilimə[15].

Lətif şah burada qalsın, gəl xəbəri kimdən verim, fars padşahından. Fars padşahı qulaqları, dodaqları, burnu kəsik gələn xəbərçiləri gördükdə hiddətlənib yeddidən yetmişə hamını topladı, yenə də Hindistana göndərdi. Qoşun gəmilərə minib, dərya üzü ilə gedirdi. Bir də gördülər ki, dəryanın ortasında bir qaraltı görünür. Yan alıb, gördülər ki, bir qayıqdı, içində də beyhuş bir cavan oğlan var. Bunu götürüb, gəmiyə çıxartdılar. Haman burnu, qulağı kəsilənlər onu görən kimi dedilər ki, amandı, onu bərk bağlayın, bizi bu hala salan, İsfəndiyar pəhlivanı öldürən bu oğlandı. Bunu möhkəm bağladılar, zindana salıb, sonra ayıltdılar.

Lətif şah gözünü açıb, özünü düşmən əlində gördü. Cəlladlar ondan soruşdular:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– De görək sən kimsən?
Aldı Lətif şah:

Dindirməyin, məlul-müşkül halım var,
Atəş alıb yana-yana ağlaram;
Bülbül olub dost bağına qonarkən
Həsrət qaldım o gülşana, ağlaram.

Qanlı fələk məni yardan alıbdı,
Sürgün edib dağa, daşa salıbdı;
Gözü yolda intizarlım qalıbdı,
Batmışam vəbala, qana, ağlaram.

Mən Lətifəm, hərbə, cəngə dalmışam,
Cəmi fars əsgərin əsir almışam,
İsfəndiyarına qılınc çalmışam,
İndi düşüb bu zindana ağlaram.

Fars padşahının baş vəziri o zaman Qara Vəzir adlı biri idi. Padşah ona dedi:
– Ay Qara Vəzir, o oğlanı boğazından asdır!
Qara Vəzir də o saat Lətif şahı götürüb, dar ağacının dibinə gətirdi. Ətrafı cəlladlar bürüdülər. Qara Vəzir Lətif şahdan soruşdu:
– Sən buraya nə cür düşdün? Hara gedirdin?
Lətif sazı alıb, onun cavabında görək nə dedi:

Xəbər alsan əsilzadə nəsliyəm[16],
Hökumət mülkündə qaldım bir zaman.
Sən kimi şahları payəndaz ilə,
Xak ilə payimə saldım bir zaman[17].

Gəlib görsən cahıllıqda neylərdim,
Həramilər avgahını boylardım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəzirgan soyardım, dənglər paylardım[18],
Xas qumaşlar satdım, aldım bir zaman.

Lətif şaham, fars elini boyladım,
Şah əmr etdi, qulluğunda söylədim;
Mehriban Soltana düyün eylədim,
Ona murad verdim, aldım bir zaman.

Söz tamama yetişdi. Bu zaman fars padşahının bacısı Əsma xanım da seyrə çıxmışdı. Əsma xanım Lətif şahı görən kimi ağlı başından gedib, ona aşiq oldu. Cəlladlara dedi:

– Bu cavan oğlana aman verin, görək nə iş sahibidi.

Cəlladlar ona aman verdilər. Dərdli Lətif də sazını alıb, görək Əsma xanıma nə dedi.

Aldı Lətif şah:

Ay ağalar, gəlin sizə söyləyim[19],
Əsilzadə qəm-diyarə düşübdü.
Hər tərəfdən ahu zardı çəkirəm,
Zəif canım gör nə halə düşübdü.

Aldı Əsma xanım:

Dinləyin, ağalar, mən də söyləyim,
Eşq odundan cismim nara düşübdü.
Üz sürtərəm xakə, ayaq öpərəm,
Yeksər canım tarımara düşübdü.

Aldı Lətif şah:

Yığılar zalımlar, eylər tamaşa,
Belə ədalətdən gözlər qamaşa;
Əzəl fürsət bizdə indi həmişə,
İndi fürsət zülümkara düşübdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Əsma xanım:

İlahi, sevərsən, o ələmdarı,
Dolandır başına, azad et barı!
Gözümün müştaqi, didəmin nuru,
Könlümün tərlanı tora düşübdü.

Aldı Lətif şah:

Lətif şah da əcəl şərbətin içər,
Ruhum quşu qalxıb bədəndən uçar;
Əlacsız, namümkün, qalmışam naçar,
Aslan canım cəngə, dara düşübdü.

Aldı Əsma xanım:

Əsma xanım edər bu ələmanı,
İmdada çağırram şahi-mərdanı;
Zülm etmə, öldürmə belə cavanı,
Qəza ilə ahu zara düşübdü.

Əsma xanım qoymadı Lətif şahı assınlar. Onu yenə də zindana atdılar.

Bir gecə Əsma xanım paltarını dəyişib, zindanın qapısına getdi. İçəri girib, Lətif şaha dedi:

– İndi mən səni buradan qurtarsam, sən məni alarsanmı?

Lətif şah dedi:

– Qoy sazla deyim, qulaq as.

Aldı Lətif şah:

Çox da cəfa çəkmə, hərcayi gözəl,
Sən deyən xəyala uyan deyiləm;
Mən öz məşuqəmin mübtəlasiyəm,
Hər kəsi bir gözdə görən deyiləm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Əsma xanım:

Sübhü şər də qoşun çəksə üstümə,
Vallahi, mən cəngi quran deyiləm.
Bu eşqin atəşi kül etdi məni,
Bil ki, bu sevdaya duran deyiləm.

Aldı Lətif şah:

Siyah zülfün şahmar kimi sallanı,
Mizraq kim sinəm üstə nallanı;
Əlimdən uçurdum tülək tərlanı,
Özgə zülfə meyil verən deyiləm.

Aldı Əsma xanım:

Müsəlmanam, mən də əhli-lisanam,
Az qalır ki, öz canımdan usanam.
Vallahi, billahi, mən də insanam,
Şahmar kimi səni vuran deyiləm.

Aldı Lətif şah:

Sərgərdan Lətifə eyləmə minnət,
Yaralı könlümə yaraşmaz zinyət.
Özün qılman olsan, məkanın cənnət,
Müsafirxanənə girən deyiləm.

Aldı Əsma xanım:

Əsma xanam, bu sirlərə yetmişəm,
Cəlallanıb, namus, arım atmışam;
Əl uzadıb damənini tutmuşam,
Çəkilib kənara, duran deyiləm[20].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər ikisi sözlərini tamama yetirdilər. Lətif Şah Əsma xanımın sözlərini qəbul elədi. Hər ikisi zindandan çıxdılar, silah götürüb, tövlədən köhlən atlar çəkib, mindilər, yola rəvan oldular. Bir az getmişdilər ki, Lətif şah dedi:

– Beləcə gizlindən qaçsaq, mənim adıma eyib olar. Gəl bir kağız yazıb, zindanın qapısına yapışdıraq, sonra gedək. Aldı Lətif şah, görək nə yazdı:

Şah, sənə xəbərlər olsun,
Ürəyinə vurdum düyünü.
Başıma tələ qurardın,
Gördünmü olmaz oyunu?

Yıxmışam bina, barını,
Viran eylədim varını;
Çəkərsən zülmün narını,
İndi yol başın muyunu!

Lətifə atdın kəməndi,
Əsma xanım qurdu fəndi,
Mehriban Soltanın indi,
Gedər, tutaram toyunu[21].

Sonra Hindistan şəhərinə tərəf yola çıxıb getdilər. Az getdilər, çox getdilər. Günlərin birində Hindistan şəhərinə çatdılar. Şəhərdən kənar bir cütçü gördülər. Baxdılar ki, bu cütçünün özü də, öküzləri də, cütü də, çubuğu da qaradı. Lətif şah dedi:

– Görəsən bunda nə iş var? Gəl gedim cütçü babadan soruşum.

Lətif şah cütçüdən soruşdu:

– Cütçü baba, niyə belə qara geymisən?

Cütçü dedi:

– Üç aydı ki, bizim padşahın damadı dəryada qərq olub. Ona görə də padşahın əmri ilə hamı qara geyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lətif şah dedi:

– Ay baba, sən get padşahı müjdələ ki, damadın Lətif şah gəlir. Sənə çoxlu xələt verər.

Qoca dedi:

– Lətif şah haradan gələcək? Kim bilir onu hansı balıqlar yedi.

Lətif şah dedi:

– Mən Lətif şaham. Sən get müjdəyə, qorxma.

Qoca elə hesab elədi ki, yeri sürəndə xəzinəyə rast gəlib, dedi:

– Yaxşı, gedim. Əyər gerçək olsa, padşah mənə çox xələt verəcək. Yalan olsa, qoy şahzadə dənizdə boğulduğu kimi, məni də padşah cəllada öldürtsün. Qiyamət ki, qopmaz.

Cütçü tez gedib, padşahı müjdələdi. Padşah dedi:

– Əyər bu müjdən gerçək olsa, səni dünya malından qane edəcəm. Yalan olsa, boynunu vurduracam.

Padşah əmr elədi, qocanı burada saxladılar.

Gəl xəbəri kimdən verim, qoca Lələdən. Qoca Lələ Lətif şahdan sonra yeyib, içməzdi, göz yaşını qurutmazdı. Beli əyilib, ikiqat olmuşdu. Qış zamanındakı tut ağacına dönmüşdü. Bəli, cütçü hələ yetişmədən Lətif şah Hindistan şəhərinə gəlib, Lələnin olduğu yerə çatdı. Nə qədər səs elədi, Lələ onu tanımadı. Lətif şah sazını alıb, görək ona nə dedi:

Qoca Lələm, nə dərd-qəmə dalmısan?
Hicran qəhri dal qəddini əyibdi[22].
Nədən bu şəhərin nası gülməyir,
Nə səbəbdən yas donunu geyibdi?

Aldı Lələ:

Qınamayın, atəş alıb, yanaram,
Qanlı fələk xatırıma dəyibdi.
Bir tərlanın qanadilə uçardım,
İtkin düşüb, məni məlul qoyubdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:

İtgin düşdüm, gəzdim Yəmən, yəsarı,
Verdilər cəllada, qurdular darı;
Hicran yeksanıyam, qəm tarımarı;
Yaralı könlümü qəm budayıbdı.

Aldı Lələ:

Üç aydı geymişəm əynimə qara,
Sinəmdə açıldı yenilməz yara.
Yol bilmirəm, gedim hankı diyara?
Bu həsrətim qiyamətə qalıbdı.

Aldı Lətif şah:

Lətif şaham, cövrə saldım mən səni,
Əfv eylə suçumu, ey könlü qəni,
Dağlayıb zarıncı eyləyib məni,
Zəif cismim öz canımdan doyubdu.

Aldı Lələ:

Biz də qıldıq tərkin, atdıq tilanı,
Heç qova bilmədik dərdi, bəlanı.
Bir canı var, vur qutarsın Lələni;
Lətif şah yoluna qurban deyibdi.

Qoca Lələ Lətif şahı tanıdı. Haman saat boynuna sarılıb dedi:
– Bala, harada idin indiyə qədər?
Lətif şah o gecə Lələnin yanında qaldı, bütün başından keçənləri ona danışdı. Sabah olan kimi Əsma xanımı Lələnin yanında qoyub, özü düz Mehriban xanımın yanına getdi. Meh-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

riban bunu görən kimi, on iki yasəmən hörüklərindən birini ayırıb, sinəsinə basdı, görək Lətif şaha nə dedi:

Gəl görüm, nə xəyaldasan,
Etibarı yalan yarım!
İlqarı boş, ey vəfasız,
Məni gözdən salan yarım!

Aldı Lətif şah:

Vaqif ol vəsfi-halıma,
Budu başa gələn, yarım!
Qərq oldum dəryayi-ümmana,
Məni tutdu talan, yarım!

Aldı Mehriban Soltan:

Məni saldın qəmə, yasa,
Bədnam etdin xəlqünnasa;
İş qalıbdı iltimasa,
Şad, xürrəm olan yarım!

Aldı Lətif şah:

Mənə belə töhmət vurma!
Aşiqə xəcalət vermə!
Sürahi dəstində durma,
Saqi kimi dolan, yarım!

Aldı Mehriban Soltan:

Mehribanam, qəm saqisi,
Qədəhim zəhrim ağusu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tənhada canım yanğusu,
Üzdə şirin gülən yarım!

Aldı Lətif şah:

Lətifindi qəm meydanı,
Qandırmaq olmaz nadanı,
Yolunda can sərf edəni,
Etibarsız bilən yarım![23]

Söz tamam oldu. Hər ikisi görüşüb qucaqlaşdılar. İki-üç gün keçdi, Lətif şahdan Əsma xanıma bir cavab gəlmədi. Bu zaman Əsma xanım dedi:

– Ey çiy süd əmən insan oğlu! Sənə də etibar olarmı? Bu da mənim sənə yaxşılıqlarım. Sən məni unutdun.

Əsma xanım götürüb Lətif şaha belə bir namə yazdı:

Etibardan düşən etibarlı yar,
Dönüb etibarı kəmə, yalvarı.
Çünkü ondan yoxdu bizə bir fayda,
Varı gedən hicran, qəmə yalvarı.

Mən sənə neylədim, tanrı zalımı?
Gəlib heç sormadın vəsfi-halımı.
Tutdum damanını, kəsdin əlimi,
Bundan belə, bu yar kimə yalvarı?

Əsma xanım düşdü fitnə-fellərə,
Məni abdal etdin, saldın çöllərə,
Yara düşsün yaman deyən dillərə,
Kağız yazan yazar namə, yalvarı[24].

Əsma xanım kağızı bir xidmətçiyə verib, düz Lətif şaha göndərdi. Lətif şah məktubu aldı, açdı, Əsma xanımın xəttini



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görəndə dərindən bir ah çəkdi. Mehriban Soltan soruşdu:

– Niyə belə kefin pozulub, ah çəkdin?

Lətif şah dedi:

Dil ilə desəm dilim yanar, qulaq as, sazla deyim. Aldı sazını, görək nə dedi:

Bir miskinin vəbalına batmışam[25],
Heç kimsə halımdan xəbərdar deyil,
Oğrun-oğrun pünhan sevda çəkirəm,
Deyə bilməm, açılacaq sirr deyil.

Aldı Mehriban Soltan:

Bir fəqirin odlarına yanmısan,
Mən də bildim söylədiyin car deyil.
Oğrun-oğrun pünhan, sevda çəkirsən,
Geniş dünya bu başına dar deyil.

Aldı Lətif şah:

Fars elində aldım Əsma xanımı,
Dardan alıb, xilas etdi canımı,
Tapşırsan cəllada, töksə qanımı,
Vaz keçmərəm, etibarsız yar deyil.

Aldı Mehriban Soltan:

Mən də xan babama namə yazaram,
Ara yerdə mabeynini düzərəm[26];
Əsma xanım qulluğunda gəzərəm,
İki tərlan bir igidə ar deyil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:

Lətif şah ovunu yetirdi dama,
Nazlı yardan gəldi mənə bu namə,
Çoxdan bəri düşməmişdim bu bəmə,
Bundan belə mənim dərdim bir deyil.

Aldı Mehriban Soltan:

Mehriban Soltanın budu deyini,
Mövlam güldürməsin qəlbi xayini,
Məndən əzəl tutam onun toyunu,
O qəribdi, mənim ağlım zay deyil.

Bir müddət genə də zövqi-səfa ilə vaxt keçirib, yazıq Əsmaya bir xəbər yollamadılar. Əsma xanım baxdı ki, Lətif şah onu tamamilə yaddan çıxartdı. Halı qarışdı, başladı ağlamağa. Elə bu halda Lələ gəldi, dedi:

– Balam, Əsma xanım, neçün ağlayırsan, dərdin nədi?

Əsma xanım dedi:

– Sözlə desəm dilim yanar, Lələ, yaxşısı budu qoy sazla deyim.

Aldı Əsma xanım:

Mən ki, varam, qan ayaqlı zənənəm,
Açma sirrim, heç kimsələr bilməsin.
Məni belə gözü yaşlı eyləyən,
Məhşərətək şad oluban gülməsin.

Üzə gülən imiş o qəlbi qara,
Hardan meyil verdim o biilqara,
Neçün məni saldı bu ahu zara,
Mənim kimi heç kimsə xar olmasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsma xanım deyir: yanaram oda,
Qohumdan, qardaşdan düşmüşəm cida;
Niyazım budu ki, təqdiri-xuda,
Mənim ahım Lətif şahda qoymasın!

Gəl xəbəri kimdən verim, Lətif şahla Mehribandan. Lətif şah fikir elədi ki, mən nə eləyirəm. Ayı, günü mənim üstümdə görən qoca anam, atam gözlərini Hindistan yollarına dikib, baxmaqdan kor oldular. Mən sevgililərimi götürüb tezliklə Yəmən şəhərinə getməliyəm. Lətif şah bu xəyalda idi, birdən Mehriban Soltan dedi:

– Neçün belə pozuldun?

Lətif şah dedi:

– Axır mən də bir ana-atanın övladıyam. Mən də öz yurduma getmək istəyirəm. Mən dərdlərimi sənə sazla söyləyim, sən qulaq as!

Aldı Lətif şah:

Gəzdiyim o yerlər, gördüyüm günlər,
Hərdən gəlib bir xəyalə, sevdiyim!
Anam, atam o Yəmənin yolunda,
İntizardı indi yola, sevdiyim!

Aldı Mehriban Soltan:

Dəmdəm xəyallısan, divanə oğlan,
Məni saldın müşgül hala, sevdiyim!
Yenə nə xəyalə vaqif olmusan,
Gətirdin başıma bəla, sevdiyim!

Aldı Lətif şah:

Sən Leylisən, mən Məcnundan betərəm,
Nə buyursan cavabını tutaram;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qohum, qardaş, oba deyin gedərəm,
Halal eylə bundan belə, sevdiyim!

Aldı Mehriban:

Sən Məcnunsan, mən Leylidən betərəm,
Nə buyursan cavabını tutaram;
Qohum, qardaş, oba, eli ataram,
Üz qoyaram sizin elə, sevdiyim!

Aldı Lətif şah:

Lətifəm, arzumun cavabını qan!
Mənsur kimi təndə qalıbdı bu can.
Sən, mən, Qoca Lələ, bir də Əsma xan,
Tədbir budu: düşək yola, sevdiyim!

Aldı Mehriban:

Mehriban xan sənə vəfalı yardı,
Tərk elərəm bu vətəni, bu yurdu;
Xan babamdan alam bir alay ordu,
Elə gedək sizin elə, sevdiyim!

Lətif şah əqd-nigah eləyib, qızların hər ikisini aldı. Hamı qara paltarı çıxarıb, qırmızı paltar geydi. O qoca əkinçini də dünya malından qəni elədilər. Bundan sonra Hindistan şahı böyük cehiz, qoşun, karvan ilə Lətif şahı, Mehriban Soltanı, Əsma xanımı, bir də Qoca Lələni yola saldı.

Onlar günlərin birində gəlib Yəmən şəhərinə varid oldular. Padşaha müjdəçi getdi. Böyük şadlıq oldu. Yəmən padşahı bütün xalqı yığıb, Mehriban Soltana böyük gəlin, Əsma xanıma da kiçik gəlin adı ilə qırx gün, qırx gecə toy elədi, şad-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanalıq keçirtdi[27].

Şadlıq məclisində ustad aşıq sazı döşünə basıb, bu duvaq-qapma ilə onların toyunu bağladı.

Ay qonaq, bir bəri bax,
Gör necə dilbər oynayır…
Gül zərif, dəstə dərif,
Dəstində güllər oynayır.
Nazilə ağ üzünə
Düzübdü tellər oynayır.
Səsinə, həvəsinə
Car çəkib ellər oynayır.

Bu sona əcəb xına
Gör nə yaxıb əllərinə.
Mərdana dal gərdənə,
Naxış düzüb tellərinə.
Bu qəmər gümüş kəmər
Qurşayıbdı bellərinə,
Bu vaxtda ağ otaqda
Qoyum səmavər oynayır.

Ay gözəl, bundan əzəl,
Müştəriyəm qələm qaşa.
Bu dünyada, bu zibada
Səni görüm min il yaşa.
Dilbərim, bu ellərim
Qəm mülkünə olub paşa.
Bu başdan, qalam qaşdan,
Qurtarıb millər, oynayır.

Nə cahanda, nə rizvanda
Yoxdu sənin kimi pəri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ev yıxdın, qıya baxdın,
Ağlım olubdu sərsəri.
Sən canın, sən cananın
Olaydım şirin nökəri.
Od salır, canlar alır
Qaşlarının qələmləri.
Buxaqda, ay qabaqda
O əbrişimlər oynayır.

Mən sevdim, qiymət qoydum
Tellərinə yüz min manat.
Ay pəri, bu telləri
Gəl saxla mənə amanat.
Gər bilsə, yəqin gəlsə
Əğyar, eyləyər xəyanət.
Çöllərdə, bu ellərdə,
Bil ki, eylərəm qiyamət.
Əlbəttə, Xəyyat Mirzənin
Başında ləşkər oynayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ABDULLA VƏ CAHAN

## USTADNAMƏ

Eşqin şərabından bir qətrə içən,
Əlbəttə, od tutub yanar, ariflər!
Gizlin sirri hər cahilə car açan,
Düşər etibardan kənar, ariflər!

Əvvəl ustadlardan dərsini alan,
Dünyanın varını, yoxunu bilən,
Sərində bir zərrə kamalı olan,
Dediyindən necə dönər, ariflər?!

Məhəmməd də bilməz ömür yaşını,
Canıma salmasın eşq atəşini,
Hər kəs qanmaz bu dünyanın işini,
Biri keçər, biri qonar, ariflər!

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun, yağının gözü qanla dolsun.

Görürsənmi o dağları, getməz duman, üstədi,
Ovcu gəzər şikarını, oxu kaman üstədi,
Namərdə yalvarınca, düş mərdin ayağına,
Can deyib xoş danışmaq şirin zəban üstədi.

Bir bülbülün qafil taza gülü düşdü yadına,
Sığındı, bel bağladı qabil nəccar ustadına,
Şahım gördü pozğun baxır şahin öz qanadına,
Dedi: quşum, kərəm eylə, dərya ümman üstədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəl, biçarə Nəcəf, rəhm et alimlər həyatına,
Mərəkədə düşürərlər, minmə özgə atına,
Ustadına gəc baxanın lənət gəlsin zatına,
Müxtəsəri, bu sözlərim yaxşı, yaman üstədi.

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, tənbəllər geridə qalsın.

Hər hansı məclisdə müxənnəsi dinsə.
Məclisdə aşığın havası olmaz.
Ürək bir şişədi, toxunub sınsa,
Həkim, loğman gəlsə davası olmaz.

Məclislərdə danışanda səs olar,
Hərəsinə «kiri» desən bəs olar,
Biri yaxşı olar, biri pis olar,
Hamı sözü adam sevəsi olmaz.

Bir adam məclisdə sağır otursa,
Özü söyləməyib, fağır otursa,
Yerində ağıllı, ağır otursa,
Kamal durub onu qovası olmaz.

Sizə hardan xəbər verim, İsfahan şəhərində Qiyas vəzirdən. Qiyas vəzir şah Abbasın bilikli vəziri idi. Qiyas vəzirin bir oğlu var idi, adı da Abdulla idi. Bir dənə olduğu üçün atası-anası da, şah da onun xətrini çox istəyirdi. Bir molla tutmuşdular, ona dərs deyirdi.

Ay dolandı, gün keçdi, Abdulla oxuyub, elmləri sinədəftər elədi. Molla ona dedi:

– Elmlər qurtardı, tay gedə bilərsən. Bunnan sonra mən oldum sənin lələn.

Abdulla dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Molla əmi, bu vaxta kimi heç kəsin üzünü görməmişəm. Ancaq sənin üzünü görmüşəm, gəl bir ova çıxaq.

Şahdan, vəzirdən icazə aldılar, hərəsi bir at mindi, əlinə bir təlran quş götürüb, ova çıxdılar. Çox getdilər, az getdilər, baxdılar ki, bir aşıq saz çiynində yavaş-yavaş gedir. Aşıq bunları görəndə əlini qulağına qoydu, bir bayatı çəkdi.

Eləmi, küncü haray!
Ərəsbər küncü haray!
Bir vəfalı həmdəmnən,
Gəzəydim küncü haray!

Abdulla atı əylədi, dedi:

– Lələ, o nə deyir?

Molla dedi:

– Heç nə, oxuyur da… Nə eləyirsən, qoy varsın getsin.

Abdulla dedi:

– Yox, lələ, o, yaxşı söz deyir. Aşıqlar dünya görüblər. Yəqin Ərəsbər yaxşı yerdi, gərək gedəm oranı görəm.

Lələ ilə atlarını çapıb, Ərəsbərə gəldilər. Gördülər Ərəsbər çox yaxşı, gözəl yerdi. Abdulla dedi:

– Lələ, mən buraya bir də gələcəm.

Qayıdıb atasının yanına getdi, dedi:

– Ata, mən gedib Ərəsbərdə yaşayacağam.

Atası çox dedi, oğlu razı olmadı, elə dedi ki, gedəcəm.

Vəzir dedi:

– Onda qoy padşaha da deyim.

Vəzir padşahın yanına gedib dedi:

– Qibleyi-aləm, oğlum Ərəsbəri görüb, deyir Ərəsbərə köçüb gedəcəm. Amandı, qoyma getsin!

Padşah dedi:

– Neynək, qoy getsin, sən də get!

Odu ki, Abdullanın atası İsfahandan bir neçə öylə köçüb



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

getdi Ərəsbərə, orda yerrəndi. Bunnar burda yaşamaqda olsun, qulluğunuza hardan ərz eləyim, Şirvan ölkəsinnən. Şirvan ölkəsində, Xançoban elində Camal bəy adlı bir adam yaşayırdı. Burda bir Ağa xan da variydi. Həmişə kef əhliydi. Bunun kefi duru olan vaxtı Camal bəyin qızı Cahan xanımı bağçada gördü. Ağa xan xəbər aldı:

– O qız kimin qızıdı?

Dedilər:

– Camal bəyin.

Ağa xan bir adama dedi:

– Get, Camal bəyə de, qızını mənə versin.

Elçilər getdi, Camal bəy minnət-sünnətsiz razı oldu. Günlər gəldi keçdi, Camal bəy çox gözlədi, Ağa xannan bir xəbər çıxmadı. Axırda onun yanına bir adam göndərdi ki:

– Ağa xan, mənim qızımı alacaxsan, almayacaxsan? Onu de!

Ağa xan cavab verdi:

– Get, Camal bəyə de, qızının başını bəzəsin, mənim məclisimə göndərsin. Xoşuma gələrsə alaram, gəlməzsə nökərlərimnən birinə verərəm.

Gedib bu sözləri Camal bəyə dedilər. Camal bəy dedi:

– Mən nə qədər əskik adamam ki, qızımın başını bəzəyəm, Ağa xanın məclisinə göndərəm?! Mən köçürəm Qiyas bəyin yanına.

Camal hazırlandı, dost, qohum da ona qoşuldu, bir neçə adamla birlikdə Qiyas bəyin yanına köçdülər. Vayşüyən adlı bir kişi də bunlarnan köçdü. Köç gedib çatdı Qiyas bəyin yanına. Bir gözəl meşənin yanında çadırları qurdular. Bunlar buraya təzəcə gəlmişdilər, Abdulla ləläsinə bir gözəl yer göstərib dedi:

– Lələ, oraya gedəcəyik.

Bunlar Abdulla dediyi yerə gedəndə bir ağacın başında bir şahşunqar quşu gördülər. Şahşunqara baxırdılar, birdən ağacın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dibinnən bir kəklik pırıldayıb göyə qalxdı. Abdulla tərlanı kəkliyin dalınca buraxdı. Tərlan şahşunqarı görən kimi yerə düşdü, kəkliyin baxtı yar oldu, uçub getdi. Abdullanın tərlana acığı tutdu, dartıb onun boğazını üzdü. Lələnin quşunu alıb, onu da buraxdı. Lələnin quşu da şahşunqarı görəndə kəkliyin dalınca getmədi, yerə düşdü. Abdulla genə acıqlandı, dartıb bunun da başını üzdü. Abdulla anrı-bəri baxanda şahşunqarı gördü, dedi:

– Lələ, mənim quşlarımı öldürən, bax, o şahşunqardı; onu tutacağam.

Lələ dedi:

– Ay bala, şahşunqar tora gəlməz, gəl çıxıb gedək!

Abdulla dedi:

– Yox, tutacağam.

Abdulla torunu qurdu, Lələ də getdi çörək gətirməyə. Lələ gedəndən sonra Abdulla uzanıb yatdı. Abdulla yatmaqda olsun, qulluğunuza ərz eləyim Cahan xanımnan. Cahan xanım dedi:

– Qızdar, gəlin meşəyə, allı-güllü yerlərə gəzməyə gedək, bahar vaxtıdı.

Bunların yanında bir qarı var idi, ağzında bir dişi də yox idi. Qarı dedi:

– Mən sizdən əskik döyüləm, mən də gedirəm.

Qız dediyin keçi cinsidi. Hərəsinin ağzı bir tərəfə düşdü. Qarıynan Cahan xanımın ağzı da bir tərəfə düşdü. Yazın isti günü idi, susuzluq Cahan xanıma əsər elədi. Qarı əlini gözünün üstünə qoydu, gördü uzaqda bir yer göyərir, dedi:

– Qızım, ora lilnardı, orda su olacaq, gəl gedək. Üz çövürdülər, orıya tərəf. Cahan xanımnan qabaq qarı getdi, gördü burada bir oğlan yatıb, xudavəndi-aləm buna yeddi qələm çəkib. Qarı özün saxlaya bilmədi, başladı Abdullaya yetim kalça kimi baxmağa. Cahan xanım gəldi çatdı. Dəsmal çıxardıb, oğlanın üzünün suyunu sildi, sonra qarıya dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qarı nənə, qələmin varmı?

Qarı dedi:

– Ay bala, niyə yoxdu? Yeddi il kovxa yanında mirzəlik eləmişəm. Sən de, mən yazım.

Cahan xanım aldı, görək asta-asta nə dedi:

Xab içində yatan bixəbər səyyad,
Tərlan mənəm, qeyri tərlan istəmə!
Mən səni sevmişəm, sən də sev məni,
Sev bu canı, qeyri canan istəmə!

Bizlərdə adətdi saza söz demək,
Qara bağrı kabab deyin közdəmək,
Məndən deyin, səndən ilqar gözdəmək,
Yüz il getsə, əbrü-kəman istəmə!

Zülfüm muyi səndə qaldı nişana,
Ayrılıq atəşi kar eylər cana,
Deyərlər ki, sevən gedər sevənə,
Yaxşısan, yaxşı sev, yaman istəmə!

Arayıb axtarsan pünhanbapünhan,
Yerim xan çobandı, nişanbanişan,
Atam Camal bəydi, öz adım Cahan,
Cahan mənəm, qeyri cahan istəmə![1]

Cahan xanım sözünü tamam eləyib qurtarandan sonra üzüyünü çıxardıb Abdullanın barmağına saldı. Qarı da Cahan xanımın dediyini bir kağıza yazıb Abdullanın cibinə qoydu. Cahan xanım özü də Abdullanın darağını götürdü.

Qızlarnan bir təpəni vəd eləmişdilər, oraya getdilər. Qızlar Cahan xanımdan soruşdular:

– Niyə gec gəldiniz?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Cahan xanım, görək onlara nə cavab verdi:

Səhər durdum, seyrə vardım,
Yarı gördüm bağ içində.
Dərər, dərər, dəstə bağlar,
Qızıl gül yarpaq içində.

Bağın barısından aşdım,
Süsən sünbülə dolaşdım,
Öpdüm, qucdum, halallaşdım,
Məni qoydu dağ içində.

Mən Cahanam, oxum atdım,
Tamam İranı oyatdım,
Qızıl güldən yükümü tutdum,
Yasəmən, zambağ içində.

Söz tamama yetişdi. Qızlar burda qalsın, sizə xəbər verək Abdulladan. Abdulla lələnin atının ayağının səsinə oyandı. Lələ dedi:

– Oğul, gəl çörək yeyək.

Abdulla dedi:

– Qoy əlimi yuyum.

Əlini yuyub silmək istəyəndə gördü cibində bir kağız var. Kağızı çıxarıb oxuyanda lələ ona dedi:

– Ədə, sənə demədim yatma? Onu cibinə cinnər qoyub, tez at yerə.

Abdulla kağızı açdı, gördü Cahan yazıb: «Xançobanlı Camal bəyin qızıyam».

Lələ dedi:

– Ay bala, başın bəla çəkəcək, kağızı tulla!

Abdulla dedi:

– Yox, lələ, quşumu tutmuşam, haraya tullayım?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lələ dedi:
– Ay bala, bu sövdadan əl çək!
Aldı Abdulla, görək ona nə dedi:

Lələ, yatmışdım xabi-qəflətdə,
Oyandım ki, bahar, yaz gəlib gedir.
Bir əlində süsən, sünbül, ərğəvan,
Yanınca qırx incə qız gəlib gedir.

Ölüm yeydi bu sağlıqdan, bu günnən,
Sinəm fariq olmaz dağü düyünnən,
Tərlan binəsinnən, laçın ovunnan,
Ürküşdü qubalar, qaz gəlib gedir.

Eşqin atəşinə düşüb Abdulla,
Belə gözəl görməmişəm mən billa,
Vərqa var, Gülşa var, Yusif, Züleyxa,
Cahan kimi cannar az gəlib gedir.

Lələ Abdullanı götürüb öz evlərinə gətirdi, dedi:
– Abdulla yatmışdı, başına hava gəlib.
Anası gəlib dedi:
– Ay oğul, azarın nədi, niyə saralıb solubsan?
Aldı Abdulla, görək ona nə cavab verdi:

Başına döndüyüm gül üzlü ana,
Ana, məni dərdə salan Cahandı.
Südünü əmmişəm mən qana-qana,
Ana, məni dərdə salan Cahandı.

Mənim yarım al geyinib qırmızı,
İşvəsi, qəmzəsi yandırır bizi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Öz adı Cahandı, Camal bəy qızı,
Ana, məni dərdə salan Cahandı.

Lələ aramızda çəkibdi pərdə,
Apardı ağlımı, qoymadı sərdə,
Abdullanı saldı sağalmaz dərdə,
Ana, məni dərdə salan Cahandı.

Anası dedi:

– Ay bala, cahan dünyaya deyəllər, nə Cahan?

Abdulla dedi:

– Yox, ana, Cahan Camal bəyin qızıdı. Onu Ağa bəyə nişan qoyublar, mən onu sevirəm.

Anası bunu ərinə xəbər verdi. Qiyas bəy mötəbər kişilərdən bir neçəsini götürdü, Camal bəyin evinə elçiliyə getdi, Camal bəy qızını Abdullaya verdi. Toy üçün vədə günü qoydular, hər kəs öz evinə getdi. Bəli, bir neçə gün gəlib keçdi. Cahan xanım eşitdi ki, Abdulla quşlarını öldürüb. Özünün bir tərlanı var idi, onu Abdullaya göndərdi. Amma tapşırdı ki, quşdan muğayat olsun, hardan buraxsa onun yanına gələcək. Bu da yaxşı deyil.

Bir gün yenə Abdulla ləlsi ilə ova çıxmışdı. Abdulla bir kəklik gördü, quşu onun dalınca buraxdı. Quş birbaş uçub Cahan xanımın çadırına getdi. Cahan xanım quşu gördü, əl-ayağa düşdü. Cahan xanım fikirləşdi ki, çadranı bürünsün, quşu aparıb Abdullaya versin, tapşırsın ki, bir də quşu kəklik dalınca buraxmasın, özü də bu yanlara gəlməsin. Qız quşu gətirib təpənin dalında Abdullaya verəndə itlər Abdullanın üstünə töküldü, Abdullanı elə yoldular ki, əynində bir paltarı da qalmadı. Abdulla fikir elədi ki, qızların bir təhnəli sözü var. Bir vaxt olacaq, itlər məni boğduğunu qız başıma qaxacaq. Qılıncı çəkdi, itlərin hamısını qırdı. Vayşövən adlı kişinin də bir iti var idi. Abdulla onu da yaraladı. Vayşövən dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu gün bizim itlərimizi qıran, sabah da özümüzü qıracaq. Mən paşanın yanına köçəcəm, burda qalmayacağam.

Camal bəy dedi:

– Mən də köçəcəm.

Hamı köçdü.

Cahan xanım belə bir kağız yazdı:

Kağız, gedər olsan yarın yanına,
Sən allah, sən tanrı, yara de, gəlsin.
De uymasın fani dünya malına,
Mən çəkirəm ahu zarı, de gəlsin.

Yazı gəlsin, payız ayın işləsin,
Gəlsin qışın, qış qoynumda qışlasın,
Hər nə təqsirim var, de bağışlasın,
Mənəm onun günahkarı, de gəlsin.

Canım kağız, bircə dindir o yarı,
Hər nə taqsırım var qoy desin barı,
Sevgilinin beləmi olar ilqarı?!
Cahan oldu qəm memarı, de gəlsin[2].

Kağızı ocaq daşının altında qoyub getdi. Abdulla bir neçə gün bu yana gələ bilmədi. Bir neçə gündən sonra gəlib gördü ki, elin yerində hörümçək tor bağlayıb, çoxdan köçüb gediblər.

Abdulla dedi:

– Lələ, bu nə işdi?

Lələ dedi:

– Sana demədimmi başın bəla çəkəcək?

Aldı Abdulla, görək lələsnə nə dedi, lələsi ona nə cavab verdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Abdulla:

Köçdü, getdi xan çobanın elləri,
Cığalanmır sərv tellər, ay lələ!
Uçub bülbül, boş qalıbdı dalları,
Boş qaldı budaqlar, dallar, ay lələ!

Aldı lələ:

Eşitginən sən lələnin sözünü,
Çox olacaq qalmaqallar, Abdulla!
Bilən bilər, bilməyənə dan gəlir,
Çoxlu canlar ölü qalar, Abdulla!

Aldı Abdulla:

Qarşımızda duran qarlı dağ oldu,
Sinəmə çəkilən düyün-dağ oldu,
Bu gün mənzilimiz viran bağ oldu,
Düşmüşəm fitnəyə, fellər, ay lələ!

Aldı lələ:

Bir bağa girəndə budağın əymə!
Dərdindən dəliyəm, xətrimə dəymə!
Atanı, ananı intizar qoyma!
Tökmə gözlərindən qanlar, Abdulla!

Aldı Abdulla:

Abdullayam, keçdim küllü varımdan,
Namusumdan, qeyrətimdən, arımdan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cahan xanım köç eylədi yanımdan,
Yadıma düşüb şirin dillər, ay lələ!

Aldı lələ:

Yazı yazan belə yazdı yazını,
İyid olan yaxşı saxlar özünü,
Eşitginən sən lələnin sözünü,
Çox olacaq qalmaqallar, Abdulla!

Lələ ona çox təsəlli verdi, olmadı. Abdulla kədərlənib, dübarə görək nə dedi:

Köç-köç oldu, əlim yardan üzüldü,
Yaman qonşu, qoy xatirin xoş olsun!
Bu ayrılıq mənə haqdan gəlibdi,
Mən ağlaram, qanlı didəm yaş olsun!

Mən sevmişəm iyidlərin mərdini,
Çəkmək olmaz müxənnəsin dərdini,
Çox çəkmişəm bu dərdlərin dördünü,
Qoy bunu da çəkim, bunnan beş olsun.

Dedim uyma bu dünyanın malına,
İpəyinə, qumaşına, alına,
Uçdu quşlar, qondu dallı-dalına,
Bunnan geri bizim dallar boş olsun[3].

Abdulla istədi köçün dalınca getsin, lələ razı olmadı, dedi:
– Ay bala, sənin Qiyas vəzir kimi atan var. Neynək, köçüb, qoy köçsün. Gedib Cahanı ordan gətirdər.
Bu söz Abdullanın beyninə batdı. Oradan geri qayıtdılar. Lələ Qiyas vəzirin yanına gedib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Camal bəyin eli köçüb gedib. Oğlun elin dalınca getmək istəyirdi, qoymadım. Sevgilisi Cahandan ayrı dura bilmir.

Qiyas vəzir dedi:

– Lələ, sənə çox qoşun verəcəm. Elə elərsən, qoşun üç-bir, iki-bir dağılar. Təkcə sənnən Abdulla qalar. Abdulla tək neynəyəcək, qayıdıb gələcək, Cahandan da gözünü çəkəcək.

Lələ dedi:

– İxtiyar sənindi, nə cür desən, elə elərəm.

Abdulla dədəsi lələyə öyrətdiyi hiyləni başa düşdü. Çox qəmləndi, aldı, görək nə dedi:

Mən gedirəm sevdiyimin dalınca,
Sən də məndən belə varalı, könül!
Deməynən xeyri var, şəri də çoxdu,
Küsmə məndən, çəksən zərəli, könül!

Bivəfanın andı, musafi yalan,
Evin yıxır bivəfaya inanan,
Yar köçürüb, yollarına güvənən,
İndi düşüb məndən aralı, könül!

Abdulla əlindən bir nişan alan,
Yarıyıb dost qoynuna gülşan olan,
Əzəlindən məndən canhacan olan,
İndi düşüb məndən aralı, könül!

Abdulla başa düşdüyünü nə lələyə dedi, nə də atasına. Öz ürəyində dedi: yaxşı, siz deyən olsun.

Bəli, vəzir əmr elədi qoşun hazırlandı, ləläni də qoşuna böyük qoydu. Büzənhabüzən, damhadam qoşun yola düşdü. Yolda qoşunda olanlar bir-bir, iki-bir dağıldı. Axırda qaldı bir lələ, bir Abdulla. Lələ də dedi:

– Bir qoca kişiyəm, tay mən də getmirəm. Getsəm də, qo-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şunsuz bir fayda çıxmaz.

Abdulla dedi:

– Lələ, onda bir sözüm var, yaz, dağılan cavanlara ver, qoy oxusunlar.

Götürüb Abdulla dedi:

Budu ürəyimdə fikir, xəyalım,
Düşüm yarım düşən yollar, ay lələ!
Yetircəyin durum dönüm başına,
Qərq olsam dəryaya, sellər, ay lələ!

Aldı lələ:

Əzəli dərdimi sana söyləyim,
Ölüncə dönmərəm səndən, Abdulla!
Allah qoysa, gedib sevgin gətirrəm,
Uzaq yerdən, o Şirvandan, Abdulla!

Aldı Abdulla:

Qarşımızda duran qarlı dağ oldu,
Yar başına örtən yaşıl, ağ oldu,
Bu günkü mənzilimiz lap irağ oldu,
Gözümə göründü yollar, ay lələ!

Aldı lələ:

Biz də gəldik Xançobanın elinə,
Bad, əsmə yarımın sünbül telinə!
Bir canım var, qoyum sənin yoluna,
Ölüncə dönmərəm səndən, Abdulla!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Abdulla:

Abdullayam, haqqa pənah gətirrəm,
Allah qoysa, mətləbimə yetirrəm,
Ya can verrəm, ya Cahanı gətirrəm,
Bunu bilsin bizim ellər, ay lələ!

Aldı lələ:

Dərdimi söylərəm mən yana-yana,
Sidqimi bağladım qadir sübhana,
Biçarə ləlĕni saldın hicrana,
Ölüncə dönmərəm səndən, Abdulla!

Söz tamama yetdi. Lələ danışıqla da dedi:

– Oğlum, mən səni tək buraxa bilmərəm. Qoşun cəhənnəmə dağılsın, mən də sənnən gedəcəyəm.

Lələ ondan ayrılmadı. Onlar az getdilər, çox getdilər, gedib Xançobana çatdılar. Bir qarı bunlara rast gəldi. Abdulla dedi:

– Ay nənə, bizi qonaq elərsənmi?

Qarı dedi:

– Qonaq allah qonağıdı, gəlin.

Abdulla dedi:

– Qarı nənə, sənə bir sözüm var.

Üstəlik ətəyinə də xeyli pul tökdü.

Qarı dedi:

– Nə deyirsən?

Abdulla dedi:

– Bu üzüyü aparıb Cahan xanıma verərsənmi?

Qarı dedi:

– Oğul, Cahan xanım toy üstündədi. Ağa onu özünə alır.

Toy başlanıbdı.

Abdulla dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Neynək toy üstündədi? Sən üzüyü apar ona ver.
Qarı razı oldu. Abdulla görək qarıya nə yazdı, verdi:

Başına döndüyüm, ay qarı nənə,
Götür yar nişanı, yetir yara, ver!
Görüm yetəsən axirət imana,
Götür yar nişanı, yetir yara, ver!

Sevdiciyim daldalardan baxıbdı,
Şirin canım eşq oduna yaxıbdı,
Öz əliynən barmağıma taxıbdı,
Götür yar nişanı, yetir yara, ver!

Sevdiciyim ağlayıban gülübdü,
Naşı təbib dərdə dərman bulubdu,
Söylə: Cahan, Abdullahın gəlibdi,
Götür yar nişanı, yetir yara, ver!

Qarı bir həybəçəni doldurdu ağac qırıqları ilə, getdi Cahan xanımın otağının yanında «ay xırdavat alan» deyib qışqırdı. Cahan xanım qızlara dedi:

– Onu buraya gətirin.

Qızlar gəlib onu Cahan xanımın yanına apardılar. Cahan xanım dedi:

– Nənə, nə satırsan?

Qarı dedi:

– Bəzək-düzək.

Cahan xanım dedi:

– Bədənnümayı çıxart.

Qarı bir taxta, bir bıçaq, bir də daş qırığı çıxartdı. Qarıyı döydürmək istəyəndə stəkanda olan suyun içində üzüyü Cahana verdi. Cahan gördü Abdullaya verdiyi üzükdü. Qızları dağıdıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu mənim süd anamdı. Cahan aldı, görək qarıya nə dedi:

Canım qarı, gözüm qarı,
Yarımdan xəbərin varmı?
Malım, mülküm sənnən yarı,
Yarımdan xəbərin varmı?

Aldı qarı:

Cahan xanım, sənə deyim,
Abdulla öləcək oldu.
Eşqin düşübdü sərinə,
Saralıb solacaq oldu.

Aldı Cahan xanım:

Pünhan yanına getdiyim,
Ağ üzdən busə götdüyüm,
Şanasın bəlgə getdiyim,
Yarımdan xəbərin varmı?

Aldı qarı:

Sığın haqqın bir adına,
Tez yetərsən muradına.
Salıbsan eşqin oduna,
Alışıb yanacaq oldu.

Aldı Cahan xanım:

Dərin dəryaya dolanlar,
Dərddən xəbərdar olanlar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cahanı oda salanlar,
Yarımdan xəbərin varmı?

Aldı qarı:

Qədəmnisəyəm, taparam,
Sınıq könüllər yaparam,
Səndən bir müjdə qoparam,
Yəqin bil, gələcək oldu.

Söz tamam oldu. Cahan qarıya dedi:

– Qarı nənə, get Abdullaya de, güllü bağçaya gəlsin, mən də qızlarnan oraya gedirəm.

Qarı taptıya-taptıya gedib, Cahanın sözlərini Abdullaya xəbər verdi. Abdulla dedi:

– Özümə bir bəzək vurum, sonra gedim.

Abdulla geyinib, gecinib, bağçaya gəldi, gördü qız yoxdu. Durub o yana, bu yana boylanırdı, bu zaman işin tərsindən Ağa xan başında atlısı ilə gəldi, onu gördü. Salam verib, salam aldı, dedi:

– Aşıq, haralısınız?

Lələ dedi:

– Ərəsbərdənik.

Ağa xan dedi:

– Kimin aşığısınız?

Lələ dedi:

– Qiyas vəzirin.

Ağa xan dedi:

– Mənim toyum var, ora gedək. Toydan sonra sizə aşıqlıq lazım deyil, gedib sövdagarlıq elərsiniz.

Aşıqları götürüb aparanda Lələ Abdullaya dedi:

– Bizi aparan Ağa xandı. Birdən toyda Cahan adı çəkərsən, bizi ölümə verərsən.

Abdulla dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Çəkmərəm, qorxma!
Onlar gedib Ağa xanın evinə çatdılar. Ağa xan dedi:
– Bu cavan oğlan oxusun, görüm, ləfzi nə təhərdi, mənim toyumu yola sala bilərmi?
Abdulla sazı götürdü, aldı, görək nə dedi:

Başına döndüyüm, ay mənim lələm,
Lələ, hanı bəs Cahanım, görünməz?
Aylar, illər həsrətini çəkdiyim,
Lələ, hanı bəs Cahanım, görünməz?

Dərin-dərin dəryalara daldığım,
Şirin canım eşq oduna saldığım,
Zülfünün muyunu bəlgə aldığım,
Lələ, hanı bəs Cahanım, görünməz?

Arı desən, qızıl güldən arıyam,
Duru desən, çeşmələrdən duruyam,
Abdullayam, mən Cahanın yarıyam,
Lələ, hanı bəs Cahanım, görünməz?[4]

Ağa xanın acığı tutdu. Abdulla ona dedi:
– Ağa xan, pis oxudumsa, qoy yaxşısını oxuyum.
Aldı Abdulla dübarə:

Əzəl başdan sənnən sövda eylədim,
Sənə verdim çox-çox nəsihət, könül!
Gözə qorxu yoxdu, dil başa bəla,
Gəl eylə başını salamat, könül!

Yarı olan haçan dönər yarından,
Əlbət ki, utanar öz ilqarından,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əcəl meydanından, can bazarından,
Haçan görünüb sapa zarafat, könül!?

Apardım lələmi ağlı, huşundan,
Əlbət, doymaq olmaz yar baxışından,
Sənin bu işindən, bu tutuşundan,
Hələ çoxdu səndə əlamət, könül!

Bu söz də Ağa xanın acığına gəldi. İstədi tutdurub zindana saldırsın. Lələ Abdullanın sazını əlindən aldı, dedi:

– A bala, sən ki, söz demək bilmirmişsən. Niyə oxuyurmuşsan?! Aldı lələ:

Əlbəttə ki, düşər kəndi,
Hər kim quyunu qazar əyri,
Bir düzə bərabər olmaz.
Yığılsa səd həzar əyri.

Hər kəsin suçu özündən,
Salamsızın qaç üzündən,
Düşər mövlanın gözündən,
Kim düz baxıb, yazar əyri.

Lələ minər insan atı,
Gedər, görər qiyaməti,
İyidin olmasa zatı,
Gəzər leylü nahar əyri.

Ağa xan cavab verdi:

– Afərin, bax sözü belə deyərlər. İndi durun gedək qız görüşünə. Sizi yaxşı yola salacağam. Amma, cavan oğlan, sənin ləfzin yaxşıdır, qızın yanında bir söz deyib, mənim adıma bağlarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdulla dedi:

– Baş üstə!

Bunlar qızın otağına gedəndə Cahan xanım hamamdan gəlirdi. Bunlarnan qabaqlaşdılar. Ağa xan dedi:

– Aşıq, mənim toy elədiyim qız, bax, budu. Bir yaxşı söz de, mənim adıma bağla, səni razı eləyəcəyəm.

Abdulla dedi:

– Baş üstə!

Qız gördü Abdulladı. Qız Abdullaya tərəf baxmaq istəyəndə yel vurdu rübəndini açdı. Abdulla aldı, görək nə dedi:

Sallana-sallana gələn salatın,
Tərlan təki süzüşündən bəllidi.
Bir yel əsdi, atdı rübəndi üzündən,
Canlar oda yaxışından bəllidi.

Sinən ağdı, Savalanın qarı nə?
Bundan artıq gözəlliyin karı nə?
Yumruluqda bənzər Kürdaş narına,
Ağ məmələr duruşundan bəllidi.

Zülf tökülüb yandan, qucubdu gərdən,
Abdullanın ağlı gedibdi sərdən,
Barilahim, özün saxla nəzərdən,
Bir ay doğub, doğuşundan bəllidi[5].

Təxəllüsünü Abdulla özünə deyəndə Ağa xan çox qəzəbləndi. Cahan xanım irəli keçib dedi:

– Xan, mərfətin olsun, sən buna nə xələt verdin ki, sözü sənin adına bağlasın?!

Xan sakit oldu, dedi:

– Yaxşı, gedək otaqda xələtini verərəm, sözü mənim adıma bağlarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız bunlardan qabaq otağa getdi, pərdənin dalında oturdu. Ağa xan qabaqca içəri girdi. Ağa xan kef əhli idi, ayıq vaxtı olmazdı, dedi:

– Aşıq, tez sazı çıxart, üç söz de, mənim adıma bağla!

Abdulla dedi:

– Mənim gözüm üstə! Üç söz deyib, sənin adına bağlaram, arxayın ol!

Abdulla sazı götürdü, aldı, görək nə dedi:

Boyu mina, qəddi nazikbədən yar,
Yüz min işvə, nazın qurbanı canım!
Bir gülgəz yanaqlı, abi-ireyhan,
Oğrun baxan gözün qurbanı canım!

Əzəldən aşnaydıq, yad olduq nədən?
Mən sənə qurbanam, ay nazik bədən!
Girəydim qoynuna ta ki, sübhətən,
Şəhdü şəkkər dilin qurbanı canım!

Alı aldı, qırmızısı al yanaq,
Əmmək üçün ləzzət verir bal dodaq,
Məmən dikdi, sinən bəyaz, gen qabaq,
Şəmsü qəmər üzün qurbanı canım!

Abdullayam, var xəyalım yerində,
Ağlı, huşu, var kamalı yerində,
Zülfü, muyi, qəddi, dalı yerində,
Bu nişanda qızın qurbanı canım.

Bu sözləri yenə də Ağa xanın adına bağlamadı. Ağa xan istədi onu qılıncla vursun, Cahan xanım pərdənin dalından çıxdı. Ağa xana dedi:

– Mərfətin olsun, aşığı pulnan döyərlər, yoxsa qılıncnan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağa xan dedi:
– Mən səhv eləmişəm. Aşıq oxu!
Abdulla aldı, görək nə dedi:

Yarım şana vədə verdi,
Dedi sən get, gəlirəm mən.
Hər zaman üzün görməsəm,
Yəqin bil ki, ölürəm mən.

Sevdiyim süpür odanı,
Doldur, saqi, ver badanı,
Yarıma gələn qadanı,
Qızıl kimi alıram mən.

Miqdarı olmaz yalanın,
Ağlı olmaz çox gülənin,
Abdullayam, dərd bilənin,
Yüz il getsə, quluyam mən[6].

Qədəmnisə qarı şərbət paylayırdı. Ağa xan onun çənəsinin altından bir dürtmə vurdu, qarı dığırlanıb yıxıldı. Qız bərk pərt oldu, Ağa xana dedi:

– Ağa xan, qarını niyə vurursan? Qoca arvaddı, allaha xoş getməz.

Ağa xan dedi:

– Mən o qədər əskik olmuşam ki, mənə şərbəti qarı verir, bəs sən özün niyə vermirsən?

Cahan xanım bu sözü eşidəndə pərdənin dalına keçdi, bir piyala şərbətin içinə behuşdarı daxil elədi. Ustadlar belə deyərlər ki, behuşdarı vaxtınandı. Qız piyaləni əlində tutmuşdu. Qorxusundan gətirib verə bilmirdi. Abdulla bunu gördü, götürüb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzəl başdan məni dərdə salan yar,
Nə doğrusun söylər, nə sağı neylər.
Eşqin piyaləsin tutub dəstində,
Doldurmuş zəhrnən, nə sağı neylər.

Katiblər dərs alar, vədə sin gözlər,
Ömür başa yetən vədəsin gözlər,
Məcnun da Leylinin vədəsin gözlər,
Baş verib xirqadan nəs ağı neylər.

Abdullayam, mən də yaram, o da yar,
Kimə gedim yar əlindən dada, yar,
Qiya baxdın, məni saldın oda, yar,
Nə doğrusun gözlər, nə sağı neylər.

Cahan xanım gətirib behuşdarını Ağa xana verdi. Ağa xan o saat behuş olub, yerə yıxıldı. Cahan xanım əmr elədi, üç at hazır oldu. Atları minib, yola düşəndə Qədəmnisə qarı lələyə dedi:

– O özününkün aparır, bəs sən niyə özününkünü aparmırsan?

Lələ dedi:

– Mənim özümünkü kimdi?

Qarı dedi:

– Məni niyə unudursan?

İtələyib onu yerə yıxdılar, atları minib, yola düşdülər. Az getdilər, çox getdilər, bir təpəyə çatdılar. Atlardan düşüb, dincəlməyə başladılar. Lələ təpəyə çıxıb, yollara baxırdı, bir də gördü, Ağa xanın qoşunu sel kimi axıb gəlir. Lələ geri qayıdıb, gördü Abdulla ilə Cahan yatıblar, götürdü lələ, görək bunları nə cür oyadır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qalx ayağa, gör nə fikir elərsən,
Gələn cəlladlar da bu cana gələr.
Üz qoyubdu yollarına payəndaz,
Sər götürüb, mərdü mərdana gələr.

Danışcax gəlir qədəmə qədəm,
Hoyumuza yetişsin o şahi-kərəm,
Döyülür təbillər, sancağı ələm,
Bizləri gözlüyüb nişana gələr.

Lələyəm, məsgənim çöldü, biyaban,
Öldürsələr məni can sizə qurban,
Yazıq lələ deyər: gəlir Ağa xan!
Bizləri qoyubdu nişana, gəlir.

Lələ ağladı, gözündən yaş Cahan xanımın üzünə düşdü. Cahan xanım oyanıb dedi:

– Lələ, niyə ağlayırsan?

Lələ dedi:

– Niyə ağlamayım? Mən də sizin kimi cavan olmuşam. Bu dağlarda mən çox ov eləmişəm.

Cahan xanım dedi:

– Hansı dağlarda?

Lələ dedi:

– Bax, bu dağlarda.

Cahan götürdü, görək Abdullanı nə cür yuxudan oyatdı:

Dur, çağır Əli dostunu,
Oyan, Abdullahım, oyan!
Ağa xan kəsib üstünü,
Oyan, Abdullahım, oyan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağa xan qoşun gətirdi,
Mənzili başa yetirdi,
Qəvi düşmən güc gətirdi,
Oyan, Abdullahım, oyan!

Dalınca gəlmədi fərman,
Mən ollam dərdinə dərman,
Cahan xanım sənə qurban,
Oyan, Abdullahım, oyan!

Abdulla yuxudan oyandı. Lələ dedi:

– Oğul, deyən bu qız ikidillidi, onlara da söz verib, bizə də. Dur, atımızı minib qaçaq.

Qız götürüb dedi:

Qoca, bil ki, qabağımızda gor gəlir,
Ölüncə düşərəm, dönmərəm, lələ!
Bizlərdə adətdi – birə bir gəlir,
Ölüncə düşərəm, dönmərəm, lələ!

Qaça bilmərik, düşmən bizi görübdü,
Bir-birinə müjdə xəbər veribdi,
Ölürəm deyəni kim öldürübdü?
Ölüncə düşərəm, dönmərəm, lələ!

Cahanam, məsgənim çöldü, biyaban,
Öldürsən də məni, can sizə qurban,
Lələ də deyər: budu, gəldi Ağa xan,
Ölüncə düşərəm, dönmərəm, lələ!

Söz tamama yetişdi. Ağa xanın qoşunu yetişib, dörd tərəfi kəsdi. Ancaq Camal bəy də gəlmişdi. Qoşundan kənarda durmuşdu. Abdullagil özlərini Kürün qırağında olan qalaçaya sal-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dılar. O vaxt qayda belə idi ki, bir adamın üstə bir adam gələrdi. Artıq adamın gəlməyə ixtiyarı yox idi. Odu ki, meydan açıldı, nə qədər pəhlivan gəldisə, Abdulla hamısını tələf elədi. Camaat gördü Abdullaynan kimsə bacarmır, dedilər:

– Ağa xan, meydana özün get! O səni öldürsə qız onun olsun, sən onu öldürsən sənin.

Ağa xan naəlac qalıb, razı oldu. Vəzirin tədbiri ilə Ağa xan əmr elədi meydanın dörd tərəfinə lağım atdırdı ki, Abdulla meydana gələndə atlı-zaddı lağıma düşüb ölsün.

Gecə qız yuxuda gördü ki, Abdulla bir dərəyə düşüb, əlini uzadır, heç şeydən tuta bilmir. Qız başa düşdü ki, Abdullanın başında bir xata olacaq. Abdulla atını minib meydana gedən vaxt aldı Cahan xanım, görək nə dedi:

Getmə, getmə, bir bəri dön, sevdiyim,
Qoy verim, qalmasın amanatın, yar!
Qorxuram ki, bir də səni görməyim,
Onunçün eylərəm vəsiyyətim, yar!

Aldı Abdulla:

Ağlama, ağlama, bağrım qan olu,
Bağrım başı doldu fəğanınan, yar!
Üzmə əlin mənnən, kəsmə ümidin,
Get, sövdanı eylə sübhanınan, yar!

Aldı Cahan xanım:

Gəlsin yazın yaz, baharın qış olsun,
Seyrağıbın işi yaman iş olsun,
Qorxuram görşümüz bu görüş olsun,
Əl uzat, dəstindən mən də tutum, yar!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Abdulla:

Bağça sənə, bağban sənə, bağ sənə,
Alma sənə, heyva sənə, nar sənə,
Mən öləndə vəsiyyətim var sənə,
Sarmaşmaynan qara tikanınan, yar!

Aldı Cahan xanım:

Mən Cahanam, dərdə dözdürə bilməm,
Sirri seyrağıba sezdirə bilməm.
Sənsiz bu canımı gəzdirə bilməm,
Qoy qanım qanına mən də qatım, yar!

Aldı Abdulla:

Abdullayam, sirrə sirdaşım gərək,
Ümmana qarışan göz yaşım gərək,
Bu günümdə qoçaq qardaşım gərək,
Gör, nə dava eylərəm Şirvanınan, yar!

Söz tamama yetdi, Abdulla meydana çıxdı. Ağa xan hələ gəlməmişdi, götürüb dedi:

Çağırdım mövlamı, girdim meydana,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!
Meydanı boyaram zərəfşan qana,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!

Yerdi Şirvan, qətlə fərman ya mənim,
Əzbərimdi şiri-yəzdan ya mənim,
Cahan xanım ya sənindi, ya mənim,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdulla meydanda, Şirvan oynar,
Qalxan gumbuldanı, şəmsitan oynar,
Axar bu meydanda qızıl qan, oynar,
Gəlirsən meydana, gəl indi, gəl, gəl![7]

Ağa xan meydana çıxıb dedi:

– Fürsət sənindi, mənim?

Abdulla dedi:

– Biz fürsəti hərifə verərik.

Bir qılınc vurmağı qərara aldılar. Ağa xan üç qılınc vurdu. Abdulla dedi:

– Niyə qərarımızı pozdun? Sən mənə üç qılınc vurubsan, onun birini allaha bağışladım, birini də baxan camaata. Mən sənə bircə qılınc vuracağam. Atalardan məsəl var: nər maya üstə qızar.

Abdulla atı hərləyəndə baxdı ki, Ağa xan qaçır. Abdulla onun dalınca gedəndə xarıma düşdü, Abdullanı tutdular. Ağa xan istədi Abdullanı öldürsün, camaat qoymadı. Abdullanı ağaca sarıdılar.

Lələ Abdullanın tutulduğunu görüb, aldı, görək Cahan xanıma nə dedi:

İndi belə sən gör lələnin günün,
Şadlıq xəbərini vaya yetirdi.
İlk deyil taxsırı, çox günahkardı,
Verdiyim əməyi zaya yetirdi.

Çətin bu yaralar sağala bilə,
Sinəmin üstünü dağ ala bilə,
Nə vətənə gedə, nə qala bilə,
Əcəl məni bu səhraya yetirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Et gözüm önündən pünhan atanı,
Sən mənə qannısan, mən sənə qannı,
Qiyasınan oldum mən lələ qannı,
Cahan Abdullanı baya yetirdi.

Bu burada qalsın, Camal bəyin yanında Qanlı Turab adında bir keşiş var idi, ərəsbərli idi. Əlindən xəta çıxmışdı deyin, gəlib Camal bəyin yanında yaşayırdı. İş belə olanda Camal bəy Qanlı Turaba bir kağız verib dedi:

– Apar, bu kağızı Qiyas vəzirə ver. Sənin günahından keçəcək.

Qanlı Turab yola düşüb, yel kimi getdi.

Qanlı Turab gedən zaman lələ Cahan xanıma demişdi:

Mütrübü xoş xannar nama eylədi,
Şükür, şəfa tapdı yaradan canım.
Xəyalım könlümü veran eylədi,
Sübhü şam sızıldar yaradan canım.

Böyük-mina qırıblar, batıb qənara,
Yar, əllərin əcəb batıb qənara,
Yar gəzməyən yerlər qalsın verana,
Yarsız da verməsin yaradan canım.

Biçara Lələyəm, səndən alıram,
Səndən yaralıyam, səndən alıram,
Abdulla qisasın səndən alıram,
Əyər olmasan yaradan canım.

O biri tərəfdən Qiyas vəzir də qoşunla oğlunu axtarmağa çıxmışdı. Gördü ki, Qanlı Turab boğanaq kimi gəlir, dedi:

– Onda bir xəbər var.

Qanlı Turabı tutdular. Qanlı Turab kağızı Qiyas vəzirə ver-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

di, ona çoxlu ənam verdilər. Bunlar getməkdə olsun, aldı qız, görək nə dedi:

Ağa xan, boynun qırılsın,
Ayırdın o yarı məndən.
Qarı düşmən güc gətirdi,
Aldı ixtiyarı məndən.

Al eylədin, inandırdın,
Yarı yardan usandırdın,
Çərxi-fələk, dolandırdın,
O çərxi-qəddarı məndən.

Cahan dözəmməz bu dağa,
Bülbülüm qonmaz, budağa,
Yarsız girmərəm otağa,
Tanrı alsın canı məndən.

Söz qurtaran kimi Qiyas vəzirin qoşunu gəlib yetirdi. Dörd tərəfi kəsdilər. Qoşun hamısı əl qaldırdı. Qiyas vəzir oğlunu dar ağacından açdırdı. Qiyas vəzir qoymadı Ağa xanı öldürsünlər.

Ağa xandan soruşdu:

– Ayıb döyülmü belə işi görürsən?

Ağa xan dedi:

– Qız əvvəl mənim nişanlım idi, onun üçün belə işi gördüm.

Qiyas vəzir Camal bəydən soruşdu, Camal bəy dedi:

– Yalan deyir, mən qızımı əvvəl sənin oğluna vermişəm.

Camaat dedi:

– Nə eləmək?

Qiyas vəzir dedi:

– Mən qızımı Ağa xana verirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar deyir bunların ikisinin də toyu bir yerdə oldu. Qırx gün, qırx gecə toy eləyib, məddi-murada çatdılar. Aşıq gəlib toyun duvaqqapmasını belə söylədi:

Həzərat, gözəllərin
Bir xası öldürdü məni.
Açılmamış təzə gülün
Qonçası öldürdü məni.
Baş verib nar məmələr,
Düyməsi öldürdü məni.
Bir şux alıcı tərlanın,
Cilvəsi öldürdü məni.
Canım alan qara gözün
Sürməsi öldürdü məni.

Camalını görən xəstə
Olubdu avara, deyim.
Məcnun kibi divanədi,
Düşübdü dağlara, deyim.
Ay beymürvət, gəl bir eylə
Bu dərdimə çara, deyim.
Amandı, eşit ərzimi,
Sən şahi-xublara deyim.
    Ay qız, nəzik əllərinin
    Xınası öldürdü məni.

Kimsədə görməmişəm
Belə qamət, qəddi gözəl.
Gün kibi şölə verib,
Bu necə surətdi, gözəl?
Maşallah, şükür eylərəm,
Əcəb məlahətdi, gözəl.
Xub gözəllər içində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənsən çox qiymətdi gözəl.
        Geydiyin gül əndamın
        Qoftası öldürdü məni.

Ay nainsaf, gəl məni sən
O Şeyxi-Sənan eləmə.
Dərd məni çox söylədir,
Demə ki, hədyan eləmə.
Sonatək cilvələnib,
Sən belə cövlan eləmə.
Hər baxanda canlar alıb,
Saatda yüz qan eləmə.
        Od kimi müjganların
        Yarası öldürdü məni.

Görəsən dünya üzündə
Bir belə insan yoxmudu?
Behiştdə xəlq olunan
Huriyi qılman yoxmudu?
Ölürəm, mən xəstənin
Dərdinə dərman yoxmudu?
Hüseynin ilahıdan
Qətlinə fərman yoxmudu?
        Nainsaf gözəllərin
        Əlası öldürdü məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# MƏHƏMMƏD VƏ GÜLƏNDƏM

## USTADNAMƏ

Bir insan ki, əsil olsa binadan,
Qəlbə dəyməz, düz xiyalı gözdəyər.
Artırıf zinyətin şahənşah olsa,
Bir nəzərdə cəm mahalı gözdiyər.

Bir dosta olmasa ilqar, dəyanət,
Dərdə düzdən dərman etməz əyanət.
Öyünə, malına olar xəyanət,
Müxənnət dost qumaş, şalı gözdiyər.

Qazav-qədər başa salsa qaranı,
Döylətə dost olan etməz çaranı,
Kasatdığa düşsə kəsər aranı,
Tikə dostu döylət, malı gözdiyər.

Əsil dostun məhəbbəti çox olu,
Özü düz, sözü düz, xədəng ox olu,
Mərd iyidin gözü, konlu tox olu,
Dost yolunda qavax, dalı gözdiyər.

Demə şayır Vəli düşüf gumana,
Fəhm yetirifdi yaxşı-yamana.
Kamil olan qovl verməz şeytana,
Dərk eliyər, pür kamalı gözdiyər.

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək, iki olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə lazımdı naqabilə söz deyəm,
Xatirinə ya dəyməyə, ya dəyə.
Sizin olsun eyvan, otaq, alaçıx.
Bizə bəsdi ya kölgəlik, ya dəyə.

Pis övlada öyüd versə yaxşı ata,
İyid çıxıb savar olmaz yaxşı ata,
Kamil ovçu bərəsində yaxşı ata,
Keçirəndə ya dəyməyə, ya dəyə.

Hüseyn deyir: mayıl oldum Gülxara,
Geyinibdi atlas, ziba, gül, xara,
Qorxuram ki, qismət ola gül xara,
Bağban ölə, dal budağı yad əyə.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək, üç olsun, boş torbalar dolsun.

Bir aşıq olmasa kamil sanında,
Kəlam haralı, insan haralı?
Sərraf bazarında, usta yanında,
Anlayan haralı, qanan haralı?

Neylər nadan ləlü gövhər qabını?
Qayda budu: hər kəs tapa babını.
Kamil ovçu tora salsa ovunu,
Can deyən haralı, canan haralı?

Gəlməz dərin sözün kimi xoşuna,
Düşmə şairlərin tər savaşına,
Sevda aşığına, eşq ataşına,
Yandıran haralı, yanan haralı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şairlik nisbətdi bir ağır daşa,
Qorxuram cəngində xəyalın coşa,
Qoç kimi meydanda gəlsə baş-başa,
Sındıran haralı, sınan haralı?

Nəcəf bir qəvvasdı, salma dərinə,
Bir də çətin olan yerdə sürünə,
Kəklik, pərin çataz şonqar pərinə,
Gəlməsin könlünə güman, haralı?

Gəlin sizə hardan söylüyüm, sabiqəl-əyyamnan. Keçən günlərdən, keçmiş döyrannardan, ustaddarın kamalından, İsfahan şəhərindən, şah Abbasdan.

Şah Abbas günlərin birində şikara çıxmışdı. Şəhərin qırağında bir mollanın məhtəbi var iydi. Tələbələr izin alıb molladan, şah gələn yolun kənarına, oynaşmağa çıxmışdılar. Uşaxlar öz oynuna məşğul olanda gördülər ki, bir qoşun gəlir ki, atın dırnağından qalxan toz asimanı bülənd eləyib. Uşaxlar başdadı qaçmağa. Uşaxların içində bir sonsuz düşgün qarının oğul nəvəsi var iydi, adına Məhəmməd deyirdilər. Məhəmməd dedi ki:

– Ay uşaxlar, qaçmayın! O qoşun şah Abbasın qoşunudu. Şah Abbasın özü də o qoşunun içindədi. Mənim sözümə baxarsınızsa, xərcdik alaram.

Uşaxlar Məhəmmədin bu sözünü eşidəndə əyləndilər. Dedilər ki:

– Məhəmməd, indi sən bilərsən.

Məhəmməd ləyiqinnən şahın ehtiramına düşdü. Özü də uşaqların baş sırasında durdu, dedi:

– Uşaxlar, siz mana baxın, mən nə iş eyləsəm, siz də elə eyləyin.

Şah gəldi yetişdi. Uşaxlar ədəb-ərkənnən şahın salamını yerinə yetirdilər. Şah gözüynən uşaxlara tərəf baxdı, gördü ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

başda bir uşax durub, uşaxlar ona baxırlar. Başdakı uşax nə iş görürsə, uşaxlar da onu görür. Şah dedi ki:

– Vəzir Allahverdi xan, o başdakı uşağı al atın tərkinə. Qalan uşaxlara da xərcdik ver, yola sal.

Vəzir Allahverdi xan Məhəmmədi aldı atın tərkinə, qalan uşağa bir qədər xarcdık verdi, yola saldı. Şah öz taxtı-səltənətinə atını sürüf getməyə başdadı. Yetirdi, atınnan düşüf, öz taxtı-səltənətində əyləşdi. Buyurdu ki:

– Vəzir Allahverdi xan, gətir görüm o uşax kimin nəyidi?

Vəzir Allahverdi xan həmən Məhəmmədi gətirdi şahın qulluğuna. Məhəmməd şahın salamını ədəb-ərkənnən yerinə yetirdi. Şah buyurdu:

– Oğlum, kimin nəyisən? Kimlərdənsən?

Məhəmməd dedi:

– Ey qıvleyi-aləm, birinci küçədə bir sonsuz qarının oğul nəvəsiyəm, atam, anam da yoxdu.

Şah buyurdu:

– Oğlum, o ki, deyirsən nənən – dururmu?

Məhəmməd dedi ki:

– Bəli, durur.

Şah hökm elədi ki, qarıyı gətirin.

Şahın hökmünnən qarıyı gətdilər. Padşahlıq səltənətindən bir dənə otaq verdilər, qarı burda yaşamaqda oldu. Məhəmmədi ara işdərində işdətməyə başladılar. Bir neçə vaxt bu işində işdədi, bir qədər sonra Məhəmmədi şah çağırtdırdı, dedi ki:

– Oğlum, şikar oymax sənətini başararsanmı?

Məhəmməd dedi:

– Bəli, qıvleyi-aləm, başararam.

Kamandarlıx lıvasını Məhəmmədə verdilər. Məhəmməd şikar oylamağa başladı. Bir gün gedirdi beşini vururdu, bir gün gedirdi on dənə şikar vururdu. Bir gün də getdi, səkkiz gün çöldə qaldı, əlinə şikar keçmədi. Əli boş, üzü qara şahın yanına qayıda bilmədi. Gözünü dolandırıf dağlara baxırdı, gördü bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

uzaq yerdə bir uca dağ görünür. Öz-özünə dedi ki: o dağda şikar olar. O dağın adına nə deyirdilər? – Əlvan dağı. O dağın qışı, yazı olmazdı. Hər vaxt orda çiçək, yaşıl otdar olardı. Məhəmməd səməndini minif, dağa sarı getməyə başladı. Əlvan dağın uca bir yalına çıxıf gördü ki, burda çiçək çiçəknən söyləşir. Ajdıx Məhəmmədi çox darıxdırmışdı. Gözünü dolandırdı, gördü dağın ayağında bir çökək, çökəkdə bir çadır var. Məhəmməd ürəkdən söyünüf dedi ki, o çadırın yeyəsinin çörəyi olmuş olar. Atını minif çadıra getəyə başladı. Gedəndə gördü ki, bu çadırda bir qız əyləşif, nə təhər əyləşif?.. Fərişdeyi-kirdar, ürək basan, sərfa kəsən, gözünü süzən, canlar üzən, düymə düzən, qonça dahan, gülü reyhan, süzgün baxan, gəl məni gör, dərdimnən öl, əlini vurma, geridə dur. Qız deyirəm, yayın qızdırmasını demirəm ki, qışda yaxandan əl çəkməyə. Qız oğlana baxanda gördü ki, oğlan ajdı, rəngi üstündən söyrülüf. Qız öz xurcununu açıf, yaxşı çörəklər qızıl məjmayaya qoyuf, oğlanın qabağına gətdi. Oğlan atının örtüyünü çalıf gəldi. Qız çörəyi oğlanın qabağına qoyuf, öz çadırına qayıtdı. Oğlan çörəyi yedi, qıza ürəyi çox yapışdığından öz-özünə dedi ki, gəl sən munun bu məjmayısını qır, görək qız sənə nə deyəjək. Məhəmməd məjmayını əlinə götürüb, dizinə təkan verif iki parça elədi. Qız o tərəfdə dedi ki, indi oğlan çörəyini yemiş olar. Gedim çörəyin qavını gətirim. Qız gələndə gördü ki, məjmayı iki parçadı. Qız oğlanın ürəyini qanıf, geri qayıtdı. Çadırın hər yandan tənəflərini qopardıf, loğalax qayırıf, atının tərkinə bağlayıf, əyağını üzəngiyə vuruf, atının belinə qalxdı. Ata bir təzyana vurdu, bir bələn aşdı. Məhəmməd qızın dalınnan baxıf dedi ki:

–Mən ki, şikar gəzirəm, bunnan da yaxşı şikar olmaz, gəl bunu qaytar, apar.

Məhəmməd də atını minif qıza yetirdi. Dedi:

– Qız, sən öz insafın, əyağını saxla. Üççə kəlmə sözüm var.

Qız əyağını saxladı. Məhəmməd qılıncını döşünə çəkif,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görək qıza söznən nə dedi:

Dünya gözəlisən, dağlar maralı,
Söydüyüm, sonam, sən burdan qayıt!
Qoyma məni burda bağrı yaralı,
Söydüyüm, sonam, sən burdan qayıt!

Qız dedi ki:

– Zalım oğlu, qavaxdan danışan elə bilər ki, dalkının sözü yoxdu.

Aldı qız:

Dünya gözəliyəm, dağlar maralı,
Axmağın birisən, ordan qayıt!
Çox cavanlar qoydum bağrı yaralı,
Axmağın birisən, ordan qayıt!

Məhəmməd ürəyinə belə gətirdi ki, mən şah Abbasın adını versəm, qız qayıdar.

Aldı Məhəmməd:

Dağlar maralısan, göylər ülkəri,
Görmüşəm ləbində qəndi, şəkəri,
Bil ki, mənəm şah Abbasın nökəri,
Söydüyüm, sonam, sən burdan qayıt!

Aldı qız:

Dağlar maralıyam, göylər ülkəri,
Çoxlar arzular bu qəndinən şəkəri.
Ağlar qoyaram sənin kimi nökəri,
Axmağın birisən, ordan qayıt!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Məhəmməd:

Məhəmmədəm, mana vermə azarı,
Sədrin üstə gördüm meydan, bazarı.
Mənəm şah Abbasın tək kamandarı,
Söydüyüm, sonam, sən burdan qayıt!

Aldı qız:

Güləndəm çoxlarına verdi azarı,
Çox dəllal axtarır meydan, bazarı.
Ağlar qoyar sən kimi kamandarı,
Axmağın birisən, ordan qayıt!

Hər ikisinin sözləri tamama yetişdi. Qız ata bir qamçı vuruf, bir bələn də aşdı. Məhəmməd ata bir təzyana çəkif, qıza yetirdi, dedi:

– Qız, bir az da əyağını saxla, üç kəlmə də sözüm var.

Məhəmməd genə aldı, görək nə dedi:

Aldı Məhəmməd:

Başına döndüyüm, qurban olduğum,
Məni qoyufunan harya gedirsən?
Ala gözələrinə heyran olduğum,
Məni qoyufunan harya gedirsən?

Aldı qız:

Çox oğlan qədəmmə qurvan olufdu,
Yan çöyürüf, mən Kişmirə gedirəm.
Yanıf ataşına, giryan olufdu,
Yan çöyürüf, mən Kişmirə gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Məhəmməd:

Üzülməynən sən də məndən aralı,
Bağrımın başını qoyma yaralı.
Mən ovçuyam, buraxmaram maralı,
Məni qoyufunan harya gedirsən?

Aldı qız:

Salamatkən üzül məndən aralı,
Sağ cəsədin eylətməynən yaralı.
Sən ağızlı ovçu tuta bilməz maralı,
Yan çöyürüf, mən Kişmirə gedirəm.

Məhəmməd öz-özünə dedi ki, gəl bir olan gücünü bu qıza bildir. Gücünü bildirmək üçün görək Məhəmməd nə deyir.

Aldı Məhəmməd:

Məhəmməd der: meydan bilər, bilərəm,
Zərbinən kəllənə qılınc çalaram.
Üzü üstə atınnan yerə salaram,
Məni qoyufunan harya gedirsən?

Aldı qız:

Güləndəm səndəki gerçəgin qandı,
Gəlirsən gəl, bu düz, bu da meydandı.
Boğazına salaram ipək kəməndi,
Yedəyimdə o Kişmirə gedərəm.

Sözlər tamamına yetişdi. Məhəmmədin ajığı tutuf, qılıcını belinnən çəkdi, bir, beş, ta onatana qılıjın arxasınnan qızın başına vurdu. On tamamında qız dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğlan, əlini saxla.

Oğlan əlini saxladı. Qız dedi:

– Oğlan, ajığın tutmuşdu bir vuraydın, iki vuraydın, dəmirçi zindanına ha taftamırsan?

Məhəmməd qalxanını başına götürdü, qız ajıxlı nər kimi qılıjını çəkdi, oğlanın başınnan bir qılıj vurdu ki, qavax süysünün dalına, qılıjın dalı isə iki qaşının arasına. Oğlan beyhuş oluf, atınnan yerə düşdü. Qız ajıxlı ilan kimi atınnan yerə düşdü. İstədi oğlanın başını kəsib, Kişmir şəhərinə soğat aparsın. Oğlanın qaşından bir məhəbbət qalxıb, qızın canına çökdü. Qız dedi ki:

– Kaş mənim əllərim quruyaydı.

Ona qılınc vuran qız özü xan qızı idi, həkimlik dərsini oxumuşdu, seçilmiş həkimdən biri idi. Qızın Əlvan dağına gəlməyinin səbəbi də onda idi ki, dərman otları Əlvan dağında çox olurdu. Burdan çiçək dərif, aparıf, Kişmirdə dərman qayırırdı, hər dərdin dərmanını öz buxçasında gəzdirirdi. Qız öz-özünə dedi ki, indi bir dərman qayırram, sağalar, yaxamnan əı çəkməz, gəl bir dərman qoy, üç gün burda yatsın, səni də yolunan eləməsin.

Üç gün vədəlik başına bir dərman qoydu, ən yaxşı dərmanlardan yeddi dənə də bir dəsmalın arasına qoydu, bir kağıza da yazdı ki, dərmanlar nə vədədən nə vədəyə qoyulasıdı. Barmağından qızıl üzüyünü də çıxartdı, kağızın üstə qoydu. Görək ikinci kağızı söznən qız nə təhər yazır:

Aldı qız:

Başına döndüyüm, qurvan olduğum,
Məni axtarsan o Kişmirə gəlginən!
Yanıf, ataşına giryan olduğum,
Məni axtarsan o Kişmirə gəlginən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı o biri kəlməsini:

Bulannıx sel qoy gözümnən yerisin,
Qara duman Əlvan dağın bürüsün,
Səni vuran qolum qurusun,
Məni axtarsan o Kişmirə gəlginən!

Aldı o biri bəndini:

Yadiyar üçün namə yazdı Güləndəm,
Üzüm dönsün əyər mən sənnən dönsəm,
İnsafı sevərsən, usanma mənnən,
Məni axtarsan o Kişmirə gəlginən!

Qız sözünü tamama yetirdi, həmən kağızı bir-birinə qatdayıf üzüyü də arasına qoydu. Kağızın üstə yazdı ki: oğlan, yerim Kişmir şəhəridi. Adım Güləndəm xanımdı. Məmməd xanın qızıyam. Gərək gələsən, Kişmir şəhərindən məni gətirəsən, gətirməsən mənim yaylığım sənin başına, sənin papağın mənim başıma.

Bu sözü deyib, kağızın başını bağladı. Bir dəsmalın arasına düyləyif, oğlanın başını qaldırıf, başının altda qoydu. Oğlanın atının örüyünü çalıf, hər üzünnən bir öpüş alıf, getməyə bina qoydu.

Qız getdi, Məhəmməd qaldı. Həmən dərmanı ki, qız vermişdi Məhəmmədə, Məhəmməd düz üç gün yatdı, üç günnən sonra yerinnən qalxıf, atına baxanda gördü ki, at örühləndiyi yerin otunu torpağınatan yiyif. Məhəmməd gördü ki, yatdığı yerdə bir dəsmal durur. Dəsmalın ağzını açdı, dərmannarın adını da oxuyuf, vaxtını qandı. Qızın özünə yazdığı kağızı da oxyuf qandı. Məhəmməd cahallığının şoğuna ürəyi coşuf, istədi ki, buradan getsin; bir də nökərriyi yadına düşüf dedi:

– Gedim şahın qulluğuna, şah rusğat verər, qızın dalınnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedərəm, verməzsə ixtiyarım onun əlindədi, getmərəm.

Atını minif, gəldi şahın qulluğuna. Bəli, şah Məhəmmədin gəlməsinnən xəbərdar oluf, Məhəmmədi hüzuruna çağırtdırdı. Şah buyurdu:

– Balam, Məhəmməd, on bir gündü hardaydın?

Məhəmməd dedi:

– Qıvləyi-aləm, mən getmişdim şikara, əlimə şikar keşmədi, əli boş, üzü qara sənin yanına qayıda bilmədim.

Şah buyurdu:

– Balam, Məhəmməd, bir gün gedərsən yüzünü vurarsan, elə vaxt olar ki, yüz gün gəzərsən birini tabmazsan. Oğul, şikar olmamağınnan heç pisikmə. Söylə görüm, oğul, başına nə oluf ki, başını sarıyıbsan?

Məhəmməd xəjələtliyinnən olanı şaha demək istəmədi. Dedi:

– Şah sağ olsun, atdan yıxılmışam, daş başımı yaralıyıf.

Şah dedi:

– Vəzir Allahverdi xan, dəsmalı oğlanın başından götür görək.

Başınnan dəsmalı götürdülər, gördülər ki, qılıc yarasıdı. Şah dedi:

– Oğlum, Məhəmməd, buraların şikarı qəhət olmuşdu ki, Əlvan dağına çıxdın, Güləndəmə başını çafdırdın gəldin? Oğul, çox səni kimi oğlannarın başını o Kişmir şəhərinə aparıf. Söylə görüm, nə dilnən yalvardın ki, sənin də başını kəsif Kişmirə aparmadı.

Məhəmməd dedi:

– Qıvleyi-aləm, dilimnən desəm od düşər, dilim, ağzım yanar, qoy sazı-söznən deyim.

Aldı Məhəmməd, şahın qulluğunda görək nə deyir.

Aldı Məhəmməd:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm, ay gözəl şahım,
Güləndəm məni o Kişmirə istəyif.
Sənnən qeyrəz yoxdu mənim pənahım,
Güləndəm məni o Kişmirə istəyif.

Səməndimi mindim, Əlvəndə sürdüm,
O gözəl Əlvəndə çadırın gördüm,
Nanını yidim, məjmayısını qırdım,
Güləndəm məni o Kişmirə istəyif.

Bir cavab söylədim, cavabımı aldı,
Zərbinən qılıncı kəlləmə çaldı,
Üzü üstə atamnan, bil, yerə saldı,
Güləndəm məni o Kişmirə istəyif.

Məhəmməd umudun dünyadan üzüf,
Bədənimin qanı kəlləmdən süzüf,
Gəl-gəl deyif, adıma kağız da yazıf,
Güləndəm məni o Kişmirə istəyif.

Bəli, Məhəmməd sözünü tamama yetirdi. Həmən qız yazdığı kağızı şahın qabağına qoydu. Şah kağızın mətlufunnan başa düşüf, Məhəmmədə dedi ki:

– Oğul, mən sana rusxat verərəm, amma sənin nənəyin qarğışı qoymaz səni bir məkana çatasan, məni də qoymaz ki, burda dincələm, oturam. Get, nənən rusxat versə, mən də rusxat verərəm.

Məhəmməd getdi nənəsinnən rusxat almağa. Nənəsinin yanına yetirəndə nənəsi dedi:

– Oğul, oğul da anadan belə soyuyarmı ki, on bir gündü sən mənim yanıma gəlmirsən?

Məhəmməd dedi:

– Ana, nökərəm, öz ixtiyarım özümdə döy, izin verməsə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gələ bilmərəm.

Anası düvara xəbər aldı:

– Qurvanın olum, oğul, de, başına nə gəlif? Niyə sarıyıbsan?

Məhəmməd belə cavab verdi:

– Ana, atdan yıxılmışam, daş yaralıyıfdı.

Nənəsi oğlanın dəsmalını başından götürdü. Götürəndə gördü ki, qılış yarasıdı, dedi:

– Bay, oğul, nə üçün Əlvan dağına getdin ki, Güləndəmə başını çafdırdın, gəldin?!

Güləndəm bir neçə şəhərlərdə məşhur tanınmışdı. Özü xan qızı olmasına baxmayaraq həmişə bəylərnən, xannarnan şiddətlə dava edərdi. Oğlanın başının yarasını nənəsi görəndə ocuna bir az un alıf, üstə bir az su töküf xamır qayırdı. O xamırın adına keçmişdə tüpürüh məlhəmi deyirdilər. O da köhnə qarılar dərmanıydı. Bu xamırı qarı oğlanın başına qoyuf, dəsmalnan sarımağa başladı. Məhəmməd dedi:

– Ana, sənə üç kəlmə xayışım var.

Anası dedi:

– Oğul, diyə bilərsən.

Aldı Məhəmməd, saznan-söznən görək nənəsinə nə deyir, nənəsi oğlana nə deyir:

Aldı Məhəmməd:

Canım nənə, gözüm nənə,
Rusğat ver, mən gedər oldum.
Od canımda yana-yana,
Rusğat ver, mən gedər oldum.

Aldı qarı:

Canım oğul, gözüm oğul,
Qoymaram səni ölüncən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə qurvan özüm, oğul,
Qoymaram səni ölüncən.

Aldı Məhəmməd:

Düşmüşəm yarın qəhrinə,
Bax, nənə, işin təhrinə.
Gəl, deyib, Kişmir şəhrinə,
Rusğat ver, mən gedər oldum.

Aldı qarı:

Qoymaram səni mən ölməmiş,
Ömrümü başa vurmamış,
Şah sana rusğat verməmiş,
Gəl getmə rusğat verincən.

Aldı Məhəmməd:

Məhəmməd o yolu görüf,
Bağçadan gülünü dərif,
Şah mana urusğat verif,
Rusğat ver, mən gedər oldum.

Aldı qarı:

Sana qurvan Şahravanı,
Bəs kimə tapşırdın məni?
Yandırarsan din-imanı,
Çıxar canım sən gəlincən.

Hər ikisi sözü tamama yetirdi. Nənəsinnən rusğat aldı, şahın qulluğuna gəldi. Şah buyurdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, Məhəmməd, nənənnən rusğat aldın?
Dedi:
– Bəli, qıvleyi-aləm, aldım.
Şah dedi:
– Oğul, mən də sənə rusğat verdim, getsən gedə bilərsən. Toyladan istədiyin atın birini al, min, get! Allahverdi xan vəzir, oğlana nə lazımdı tədarıkını gör!
Oğlanı ağır tədarıkinən yola saldılar. At eşqili, oğlan eşqili, mənzil nəyə? – Yar eşqinə savah səhər yola düşdü, geri yanını fikirləşif gördü ki, karvan mənzili altı günlük gəlif. Belə baxanda gördü ki, yolun kənarında bir çəmənnik var. Dedi:
– Gəl, bu çəmənniyə düş, həmi atın dincəlsin, həmi də özün dincəl, sonra gedərsən.
Çəmənniyə düşdü. Çəmənnik kimin yeri olsun, qara döyün yeri olsun, quş gələndə qanad salar, qatır gələndə dırnax. Qara döyün bu yerdə iki qaravulu var idi. Qaravullar oğlanın atını gördükdə oğlana tərəf gəlməyə məşğul oldular. Oğlan surfa açıf çörək yeyirdi, qaravullar oğlanın yanına gəlib heç bir sual-cavaf olmamışdan oğlanı tutub qollarını bağladılar. Oğlan sazını götürüf, görək qaravullara nə deyir.
Aldı Məhəmməd:

Axdı didəm yaşı, döndü sellərə,
Yoxdu bu dərdimnən qanan, ağlasın.
Sığışmaz ki, dərdim, diyəm dillərə,
Yoxdu bu dərdimnən qanan, ağlasın.

Ağrıyar bədənim, sızıldar yaram,
Öz dərdimə yoxdu mümkünüm, çaram;
Bir gedən yox, şaha kağız göndərəm,
Bu günümə yazıx nənəm ağlasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kimim var ki, gələ girə dayağa,
Qanımnan büləndim əlvan boyağa,
Qaradı cəsədim başdan-ayağa,
Bir kimsəm yoxdu ki, tamam ağlasın.

Məhəmmədəm, mən gəzmişəm ellərdə,
Vətənnən avara qaldım çöllərdə,
Söydüyümün gözü qaldı yollarda,
Eşitsin əhvalım, o, qan ağlasın.

Söz tamama yetişdi. Qaravullar oğlanın qolunu dar sarıdılar, olan xarşdığın əlinnən aldılar. Yoldaykan atını satdılar. Apardılar qara döyün zindanxanasına. Zindanxanaya salıf, iki put qurğuşun da boynuna asdılar, çıxdılar getdilər öz işlərinə. Oğlan gördü burda bir qoja kişi var, mirvarı kimi ağ saqqalı döşünə qədər tökülüf. Qoja kişi xavar aldı:

– Oğul, sən haralısan?

Məhəmməd buyurdu ki:

– Bava, mən İsfahannıyam.

Qoja kişi Məhəmmədi söylədif, ürəyini qandı. Dübara Məhəmməd kişidən soruşdu ki:

– Bava, mən nə iş tutdum ki, məni zindana saldılar?

Qoja kişi dedi:

– Oğul, o sən duşdüyün yer qara döyün yeridi. Səni gətirən qara döyün qaravullarıdı. Bura da qara döyün zindanxanasıdı. Qara döyün bir arvadı var, oğul, səni çağırtdırajax. Sana nə desə, deynən anamsan, bajımsan. Genə nə soruşsa, deynən anamsan, bajımsan. Adı da Gözəl xanımdı. Bir də, Gözəl xanım elə gözəldi ki, adam üzünə baxanda gözəlliyin şoqunnan axlı başınnan gedir. Bir də, çalış üzünə baxma. Gözəl xanım olan otağın çöl üzündə tilsimnən bir şey var ki, nə desən oraya yazılar. Yaxşı da, yaman da. Qara döy ona baxar, nə kimi söz danışsan ona görə cəza verər. Bir də, mən bu zindana düşəli qırx



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ildi. Qara döy səni buraxsa, gör məni də ala bilərsənmi?

Bu yerdə Gözəl xanım iki dənə qız göndərdi oğlanı öz baravarına aparsın. Qızdar zindanın ağzınnan içəri daxil oldu, oğlanın boynunnan qurğuşunu qırdılar. Oğlanı qaldırdılar. Qoja kişi dedi:

– Oğul, sana bir-iki söz ki, dedim, sonra yadınnan çıxmış olar, qoy bir də genə deyim.

Qoja kişi öz sazını götürüf görək oğlana nə tafşırdı.

Aldı qoja kişi:

Canım oğul, gözüm oğul,
Dinəndə bajıdan danış.
Qurvan sana özüm, oğul,
Dinəndə bajıdan danış.

Bu sözdə qızın biri dedi:

– Ey zənanını ağlatdığımın qojası, oğlana nə öyrədirsən?

Qoja kişi dedi:

– Sözümün içi var, qoy deyim. Sizin yerdə öyə otax deyirlərsə, bu oğlanın yerində otağa baja deyillər, avuşqıya da ciji deyillər. Mən də oğlana deyirəm ki, aşıxsan, avuşqalara, otaxlara tərif de, bəlkə xanımın xoşuna gələ, cavansan, səni azad eliyə.

Qızdar kişinin sözünnən əmin oldular. Aldı kişi sözünün o biri bəndini.

Qoja kişi dedi:

Çalış üzünə baxmaynan,
Özün öz öyünü yıxmaynan,
Mən diyən sözdən çıxmaynan,
Dinəndə bajıdan danış.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Miskin bavan eylər vəsyət,
Təvinnən dəyişmə xəsyət,
Yadında saxla bir nəsiyət,
Dinəndə bajıdan danış.

Söz tamama yetişdi. Oğlanı apardılar Gözəl xanımın qulluğuna. Gözəl xanımın otağının qapısını aşdılar. Qızdar dedi:

– Oğlan, buyur içəri!

Oğlan otağın qapısınnan ayağının birini içəri qoydu, istədi ayağının birini də içəri qoysun, Gözəl xanımın üzü Məhəmmədin gözünə sataşdı. Məhəmmədin axlı başınnan qəşş eləyif, yıxıldı. Qızdar üzünə su tökdülər, oğlanı ayıtdılar. Oğlan ayılanda qoja kişinin nəsiyəti yadına düşdü. Oğlan öz-özünə dedi ki: niyə üzünə baxıram ki, niyə belə oluram? Oğlan başı aşağı Gözəl xanımın otağına daxil oldu. Gözəl xanım soruşdu:

– Oğlan, qapıya gələndə niyə yıxıldın?

Oğlan dedi:

– Xanım, mənim bir tutma naxoşdığım var, məni naxoşdux yıxdı.

Gözəl xanım dedi:

– Bə niyə üzümə baxmırsan?

Oğlan dedi:

– Xanım, o tutmam tutanda mən gərək üç gün yerə baxam.

Gözəl xanım on dörd hörük yasəmən zülflərinnən bir tel ayırıf, şəkər məmənin süysünündən aşırdı. Məmə deyirəm ey… qatıx eyməsi demərəm. Qızın gözü oğlanı tutuf alsın, görək Gözəl xanım gözəl-gözəl nə buyurur.

Aldı Gözəl xanım:

Dürüs üzümə baxginan,
Oğlan, al məni, al məni!
Qolun boynuma taxginan,
Oğlan, al məni, al məni!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı oğlan qızın cavavını:

Naməhrəmə baxan deyləm,
Bajım, səni alan deyləm,
Qol boynuna taxan deyləm,
Bajım, səni alan deyləm.

Aldı Gözəl xanım:

Məni almasan qan olar,
Canım sana qurvan olar,
Sana qurvan ağ məmələr,
Oğlan, al məni, al məni!

Aldı oğlan:

Qərif olan mehman olar,
Mehman özü qurvan olar,
Anamda gördüm məmələr,
Bajım, səni alan deyləm.

Aldı qız:

Gözələm, cəllad duydurram,
Bütün gününü soydurram,
Gözdərini mən oydurram,
Oğlan, al məni, al məni!

Aldı oğlan:

Məhəmmədə cəllad duydur,
Taxsırkaram, gönüm soydur,
Günahkaram gözüm oydur,
Bajım, səni alan deyləm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözdər tamamına yetişdi. Oğlanın sözü də, qızın sözü də tilsimə yazılmışdı. Qızın ajığı tutuf, iki put da qurğuşun bu artırdı. Dörd put qurğuşun oğlanın boynuna saldırdı. Qoja kişi dedi:

– Oğul, yaxşı qurtardın.

Məhəmməd dedi ki:

– Oğlun ölsün, qurtaran belə olar ki, dörd put qurğuşun boynuma asdılar?

Qoja kişi dedi:

– Oğul, bunda nə var? Hələ qara döydən allah saxlasın.

Qara döy çox qoşunnan, çox calalnan yetirdi öz mənzilinə, səsləndi:

– Gözəl xanım, məni bəyənirsənmi? Bax, gör, nə cəlalnan gəlmişəm.

Gözəl xanım səsləndi:

– Ey itin biri, sənin səsin mənim qulağıma çivinin səsincə gəlmir! Sənin kimi kişinin arvadına da bir gədə sataşa bilərmiş… Qaravulların bir tustax gətirmişdi, burya çağırtdırdım. Yazığım gəldi, qavağına çörək qoyurdum, qoluma yapışdı, mənə əl atdı.

Qara döy ajıxlı nər kimi bir nərə çəkif, özünü tilsim yazısına yetirdi. Gördü ki, Gözəl xanım çox əl-ətək eliyif oğlana ki, məni al, – deyin, oğlan yaxın qoymuyuf. Anamsan, bajımsan, – deyif. Yazıyı oxuyuf, işdən bərxud oluf, özünü yetirdi Məhəmməd olan zindanxanaya. Zindana girəndə Məhəmmədin bədəninə bir lərzə düşüf, çox qorxdu. Qara döy irəli yeriyif, iki qaşının arasınnan öpüf, Məhəmmədə çox alqış eləyif dedi:

– Halal olsun anayın südü sənə, oğul! Bəni-adəmdə mən bu mərifət görməmişdim. İndi mən Gözəl xanımın görüşünə gedəndə deyəcəyəm ki, asın, kəsin, onda qorxmaynan!

Döy Gözəl xanımnan xəlvət, öz cəlladlarını yanına çağırdı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən indi sizə diyəjəm ki, Məhəmmədi öldürün, asın, kəsin. Amma elə aparарsınız ki, Məhəmmədin rufu incisə, atanızı yandırram? Mən də dalınızdan gələjəm.

Özünü yetirdi qara döy Gözəl xanımın yanına. Ajıxlı nər kimi bir nərə çəkif, cəllad çağırdı. Dedi ki:

– Cəlladlar, zindandakı cavan oğlanı apararsınız, çimənliyin ayağındakı aşvazxanada qulağı böyüklükdə doğruyar, öz yağınnan qızardarsınız, gəlif yiyəjəm.

Cəlladlar Məhəmmədi zandandan götürdülər. Qoja kişi dedi:

– Oğul, sən getdin, indi qara döydən məni də istə, al, mən bu zindana düşəli qırx ildi.

Bəli, Məhəmmədi cəlladlar apardılar. Qara döy bir neçə saat keçmiş Məhəmmədin dalınca getməyə başladı. Yetirdi, dedi:

– Oğlum, hara gedəjəksən?

Məhəmməd dedi ki:

– Döy sağ olsun, Kişmir şəhərinə gedəjəm, orda söygülüm var, onu gətirəjəm.

Qara döydə çox təjrübəli dərmannar var iydi. Oğlana bir dənə çıxartdı dərman verdi, dedi ki:

– Oğlan, deməy olmaz. Belə-belə yerdə darrığa düşərsən, bu dərmanı günün qavağına tutsan mən qoşunumnan orda hazır ollam.

Oğlanın mərifətinə görə xətrini çox istəyirdi. Halal-hümbətlik eliyif, ayrılmağa başladılar. Məhəmməd bir neçə qədəm getmişdi. Qoja kişinin «məni qaytar» tafşırığı yadına düşüf, dibara qayıtdı. Qara döy dedi:

– Oğul, nə təmənnan var, istə məndən, verim, utanma?

Oğlan dedi:

– Qara döy sağ olsun, səndən təmənnam budu ki, o zindanxanadakı qoja kişiyi mənə bağışlayasan.

Qara döy qoja kişiyi ehtiramnan gətirdi. Məhəmmədin ya-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nına qoşuf, «yaxşı yol olsun» deyif, yola saldı. Qoja kişi Məhəmməd ilə birlikdə günə bir mənzil, teyyi-mənazil getməyə başladılar. Bir qədər getmişdilər, gördülər ki, yolun qırağında bir gözəl bulax var. Bulağın üstə otdular, çörək yedilər, qalxanda iki dənə yol ayrılırdı. Qoja kişi dedi:

– Oğul, mən də sövgü dalınnan gedirdim. Qəza vurdu, məni saldı qara döyün zindanına. İndi mən gedif, sövgülümün yurdunu dolanasıyam, sövgümü tapmaram, ziyarətdi, gedim yurdunusa da dolanım. İndi burda ayrılax, sən öz söygülüyün şəhərinə, mən öz söygülümün şəhərinə gedək.

Halal-hümbət ilə ayrıldılar. Hər kəs öz yolunnan getməyə başdadı. Məhəmməd gedirdi, gördü yolun kənarında bir güjdü naxır dana otduyur. Naxırın dalında bir adam dalı üstə ayaxlarını göyə qaldırıf, ayaxlarıynan oynayır. Məhəmməd çağırdı, xavar aldı ki:

– Danaçı qardaş, bu yol harıya gedir?

Danaçı dedi ki:

– Gəl, deyim haraya gedir.

Məhəmməd çıxdı danaçının yanına. Salam verdi. Danaçı salamını alıf dedi:

– Aşıx qardaş, buyur, otur!

Aşıx oturdu. Danaçı dedi ki:

– Qardaş, mən sənin kimi aşıx gəzirdim, yaxşı gəldin, mən sənə indi üç kəlmə söz diyərəm. Sözümün qabağını verərsənsə, yolu diyərəm sana hansı şəhərə gedərsə, bir də, keçəl olmağıma baxma, nə istəsən onu da yerinə yetirməyə borcdu olaram.

Keçəl çomağını götürüf əlinə, görək Məhəmmədə nə deyir.

Aldı keçəl:

Məndən salam olsun, ay aşıx qarqaş,
İnsan olan neçə şeydən hasıldı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dünya nə üstündə varqərəl oldu?
O nəydi ki, dördü beşdən asıldı?

Məhəmməd fikirləşdi, dedi ki, bu danaçıdı, axırda oturuf, hər gələn aşıxdan bir söz öyrənif. Nə bilir ki, bu sözün qavağı hansı sözdü. Gəl bir sözü de, başını qurtar, get, yolunnan olma. Məhəmməd sazını götürüf, görək keçəlin sözünün qavağına nə deyir.

Aldı Məhəmməd:

Al cavabın verim, danaçı qardaş,
Ağ danalar göy danadan əsildi.

Bu sözdə danaçı dedi:

– Kəs, köpək oğlu! Sözüyün dalını gətirmə!

Məhəmməd kiridi. Keçəlin adı Nağıydı. Nağı soruşdu ki:

– Mən sənnən danamı xavar alıram, sözmü xavar alıram? Bax, indi ki, dana deyirsən, inək saxlameyifsan, buzoyu bağlameyıfsan, nə bildin ağ dananın göy danadan əsil olduğunu?

Məhəmməd gördü ki, doğrudan danaçı sözün qavağını bilir, dedi:

– Qardaş, gözün danaya baxırdı, xiyalım kəj getdi. İndi qoy durum sözüyün qabağını deyim.

Aldı Məhəmməd:

Al cavabın verim, danaçı qardaş,
İnsan olan dörtcə şeydən hasıldı.
Abü ataş, xakü baddan xalq oldu,
Urufdu ki, dördü beşdən asıldı.

Aldı keçəl:

Bilirsənmi peyğəmbərin yaşını?
Hansı yerdə şəhid etdi dişini?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O kimdi ki, kəsdi qəndil daşını?
O nəyə bənd oldu, nədən asıldı?

Aldı Məhəmməd:

Nuhu yazmışdılar peyğəmbərin yaşını,
Hindüstanda şəhid etdi dişini,
Canab Əmir kəsdi qəndil daşını,
O, yola bənd oldu, dindən asıldı.

Aldı keçəl:

Mən özüm keçələm, adımdı Nağı,
Sana yağlamışdım, bax, bu çomağı,
Göz üstə saxlaram qanan qonağı,
Qanan qonaxlara hörmət vəsildi.

Aldı Məhəmməd:

Məhəmmədi bağışlaynan, ay Nağı,
Azad elə, qulluğundan dustağı.
Axşam olur, yola salsan qonağı,
Oturmaqdandısa getmə əsildi.

Hər ikisinin sözü tamama yetişdi. Nağı soruşdu ki:

– O getmək, getmək sözünü ki, deyirsən, bir de görüm, axır hardan gəlif, harya gedirsən?

Məhəmməd məjbur oldu ki, işi muna söyləsin. Dedi:

– Nağı qardaş, mən şah oğlu şah Abbasın nökəriyəm. Əlvan dağına şikara gəlmişdim. Əlvan dağında bir qız başımı çafdı, mən beyhuş oluf yıxıldım. Yanıma bir kağız yazıf qoymuşdu. Kağızda belə yazmışdı: yerim Kişmir şəhəridi, atamın adı Məhəmməd xandı, öz adım Güləndəmdi. Yaxşı dərmannar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mənim başımın yarası üçün qoymuşdu. Axırında yazmışdı ki, Kişmir şəhərinin yerini bilən döysən, Güləndəmi tanıyan döysən, məni nə çox incidirsən? Qoysana varam gedəm!

Nağı dedi:

– Gördün, işinin mənnən düzəldiyini. Bu iki yüz dana Güləndəm xanımındı. Mən də onun danaçısıyam. Əmisi oğlu Heydər bəyə iyirmi beş gündü toyu başlanıf. İndi ki, sən yoxsulsan, nökərsən, mən də yoxsulam, nökərəm. Yə gərək bu keçəl başı bu gərdənnən götürəm, yə gərək o qızı sana yetirəm.

Danıyı buraxıf, çomağı çəkif, Məhəmmədin qabağına düşüf, dedi: gəl!

Munun öyündə bir nənəsi var iydi. Öyünə yetirəndə dedi:

– Nənə, palaz qoy, qonax gəlir.

Öydə nə var idi ki, qonağa palaz qoyaydı, bir həsir iydi, bir Məmmədnəsir, yan bajadan yel əsir, soyux adamı kəsir.

Qarı dedi:

– Öyü yıxılmışın oğlu, danıyı buraxıf nə gəzirsən buralarda?

Belə deyəndə Nağının ajığı tutdu, çomağı götürüb, görək qarıya nə nəsihət verir.

Aldı keçəl:

Canımın yeyəsi, ay gözüm nənə,
Qonağın könülü xoş gəldin söyər.
Sana bu nəsyətim, ay sözüm, nənə,
Qonağın könülü xoş gəldin söyər.

Döyməkdən ağzında qoymadım dişi,
Vədəsiz, kamalsız ağartdın başı.
Qonax neylər aşı, bozbaş, lavaşı,
Qonağın könülü xoş gəldin söyər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pis sözünən diysindirmə qonağı,
Qaş-qavax tökəndə puzlur damağı,
Sana nəsiyətdən yoruldu Nağı,
Qonağın könülü xoş gəldin söyər.

Sözü tamama yetirdi. Otdular, Məhəmməd ilə Nağı sakit oldular. Nağı Məhəmməddən Güləndəm Əlvan dağında yazdığı kağızı istədi. Məhəmməd həmin kağızı çıxarıf, Nağıya verdi. Nağı kağızı əlinə alıf, qarıya verdi ki:

– Nənə, apar bu kağızı Güləndəmə ver.

Qarı kağızı götürüf, Güləndəmgilə getməyə başladı. Gedif, Güləndəm xanımın yanında oturuf, Nağının ajığına kağızı verməyif, qayıdıf gəldi.

Nağı soruşdu:

– Nənə, kağızı verdin?

Qarı barmağını dişdiyif dedi:

– Oğul, üç bənd sözüm var, möhlət ver, onu deyim.

Görək kağızı vermədiyinə qarı nə deyir, onun qavağına Nağı nə deyir.

Aldı qarı:

Başına döndüyüm, qurvan olduğum,
Apardım kağızı, verə bilmədim.
Oduna yanıfan, büryan olduğum,
Apardım kağızı, verə bilmədim.

Aldı Nağı:

Canım nənə, gözüm nənə, ay nənə,
Apardın kağızı, niyə vermədin?
Yadından çıxdımı, ay gözüm nənə,
Apardın kağızı, niyə vermədin?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı gördü ki, Nağı munu öldürəcəy, dedi: «Gəl ölmüşə yalan söylə, yalan yarrığan ha döy, uçasan, öləsən. Gəl ölmüşə yalan söylə, bəlkə səni öldürməyə»

Aldı qarı:

Gedifnən yolda ha düşüb yatmadım,
Ha yüyürdüm, mənzilinə çatmadım,
Getdim, Güləndəmi öydə tappadım,
Çalışdım, üzünü görə bilmədim.

Aldı Nağı:

Əyif-əyif sənin qəddin pükəjəm,
Gözünnən mən qannı yaşdar tökəjəm.
Bu çomaxnan yurdunda turp əkəjəm,
Apardın kağızı, niyə vermədin?

Aldı qarı:

Qonağın Məhəmmədə bağışda ananı!
Boynuna götürmə bavalı, qanı!
Qurvan olsun sana bu Nərgiz banı!
Apardım kağızı, verə bilmədim.

Aldı Nağı:

Niyə mənə qəsəm verdin qonağa?
Yediyini, içdiyini eyləjəm ağı,
Sana burda yalvarmadımı Nağı?
Apardın kağızı, niyə vermədin?

Hər ikisinin sözü tamama yetişdi. Məhəmmədin yanında Nağı əl aça bilmədi, özünü vurdu bazara; beş put duz alıb gə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tirdi verdi qarıya ki, günortuya kimi əz, danıya duz verəjəm.

Nağı kağızı Güləndəmə verməməyinin üstündə qarıya cəza edirdi. Qarı başdadı duzdan əzməyə. Qarının qüvvəsi yoxdu ki, o günə əzif qurtarsın. O biri tərəfdən Güləndəm xanım Məhəmmədin dərdinnən dərman yemişdi, qarıyı çağırtdırdılar, qarı söylərdi, onun eyni bir az açılardı. Bu zaman Güləndəm bir dənə qız göndərif, qarıyı çağırtdırdı. Qız gəlif dedi:

– Qarı nənə, səni Güləndəm çağırır.

Qarı dedi:

– Qızım, Nağı mana duz əzdirir, beş put duzu günortuyatan əzəsiyəm.

Qız qayıdıf, Güləndəm xanımın yanına gəldi. Xanım dedi:

– Qız, qarıyı niyə gətirmədin?

Qız dedi:

– Xanım, Nağı yazıq qarının qabağına beş put duz qoyuf, deyir ki, günortayatan əzəsən. Qarıyı qoymadı gəlməyə.

Xanım dedi:

– Qızdar, bir-ikiniz gedin, dəli ölmüşün əlinnən alın qarıyı, burya gətirin.

Qızlar gəldilər Nağının yanına, yalvar-yaxar elədilər, qarıyı almax üçün boynuna qoydular. Nağı dedi:

– Onda mənim özüm də gələjəm xanımın yanına.

Əlvan dağında Güləndəmin Məhəmmədə yazdığı kağızı, üzüyü götürüf, getdilər Güləndəm xanımın yanına. Güləndəm xanımın yanına yetirəndə Nağı çomağı götürüf, görək xanıma nə deyir.

Aldı Nağı:

Canım xanım, gözüm xanım,
Məhəmməd bizə gəlifdi.
Qurvan sana özüm, xanım,
Məhəmməd bizə gəlifdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənsən gözəllər ülkəri,
Ləbindi misir şəkəri,
Şah Abbasın nökəri,
Məhəmməd bizə gəlifdi.

Əlvan dağında tafdığın,
Könlünü könluna yafdığın,
Başını qılıncnan çafdığın,
Məhəmməd bizə gəlifdi.

Öydə qoymuşam qonağı,
Nədi mana sözün sağı?
Muştuluq istəyir Nağı,
Məhəmməd bizə gəlifdi.

Söz tamama yetişdi. Xanım işdən bərxud oldu, qızdara dedi:

– Qızdar, gedin, çörək pişirin. Qonax gələjək.

Qızdar çörək pişirməyə getdi. Qarıya da dedi ki:

– Sən də get, beli mana gəti, Nağıya hozun içini çıxartdırajam.

Qarı da getdi beli gətirməyə. Nağıyı xəlvətə çəkif dedi:

– Nağı, söylə görüm bu dediyin sözdən bir xavar bilirsənmi?

Nağı dedi:

– Xanım, bu sözdən nə xavar bilim?

Düvara çıxardıf, Əlvan dağında Məhəmmədə yazdığı kağızı, üzüyü qabağına qoydu. Xanımın ürəyi şaddanıf, yaxşı ağır nəmərrər verdi. Bir neçə qızıl verif dedi:

– Nağı, sizin yerrər yerdən olur; bir yaxşı otaq məxmərnən, qu tükü yorğan-döşəklə bəzət. Məhəmmədə yaxşı qulaq as, gecə on ikidə gələjəm. Hərgah gəlməsəm Məhəmmədnən mənim görüşməyim qiyamata qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, Nağı gedif xanım dediyi fərmayışdarı yerinə yetirdi. Məhəmmədə də dedi ki:

– Qardaş, qız gejə gələjək.

Nağı bu işləri yerinə yetirif, danasını yığmağa getdi. Sahat on iki tamamında gejə Məhəmmədin ürəyi davam gətirməyif, sazını götürüf, görək nə deyir.

Aldı Məhəmməd:

Kəm ağlım, məni salıf çöllərə,
Könlüm, fələk, gör nə yaman pozğundu.
Sığışmır ki, dərdim diyəm dillərə,
Könlüm, fələk, gör nə yaman pozğundu.

Kifayətdi könlümə həm dursalar,
Ziyarətdi əlin əlimə versələr,
Bu günümdə hərgah məni görsələr,
Deyillər ki, bu divana azğındı.

Kim neylər ki, yazı tərsə yazıla,
Qorxum budu, yardan əlim üzülə.
Sahatımın biri dönüf yüz ilə,
Dəqiqənin biri mənə yüz gündü.

Gəldin bu qürvətə hardan, Məhəmməd?
Kimin var qurtara dardan, Məhəmməd?
Söyüşdün, ayrıldın yardan, Məhəmməd!
Deyəsən ki, yarın səndən üzgündü.

İndi sizə söylüyüm Güləndəm xanımnan. Güləndəm xanımı böyük vəzirin öyünə qonaxlığa apardılar. Sabah saat onda qonaxlıqdan fariq oldular. Bu gün toyun vədəsi idi ki, Güləndəm xanımı Heydər bəyə köçürsünlər. Bəli, Nağı gəldi Məhəmmədin yanına:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş Güləndəm gəlmədi?

Məhəmməd dedi:

– Xeyir, qardaş, gəlmədi.

Bu şəhərdə belə qayda var iydi ki, hər kəs öz quvvasına görə yaxşı çörək, yaxşı xələtdər qız köçən günü qıznan bahəm oğlan öyünə aparardılar. Nağı özünü bazara vuruf, yeddi girvəngə düyü aldı, üç girvəngə yağ aldı, bir ilan dilli xancal aldı, yeddi arşın kəndir aldı, getdi. Düyünü qaynadıf, bir yaxşı lətif piloy pişirdi. Kəndiri Məhəmmədin belinə bağladı, xancalı da üstə qurşadı. Qonşuluqlarında gəlin varıydı, gəlinin paltarını alıf gətirif Məhəmmədə geyindirdi. Bu piloyu bir qava qoyuf, bir dəsmala bağlayıf, Məhəmmədin əlinə verdi. Gözdədilər, gəlini atdandırdılar, toy gecəsi oldu, toy gəlif addıyan zaman bunlar da toya qoşuldular, getdilər oğlan öyünə. Nağı elə gözdədi ki, Güləndəm xanımı kəcavədən düşürdülər, apardılar otağa. Nağı da Məhəmmədi qabağına salıf, buları da xanım gedən otağa apardı. Otağın bir tərəfinnən bir pərdə çəkdilər xanım üçün. Bəli, Güləndəm xanımı qoydular bu pərdənin dalına. Nağı gözünü dolandırdı, Məhəmmədi saxlamaq üçün, gördü ki, bir böyük sandıx var, bu sandığın dalı saxlaş yerdi. Munu sandığın dalında saxlasa, heç kəs görməz. Aş qavını Məhəmməddən alıf, şənlikdən gələn xörəklərin içinə qoyuf, Məhəmmədi sandığın dalında gizdətdi, özünə də belə tapşırıx verdi ki, Heydar bəy yatanda başını kəssin, Güləndəm xanımı da gətirib gəlsin. Nağı qayıtdı öz öyünə.

Axşam gəlif arıya düşdü. Lənpə yağlandı, xoddandı, qonum-qonşu, nökər-nəyif, hər kəs öz öyünə getdi. Heydar bəy də öz otağına gəldi, qızın pərdəsini tulladı, salam verdi.

– Əmi qızı, xoş gəlifsən – dedi.

Qızın ürvəndini də üzünnən götürdü. Məhəmmədin dərdinnən yediyi dərman qızın rəngini saraldıf, qarnını da yekələndirmişdi. Heydar bəy qızın halını belə görəndə geri duruf, qılıjını döşünə basıf, görək qıza nə deyir, qız Heydar bəyin cava-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bına nə deyir.

Aldı Heydar bəy:

De görüm, başına nələr gəlifdi,
Söylə görüm, bu dərd səndə nə dərddi?
Rəngin nədən saralıfdı, solufdu,
Söylə görüm, bu dərd səndə nə dərddi?

Aldı Güləndəm xanım:

Özüm billəm başıma nələr gəlifdi,
Mənim dərdim bir oğlanın dərdidi.
Gül irəngim saralıfdı, solufdu,
Mənim dərdim bir oğlanın dərdidi.

Aldı Heydar bəy:

Yığdırdın başıma duşmanı, yadı,
Canıma salıfsan bir yanar odu.
Deynən görüm qarnın niyə belədi?
Söylə görüm, bu dərd səndə nə dərddi?

Aldı Güləndəm xanım:

Gejə-gündüz bu dərd məndə kərəmdi,
Yervə-yerdən sızıldayan yaramdı.
Ürəyimdə dağ, qarnımda vərəmdi,
Mənim dərdim bir oğlanın dərdidi.

Aldı Heydar bəy:

Heydar qoymaz səndə bu qısas qala,
Zərbinən qılıcı kəllənnən çala.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Büyün, sabah qalıf uşağın ola,
Söylə görüm, bu dərd səndə nə dərddi?

Aldı Güləndəm xanım:

O sözü Güləndəmə bir də deməynən!
O qələti elədin, bir də eləməynən!
Bavalı götürüf, günahımı yüməynən,
Mənim dərdim bir oğlanın dərdidi.

Hər ikisi sözü tamama yetirdi. Heydar bəy çəkdi qılıcı, qızın boynunu vurmax istədi. Məhəmməd sandığın dalında hazırlaşmışdı. Sandığın dalınnan elə qalxdı ki, Heydar bəy diyəsən əli-ayağı sarıxlı böyrü üstəydi. Xancalı çıxarıf, istədi Heydar bəyin başını kəssin, Güləndəm xanım dedi:

– Ədə, zalım oğlu, qoy gözü baxa-baxa canı çıxsın.

On dörd hörük yasəmən telinnən bir tel ayırıf, sinəsi üstə basıf, görək nə deyir:

Aldı qız:

Aşır qolum, yar boynuma salginan,
Çıxsın duşman gözü, var görə-görə.
Hər üzümdən bir cüt busə alginan,
Çıxsın duşman gözü, var görə-görə.

Aldı Məhəmməd:

Döşənnəm xakına yar, iltimasa,
Borcun vardı mənə, ver görə-görə.
Ayanat elə hər üzündən bir busə,
Borcun vardı mənə, ver görə-görə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı qız:

İyid odu yernə yetrə ilqarın,
Söygülü odu ki, tapa öz yarın;
Tərlan qaynağına çəkif şikarın,
Qoy çatdasın, ölsün sar görə-görə.

Aldı Məhəmməd:

Gecə-gündüz, şükr edim xudaya,
İnşallah əməyim getmədi zaya.
Qavaqda durarsa əsrəmiş maya,
Durarmı köməkmizə nər görə-görə.

Aldı qız:

Güləndəm də sana qurvan, sadağa,
İndiki döyranı sürək savağa.
Ağız-ağza qoyaq, dodaq-dodağa,
Ləb dahan içində, sor görə-görə.

Aldı Məhəmməd:

Məhəmmədəm, ağlım başımdan çaşır,
Danışa bilmirəm, dilim dolaşır.
Qulac qollarını boynumnan aşır,
Sinələr dayansın xər görə-görə.

Hər ikisinin sözü tamama yetişdi. Oğlan dedi ki:
– Gəl qaçaq!
Qız dedi:
– Ləvənd oğlu, hara qaçırsan? Hər tükənin qapısından bizdən ötrü bir dənə şax asılıf, hər löün meyvə desən o şaxlarda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tapılar. Gecə saat doqquzda bir at Heydar bəyə, bir at mana gələjək, minif hər şaxdan bir meyvə dərər, yükümüzü tutarıq, bazarın ayağına çıxanda da varıf gedərik.

Bəli atdar qapıya gəldi. Heydar bəyi əli-ayağı sarıxlı, damın alt badvalına tulladılar. Nökərrər atları qapıya bağlayıf getdilər. Heydar bəyin atını Məhəmməd mindi, Güləndəm xanım da öz atını minif, hər tükənin qapısından meyvə dərə-dərə şəhərin ayağına gəldilər. Şəhərin ayağınnan çıxıf, yola rəvan oldular.

Bir yağış yağdı, bir yağış yağdı ki, yağışdan tutuf, göyə çıxmaq olardı. At dizinətən yerə cumurdu. Məhəmməd dedi ki:

– Mən Nağıyı görməmiş getmərəm.

Getdilər Nağının qapısına. Dedilər.

– Nağı, ay Nağı.

Nağı çıxıf dedi:

– Can Nağı! Gəldinizmi!

Məhəmməd dedi:

– Gəldik.

Nağıynan Məhəmməd nə cür həlal-hümmət eləyib ayrıldılar, bunu diyək, siz də eşidin.

Aldı Məhəmməd:

Canım Nağı, gözüm Nağı,
Qardaş, sağlıxnan qalasan!
Sana qurvan özüm, Nağı,
Qardaş, sağlıxnan qalasan!

Aldı Nağı:

Xoş gəlifsən, ay Məhəmməd,
Qardaş, sağlıxnan gedəsən!
Yükün ətir qoxur cənnət,
Qardaş, sağlıxnan gedəsən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Məhəmməd:

Unutma mən deyən sözü,
Yadından çıxartma bizi,
Yaman düşər atın izi,
Qardaş, sağlıxnan qalasan!

Aldı Nağı:

Dediyin yerinə yetirrəm,
Sən diyən sözü bitirrəm,
Danıynan izin itirrəm,
Qardaş, sağlıxnan gedəsən!

Aldı Məhəmməd:

Məhəmməd eliyir xiyal,
Nağıda var belə kəmal,
Çörəyini elə həlal,
Qardaş, sağlıxnan qalasan!

Aldı Nağı:

Nağı dərdindən hal eylər,
Gör Məhəmməd nə xiyal eylər.
Güləndəm xanım həlal eylər,
Qardaş, sağlıxnan gedəsən!

Hər ikisi sözünü tamama yetirdi, həlal-hümmət elədilər, ayrıldılar. Məhəmmədlə Güləndəm yola düşüf getməyə başladılar. Nağı danıyı çıxardıf, onların dalıynan, izdərini basdıra-basdıra gedirdi. Bir on, on iki verst yol danıyı hayladı onların dalıynan. Olar getməkdə olsun… Sabah açılıf, Heydar bəyin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kənizi gəldi otağı təmizləməyə. Gələndə gördü ki, otaxda bayğular ötüşür. Qız belə xiyal elədi ki, həlbət şəhərə qonaxlığa çağırıflar. Bəli, qız qayıdırdı mənzilinə, Heydar bəy dedi:

– A qız, ay qız, mən burda qaldım!

Qız qayıdıf baxanda gördü ki, Heydar bəyin gözdəri siçan görmüş pişik kimi işıldıyır. Qız özünü xavara çatdırdı. Heydar bəyin nökərrəri və qohum-qonşusu tökülüf gəldilər, Heydar bəyi badvaldan çıxartdılar.

Heydar bəy badvaldan çıxanda sinəsi dəmirçi kürəsinə dönüf yanası oldu. Görək Heydar bəy burda söznən nə deyir.

Aldı Heydar bəy:

Könlüm bir cananın sorağındadı,
Gündə yüz min dəfə görəsim gəlir.
Leyli buxağından asılan gülün,
Məjnunuyam, gülü dərəsim gəlir.

Aldı dal kəlməsini:

Türkmən gözəlindən bir sən qalıfsan,
Hər yanınnan on dörd hörük salıfsan.
Bir canım var, yar, əlimdən alıfsan,
Bir quru qəfəsəm, nəfəsim gəlir.

Leyli-Məjnun körpüsündən keçmişəm,
Yarımın əlindən şərvət işmişəm.
Heydar bəyəm, bu sövdaya düşmüşəm,
Özümün özümə güləsim gəlir.

Sözün tamama yetirdi, hökm elədi, qoşun tədarük edildi. Bir iz izdiyən götdü, bir irəmçi götdü, qoşun səf-səf oluf, dalıycan getməyə başdadılar. Bir qədər getdilər, gördülər ki, yolun qırağında çoxlu dana sürüflər. Danaçı yıxılıf, öz-özünə söz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oxuyur. Heydar bəy dedi ki:

– Salam əleyküm, ay danaçı!

Danaçı qalxanda gördü ki, Heydar bəydi. Heydar bəy danaçıdan soruşdu, dedi:

– Ədə, bir-iki attı getdimi?

Danaçı dedi:

– Ədə, axmax oğlu axmax, mən dana otarıram, at nədi?

Heydar bəy dedi:

– Ədə, elə demirəm, deyirəm bir arvad, bir kişi attı getdimi?

Danaçı dedi:

– Ə… bu haranın axmağıdı görəsən? Güjdü danadı, nə bilim neçəsi dişi, neçəsi erkəkdi. Sanamamışam ha?!

Heydar baxanda gördü ki, bu Nağıdı. İrəmçi irəmə baxdı, dedi:

– Hariya gediflərsə Nağının əliynən gediflər.

Getdilər Nağının boynunu vurmağa, Heydar bəy dedi:

– Əl saxlayın. Olar qara döyün yerinnən keşmiş olacaqlar. Qara döy hər yüz adama bir adam alajax torpaq basdısına. Onda bir yüzün əvəzinə Nağıyı verərik.

Nağıyı piyada qoşunun qabağıynan hayladılar. Axşam gəldi arıya düşdü, gejəni də yol getdilər, sabaha bir qədər qalmış qara döyün sərhətinə yetirdilər. Gördülər ki, təpənin başında bir qaraltı gəlir. Heydar bəy dedi ki:

– Nağıyı çağırın, göndərək. Olar qara döyün qaraullarıdır. Tutsunlar Nağıyı, zındana aparsınlar, yol açıq olsun, biz də gedək.

Nağıyı çağırdılar. Heydar bəy dedi:

– Nağı, get gör o qaraltı nə qaraltıdı? Bizə bir xavar gəti.

Nağı çomağı çəkif getməyə başladı.

Bu, Heydar bəy diyən qaraltılara yetişəndə gördü ki, bu Güləndəmnən Məhəmmədin atıdı. Məhəmmədnən Güləndəm sərməşib yatıf. Nağı görək buları şirin yuxudan nə cür ayıldır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Nağı:

Canım xanım, gözüm xanım,
Oyan, xanım, qoşun gəldi!
Qurvan sənə özüm, xanım,
Oyan, xanım, qoşun gəldi!

Güləndəm oyanıf, görək Nağının cavabında nə deyir.
Aldı Güləndəm:

Xavarı gətirən Nağı,
Sən o yannan, mən bu yannan!
Heydara çəkərəm dağı,
Sən o yannan, mən bu yannan!

Aldı Nağı:

Biz qaşsax heç kimsə bilməz,
Dost ağlıyıf, duşman gülməz,
Çoxnan azın oyunu olmaz,
Çoxdu, xanım, qoşun gəldi!

Aldı Güləndəm:

Diləyim haxdan dilərəm,
Olar bilər, mən bilərəm.
Cəmini atdan salaram,
Sən o yannan, mən bu yannan!

Aldı Nağı:

Nağının özü bir candı,
Bir canı sizə qurvandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O gələn qoşun milyondu,
Qaçax, xanım, qoşun gəldi!

Aldı Güləndəm:

Sən Güləndəmə baxgınan,
Çafdığım yığıf yıxgınan.
Gələni mənə çıxgınan,
Sən o yannan, mən bu yannan!

Hər ikisi sözlərini tamama yetirdilər, hər üçü dava libasını geyindilər. Sabah açıldı. Savahınız üzünüzə xeyirə açılsın. Qoşun təbli-çəngini vurdular. Dava başladı. Bular bir sürü körpə quzunun içinə ac canavar kimi düşdülər. Güləndəm xanım soldan vurdu, sağdan çıxdı, sağdan vurdu, soldan çıxdı, Nağı da çomağını işə saldı, Məhəmməd də Güləndəm kimi böyük hünər göstərdi. Dörd gün, dörd gecə dava elədilər.

Qız Məhəmmədin dərdindən dərman yemişdi deyin, çox haldan düşmüşdü. Buna görə daha artıq qüvvəsi qalmamışdı. Qız bu qüvvədən düşməginə görə söznən görək nə deyir:

Aldı qız:

İldırımtək at sürməkdən,
Daha məndə hal qalmadı.
Şümşəktək qılıc vurmaxdan,
Daha məndə hal qalmadı.

Sağdan düşdüm, soldan çıxdım,
Kəllədən qayalar yafdım.
Leşdərindən hasar çəkdim.
Bizim dağda el qalmadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çökək, dərə, göl oldu qan,
Düşmən başına oldu fərman.
Məni haldan salıf dərman,
Məndə tutar, bel qalmadı.

Gəldim zindanına düşdüm,
Tilsim bulağından işdim.
Qara döyün yerinə keşdim,
O bilməmiş bel qalmadı.

Güləndəm heç söyməz xöryət,
Xöryətə yaraşmaz şəryət.
Qaşmağa da qoymur qıryət,
Danışmağa dil qalmadı.

Sözün tamama yetirdi. Həmən qara döyün Məhəmmədə verdiyi dərman varıydı ki, günün qabağına tutuf baxanda, Məhəmmədin yadına düşdü. Dərmanı günün qabağında üfürdü. Bəli, qara döy qoşunuynan hazır oldu. Qara döy qoşunuynan qırdığını qırdı, qırmıyanı da qaçıf canını qurtardı. Apardı Məhəmmədgili beş-on gün qonax eləyif, saxladı ki, yornuxlarını alsınlar.

Qara döy neçə il idi ki, Gözəl xanımı gətirif tilsimə salmışdı. Nitqi yoxudu xanıma baxmağa. Öz-özünə qara döy belə fikrə getdi ki, bu Gözəl xanımı da verim Məhəmmədə, qanına vayıs olmuyum, qoy bunu da aparsın getsin. Elə ki, Məhəmməd döydən rüsxət istədi getməyə, döy rusxət verib dedi:

– Oğul, Məhəmməd, Gözəl xanımı da öz xoşumnan verirəm sənə, onu da apar!

Sonra Məhəmmədi yaxşı şərəflə, ərkanla yola saldı. Nağı, Məhəmməd, Güləndəm xanım, Gözəl xanım özlərini yetirdilər harıya? – Əlvan dağına. Həmən Güləndəm oğlanın başını çapdığı yerə gələndə Güləndəm Məhəmməddən soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məhəmməd bura haradı?

Aldı Məhəmməd, görək saznan, söznən buranın hara olduğunu Gülləndəm xanıma necə deyir.

Aldı Məhəmməd:

Nə xavar alırsan, Gülləndəm xanım,
Sənə qonax gələn yerdi bu yerrər.
Günbəgündən məni dərdə salırsan,
Sənə qonax gələn yerdi bu yerrər.

Səməndimi mindim, gərdənə sürdüm,
O çökəkdə sənin çadrını gördüm,
Çörəyini yedim, məjmayını qırdım,
Mən ölüf, sən qalan yerdi bu yerrər.

Məhəmmədəm, mən keşmişdim canımnan,
Burda göl durmuşdu, gülyaz, qanımdan.
Xavar al əhvalım Gözəl xanımnan,
Gedifnən gəldiyim yerdi bu yerrər.

Məhəmməd sözünü tamama yetirdi, Məhəmməd öz-özünə belə fikrə getdi ki, Gülləndəm xanımın ki, rəngi belə saralıb, boğazı nazilif, qarnı yekələnib, şah bu Gülləndəmi görəndə mənə deyəjəx: – Oğul, gətdiyin gözəl bumudu? Məhəmməd bu fikrə gedif, rəngi qaşdı, Gülləndəm xanım oğlana baxanda dedi:

– Məhəmməd, diyəsən Heydar bəy düşən dərdə düşdün?

Məhəmməd dedi:

– Bəli, xanım.

Gülləndəm xanım özünü dağa yetirib, səkkiz rəng çiçək dərib dedi:

– Məhəmməd, mən bu bir dənə çiçəyi yeyib öləjəm.

Yeddisini də dalbadal göstərdi ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bunları mənim göydəmə sürtərsən.

Güləndəm çiçəyin birini yeyib öldü. Məhəmməd gözünün yaşıynan başdadı çiçəkləri bir-bir xanımın göydəsinə sürtməyə. Çiçəyin yeddisini də sürtüf tamam edəndə bir buludun altından ay çıxan kimi qız ayılıf qalxdı. Məhəmməd yeriyif, qızın boynunu qucaxlıyıf hər üzündən bir busə aldı. Nağıya baxanda gördülər ki, davax dəymiş öküz kimi ağzının suyu tökülür. Məhəmməd dedi:

– Ay Nağı, çox zəhmətimi çəkifsən, Gözəl xanımı da sənə verirəm.

Gözəl xanım otdu ağlamağa ki:

– Mən bu keçəlin nəyinə gedim?

Güləndəm gördü ki, doğrudan, Gözəl xanıma keçəl Nağı yaraşmır, insafı bunu götürmüyüf həkimliyini buna da sübut elədi. Bir neçə gün burda qalıf, yığdığı cürbəcür çiçəklərnən Nağının da başını qurtardı. Nağının sufatı Məhəmmədin sufatından daha yaxşı idi. Gözəl xanım istədi ki, Nağıya yaxınlaşsın, Nağı Məhəmmədin sazını alıf, görək Gözəl xanıma nə deyir:

Aldı Nağı:

Şükür olsun xalığın o gününə,
Məhəmmədi mənə mehman elədi.
Zikir edəm, dua qılam bu günümə,
Məhəmmədi mənə mehman elədi.

Heç demirdin bu dünyada mən varam,
Dərdimə yox idi mümkünüm, çaram.
Axrətətən sağalmazdı bu yaram,
Güləndəm xanım indi dərman elədi.

Nağı, rəndə vurma, şüşə nəzilməz,
Basmağnan kəc yeriyən düzəlməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Könül bir şüşədi, sınsa sağalmaz,
Gözəl xanım yaman çəm-xəm elədi.

Nağı sözün tamama yetirdi, Gözəl xanım ilə Nağıyı barışdırdılar. Attarını minib, şahın qulluğuna getdilər. Şah işdən barxud olub, Məhəmmədin gəldiyini bildi, Güləndəm xanımın görüşünə gəldi. Gördükdə Gülləndəmin gözəlliyinə aşıq oldu. Qayıdıb öz taxtı-səltənətinə əyləşib, vəzir Allahverdi xanı hüzuruna çağırtdırdı. Vəzir Allahverdi xan şahın fərmayışına görə gəldi, dedi:

– Ey qıbleyi-aləm, bizim üçün qulluq!

Şah dedi:

– Gedər, Gülləndəm xanıma deyərsən ki, şah deyir mənim qırx nökərim var, ən əysifi Məhəmməddi. Mən Məhəmmədi göndərdim Kişmir şəhərindən səni gətdi, sən belə hesab etmə ki, Məhəmmədə gəlifsən. Yox, səni özümə gətirtmişəm. Bu cavabı de, mənim hüzuruma gəti.

Vəzir Allahverdi xan gəldi Gülləndəmin hüzuruna, şah deyən cavabları ona söylədi. Bu sözdən Gülləndəmin acığı tutuf, ayağa qalxdı, dedi:

– Mən cavabımı gedib şahın hüzurunda söyliyəcəm.

Gülləndəm xanım getdi şahın hüzuruna. Əbəd-ərkənlə şaha salam verib, hüzurunda durdu. Şah həmən sözünü Gülləndəmin özünə təkrar elədi.

Gülləndəm xanım alsın, görək şaha saz, söz ilə nə deyir:

Aldı Gülləndəm:

Şah oğlu Şah Abbas, ay cənnətməkan,
Mən gələndə Məhəmmədə gəlmişəm.
Şahlarda olmazmı heç namus çəkən,
Mən gələndə Məhəmmədə gəlmişəm.

Hökmü ədalətsən, divani-şəryət,
Şəriət heç vaxtı söyləməz xoryət.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Papaxda namus olar, yaylıxda qiryət,
Mən gələndə Məhəmmədə gəlmişəm.

Bənnə olan tikdiyini yıxarmı?
Önəndə çay heç tərsinə axarmı?
Qaynata da gəlinə kəc baxarmı?
Mən gələndə Məhəmmədə gəlmişəm.

Son sözünü, budu, dedi Gülǝndǝm,
Şahım, gəlif əl götür sən yaxamdan.
Yerinnən tərpənsən, fayda yox sənnən,
Mən gələndə Məhəmmədə gəlmişəm.

Dalınca da bu bayatıyı oxudu:

… Üz meydandı,
Sinəm bazar, üz meydandı,
Şahım, fərmayış elə,
Bajarsan düz meydandı!

Gülǝndǝm sözünü tamama yetirdi, şah Gülǝndǝmdǝ olan qüvvəyi bilirdi. Qorxusundan göydəsinə zəlzələ düşdü. Gördü dediyi sözü təkrar eləsə təxtini tarmar eliyəcək, öz-özünə dedi:

– Önəndinə danışmaq yaxşıdı.

Düvara Gülǝndǝmǝ dedi ki:

– Camalına baxdım, eyib tapa bilmədim, dedim bəlkə kamalında eyib ola. Mən səni sınağa salırdım. Sınaxdan çıxdın. Məhəmmədnən Nağıya qırx gün toy eləməyə borşluyam.

Toy başladı, otuz doqquz gün, qırxıncı günü toyu tamam elədilər. Gülǝndǝm xanımı tapşırdılar Məhəmmədə, Gözəl xanımı tapşırdılar Nağıya. Mübarək olsun toy, sağ olsun toya yığılanlar, sağ olsun bu toyda iştirak eliyənlər və oxuyanlar! Olar hər ikisi muradlarına çatdılar, istəyənlər də öz muradına çatsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ABBAS

Duxarxanda* Vəlibəy oğlu Abbas var idi. O Abbas atasından sonra atasının yerində tikmə oldu. Onun tikməliyində bir pəhlivan qoçaq var idi. O pəhlivanın adı Dahaduruz bəy idi. O pəhlivan Şah Abbası çox incitdi, ona görə Şah Abbas təbilbalaban döydürdü, bütün tikmələrini yığdı, meydanda iki dənə qiymətli ləhl** qoydu, təklif elədi öz tamam tikmələrinə:

– Kim gedib Dahaduruz bəyi öldürüb, onun başını gətirə bilərsə meydanda olan iki ləhli məndən xələt alacaq.

Lakin heç kəsdə bu cürət olmadı. Vəlibəy oğlu Abbasın orada iki düşməni var idi; bunlardan birisinin adı Sarı Xoca, o birisinin adı isə qul Abdulla idi. Onlar gedib Şah Abbasa dedilər ki, Dahaduruz bəyin başını Vəlibəy oğlu Abbasdan başqa heç kim gətirə bilməz. Şah Abbas onlardan soruşdu:

– Məyər Abbasda belə qüvvə var?

Onlar Vəlibəy oğlu Abbası Şah Abbas üçün o qədər təriflədilər ki, Şah Abbas yəqin etdi ki, əyər Vəlibəy oğlu Abbas bu gün getsə sabah Dahaduruz bəyin başını gətirər. Şah Abbas həmin iki ləhli götürüb verdi bir qasidə və bir kağız da yazdı ki: «Ey Vəlibəy oğlu Abbas! Bu sənin xələtlərin. Beş günün müddətində Dahaduruz bəyin başını gətirsən, gətiribsən. Gətirməsən, sənin öz başını onun əvəzinə gəlməlidi». Kağız xələtlərlə gəldi çatdı Abbasa. Abbas xələtləri gördü, şad oldu, kağıza baxdı, başladı ağlamağa. Anası ondan soruşdu:

– Abbas, niyə belə ağlayırsan?

Abbas dil oldu anasına ki:

– Ana, bu gün mən ağlayıram, sabah sən mənim üçün ağlarsan.

Anası soruşdu:

– Niyə?

Abbas dil oldu ki:

– Ana, Şah Abbas əmr edib: get, Dahaduruz bəyin başını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gətir. Halbuki mən eşitmişəm Dahaduruz bəyin iyidliyini. Mən bir plov giləsi kimi onun buğuna yapışaram. Məndə o cəbbə hanı mən gedim Dahaduruz bəyin başını gətirəm?

Anası dedi:

– Oğul, mən ölməmişəm. Mən sənə bir tədbir diyərəm. O tədbir ilə gedərsən, Dahaduruz bəydə yüz can olsa biri qurtarmaz.

Bu sözdən Abbasın ürəyi açıldı. Anasına dedi:

– Gözlərüvə heyranam, ana, görüm nə tədbirin var, de mənə.

Anası Abbasa dedi:

– Sən cəngi-təbl-balaban döydür, üç yüz atlı cəm elə.

Abbas dedi:

– Ana, bunu hazır elərəm. Dalını de!

Anası dedi:

– Qırx-əlli top qırmızı parça al, qırx-əlli at, qatıra samandan bardan tut.

Anası bu tədbirləri deyəndən sonra Abbas ayağa durdu, cəngi-təbl-balaban döydürdü, anasının dediyi tədbirləri tamam hazırladı, dedi:

– Ana, daha nə eləyim?

Anası dedi:

– Sən gecə elə bu üç yüz atlını, bu qırmızı parçanı və saman bardanlarını götürüb gedərsən. Dahaduruz bəyin məskəni Supalı yamac adlı bir dağdadı. Oraya çatdın, bu saman bardanını düşürdüb, bir yerdə bir-birinə söykəyərsən, qırmızı parçanı da sərərsən onun üstünə, üç yüz atlının yüz atlısını bir yanda, yüz atlısını bir yanda, yüz atlısını da bir yanda gizdədərsən. Dahaduruz bəyin qaraulçusu səhər açılan kimi üstünə qırmızı parça sərilmiş dövləti görər, gedib Dahaduruz bəyə deyər ki, tacir malı tökülüb Supalı yamacın güneyində. Dahaduruz bəy gələr həmin malın üstünə. Siz onu öldürərsiniz.

Abbas üç yüz atlısını, aldığı qırx-əlli top qırmızı parçanı və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saman bardanlarını yola saldı. Özü polad geyim geyindi, dəbilqəsini qoydu başına, atını minəndə ürəyində allah ilə bir niyyət keçirtdi. Niyyəti bu oldu, dedi: «Ey heçdən məni xəlq eliyən allah! Əgər bu davada mənə firsənd versən, mən Dahaduruz bəyi fəth etsəm, gəlib çoxlu fəqir-füqara təzəliyərəm».

Abbasın bu duası onda dərgi oldu. Abbas yola düşdü, gəldilər Supalı yamacın bir güneyində gecə vaxtı tayları düşürdüb, bir-birinə söykədilər. Abbas yüz atlını bir yanda gizlətdi, yüz atlını bir yanda gizlətdi, özü də yüz atlıynan bir yanda gizləndi. Hər yüz atlıya bir əmr verdi:

– Sabah açıldı, Dahaduruz bəy gələr burada yığdığımız malın üstünə öz qoşunu ilə. Onda daha heç bir üzr, bəhanə yoxdu. Dədəm, nənəm kor dedi, hər yetənə vur dedi.

Sabah oldu. Dahaduruz bəy əyləşmişdi öz qapısında. Onun qaraulçusu bu dövləti gördü, gəlib Dahaduruz bəyə xəbər verdi:

– Haçana qalıbsan? Bilmirəm, hansı tacirin dövləti tökülüb Supalı yamacın güneyində, sənin dünyadan xəbərin yoxdur.

Dahaduruz bəy bu sözü eşidib, öz dəstəsinə əmr elədi ki:

– Geyinin!

Dahaduruz bəy özü polad geyim geyindi, dəbilqəni qoydu başına. Otuz iki əsbabul-əsbhə-əsləhəli pəhlivan götürdü, yola düşdülər Supalı yamacın güneyinə. Dahaduruz bəy qabaqca çatdı, bu taylara əl vurdu, taylar əlinə yüngül gəldi. Dedilər:

– Niyə qalmısan?

Dahaduruz bəy dəstəsinə dedi:

– Bu tacir malı deyil, bu hökumət hiyləsidir, üstümüzdə qoşun var, amada olun.

Bunlar durdular bu yan o yana baxmağa, onda gördülər yüz atlı bu yandan çıxdı. Abbas özü də birinci yüz atlının içində idi. O iki yerdə gizlənən atlılar da çıxdı. Dahaduruz bəyin dəstəsini saldılar əhatəyə, davanı başladılar. Bir saata kimi bunlar elə dava elədilər ki, Dahaduruz bəyin dəstəsini tamam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qırdılar. Dahaduruz bəyin özünə nə qədər qılınc, ox vurdular, ona əsər eləmədi. Dahaduruz bəy üç yüz atlının içindən üz qoydu qaçmağa. Abbas dedi ki, Şah Abbas məni bunun üçün göndərmişdi, bu da qaçdı, bəs mən neyləyim? Abbas öz qoşununa dedi:

– Ey mənim qoşunum! Şah Abbas Dahaduruz bəyin başını tək məndən istəyib, sizdən istəməyib. Siz qalın, mənə tamaşa eləyin.

Abbas tək at başı saldı onun ardınca. Dahaduruz bəy qayıtdı baxdı ki, bu qoşundan bir atlı ardıycan gəlir. Abbas Dahaduruz bəyi o qədər qoudu ki, gəlib Xətkər şəhərinin yaxınlığında Dahaduruz bəyin atı yoruldu. Abbas atını qulaqlaşdırdı onun atı ilə. Dahaduruz bəy atın üstündə əyilmişdi. Sağdan, soldan atı üzəngiləyirdi ki, at qıvraq getsin. Abbas gördü ki, at üstə əyilib, bunun polad geyimindən dəbilqəsi aralanıb, iki barmaq enində onun boynu görükür. Abbas gördü ki, küştü ilə buna gücü çatmaz, dedi: «indi fürsəndin yeri buradır». Qılıncı siyirdi, daldan onun boynunun kökündən elə vurdu ki, başı bir tərəfə, bədəni bir tərəfə düşdü, onun buğlarından yapışdı, atdı atın torbasına, atını mindi. Təzədən qoşun Abbası bürüdü. İstədilər Abbası vursunlar. Abbas heç kimə imkan vermədi. O qoşunun böyüyü baxdı gördü ki, bu adam Dahaduruz bəy deyil, öz atını sürdü Abbasın yanına, dedi:

– Oğlan, öldürdüyün kimdir?

Abbas Dahaduruz bəyin başını atın torbasından çıxarıb, onun qabağına atdı və dedi:

– Öldürdüyüm Dahaduruz bəydir.

Bu qoşun böyüyünün adı İbrahim paşa idi. İbrahim paşa at qarışıq Abbasın başına dolandı. Abbas dedi:

– Belə niyə edirsən?

İbrahim paşa Abbasa dedi:

– Sən kimin tikməsisən?

Abbas dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən Şah Abbasın tikməsiyəm.

Onda İbrahim paşa dedi:

– Neçə gündür bu başdan ötrü göy mənim yorğanımdır, yer mənim döşəyim. İndi səndən xahiş edirəm gəlib üç gün mənə qonaq olasan. Sora hər ikimiz bu başı aparaq xotkarın yanına. Mən sənin üçün Xotkardan paşalıq allam.

İbrahim paşa Abbası qonaq gətirdi, Abbasa öz evindən bir az uzaq mənzil verdi. Ona bir nəfər də molla xidmətçi verdi. Abbas burada bir gecə qaldı. Səhər Abbas bir balaca bikef idi, xidmətçisi qorxub onu dindirmədi. Getdi İbrahim paşanın yanına. Ona dedi ki:

– Sənin pəhlivanın bidamağdır.

İbrahim ona dedi ki:

– Onlar müsəlmandır. Onlar bikef olanda ya musiqi çaldırarlar, ya tərlan götürüb ova çıxarlar. Sən get ona de. Əgər ov istəyr, yaxşı tərlanımız var, tərlan gətirək ova çıxsın və yaxud musiqi istəyirsə, musiqi çaldıraq.

Xidmətçi Abbasın yanına gəlib dedi:

– Pəhlivan, İbrahim paşa dedi ki, bikef olmasın. Əyər ov istəyir, ona tərlan və bələd verək, ova çıxsın. Yaxud musiqi istəyir çağıraq, onun üçün musiqi çalsın.

Abbas xidmətçiyə dedi:

– İndi get, mənim üçün bir tərlan və bir bələd gətir. İndi ki, mən ova çıxdım, axşam gələrəm, musiqiçi gətirərsiz, musiqi çalar.

Xidmətçi gedib, bir tərlan və bir bələd gətirdi. Abbas atı mindi, bələd və tərlanı götürüb ova çıxdılar. Abbas bələdə tapşırdı:

– Haçan mən icazə versəm, quşu qırqovulun üstünə buraxarsan.

Ovda qırqovul çıxdı. Abbasın tapşırığı bələdin yadında olmayıb, tərlanı buraxdı. Qırqovullar özlərini saldılar binəyə. Tərlan ova etina etməyib, uzağa getdi. Abbas gördü ki, tərlan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

itdi, bələdə dedi:

– Bələd, belə baxıram sən Dahaduruz bəyin cinsindənsən.

Abbas istədi bu bəldi öldürsün. Bələd Abbasa yalvardı, Abbas onu öldürməyib dedi:

– Düş qabağa, quş gedən səmtə gedək.

Bələd fikirləşdi ki, bu Dahaduruz bəy kimi adamı öldürüb, məni də öldürər. Mən bir cür edib bunun əlindən qurtarım.

Bələd dedi:

– Ey pəhlivan, biz ikimiz də bir yerdən getsək, quşu tapa bilmərik.

Abbas dedi:

– Bəs neyliyək?

Bələd dedi:

– Sən dağın bu tərəfindən get, mən də dağın o tərəfindən. Dağın dalında bir-birimizin qabağına çıxaq, quş ya sənə darıyar, ya da mənə.

Abbas atını sürdü, çıxdı dağın başına, gördü ki, bu dağın qabağına yaxın yer hamardır. Amma qırx dənə cəngəri çadır lam-əlif-lam kimi keçib bir-birinə. O çadırlar da kimin idi?… İbrahim paşanın bir qızı var idi. Adı Gülgəz xanım. Həştad kənizi ilə oraya seyrə çıxmışdılar. Haman qırx çadırın içində bir qızıl qübbəli çadır var idi. Abbas atını sürdü haman çadırın üstünə. Gülgəz xanımın kənizlərindən biri Abbası gördü, Gülgəz xanıma xəbər verdi ki:

– Qonağımız gəlir.

Gülgəz xanım kənizə dedi:

– Qonağı apar, kef çadırında sakit elə.

Abbas keyf çadırının qapısında atdan düşüb, atını qolbənd elədi. Girdi çadıra. Gördü bu çadırda çoxlu musiqi alətləri var. Abbas kənizə dedi ki:

– Bu sazlardan birini mənə ver.

Kəniz Abbasa dedi:

– Böyüyümüz var, qoy ondan icazə alım, sonra gəlim sənə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

saz verim.

Kəniz Gülgəz xanımın yanına gedib dedi:

– Xanım, qonaq aşıq çıxdı.

Gülgəz xanım dedi:

– Necə?

Dedi:

– Məndən saz istəyir.

Gülgəz xanım dedi:

– Kəniz, o necə adamdır?

Kəniz dedi:

– Gülgəz xanım, allah sənin üçün yetirib. O oğlan ki var, gözəllikdə Yusifə bərabərdir, iyidlikdə Rüstəmi-Saniyə şikəstlik verir.

Gülgəz kənizə dedi:

– Kəniz, get ona bir saz ver, onun çadırının sağ tərəfini at, mənim çadırımın da sol tərəfini at, mən də onun saz çalmağına burdan tamaşa edərəm, bəyənsəm, gələrəm onun yanına, bəyənməsəm, çayını, çörəyini verərik, gedər.

Kəniz Abbasa bir saz verdi, Abbas başladı saz çalmağa, Gülgəz xanım Abbasın saz çalmağını eşidib, dayana bilmədi, bir dəfə gərdənbazlılıq elədi, onun on dörd hörük saçı kürəyinin ortasında qaldı. Durdu kənizləri ilə Abbasın yanına gəlməyə. Abbas bunlara baxıb gördü allah yaradan gün bu yandan çıxıb bir gün də bir yardan gəlir. Abbasın əlində saz Gülgəz xanımın bu gəlməsini oxuyub belə deyir:

Gün təki parlayıb, çıxıb xeymədən,
Onun şöləsidi çaya düşübdü.
Qızıl gül açılıb eyni vaxtında,
Bənövşənin boynu yaya düşübdü.

Abbas bu zaman gördü ki, Gülgəz xanımın yaxası açıqdı. Görək Abbas Gülgəzə nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən gözəlsən, gözəllərin əlası,
Görüm səni tutsun onun duası.
Bir yandan açılı qızın yaxası,
Elə sannam çeşmim aya düşübdü.

Gülgəz bu sözü eşidəndə kənizinə dedi:

– Kəniz, sən get bu oğlana de qızların çoxu mənlə düşməndi, atın bir az üzdən sürsün, atını çox dərinə salmasın.

Gülgəz xanım istədi yaxasını vursun ki, Abbas onun sinəsini görməsin. Yaxasını vuranda Abbas görək nə dedi:

Gecə, gündüz əzbərimsən dilimdə,
Tərlan quşum sığal verər əlimdə
Abbas deyir: bivəfa yar yolunda,
Əbəs cavan ömrüm qarət eylədim.

Onda Gülgəz öz kənizinə dedi:

– Ay qız, mən buna haçandan yar oldum ki, bu özünü mənə yar eylədi?!

Abbas gördü ki, Gülgəz kənizi ilə danışır. Abbas dil oldu:

– Gülgəz xanım, bu zamanda sifariş ilə həcc qəbul olmur. Zəhmət çək, mənimlə özün danış.

Onda Gülgəz kənizə dedi:

– Sən get, ondan soruş, gör, o, buraya niyə gəlib?

Kəniz gəlib Abbasdan soruşanda görək Abbas nə dedi:

Mən əzəldən görmüş idim düşumu.
Sərimdən apardın əqli-huşumu.
Əlimdən uçurtdum tərlan quşumu,
Gülgəz, sizin bu diyara gəldimi?

Gülgəz dedi:

– Bu özü belə iyiddir, get, ondan soruş, quşu da özünə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bərabərdi, ya yox? Onun quşunun nam-nişanını örgən.

Kəniz Abbasdan quşunun nam-nişanını soruşanda görək Abbas nə dedi:

Tamam ellər oldu bizimlə yağı,
Sinəmə çəkibsən düyünlə, dağı,
Qızıl paçabəndidi, ipəkdən bağı,
Gülgəz, sizin bu diyara gəldimi?

Gülgəz xanım başa düşdü ki, bu, atasının qonağıdı. Dedi:

– Ey Vəlibəy oğlu Abbas, indi bildim ki, sən mənim atama qonaqsan. Mən buraya qırx günün seyrinə gəlmişdim. Amma qırx günün seyrini özümə haram eylədim. Sözün üstünü çox açma. Şəhərdə mənzilin harda olsa, mən sənin yanında hazıram.

Abbas bu sözü başa düşəndən sonra sazın mizrabını sancıb əyləşdi. Gülgəz xanım öz çadırına qayıtdı. Abbas üçün çay, çörək göndərdi. Abbas yeyib-içdikdən sonra atını minib şəhərə gəldi. Abbasın haman xidmətçisi əvvəlcə Abbasın atını sakit etdi, sonra Abbas üçün çay gətirdi. Abbas çaya etina etmədi. Xidmətçi gördü bu çay içmir. Yəqin ki, acdır deyə, Abbas üçün xörək də gətirdi. Abbas xörəyə də etina etmədi. Gülgəzdən ayrıldığı üçün bir qədər darıxırdı. Xidmətçi gördü ki, Abbas çay içmədi, xörək də yemədi. Yəqin etdi ki, at üstə çox inciyib, odur ki, rəxtixab saldı, guya Abbas dincəlsin. Abbas rəxtixaba da etina etmədi. Xidmətçi Abbasdan qorxub, onu dindirmədi. İbrahim paşanın yanına gəlib dedi:

– Sənin pəhlivanın nə çay içir, nə xörək yeyir, nə də rəxtiraba etina edir.

İbrahim xidmətçiyə dedi:

– Sən eşitməmisən. Bələd tərlanı itirib. Ola bilər quşa görə bikefdir. Çünki onlar quş itirməzlər. Sən get, bir kağız və bir qələm götür, qal onun qulluğunda. Ona de: nə cür quş istəyirsə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

de mənə, mən yazım kağıza, verim İbrahim paşaya, sənin üçün bəyənən quş alsın.

Xidmətçi kağız, qələm götürüb, gəldi Abbasın yanına. Abbas bunu görüb, xidmətçiyə dedi:

– Bu qələm, kağız nədi?

Xidmətçi Abbasa dedi:

– Xudkar dedi elənçi quşların mini onun bir tükünə qurban və mənim xəzinəm ona qurban olsun. Nə cür quş istəyir desin sənə, sən yaz kağıza, gətir, onunçün o istəyən quşu alım.

Abbas xidmətçiyə dedi:

– Sənin o kağız, qələmuvə qurban olum. Mən bu gün bir quş görmüşəm. Yaz kağıza, apar ver Xudkara, o quşu mənim üçün alsın.

Sənə qurban olum, ay yazan molla,
Molla, mənim ərzim yara yaz, yara!
Sanasan cəlladdır kipriyi, qaşı,
Molla, mənim ərzim yara yaz, yara!

Molla bu sözləri yazmadı. Abbas ondan soruşdu:

– Molla, niyə yazmırsan?

Molla dedi:

– Sənə fəda olum, bu sözü mən yaza bilmərəm. Əgər yazsam, Xudkar məni öldürər. Diyər ki, sən bilmirsən bizim yerdə yar-yar adlı quş yoxdur.

Abbas gördü bu molla başa düşmür. Görək Abbas nə dedi:

Qəvvas olub, dəryalara dolmuşam,
Dərdü qəmin bu canıma salmışam.
Tərlanımdan yaxşı tərlan tapmışam,
Molla, mənim ərzim yara yaz, yara!

Molla bu sözləri də yazmadı. Abbas dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Niyə yazmırsan?

Molla dedi:

– Sənin sözlərin bizim sözlər ilə düz gəlmir. Sən deyirsən mənim ərzim yara yaz, yara, bizlərdə yara «yarğan» deyərik. Sən deyirsən tərlanımdan yaxşı tərlan tapmışam. Bizlər tapmışama «bulmişəm» deyərik. Odur ki, yaza bilmərəm.

Abbas əyləşmişdi, xidmətçi molla ayaq üstündə idi. Abbas gördü həyətə bir qərəlti gəldi. Abbas fikir verdi ki, bu gələn Gülgəzdir, dedi:

– Mola, boynuvi bu yan-o yana döndərsən sənə bir qılınc vuraram, ortadan keçər. Qələmüvi yaxşı tut, bir yaxşı quş adı yadıma düşüb, onu deyirəm, yaz!

Molla Abbasa dedi:

– Sənə qurban olum pəhlivan. Əyər desən bir il yerindən tərpənmə, düz qal, qalaram, ancax məni öldürmə.

Abbas dedi:

Qayim olsun yar ovlağı,
Budur, yar gəldi, yar gəldi!
Yıxıbdır çadır-otağı,
Budur, yar gəldi, yar gəldi!

Molla gördü ki, Abbas bayaq deyirdi yara yaz, yara, indi deyir yar gəldi, yar gəldi. Molla dedi:

– Pəhlivan, bu da quş adıdır?

Abbas dedi:

– Ləvənd oğlu ləvənd, məgər quş erkək, dişi olmaz? Bəyəğ dediyim erkəyi idi, indi onun dişisidir deyirəm.

Abbas dedi:

Abbas deyər çallam sazı,
Çəkən olmaz ərki, nazı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İbrahim paşanın qızı,
Budur, yar gəldi, yar gəldi!

Molla gördü ki, bu Gülgəz ilə danışırmış. Çıxdı gəldi öz evinə, əyləşib Abbasın dediyi sözlərin dörd kəlməsinə on kəlmə də yalan yazdı, gətirib verdi Xudkara. Onda İbrahim paşa əmr etdi ki:

– Mənim carçımı çağırın!

İbrahim paşa carçıya belə bir tapşırıq verdi:

– Elə bir car çağır ki, mənim həyət-bacamda gəzənlər və xələtimi geyənlər eşitsinlər. Gecədən beş saat keçmiş Vəlibəy oğlu Abbasa möhlətdir, beş saatdan sonra gərək başı bədənindən elə götürülsün ki, bədəninin xəbəri olmasın.

Duxarxan mahalının adamlarından biri burada qulluq edirdi. O bu sözü eşitdi, qıryəti davam etməyib, qılıncını bağladı belinə, istədi bir baş Abbasın yanına gəlsin. Gördü yox, bundan fayda yoxdur. Dedi:

– Mən gedim Gülgəzdən xəbər bilim, əyər bu söz doğru olsa, Gülgəzi də qoşaram Abbasa, gedərlər.

Bu adam gəldi Gülgəzin yanına, Gülgəzə dedi ki:

– Gülgəz, mən səni bəyənmişəm. Mən ölüm əluvi vur mənim əlimə!

Bu sözdə Gülgəz dedi:

– Mən nə eləmişəm ki, sən məni bəyənmisən?

Dedi:

– Abbas Dahaduruz bəy kimi pəhlivanı taxtiyə qədeyib, sən bu gecə onun başını kəsdirirsən, bəs bu zirəklik deyil, nədir?

Bu sözdə Gülgəz bildi ki, bu, Abbası istəyəndir, ona dedi:

– Səndən xahiş edirəm, sən burada mənə bir-iki saat köməklik etsən, heç qoymaram Abbasın başından bir tük belə əskik olsun.

Gülgəz ona min tümən pul verib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Get, mənim üçün Minəxordan bir cüt at al gətir. Sən gələnə kimi də mən öz işimi düzəldərəm.

Bu kişi atlar üçün gedəndən sona Gülgəz xanım ayrı qasidə bir dəst kişi libası gətizdirdi. Gülgəz xanım kişi libasını geyindi və qılınc-qalxan bağlayıb, qiymətdən ağır, vəzndən yüngül öz işlətdiyi şeylərdən yığdı xalixurcinə. Bu vaxt atlar gəldi. Gülgəz xanım həmən qasid ilə çıxıb atların yəhərlərini qoydular, xalixurcini bir atın tərkinə bağladı, qasidin zəhmət haqqını verib, atların birisini mindi, o birisin də cilovunu tutub, gəldi Abbas olan mənzilin həyət qapısına. Abbası səslədi. Abbas yatmışdı, Gülgəzin səsini eşidib, qılıncını götürüb, qapıya yüyürdü. Abbas içəridən səs verdi:

– Dostsan məni çağırırsan, ya düşmənsən?

Gülgəz dedi:

– Mən səninlə dostam. Ancaq gecənin bu aləmində çağıranı düşmən hesab edirlər.

Abbas dedi:

– Yaxşı, oldun dost. Məni neyləyirsən?

Gülgəz dedi:

– Məyər anuvun qoynunda yatmısan? Gedib seyrgahda Gülgəzi görübsən, ordan gəlib bu mənzildə olursan. Gülgəz bura sənin yanuva gəlib. Sən ilə Gülgəzin arasında olan söhbəti molla xəbər verib Xudkara, Xudkar car çağırtdırıb, gecədən beş saat keçmiş gərək sənin başun bədəndən götürülsün, mən Duxarxan mahalının adamındanam. Mənə torpaq təəssübi gəlib, gəldim səni götürüb qaçam. Ancaq Dahaduruz bəyin başını da götür. Bir vaxtda vəcuvə gələr.

Abbas dedi:

– Bəs mənim atım necə oldu?

Gülgəz dedi:

– Sənin üçün at da gətirmişəm.

Abbas geyindi, Dahaduruz bəyin başın da atın torbasında, çiyninə asıb, çıxdı həyətə, Gülgəzin gətirdiyi atı mindi, hər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ikisi yola düşdülər. Ancax Abbas bilmirdi onun ilə gedən Gülgəzdir. Bunlar gecə yol gedib, səhər açılana yaxın Abbas gördü ki, bu yerlər tanıdığı yerlərdir. Abbas dedi:

– İndi səhər açılır, namaz vaxtına az qalıb, gedək bir bulağın yanında düşək, namazlarımızı qılaq.

Gülgəz dedi:

– Biz gedib orada düşsək, daldan üstümüzə qoşun gəldi, onda neylərik?

Abbas dedi:

– Bəs neyliyək?

Gülgəz dedi:

– Sən get namaz qıl, mən qalıram atların yanında. Sonra sən gələrsən, mən gedərəm.

Abbas getdi, namazını qılıb gələnə kimi səhər açıldı. Abbas gəldi. Gülgəz gördü ki, indi Abbas gəlib surətindən onu tanıyacaq, uzaqdan səs verdi ki:

– Abbas, atlardan muğayat ol, mən gedim namaz qılmağa.

Gülgəz gəlib bulağın yanında kişi libasını soyundu, zənən libasında namaz qılmağa başladı. Namazın axırında Gülgəzi sona yuxusu götürdü, yatdı. Abbas gözlədi, gördü ki, yoldaşı gəlmədi. Abbas atların cilovunu çəkərək onun yanına gəldi. Uzaqdan baxıb gördü bir dəst qara libas bir tərəfdə və bir dəst qırmızı libas bir tərəfdə görünür. Abbas gördü bu qırmızı libas haman libasdır ki, seyrgahda görüb. Abbas atların cilovunu buraxıb, Gülgəzin yanına gəldi, görək Gülgəzə nə dedi:

Sərim qurban olsun beylə naqqaşa.
Gətirdin dəstimi damana, Gülgəz!
Ağ üzündə xallara, mah qələm qaşa,
Əbrlərun bənzər kamana, Gülgəz!

Şəddə çalıb, zülf tökülüb bellərə,
Mən qurbanam zikr eliyən dillərə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənsiz gedər olsam bizim ellərə,
Oluram dərdindən divana, Gülgəz!

Gəl üzəngün basım, Gülgəzim, atdan,
Sən məni qurtardun alovdan, oddan,
Abbasın sevgisi, xabi-qəflətdən,
Tavustək silkinib oyan, a Gülgəz!

Onda Gülgəz xabdan durdu ayağa. Geyinib Abbas ilə bərabər təzədən atlanıb, Abbasnan haman sər-çeşmə üstə dayanmışdı ki, gördülər qoşun sədası gəlir. Abbas dil oldu ki:

– Gülgəz, sən Xudkar şəhərinin və öz atovun qoşununun səs-sədasını tanıyarsan?

Gülgəz qulaq asdı, dedi:

– Xudkar şəhərinin məxluqunun sədası yoxdu.

Burada Abbas dedi:

– Dayan, mən qulaq asım.

Abbas qulaq asdı, gördü ki, qənim düşmənlərinin səsi gəlir. Abbas eşitdi ki, Sarı Xoca soruşur ki: Qul Abdulla, biz Abbası göndərdik Dahaduruz bəyin başı üçün, bilmədik Dahaduruz bəy Abbası öldürdü, ya qaldı. Onun necə olmasını bilmədik.

Abbas bu sözü eşidəndən sonra Gülgəz də nəzərindən çıxdı. Bir dəfə çığırdı ki:

– Gülgəz, getdim, gəl!

Abbas bu sözü deyəndə Gülgəz bir vaxt gördü Abbas at üstədir. Abbas at başı saldı bunların üstünə.

Bunları Şah Abbas qoşun ilə Şiraza göndərmişdi. Şah Abbas naxoşlamışdı. Həkimlər ona eşq azarı demişdilər. Bunlar da Şirazdan Şah Abbas üçün qırx dənə xəsa gətirirdilər. Abbas bunların üstünə çıxdı, necə tərlan kəklik üstə çıxar. Onlar pərən-pərən oldular. Abbas çox əlləşdi onların hamısını tutsun, baxdı gördü mümkün deyil. Atını sürdü təkcə qul Abdullanın üstünə. At üstə əl atıb, onun kəmərini tutdu, onu yəhərdən çı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xartdı və havadan paya kimi yerə atdı, özü də atdan düşdü. Qul Abdullanı arxası üstə uzatdı, onun əllərini döşü üstə qoyub, ayağı ilə basdı, qılıncı siyirdi, istədi qoysun qul Abdullanın boğazına, bu yandan Gülgəz gəldi, gördü Abbas bir nəfəri yıxıb, istəyir başını kəssin. Gülgəz xanım əl atıb, Abbasın qılıncını tutdu. Abbas dedi:

– Gülgəz, mənim qılıncımı tutma! Gərək bunu öldürəm mən!

Gülgəz dedi:

– Nə səbəbə bunu öldürürsən sən?

Abbas dedi ki:

– Bu mənim ölümümə əlləşib.

Gülgəz dedi:

– Bu sənin ölümüvə əlləşib, bəs indi bu hardadır?

Abbas dedi ki:

– İndi mənim təpiyimin altında.

Gülgəz dedi:

– Abbas, mərdimazarın axırı belədir. Ancaq mən səndən xahiş edirəm, necə biz ikimiz cavan, təzə, növrəstə gül kimi açılmışıq, belənçi adamın nəhəx qanı bizim qabağımızda tökülməsin.

Abbas dedi:

– Gülgəz, eşitmirəm bu sözü. Gərək bunu öldürəm.

Gülgəz gördü yox, Abbasın pəhlivanlıq qeyzi gəlib başına. Gülgəz oxuyub Abbasa yalvarır:

Sənə qurban olum, mənim Abbasım,
Abbasım, bəxş et, gəl, sən Abdullanı.
Dolanıram başuva misli-pərvanə,
Abbasım, bəxş et, gəl, sən Abdullanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abbas dedi:

Sənə qurban olum mənim Gülgəzim,
Vallah, bağışlamam mən Abdullanı.
Əbəs yerə sən bu sözü söyləmə,
Vallah, bağışlamam mən Abdullanı.

Gülgəz deyir:

Qəvvas olub dəryalara dolmuşam,
Dərd-qəmuvi bu canıma salmışam,
Atamı atmışam, sənlə gəlmişəm,
Abbasım, bəxş et, gəl, sən Abdullanı.

Gülgəz bu sözü deyəndən sonra Abbasın qeyzi sakit olub gördü ki, Gülgəzin könlü sınar, bir təpik vurdu qul Abdullanın qabırğasından, dedi:

– Ləvənd oğlu, dur, get gözümün qabağından, qoy gözüm səni görməsin!

Ondan sonra Abbas Gülgəz ilə bərabər atlarını mindilər, gəlib çatdılar Duxarxana. Duxarxan əhalisi elə bilirdi ki, Abbas Dahaduruz bəylə olan davada ölüb. Abbas Gülgəz ilə bərabər öz evinə gəldi, tamam şəhər əhli qırmızı geyindi, dostları şad oldu və fağır-füğəra təzələdilər. Abbas evində bir on gün qaldı, anasına dedi:

– Ana, nə məsləhət bilirsən? Mən paşa qızının toyunu edim və yaxud Dahaduruz bəyin başını aparım Şah Abbasın yanına?

Abbasın anası dedi:

– Oğul, məsləhət özüvündür. İstəyirsən toyunu elə, istəyirsən başı apar.

Abbas təzədən qırx-əlli atlı götürüb, Dahaduruz bəyin başını da götürdü. Anası Abbasa dedi:

– Oğul, gedirsən, sənun atovun İsfahanda bir tikmə qardaş-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lığı var, adı Məhəmməddir. Bu başı aparsan onun yanına. O, Şah Abbasın yanında çox hörmətlidir. O nə məsləhət bilsə, o cür edərsən.

Nə Məhəmməd Abbası görmüşdü, nə də Abbas Məhəmmədi. Abbas gəldi İsfahana, Məhəmmədin evinə, Məhəmməd Abbası gördü dedi: «bu kimdir bu cəlal ilə, bu igidlik ilə gəlib mənim evimə?». Gözlərindən tanıdı ki, bu qardaşlığı Vəli bəyə oxşayır. Dedi:

– Oğul, sən Abbassan?

Dedi:

– Bəli, mən Abbasam.

Abbas Dahaduruz bəyin başını nə cür gətirib və başına nələr gəlib – Məhəmmədə danışdı. Məhəmməd təzədən durub, Abbasın gözlərini öpüb, özü ilə apardı Şah Abbasın hüzuruna. Məhəmməd Şah Abbasa dedi ki:

– Abbas Dahaduruz bəyin başını gətirib.

Şah Abbasa Abbası çox təriflədilər. Şah Abbas əmr elədi ki, təbl-balaban vurulsun, meydan sulansın, Dahaduruz bəyin başını da, Abbası da gətirsinlər meydana. Şah bu işi ona görə belə elədi ki, Dahaduruz bəy əhalini çox incidib, qoy tamam dünya bilsin ki, Abbas Dahaduruz bəyi öldürüb. Şahın əmri ilə Abbası və Dahaduruz bəyin başını gətirdilər meydana. Baş meydana gələndən sonra həmən meydanda Şah Abbas Abbasa dedi ki:

– Sən bu isbatı yerinə yetirməkdə məndən nə istəyirsən?

Abbas dedi:

– Şah sağ olsun, sənin düşmənlərinin sərnügun olmasını və sənin sağlığuvi istəyirəm. Mənə heç bir şey lazım deyil.

Şah yenə təkrar edib dedi:

– İstəməlisən.

Məhəmməd də xəlvəti Abbasa demişdi ki, ancax düşmənlərüvi istəyəsən. Abbas da düşmənləri olan Sarı Xoca ilə qul Abdullanı Şah Abbasdan istədi. Şah əmr etdi ki, Sarı Xoca ilə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qul Abdullanın köçləri Duxarxana yola salınsın. Dübarə Şah Abbasdan rəşdil-ziba söz istədi.

Abbas dedi:

Adam vardır adamların naxşıdır,
Adam vardır heyvan ondan yaxşıdır.

Adam var şal giyər, adam var dəri,
Adam var mərifətdən yoxdur xəbəri.
Adam var meydanda bəyənməz əri,
Adam var pəhlivan ər də bəyənməz.

Ondan sonra şahın kərəmi cuşa gəlib, Abbasa qırx min tümən pul bağışladı və on dörd dəst də libas. Yeddi dəsti onun özü üçün, yeddi dəsti də adaxlısı üçün bağışladı, dedi:

– Abbas, Duxarxan mahalını da bağışladım sənə. Cani sən, cani Duxarxana mahalı.

Ondan sonra Abbas gəldi Məhəmmədin yanına, dedi:

– Ata, indi icazə ver, mən gedim.

Məhəmməd dedi:

– Oğul, get, necə ki, şah sənə Sarı Xoca ilə qul Abdullanı verdi, teztovluğ etməyib, yetişən kimi onlara nasağ eləməyəsən. Səbr ilə onlardan qisasuvi alarsan.

Abbas öz dəstəsi ilə, şahın verdiyi ənamları götürüb getdilər Duxarxana. Gələndən sonra toyunu elədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HEYDƏR BƏY

### USTADNAMƏ

Ay hazarat, sevdim xublar şahını,
Döndü dərhal, mən deyəni demədi.
Umud ilə tutdum eşqin rahını,
Qaşı hilal, mən deyəni demədi.

Anladım ki, sevda sərdə qalacaq,
Getdikcə əhvalım yaman olacaq,
Çox gözlədim, yaxşı çağlar olacaq,
Bəxtü iqbal mən deyəni demədi.

Cuma da Mənsurtək dar qabağında,
Təqdirin qəzası var qabağında,
İstədim ölməyi yar qabağında,
Ol zül-Cəlal mən deyəni demədi.

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun.

Dedim, könül, içmə eşqin camını,
Bu gün dünya sənə dar olacaq.
Nə belə dost ol, nə zəhmətdən inci,
Dost yolunda boran, qar olacaqdı.

Gəl, könül, gəl uyma sən bu dünyaya,
Halaldan kəsb eylə özünə maya,
Zülmkar, haramxor yetişməz boya,
Dosta xayın baxan kor olacaqdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ələsgər, bilmədin sən dünya sirrin,
Qaranlığa işıq, acıya şirin,
O zaman harayla mərdlərin pirin,
Dar günündə sənə yar olacaqdı.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmənlər geridə qalsın.

İki mələkdir gözə görünməz,
Ağızdan çıxanı yazarlar bir-bir,
Biri sağda, biri solda dayanıb,
Günahı, savabı düzərlər bir-bir.

Dünyadan getməsin heç kəs əli boş,
Axirətdə onun üçün keçməz xoş,
Dörd tərəfin divar, torpaq, üstün daş,
Vurub sümüyünü əzərlər bir-bir.

Ey Səməd, qədrini əlbət bilərlər,
Dost, müsafir sənə kömək dilərlər,
Hər məclisdə söhbətini elərlər,
Nəsihət sözünü gəzərlər bir-bir.

Günlərin bir günü İsfahanda Şah Abbas vəzir Allahverdi xanla gəzə-gəzə gedib Təbriz şəhərinə çatdılar. Orada Dəvəçilər məhəlləsindən keçəndə bir arvada rast gəldilər. Bu arvadın gözəllikdə misli-bərabəri yox idi. Şah bir könüldən min könülə bu arvada vuruldu. Öz sevgisini bir qarıya söylədi. Şah qarıya bir xeyli pul verəndən sonra soruşdu:

– Bu gözəl zənən kimdi?

Qarı dedi:

– O, Hacı Hüseynin qızıdı. Əri bafat eləyib. Özü də üç ayın gəlinidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah qarıya bir qədər də pul verdi. Qarı gedib Hacı Hüseynə dedi:

– Buralarda bir Abbas adında dərviş gəzir, o sənin qızını istəyir. Nə deyirsən?

Hüseyn dedi:

– Qızımın özünə de.

Qarı qızın yanına getdi. Çox alt-üst elədikdən sonra qızı yola gətirdi. Qızın adı Şahsənəm idi. Qazı qızla Şah Abbası görüşdürdü. Qız da Abbası bəyəndi. Padşah qırx gün burada qaldı. Qırx gün keçəndən sonra vəzir Allahverdi xan bir kağız göndərdi ki, ey Şah Abbas, sənin İsfahandan başqa yerə getməyini camaat bilsə taxt-tacı dağıdar. Tez qayıdıb gəl. Şah kağızı alan kimi getmək tədarükündə oldu. Şahsənəm ona dedi:

– Məni qoyub gedirsən, bəs sənin uşağın olarsa səni necə tapaq?

Şah arvadına bir bazubənd verib dedi:

– Qızım olsa, sat onu xərclə, oğlum olsa, qoluna bağla, gəlib məni tapar.

Şah bu sözləri deyəndən sonra arvadı ilə, qohumları ilə görüşüb, öpüşüb yola düşdü. Nağıl dili yüyrək olar. Doqquz aydan sonra Şahsənəmin bir oğlu oldu. Oğlana ad qoyanda Hacı Hüseyn bütün bilikliləri yığdırdı. Hərəsi bu uşağa bir ad qoymaq istədi. Amma Şahsənəm bu adların heç birini bəyənmədi, dedi:

– Bunun dədəsi dərvişdi. Həmişə «Heydər» çağırır. Odu ki, bunun adını Heydər qoyaq.

Uşağın adını Heydər qoydular.

Bəli, Heydər böyüyüb yeddi yaşına çatan zaman babası onu məktəbə qoydu. Heydər oxuyub on beş yaşına çatdı. Bir cümə günü Heydər küçədə aşıq-aşıq oynayırdı, hamını udurdu. Bir keçəl ona dedi:

– Ay uşağlar, siz onu uda bilməzsiniz, çünki o, bicdi. Qırx günün qonağından olub. Heydər keçəlin dalından düşüb, onu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tutmaq istədi ki, de görüm, bu nə sözdü? Keçəl qaçdı, Heydər onu tuta bilmədi. Gedib Heydər bir xancal aldı, anasını çağırıb dedi:

– De görüm, mənim atam kimdi? Düzünü deməsən, səni bu xancalnan doğrayacağam.

Arvad gördü ki, olmayacaq, açıb düzünü dedi:

– Sənin atan İsfahanlıdı. Adına da dərviş Abbas, tacir Abbas deyirlər.

Heydər dedi:

– Ana, mən gedirəm atamı axtarıb tapmağa.

Anası gördü ki, oğlu əl çəkmir, gedir. Odu ki, gətirib atası verdiyi bazubəndi onun qoluna bağladı. Heydər yola düşdü. Gedib çatdı İsfahana. Burada qırx gün atasını axtardı, tapa bilmədi.

Şah Abbas vəziri ilə genə dərviş libasında gəzirdi. Bunlar yoldan keçəndə gördülər ki, bir oğlan, yanında da bir at yatıbdı. Bunu quldura oxşatdılar. Heydər bunların hənirinə yuxudan ayıldı. Şahla vəzir ona dedi:

– Əyə, sən kimsən, burda niyə yatıbsan?

Heydər dedi:

– Yol adamıyam, – gördü ki, əllərində də bir papax var, – o papağı verin, sonra kiməm, deyim.

Vəzir papağı verdi. Oğlan papağı alıb, saz əvəzinə döşünə basıb, görək nə dedi:

Bir ərzim var, gəlin sizə söylüyüm:
Hərgiz sizə deməm yalanı, dərviş!
Xeyli vaxtdı qürbət elə düşmüşəm,
Bir itiyi itən dolanı, dərviş!

Dedilər: Bala, itiyin nədi? Aldı oğlan gerisini:

Ata didarını görməmişəm doyunca,
Gəzərəm dünyanı mən ki, ölüncə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ədalət şahdı, vəziri var yanınca,
Burda bir xiyalım dolanı, dərviş!

Həmişə çağırram xeybəri-xeybər,
Bir şahın oğluyam, adımdı Heydər,
Əgər qəbul etsən qulami-kəmtər,
Deyərəm başdan keçən qəzanı, dərviş!

Bu sözlər şahın xoşuna gəlib dedi:

– Sən dedin ki, istəsən gedərəm qulami-kəmtər. İndi ki, belədi, gəl mənnən gedək, səni özümə oğul elərəm.

Oğlan razı oldu. Şah onu apardı, özünə də tapşırdı ki, sən ancaq mənə qulluq elə. Şah Abbas bir gün Heydərdən qalyan istədi. Qalyanın odundan bir qığılcım bunun əlinin üstünə düşdü. Amma Heydər odu əlinin üstündən elə apardı ki, nə yerə saldı, nə də əlini yandırdı. Bu iş şaha daha çox xoş gəldi. Odu ki, ona bəy adı vedi. Özünü də qullar ağası təyin elədi.

Şah bu fikirdeydi ki, onun kim olduğunu dərindən öyrənsin, amma şah qəfildən xəstələndi, onu öyrənmək yadından çıxdı. Bir həkim ona dedi:

– Şah sağ olsun, çöl ceyranının əti, qanı sənə dərmandı.

Şah Abbas dedi:

– Kim gedib mənə ceyran əti gətirə bilər?

Heydər şaha rəsm-təzim eləyib dedi:

– Şah sağ olsun, mən gedib gətirərəm.

Şah Heydər bəyə beş yüz atlı verdi. Heydər ceyran ovuna getdi. Bunlar ceyran ovuna getməkdə olsun, eşit Osmannıda İzmir şəhərində Əhməd Tərəkəmədən. Əhməd Tərəkəmənin Süsənbər adında oxumuş, həkim, həm də pəhlivan bir qızı varıydı. Həmişə dağlarda gəzib, otlardan, çiçəklərdən dava qayırardı.

Süsənbərin bir halı* ceyranı varıydı. Bu ceyran yolnan keçənləri aldadıb, dalına salıb aparırdı Süsənbərin yaşadığı qəf-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lət dağına, Süsənbər orada adamları soyurdu. Halı ceyran Heydərgilə rast oldu, başladı qaçmağa. Heydər ceyranı qova-qova aparıb bir mağarıya saldı. Baxdı ki, namaz vaxtıdı, başladı mağaranın ağzında namaz qılmağa. Bu vaxt alnı möhürdə yuxuladı. Yuxuda bir seyid ona bir badə uzadıb dedi:

– Al bunu iç.

Heydər dedi:

– Ağa, biz o badəni içmirik.

Seyid dedi:

– Bu sən deyən badədən deyil. Süsənbər xanım adında bir qızın badəsidi. Al iç.

Heydər bəy badəni alıb içdi. Yuxudan ayılanda bir ürkət namaz qılmışdı ki, birdən ceyran çıxıb qaçdı. Heydər onun dalınca at saldı ki, ceyranı tutsun. Ceyran gedib Süsənbərə sığındı. Oğlan gedib Süsənbərə çatanda qız Heydərə dedi:

– Sən nə cürətnən mənim ceyranımı qovursan?

Oğlan dedi:

– Bayax işim ceyrannan idi, indi gör kimnəndi?

Aldı Heydər, görək nə dedi:

O gözlərin sərvi-nazı,
Yar, səni görməyə gəldim.
Eşitdim gülşən bağın var,
O gülün dərməyə gəldim.

Qız dedi:

– Ə, sən nəçisən, məni özünə yar seçirsən?

Heydər bəy aldı, görək nə dedi:

Qafıl olub demə yaman,
Ol xudam eyləyər divan.
Verdi ağam şahi-mərdan,
Yar, səni görməyə gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Süsənbər dedi:

– Əyə, şahi-mərdan kimdi, sən kimsən? Məyər mənim ixtiyarım sizdədi?

Heydər bəy dedi:

– Sözümün dalına qulaq as:

Aldı Heydər bəy:

Aşıx yuxuda görübdü,
Məşuqə zülfün hörübdü.
Bu gecə ağam veribdi,
Yar, səni görməyə gəldim.

Qız dedi:

– Bəlkə sən deyən mən döyüləm?

Heydər bəy dedi:

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı.
Heydərin Süsənbər yarı,
Yar, səni görməyə gəldim.

Süsənbər dedi:

– Səni öldürərdim, cavansan, indi sənin qabağına bir hesab qoyaram, cavab verə bilsən, sənə gedərəm, verməsən səni öldürərəm, qayıt, çıx get!

Aldı Süsənbər, görək Heydərə nə dedi:

Səndən xəbər alım, ay gələn aşıx,
Ərş üzünün neçə bürcu-barı var?
Behiştə-əlanın nədəndi fərşi?
Neçə-neçə huri, qılmanları var?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Heydər:

Al cavabın deyim, Süsənbər xanım,
Ərş üzünün on iki bürcü-barı var.
Behişti-əlanın ləli-zəbərcət fərşi,
Çox hesabsız huri, qılmanları var.

Aldı qız:

O nədir ki, bu dünyada zatı yox?
O nədir ki, tikişi yox, qatı yox?
O nədir ki, yayax* gedir, atı yox?
Çarx dolanır, bir tükənməz yolu var.

Aldı Heydər:

O yalandı, bu dünyada zatı yox.
O göydü ki, tikişi yox, qatı yox.
Aydı, gündü, yayax gedir, atı yox.
Çarx dolanır, bir tükənməz yolu var.

Aldı Süsənbər:

Süsənbər biləndi cəm həqiqətdən,
O kimdi atdandı çıxdı zulmatdan,
O kim idi içdi abi-həyatdan?
Bu dünya durunca onun canı var?

Aldı Heydər bəy:

Heydər bəy dərsin alıb ayatdan,
İsgəndər atdandı çıxdı zulmatdan,

------------------------

*Piyada.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xızıriydi, içdi abi-həyatdan,
Bu dünya durunca onun canı var.

Qız gördü ki, suallarına düzgün cavab verdi. Köçüb buradan qaçmaqdan savayı bir yol qalmır. Nökərlərini çağırıb köçmək əmrini verdi.

Bular köçəndə Heydər atına minib, bularnan gedir. Qız dedi:

– Bəs sən hara?

Heydər bəy dedi:

– Siz hara, mən də ora.

Qız fikirləşdi ki, mənnən getsə, camaat mənə nə deyər? Yaxşısı budu, gəl buna bir az da hərbə-zorba gəl, odu ki, təzədən başladı, görək nə dedi:

Xoş gəlibsən, mənim əziz qonağım,[1]
Qayıt bu sövdadan, əl götü məndən!
Yüz il keçsə məndən sənə yar olmaz,
Qayıt bu sövdadan, əl götü məndən!

Aldı Heydər bəy:

Yeri, gözəl kəklik, gözəllər xası,
Can verrəm yolunda, dönmərəm səndən!
Sənə nə yaraşır ərlik libası?!
Can verrəm yolunda, dönmərəm səndən!

Aldı qız:

Bu meydanda başı-candan keçərəm,
Al qanını şərbət deyib içərəm.
Bir qılınca səni iki biçərəm,
Qayıt bu sövdadan, əl götü məndən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Heydər bəy:

Bizim göldə ördək olur, qaz olur,
Gözəllərdə işvə, qəmzə, naz olur.
Kim deyər zənanə qılıcbaz olur?
Can verrəm yolunda, dönmərəm səndən!

Aldı Süsənbər:

Çəkəmməzsən Süsənbərin nazını,
Uçurdaram ördəyini, qazını,
Öldürərəm, kimlər tutar yasını?
Qayıt bu sövdadan, əl götü məndən!

Aldı Heydər bəy:

Heydər bəyi etdin dəli, divana,
Mən indi baş alım gedim hayana,
Gəl gedək İsfahana, nisfi-cahana,
Can verrəm yolunda, dönmərəm səndən!

Hər iki tərəfin sözü qurtardı. Süsənbər xanım qılıncı qaldırıb Heydəri vurmaq istəyəndə gözləri Heydərin gözlərinə sataşdı, əli boşaldı, çünki qız da Heydəri yuxuda görmüşdü. İstədi əlini saxlasın, amma genə olmadı, onun qılıncı Heydəri başdan yaraladı. Qız o saat atdan düşüb, məhləm qoydu, Heydərin başının yarasını sarıdı. Yanında bir qarı vardı, ona dedi:

– Nə təhər eləyək? Mən bu oğlana vuruldum.

Qarı dedi:

– Bir neçə söz de, yazaq, bu oğlanın sinəsinə qoyaq, duranda axtarıb tapar səni.

Aldı qız, görək oğlana nə yazır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dur görüm, sana neylədim?
Ey xan oğlu, cavan oğlan!
Dərdinə dərman eylədim,
Nə yatmısan, oyan, oğlan!

Qaşların qurulu yaydı,
Üzün bədirlənmiş aydı,
Kaş qollarım quruyaydı,
Ey xan oğlan, sultan oğlan!

Qurbanam qaşın təhrinə,
Düşmüşəm yarın qəhrinə.
Dursan gəl Kişmir şəhrinə,
Ey xan oğlan, cavan oğlan!

Süsənbərəm, budu dilim,
Gülşandan ayırma gülüm,
Yetmiş mindi mənim elim,
Ey xan oğlan, cavan oğlan!

Bu sözləri yazıb oğlanın sinəsinin üstünə qoyub getdilər. Heydər ayılıb gördü heç kəs yoxdu. Kağızı oxudu. Gördü qız vurduğuna peşiman olub. Atı minib bular gedən tərəfə yol elədi. Az gedib, çox gedib, bir yerə çatdı, amma bilmədi bura kimin şəhəridi. Bərk yağış yağırdı. Elə yağırdı ki, yağışdan tutub göyə qalxmaq olardı. Heydər bəy bərk islandı. Başından yağış sel kimi tökülə-tökülə aldı, görək nə dedi:

Badi səba, qaldım ara yerlərdə,[2]
Mən gedim haraya, haralı canım?
Qərq oldum tufana pərvanələrtək,
İtiribdi səbrü qəralı canım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərdü qəm əlindən oldum ziyada,
Dolandım gölləri adabaada;
Hər yana baxıram beş-altı cada,
Bilmirəm hansından haralı canım.

Heydər bəyəm, nə mürdəyəm, nə zində,
Heç bilmirəm nə məzhəbdə, nə dində;
Atam, anam məni görsə bu gündə,
Heç xəbər almazlar haralı canım.

Heydər bəy yolu bir karvançıdan xəbər alıb, başladı getməyə. Gedib Kişmirə çatdı. Burada Süsənbərin həmsöhbət qarısını gördü. Aldı, görək qarıya nə dedi:

Başına döndüyüm, daya,
Yardan ötrü sərgərdanam.
Yar hüsnün bənzətdim aya,
Yardan ötrü sərgərdanam.

Qarı dedi:

Başına döndüyüm oğul,
Yarın Süsən dağındadı;
Qoyub vəsmə, çəkib sürmə,
Öpüb qucmaq çağındadı.

Heydər dedi:

Nə deyim sözümü axır,
Bənövşə boyuna baxır.
Tiği-müjgan dağı yıxır,
Yardan ötrü sərgərdanam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı şübhələndi ki, yəqin bu məni sevir, gəl özünü təriflə, bəlkə səni aldı.

Qarı dedi:

Hər yetənə salma nəzər,
Bənövşə boyuma bənzər.
Oğlan, sən dediyin gözəl,
Süsən-sünbül dağındadı.

Heydər gördü qarının fikri başqadı. Aldı, görək cavabında nə dedi:

Çox nəf görərsən Heydərdən,
Məni qurtar intizardan,
Bir xəbər ver Süsənbərdən,
Yardan ötrü sərgərdanam.

Qarı gördü bu iş olan deyil, dedi:

Dəryaların mayasıyam,
Həm abırı, həyasıyam.
Mən o qızın dayasıyam,
Xallar tər buxağındadı.

Söz tamam oldu, qarı dedi:

– Oğul, sən buralarda otur, gedim Süsənbərə xəbər verim, müjdə alım.

Qarı gedib, Süsənbərə müjdə xəbəri verdi. Gecə oğlan qarıynan Süsənbərin otağına getdilər. Heydər bəy otağa girəndə aldı, görək nə dedi:

Nə müddətdi səndən ayrı düşmüşəm,[3]
Aylar, illər səni görəsim gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Leyli buxağında bitibdi güllər.
Məcnunam, dərməyə həvəsim gəlir.

Huridən, pəridən bir sən qalıbsan.
Hər yanına on dörd hörük salıbsan.
Bir canım var, yar, əlimdən alıbsan.
Quru qəfəsdəcə nəfəsim gəlir.

Heydərin qızla qılınclaşması yadına düşüb, gülümsündü. Süsənbər xanım onun gülməyinin səbəbini soruşanda Heydər bəy dedi:

Dərin-dərin dəryaları keçmişəm,
Şah əlindən dolu badə içmişəm.
Heydər bəyəm, bir sövdaya düşmüşəm,
Özüm öz sövdama güləsim gəlir.

O gecə Heydər bəy Süsənbərin evində qaldı.

Sizə haradan xəbər verim, Əhməd xotkardan. Süsənbər Əhməd Xotkarın nişannısı idi. Çuğullar, şeytanlar Heydəri bəyin Süsənbərin mənzilində olduğunu bildilər. O saat Əhməd Xotkara xəbər verdilər ki, nişannın özünə ayrı müştəri tapıb. Bu saat öpüşün biri bir quruşdu. Xotkar bərk qəzəbləndi, bir neçə atdıynan yola düşdü.

Süsənbərə xəbər verdilər ki, Xotkar, budu, gəlir. Süsənbər o saat Heydər bəyi yük yerində gizlətdi ki, görsün başına nə iş gəlir. Xotkar otağa gəldi, salam verdi, Süsənbər onun salamını almadı. Xotkar aldı, görək nə dedi:

Gözəllər sərdarı, ay mələkzada,[4]
Söylə görüm, dərdi-vərəm nəyindi?
Səni sevən qəm çəkərmi dünyada?
Söylə görüm, dərdi-vərəm nəyindi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Süsənbər:

O gün ki, çıxdım qəflət dağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.
Lalələr düzmüşdüm solu sağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Xotkar:

Bülbül gülşanına gəldi, yəqindi,
Qara bağrım şan-şan olub dəlindi.
Heydər bəy dediyin kimin, nəyindi?
Söylə görüm, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Könül dost yolunda qalır, qadası,
Mənə gəlsin Heydər bəyin qadası.
Odu Şah Abbasın qullar ağası,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Xotkar:

Ay ağalar, mən köçümü köçürdüm,
Köçürübən mənzilinə yetirdim,
Şah qulundan bizə donmu gətirdin,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Sehr edib, qəflət dağında quruldum,
Dürr götürüb, dəryalardan duruldum.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Misir qılıncıynan sərdən vuruldum,
Mən çəkdiyim o cavanın dərdidi.

Xotkar elə bildi ki, bu yəqin bir cavan adam öldürüb, sora da onu öldürməyinə peşiman olub. Odu ki, dedi:

Mən Xotkaram, neyləmişəm, neylərəm,
Xəncəlinən bağrım başın teylərəm.
Qoşun çatsın, səni şan-şan eylərəm,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Eylərəm bəd mürvət mən aman-aman,
Yetişsin dadıma ol şahi-mərdan,
Öldür Süsənbəri, Heydərə qurban,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Xotkar qəzəblənib, əlini qılınca atdı ki, qızı qılınclasın. Süsənbər xanım əl atıb, qılıncı onun əlindən aldı, kənara tulladı. Tutaşdılar. Süsənbər xanım Xotkarı qatladı qoydu dizinin altına. Heydər bəy də çıxdı. Onun qol-qıçını bağlayıb, bir taxtın altına itələdilr.

Gecə nökərləri iki at sazlatdılar, atlara minib, çıxıb getdilər. Bunlar gedəndən sonra əhvalat məlum oldu. Qoşun gəlib, Xotkarın əl-ayağını açdı. Qoşun atlandı. Qızın yedddi qardaşı vardı, hərəsi bir qoşun sərkərdəsiydi. Xotkar bu qardaşlara bir kağız yazdı ki, bacınız bir İran aşığına qoşulub getdi. O biri tərəfdən Süsənbərnən Heydər bəy bir bulağın başında yatmışdılar. Qoşun gəlib, dağları tutdu. Süsənbər xanım oyaq idi. Gördü ki, qoşun hər tərəfi tutub, Heydər isə yatmışdı. Alıb bir neçə söznən onu görək necə oyadır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə yatırsan xab içində,
Oyan, dur, tədarükün gör.
Məni qoyma qəm içində,
Oyan, dur, tədarükün gör.

Oğlan ayılmadı. Qız dübarə dedi:

Saymır sultan xanımızı,
İndi tökər qanımızı,
Düşmən aldı dörd yanmızı,
Oyan, dur, tədarükün gör.

Süsənbər eyləyər yüz qan,
Yet dadıma, şahi-mərdan.
Üzbəüz oldu o düşman,
Oyan, dur, tədarükün gör.

Oğlan ayıldı, gördü osmanlının fəsi baharın laləsi kimi qızarır.

Süsənbər dedi:

– Mən özümü qoşuna vurub yol açaram, mənim dalımca gəl, aralanma məndən.

Heydər bəy dedi:

– Mən sənə əvvələr qılınc qaldırmadım deyə, elə bildin ki, qorxdum. Yox, sənə hörmət elədim. İndi, kişi duran yerdə arvad qılınc vurmaz. Mən qılınc vurum, sən tamaşa elə.

Oğlan qabağa düşüb, ac qurd kimi cumdu qoşuna. Qızla o, hərəsi bir tərəfdən qoşunu büküb, tamam sıradan çıxartdılar. Təzədən başladılar getməyə. Qızın atası, qardaşları Xotkarnan qabaqlaşıb, əhvalatdan xəbərdar oldular. Sonra qızın üstünə getdilər. Qız onları tanıdı, Heydərə dedi:

– Dayanmaqdan başqa çarə yoxdu.

Qərəz, ata, qardaşları gəlib çatdılar. Qız dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən qoymaram onlar bizə qılınc çəksinlər. Get, atamdan məni istə, o, mərd adamdı, bəlkə verdi.

Heydər bəy belə də elədi. Gedib qızı atasından istədi. Əhməd tərəkəmə onun günahınnan keçdi, qızını da ona verdi, dedi:

– Sən özünü mənə nişan ver, görüm kimsən?

Oğlan öz-özünə dedi:

– Gəl elə özünü Şah Abbasın oğlu addandır.

Odu ki, dedi:

– Mən Şah Abbasın oğluyam.

Bu danışıqda gördülər sağ tərəfdən bir qoşun gəlir. Özü də bu qoşun Şah Abbasın qoşunudu. Şah Musaxan vəziri beş yüz atlıynan Heydər bəyi axtarmağa göndərmişdi. Bunlar öpüşüb, görüşdülər. Əhməd tərəkəmə soruşdu:

– Bu oğlan kimin oğludu?

Musaxan vəzir də dedi:

– Şah Abbasın oğludu.

Əhməd tərəkəmə bütün bu əhvalatları da yazıb şaha göndərdi. Musaxan vəzir yolda Süsənbər xanıma vuruldu, dedi:

– Hiylə quracam, buları çöldə qoyub gedəcəm. Şaha şərşəbəkə deyəcəm. Sonra qızı özüm alacam.

Musaxan qabaqca gedib şaha dedi:

– Şah sağ olsun, Heydər səni biyabır eləyib, bir cındanın dalına düşüb.

Şah dedi:

– Get, Heydəri bura gətir, amma o cındanı gətirməyin, qovun!

Bəli, gedib Heydər bəyi apardılar şahın yanına, qız qaldı çöldə. Şah dedi:

– Oğul, bəs mənə ceyran əti gətirməyə getmişdin, nə oldu?

Aldı, görək Heydər bəy ona nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm ədalət şahı,[5]
Şahım, məni dərdə salan bir qızdı;
Mürşüdi-kamilim, həm qibləgahım,
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:
– Oğul, bəs başın niyə sarınıb?
Oğlan dedi:

Əcəb etdi, üzdən niqabın atdı,
Camalın görsətdi, günü yubatdı.
Bir qılınca at üstdən yerə atdı,
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:
– O qızı gərək harda olsa tapaq. Qisas alaq.
Heydər bəy dedi:

Bir gül olmaz o güllərin təhrinə,
Lalələr düzmüşdü eşqin qəhrinə,
Xəbər alsan, getdi Kişmir şəhrinə,
Şahım, məni dərdə salan bir qızdı.

Heydər bəyəm, mən köçümü köçürdüm,
Köçürübən mənzilimə yetirdim.
Zəhmət çəkdim, axır onu gətirdim,
Şahım, məni dərdə salan bir qızdı.

Şah dedi:
– Oğul, o qız haradadı?
Oğlan dedi:
– Şəhərin çölündə.
Şah üç nəfər adamtanıyan sərraf çağırdı ki, gedin görün o



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qız necədi. Sərraflar gedəndə Musaxan yolda onlara çatıb dedi:

– O, pəhlivandı, gözəldi. Bir sözüdü dilimə gəlib, demişəm. Sizə flan qədər qızıl verirəm, gedin, siz də şaha mən deyəni deyin.

Sərraflar pula aldanıb, qayıdıb şaha yalan danışdılar, cındırdı, dedilər. Şah qərara gəldi ki, gərək Heydər bəy ölsün. Dar ağacının yanında Heydər bəy dedi:

– İndi ki, günahsız ölürəm, qoyun bir neçə söz deyim. Şah icazə verdi, oğlan aldı, görək nə dedi:

Ay ağalar, bəylər, duran qazılar,
Hayıf oldu mənim Abbasım, hayıf!
Atamı, anamı könlüm arzular,
Hayıf oldu mənim Abbasım, hayıf!

Sinəm üstə şəccarələr bitirdim,
Göz yaşımdan o nubarı yetirdim.
Zəhmət çəkdim, tükən-bazar tikdirdim,
Dağıldı tükənim, bazarım, hayıf!

Heydərəm, deyərəm xannan xan olu,
Qürbət eldə iyid bağrı qan olu,
El içində ölmək şövkət-şan olu,
Qürbət eldə qaldı məzarım, hayıf!

Şah əmr elədi:

– Libasını soyundurun, kəfən geyindirin, sonra asın!

Libasını soyunduranda bazubəndi şah tanıdı, dedi:

– Bu bazubəndi mənim xəzinəmdən aparıblar. Onu gətirin, evdə əhvalatı xəbər alaq.

Heydəri apardılar şahın evinə. Şan evdə ondan soruşdu:

– Bu bazubəndi hardan alıbsan?

Oğlan əhvalatı danışdı. Şah bildi ki, bu öz oğludu, üzündən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

öpüb dedi:

– Oğul, sən niyə gedib bir cında dalına düşdün?

Heydər bəy dedi:

– Ata, səni yəqin aldadıblar. Özün get bax.

Şah qızı gətirtdi. Qız silahlıydı deyin, cəlladlar onun silahını almaq istədikdə qız onları öldürdü. Bu xəbər də şaha çatdı. Şah icazə verdi, qız silahlı gəldi. Pərdə arasından şah qızın kim olduğunu xəbər aldı və tanıdı. Şah qızı sınamaq üçün dedi:

– Bu mənim nökərimdi, niyə ona gəldin? Gəl onu öldürüm, səni özüm alım.

Qız bu yerdə aldı, görək nə dedi:

Sən bir şahsan, dərdimi qansan,[6]
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.
Ədalət sultansan, adil divansan,
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.

Şah dedi:

– Sən yanılıbsan, o nökərdi.

Qız dedi:

Kar istəsəm, Firəngistanı yıxardım,
Dövlət istəsəm, cəm dövlətdən vardım.
Şah istəsəm, mən Xotkara yarıdım,
Gözüm tutub, bir gədayə gəlmişəm.

Şah genə yöntərmək istədikdə dedi:

Fələk Süsənbərə eylədi sitam,
Seyraqublar qoymaz mətləbə çatam.
Mən sənin qızınam, sən mənim atam,
Mən gəlmişəm, Heydər bəyə gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah dedi:

– Sən mənim gəlinimsən, Heydər bəy də oğlumdu.

Qırmızı geyib, əmr elədi ki, Musaxan vəzir və sərraflar sabah meydana çıxsınlar, onlara ənam verəcəm.

Şah onların hamısını öldürtdü. Oğluna qırx gün, qırx gecə toy elədi. Oğlan anasını da gətirdi. Onlar yeyib yerə keçdilər, siz də yeyin, dövrə keçin.

Bir ustad aşıq onların toyunu bu duvaqqapma ilə bağladı:

Bir canan, canlar alan,
Hər gündə bulağa gəlir,
Bir gəlin nazik əlin,
Gül üzün yumağa gəlir.
Bir gülbədən, qonça dəhən
Baxır solu sağa, gəlir.
Bu maral, ahu qəzəl,
Vaxtıdır, oylağa gəlir.
Çox naz edir, pərvaz edir,
Can ona sadağa, gəlir.

Çox dolandım, oda yandım,
Şamlara pərvanə kimi.
Saçı qulac, qaşı qıyqac,
Dişləri dürdanə kimi.
Yusif görsə, hüsnün bilsə,
Gedər ol Kənanə kimi,
Xallar həbəş, camal günəş,
Nurini yaymağa gəlir.

Bari xuda, edim səda,
Ah, mən kimə dad eyləyim?
Çəkim nalə mən bu hala,
Bəs necə fəryad eyləyim?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənan, Kərəm, Fərhad bu dəm.
Qeysi dəxi yad eyləyim.
Ah çəkim, qan-yaş töküm,
Aləmi bərbad eyləyim.
İnsafı yox, kipriyi ox.
Sinəmə vurmağa gəlir.

Bəzənir, həm düzənir,
Gahdan bir əlvan geyinir.
Gözü ala, yanaq lala,
Qəmzələri qan deyinir.
Qəddim kaman, yandım, aman,
Qətlimə fərman, deyinir.
Qarşı çıxır, könlüm yaxır,
Qəzəbli sultan, geyinir,
Sözə yatmır, əlim çatmır,
Qəlbimi qırmağa gəlir.

Ey camaat, ey həzarat,
Yığılın, bu bəhsə gəlin!
Hamı əzəl, geyib gözəl,
Sallanın, dəs-dəsə gəlin!
Halım bilin, şirin gülün,
Tututək həvəsə gəlin!
Ağıl, nə var, qıl elə car,
Bu məclisə səsə gəlin!
Bir pəri dönüb, dönüb bəri
Canımı almağa gəlir!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# SƏLİM ŞAH

## USTADNAMƏ

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdana yaxşıdı.
İyid gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Qəlbi düz olanın evi hac olu,
Qonşuya kəc baxan özü ac olu,
İki arvadlılıq mardan ac olu,
Bez geyirsən bir canana yaxşıdı.

Ələsgər dostundan badə içəndə,
Gəşt eləyib, namərdi seçəndə,
Güzaran xoş olub, gün xoş keçəndə,
Bir sən, bir yar, bir də xana yaxşıdı.

Ustadlar ustadnaməni iki deyərlər, birin də deyək iki olsun.

Bir adam ki, qürbət elə düşəndə,
Adamlar içində əvvəl yad olu,
Yalvarmaq yaxşıdı yenə mövlaya,
Bəndədən bəndəyə nə imdad olu?

Xeyri-şərdə kasıbı yana seçərlər,
Salam verməz, kölgəlikdən keçərlər,
Var günündə gəlib, yeyib içərlər,
Yox günündə qohum, qardaş yad olu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəcəb deyər: dərdi, qəmi bilməyə,
Ağlayanda göz yaşını silməyə,
Darıxanda danışmağa, gülməyə,
Kasıbın dövləti bir arvad olu.

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, babal altında qalmayaq, üç deyək.

Bir adam ki, sənlə dostluq eyləyə,
Bil ki, onun səxavəti yaxşıdı.
Namərd sənə yağlı plov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Sallanbaş adamdan–bir ağır daşdan,
Dəng olduq qulaqdan, kəsildik başdan,
Bədnəzər qonşudan, yaman yoldaşdan,
Qədir bilənlərin iti yaxşıdı.

Dad, həzər eyləmə pərkarsız sazdan,
Al, qurtar başını nəzir-niyazdan,
Güləyən arvaddan, gəzəyən qızdan,
Bazarlarda gəzən lotu yaxşıdı.

Aşıq Əhməd sözü söyləyər sağdan,
Şam yanar piltəsi çəkəndə yağdan,
Çörəksiz otaqdan, meyvəsiz bağdan,
Bizim çəmənlərin otu yaxşıdı.

Yəmən şəhərində Səlim şah adlı ədalətli bir padşah var idi. Bir gün Səlim şah yuxuda gördü ki, bir əjdaha peyda olub, onu taxt-tacı ilə birlikdə uddu. Padşah yuxusunu münəccimlərə yozdurdu. Münəccimlər dedilər:

– Göydən bəla gələcək, taxt-taca sədəmə yetişəcək. Şah-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lığı bir nəfərə tapşır, qırx günlüyə səyahətə çıx, bəla gəlib sovuşsun.

Səlim şah münəccimlərin sözünü eşitdi, yerində xoşu gəlməyən vəzirini qoyub, qırx günlük səyahətə çıxdı. Səlim gedəndən az sonra vəzir xəzinədə olan pulları əyanlara payladı, hiylə sözlərlə camaatı da öz tərəfinə çəkdi. Vaxt oldu Səlim şah səfərdən qayıdıb gəldi. Vəzir taxt-tacı ona vermədi, onu məmləkətdən sürgün elədi. Səlim şah ailəsi ilə bəri-biyabana düşdü, o qədər getdi ki, yoruldu, taqətdən düşdü, bir daşa söykəndi, aldı, görək halına münasib nə dedi:

Halal-hümbət eylə, sənnən gedirik,
Ana vətənimiz, elimiz bizim.
Zimistana döndü növbaharımız,
Soldu çiçəklərim, gülümüz bizim.

Fələk şahinimi əlimdən aldı,
Üzü döndü, məni taxtımdan saldı,
Külli var-dövlətim vəzirə qaldı,
Nə ki var xəznədə pulumuz bizim.

Əli məhəbbəti vardı canımda,
Ayax torpağına axsın qanım da,
Gör kimlər əyləşib xanımanımda,
Üzüldü dostlardan əlimiz bizim.

Qürbətə atıldı bizim daşımız,
Müşkülə düşübdü bütün işimiz,
Hər cürə bəlalar çəkər başımız,
Çətin keçəcəkdi halımız bizim.

Yəmənli Səliməm, qurtarıb sözüm,
Titrəyir dizlərim, ağlayır gözüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə bir zülümə mən necə dözüm?
Kimlər salıx verər yolumuz bizim.

Səlim şah ailəsi ilə yola düşdü, piyada, uzun yolu bir təhər gedib, bir çaya rast gəldilər. Padşah çay keçməyi nə bilirdi? Çaydan keçəndə onun beş yaşlı oğlu Məhəmmədi sel apardı. Səlim şahla arvadı Əfruz nə qədər çalışdılar Məhəmmədi tuta bilmədilər. Səlim şah aldı, ağlaya-ağlaya görək nə dedi:

Xudaya, rəhm eylə, yazığam, mənə,
Apardı Məhəmmədi sular, amandı!
İstəyən dostlarım görsə qan ağlar,
Bilsə düşmənlərim gülər, amandı!

O şah sarayımın uçdu binası,
Çağırram imdada qolsuz Abbası,
Məzlum atasilə yazıq anası,
Dözə bilməz dərdə, ölər, amandı!

Ax, necə yandırdı belə dərd məni,
Rəhm eylə, yazığam, ya Kərəm kanı,
Əliyə əmanət verirəm səni,
Şah Səlim yəmənli deyər amandı!

Səlim şahla arvadı geri qayıdıb, kiçik oğlanları Yəhyanı da görmədilər. Ora Yəhya, bura Yəhya, – ha axtardılar, onu tapmadılar. Baş-gözlərinə döydülər, güman elədilər ki, onu da qurd-quş aparmışdı. Nə qədər meşəni dolandılar, Yəhyanı tapmadılar. Yəhya nə gəzir, elə bil yağlı əppək olub göyə çəkilmişdi. Ta haray hara çatacaq.

Aldı Səlim şah ağlaya-ağlaya görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd getmişdi, Yəhya da getdi,
Zülmnən qırıldı əlim, ay fələk!
Bu fani dünyada nə iş tutmuşam,
Sən mənə eylədin zülüm, ay fələk!

Məhəmməd sağ gözüm, Yəhyaydı gülüm,
Üzüldü bədəndən hər iki qolum,
İlahım bəd gətdi, yatdı iqbalım,
Yaşamaq nə lazım, ölüm, ay fələk!

Dolandı yolumuz, düşdü meşəyə,
Biri suya düşdü, biri vəhşiyə,
Şah Səlim istəməz daha yaşıya,
Əldən getdi cah-cəlalım, ay fələk!

Səlim şah sözünü qurtaran kimi Əfruz xanım götürdü, oğlanlarına görək nə cür layla çaldı:

Bir cüt nocavanım getdi,
Çalım indi qara layla!
Fələk nagəhan sinəmə
Vurdu çarpaz para, layla!

İtibdi iki bülbülüm,
Mənə yaman oldu zülüm,
İnnən belə necə gülüm,
Salım başa qara, layla!

Əldən getdi xanimanım,
Boş qalıbdı dörd bir yanım,
Qan-yaş tökər Əfruz xanım,
Yoxdu dərdə çara, layla!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Getmək istəyəndə aldı Əfruz xanım dubarə görək Səlim şaha nə dedi:

Səlim şah, dərdim tüğyan eylədi,
Belə dərdə dözə bilməm, ağlaram.
Mən bağça bəslədim, barın görmədim,
Belə dərdə dözə bilməm, ağlaram.

Sən mərdanəsən, mən də bir zənana
Başım alıb gedim indi hayana?
Axdı eynim yaşı, döndü ümmana,
Belə dərdə dözə bilməm, ağlaram.

Əfruzun laşəsi yaralı qaldı,
Günbəgün rəngi saralı qaldı,
Elindən, yurdundan aralı qaldı,
Belə dərdə dözə bilməm, ağlaram.

Səlim şah Əfruzu sakit eləməyə çalışdı. Ancaq özünün dərdi daha da artdı. Vətənindən, tac-taxtından ayrıldığı yadına düşdü, götürdü, bu münasibətlə görək nə dedi:

Könül yenə haraları dolanır,
Dad hazar əlindən, aman, ayrılıq!
Qohumdan, qardaşdan üzüldü əlim,
Kəsildi vətəndən güman, ayrılıq!

Qaldı mənim taxtı-tacım, dövlətim,
Zalım fələk zəhərlədi şərbətim.
Şahlığım, hörmətim, şani-şövkətim,
Ölümdən betərsən yaman, ayrılıq!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzir də deyiləm, hanı qullarım?
Bülbüllü bağlarım, açan güllərim?
Yaşılbaş ördəkli durna göllərim?
Səlimi oxladı kaman, ayrılıq!

Yola düşəndə Səlim şah ağlaya-ağlaya Əfruz xanıma dübarə nə deyir:

Əfruz xanım gəlsin gedək,
Qürbət vilayət ellərə.
İnnən belə biz nə edək,
Əldən getdi, bülbüllərə.

Yol başlayaq elə sarı,
Daha çəkmə intizarı;
İtirmişik oğlanları,
Düşmüşük çöldən çöllərə.

Səlimin yatıbdı baxtı,
Əldən verdin tacı-taxtı,
Bir gün olar gələr vaxtı,
Xoş gün gələr könüllərə.

Bunlar yola düşdülər. Az getdilər, çox getdilər. Yolda yorulub oturdular. Mədəd adlı bir ovçu bunların yanına gəldi. Ovçu onlardan haraya, nə üçün getdiklərini soruşdu. Onun cavabında aldı Səlim şah, görək nə dedi:

Biz qərib qonağıq qürbət ölkədə,
Nabələdik yola, izə, a qardaş!
Heç bilmirəm hara getsək yaxşıdı,
Doğru bir yol göstər bizə, a qardaş!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Mədəd Səlim şahın cavabında, dedi:

Haradan gəlirsən, harya gedirsən?
Doğru söylə mənə sözün, a qardaş!
Nabələdlik eyib deyil insana,
Niyə dolur hərdən gözün, a qardaş!

Aldı Səlim şah:

Fələyin kəməndinə ilişibdi,
O el-obamızdan ayrı düşübdü,
İtgin düşüb, qara baxtım çaşıbdı,
Düşmüşdük səhraya, düzə, a qardaş!

Aldı Mədəd:

Tənəzzül fərağına ümid az olu,
Zimistan qəhrinin sonu yaz olu.
Yatan baxtın durar, işin saz olu,
Bir gün gələr gülər üzün, a qardaş!

Aldı Səlim şah:

Yəməndi məkanım, şah Səlim adım.
Hər yandan kəsilib əlac-imdadım.
Bir cüt cavanımı yandırdı odum,
Məni tutub qədir, qəza, a qardaş!

Aldı Mədəd:

Mədədin qəlbinə vurubsan yara,
Yaradan eyləsin dərdinə çara.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəl səni göndərim doğru yollara,
Getməyə tutarmı dizin, a qardaş!

Ovçu Mədəd yolu bunlara salıq verdi. Bunlar yola rəvan olub, bir dağın ətəyinə çıxdılar. Qaranlıq olduğundan orada qalmalı oldular.

Bunlar burada qalmaqda olsunlar, sizə kimdən xəbər verim, bir tacirdən. Tacir, Səlim şahla Əfruz xanımı gördü. Baxdı ki, Əfruz xanımın misli-bərabəri yoxdu. Tacir karvanı bir qədər uzaqlaşdırdı, dayandırdı. Geri qayıdıb, Səlim şahın yanına gəldi, dedi:

– Karvanımızda bir arvad var, çoxdan barihəmlini yerə qoymaq istəyir, ağrı çəkir. Karvanda zənən xeylağı yoxdu. Qoy bu qadını onun yanına aparım, yenə də qaytarıb gətirərəm. Bu da bizim bacımız.

Çox yalvardı, yapışdı, Əfruz xanımın getməsinə Səlim şah razı oldu. Tacir Əfruz xanımı karvana çatdıran kimi, karvanı haylayıb yola düşdü. Səlim şah səhərə qədər Əfruz xanımı gözlədi, Əfruz xanım gəlib çıxmadı. Səhər çox axtardı, aradı Əfruz xanımdan, karvandan nişan tapmadı. Qəmi cövşə gəldi, gözlərinin yaşını tökə-tökə aldı, görək nə deyir:

Yalançı müxənnəs nakəsü namərd,
Aldatdı, apardı yarımı mənim.
Yetiş imdadıma, ya şahi-mərdan,
Qoyma namus-qeyrət, arımı mənim.

Mən oldum ömrünün gülşanı solan,
Təkcə qərib olub qürbətdə qalan,
Loxması qarışıb lütfə gəc olan,
Pozub oğurladı sərimi mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Səlim yəmənli, mən oldum Məcnun,
Dolaşdım dünyanı sanki bir cinun.
Səfeh fələkdən gəlib qara günün,
Artırdıahımı, zarımı mənim.

Səlim şah çox axtardı, tacirdən və Əfruz xanımdan bir əsər tapmadı. Qəmi artdı, götürdü görək fələkdən necə şikayətlənir:

Sənə neyləmişəm, a qanlı fələk,
Qəm-hicrana, ah-zara düşmüşəm.
Ayırdın vətəndən, xanımanımdan,
Çərxi yatıb, baxtı qara düşmüşəm.

Ayrı düşdüm qohum, qardaş, elimdən,
Şahlığım, xəzinəm getdi əlimdən,
Əli adı düşməyəcək dilimdən,
Qürbət elə vara-vara düşmüşəm.

Adım şah Səlimdi, Yəməndi elim,
İnnən belə necə oynuyum, gülüm?
Uçurdum əlimdən qoşa bülbülüm,
Dərd çəkməyə, intizara düşmüşəm.

Səlim şahın əlacı kəsildi. Üz qoydu yol getməyə. Getdi, getdi, ta ki, bir şəhərə çıxdı. Gördü hər tərəfdən camaat şahlıq meydanına tərəf axışıb gedir. Bir nəfərdən soruşdu: bu adamlar niyə meydana toplaşırlar?

Dedilər:

– Bizim vilayətin şahı ölüb, bu gün şahlıq seçkisidi. Elin adətinə görə, dövlət quşu uçurdurlar. Quş kimin başına qonsa, onu padşah qoyurlar. İndi quş uçurdurlar.

Səlim şah da meydana getdi. Quşu uçurdular. Quş gəlib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səlim şahın başına qondu. Səlim şah aldı, görək quşa nə deyir:

Dövlət quşu, gəl incitmə, qəribəm,
Bir kimsənəm yoxdu mənim, ağlaram.
Bu ölkə tanımır, bilmir nəçiyəm,
Vurarlar, tökərlər qanım, ağlaram.

Zalım fələk məni saldı atımdan,
Taxtımdan, tacımdan, səltənətimdən,
Ayrıldım məxluqdan, hər baratımdan,
Əldən getdi xanımanım, ağlaram.

İsmim şah Səlimdi, Yəməndi elim,
Ayrıldı vəzirim, vəkilim, qulum,
Qəm cari eyləyib, qan ağlar dilim,
Artıbdır möhnətim, qəmim, ağlaram.

Əyanlar gəlib gördülər ki, başına quş qonan adam ağlayır. Soruşdular, onun Yəmən şahı olduğunu bildilər. Səlim şah şahlıq taxtında əyləşdi. Əmr elədi yoxsullara əl tutdular, yetimxanalar açdılar. Günlərin bir günü yolda ona rast gələn ovçu Mədəd onun yanına gəldi. Səlim şahın şah olduğunu görüb, şad oldu. Aldı, görək nə dedi:

Qibləgahım, gözəl şahım,
Necə olub yarın sənin?
Oyanıban yatan baxtı,
Açılıb baharın sənin.

Aldı Səlim şah:

Odu vurdun sinəmə sən,
Alışır çiyərim mənim;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Duman yığılıb sərimə,
Qarışıb ruzgarım mənim.

Aldı Mədəd:

Nə dedim, lal olsun dilim,
De, dərdinə dava qılım,
İndisə axtarım, bulum
Gözər vəfadarın sənin.

Aldı Səlim şah:

Piyada yol bizi yordu,
Oturmuşduq, tacir gördü.
Namərd, nakəs yalan qurdu,
Apardı Gülzarım mənim.

Aldı Mədəd:

Mədədəm, könül, yanaram,
Dağlarda daş çaparam,
Göydə olsa mən taparam,
O şah cidarım mənim.

Aldı Səlim şah:

Şah Səlimin çox yarası,
Yoxdu dərmanı, çarası,
Versin ağalar ağası,
İtən oğul, yarım mənim.

İndi sizə kimdən xəbər veim, Səlim şahın oğlanlarından. Böyük oğlu Məhəmmədi bir dəyirmançı sudan xilas etdi, özü-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nə oğulluğa götürdü. Balaca oğlu Yəhya ata-anasını görmədikdə üz biyabana qoydu. Gethaget, bir ovçuya rast gəldi. Ovçu onu öyünə aparıb, oğlulluğa götürdü.

Dəyirmançı və ovçu uşaqları şahın açdırdığı yetimxanaya göndərdilər. Uşaqlar yetimxanada böyüdülər. On dörd-on beş yaşına çatanda şah sarayında işə qəbul olundular. Bunlar burda qalsın, sizə xəbər verim Əfruz xanımdan.

Əfruz xanımı tacir çox incitdisə də ona dil vermədi. Aldı, görək Əfruz tacirə nə dedi:

Zahiri insandı, batini şeytan,
Lənət sənə, çəkil, məndən kənar dur!
Ağlına gələni alma dilinə,
Danışmaynan nahaq qandan, kənar dur!

Sən kişi, mən zənən, sənə ar olsun,
Pozulsun növrağın, tar-mar olsun,
Gərdəninə eninə zülfüqar olsun,
Utangilən şah mərdandan, kənar dur!

Haqdan min bir bəla canına yetsin,
Çatma muradına, çırağın sönsün.
Taxtın şah Səlimin taxtına dönsün,
Əfruz xanımın yanından kənar dur!

Saleh adlı bir sövdəgər Əfruz xanımı tacirin əlindən aldı. Bütün əhvalatı Əfruz xanımdan öyrəndi, Saleh sövdəgər rəhmkar adam idi. Onu Səlim şaha çatdırmağı öhdəsinə götürdü.

Onlar çox ölkə gəzdilər. Səlim şahı tapmadılar. Axırda gəlib Rum şəhərinə çıxdılar. Azuqələri, pulları qurtarmışdı. Əfruz xanım barmağındakı üzüyü çıxardıb, sövdəgərə verdi, dedi:

– Apar bu üzüyü, bazarda sat, azuqə al gətir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Saleh gövdəgər üzüyü hara apardısa, üzüyün qiymətini düzəldə bilən olmadı. Axırda üzüyü Səlim şaha göndərdi ki, xəzinədən üzüyün qiymətini versin. Şahın xəzinədarı üzüyü Səlim şaha göstərdi. Səlim şah sövdəgərə dedi:

– Bu gecə mənə qonaq olarsan. Səhər üzüyün qiymətini verib, səni yola sala bilərəm.

Səlim şah üzüyü tanımışdı. Saleh sövdəgər üzüyün əmanət olduğunu ona söylədi. Yəhya ilə Məhəmməd bu vaxt cəllad idi. Saleh sövdəgər çölə çıxıb, Yəhya ilə Məhəmmədi göndərdi ki, gedib Əfruz xanıma qaraul çəksinlər. Özü isə şahın hüzuruna gəldi. Gecə Səlim şahla Saleh sövdəgər söhbət elədilər. O biri tərəfdən Məhəmmədlə Yəhya gecə qaraul çəkən zaman gördülər ki, yuxu bunları tutacaq. Bir-birinə başlarına gələni qəzavü-qədərdən söhbət eləməyə başladılar:

Aldı Məhəmməd:

Başına döndüyüm, a qul qardaşım,
Əyilib, qırılıb bəylərim mənim.
Qohumsuz, qardaşsız qürbət ölkədə,
Yanıb dəhanımda dillərim mənim.

Aldı Yəhya:

Əzəl şah oğluydum, indi qul oldum,
Var idi nökərim, qullarım mənim.
Elimdən, yurdumdan aralı düşdüm,
Saraldı gülşənim, güllərim mənim.

Aldı Məhəmməd:

Çox bəlalar çəkib tifl ikən canım,
Açma yaralarım, tökülər qanım,
Vəzirə qalıbdı şah xanimanım,
Ayrılıb atamdan əllərim mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Yəhya:

Gün o gün ola mən atamı görəm,
Anasız ürəyim gətirdi vərəm,
Qadiri-sübhanım eyləsin kərəm,
Vəzirə qalmasın pullarım mənim.

Aldı Məhəmməd:

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Gecə-gündüz qardaş deyib ağlıyam,
Məhəmmədəm, şah Səlimin oğluyam,
Yəmən şəhəridi ellərim mənim.

Aldı Yəhya:

Axdı Məhəmmədim, qırıldı belim,
Anam Əfruz xanım, atamdı Səlim.
Öz adım Yəhyadı, Yəməndi elim,
Ağlar günlər keçir hallarım məni.

Əfruz xanım çadırdan bunların söhbətinə qulaq asırdı. Əfruz xanım baxdı ki, bunlar öz oğlanlarıdı. Çox şad oldu, çadırdan çıxdı, oğlanlarının boyunlarını qucaqlayıb, görək nə dedi:

Sizdən üzülmüşdü əllərim mənim,
Şeyda bülbüllərim, qadanız alım!
Ömür gülşanımın solmuşdu tacı,
Açıldı dillərim, qadanız alım!

Şükür kəreminə, həqqi-sübhanım!
Nə günlər çəkibdi yaralı canım;
Məhəmməd dinimdi, Yəhya imanım,
Açıldı dillərim, qadanız alım!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əfruz xanım ölən vaxtı dirildi,
Şükür haqqa, hər muradı verildi.
Ağlamaqdan haldan düşdü, yoruldu,
Bədəndə qollarım, qadanız alım!

Ana oğullarını götürüb çadıra girdi. Qol-boyun olub yatmaqda olsunlar, səhər Saleh sövdəgər gəlib, çadırın kənarında cəlladları görmədi, içəri girəndə gördü qaravul qoyduğu cəlladlar Əfruzla qolboyun olub yatıblar. Sövdəgər tez geri qayıtdı. Cəlladları qolu bağlı hüzura gətirdilər. Şah başladı Məhəmmədi danışdırmağa.

Aldı Səlim şah:

Cavan oğlan, haralısan,
Yerlisənmi, qəribsənmi?
Bağban olub, bağ bəsləyib,
Güllərini dəribsənmi?

Aldı Məhəmməd:

Tökmə gözündən yaşını,
İtirmə ağıl-huşunu,
Qohumunu, qardaşını,
Heç birini görübsənmi?

Aldı Səlim şah:

Açılmaz qabağım-qaşım,
Başımdan dağıldı huşum;
Yoxdu qohumum, qardaşım,
Heç birini görməmişəm.

Aldı Məhəmməd:

Mən qəribəm, gözəl şahım,
Heç elimdə durmamışam,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə bağ, bağça bəsləmişəm,
Nə güllərin dərməmişəm.

Aldı Səlim şah:

Səlim şaham, haqq hakimdi,
Həm loğmandı, həm həkimdi,
Atan kimdi, anan kimdi?
Əlin elə veribsənmi?

Aldı Məhəmməd:

Məhəmmədəm, qara günlü,
Anam ağlar dağ-düyünlü,
Atam şah Səlim Yəmənli,
Qulluğunda qalmamışam.

Səlim şah baxdı ki, bunlar öz oğlanlarıdı. Beyhuş olub yerə yıxıldı. Əfruz xanım oğlanlarını dar ağacının dibində görüb, özünü yetirdi; görək nə aman istədi:

Cəlllad, dəymə, əl saxla mövla eşqinə,
Öldürmə oğlumu, şahım, amandı!
Sındırıb qanadım, qırma qolumu,
Öldürmə oğlumu, şahım, amandı!

Davasız dərdimə heç olmaz çara,
Fələk kamanından ürəyim yara,
And verrəm Əliyə, o Ələmdara,
Öldürmə oğlumu, şahım, amandı!

Məhəmməd, Yəhyadı qanadım, qolum,
Şah Səlim yarıyam, qırılıb belim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adım Əfruz xanım, Yəməndi elim,
Öldürmə oğlumu, şahım, amandı!

Səlim şah səsə ayılıb baxdı ki, amanat hesab etdiyi sevgilisi Əfruz xanımdı. Görüşdülər. Şah Saleh sövdəgərə çoxlu ənam verdi, sarayında saxladı. Taciri tapıb, iki şaqqa vurdurdu, dəyirmançıya, ovçuya çoxlu xələt verdi. Şadlıq məclisi keçirdilər. Şadlıqla ömür keçirib, dövran sürdülər.

Ustad bir aşıq sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu bağladı:

Ey gözəl, surətinə,
Mehri dürəxşan demişəm.
O güli-rüxsarına
Mah ilə taban demişəm.
İncitək dişlərinə
Ləli bədəxşan demişəm.
Qaşların əyməsinə
Naleyi müjgan demişəm.
Zülfüyün hər telinə
Sünbülü reyhan demişəm.
Sərbəsər əndamına
Huriyi qilman demişəm.

Səndə bu şivə nədir?!
Zamana üşşağı, gözəl!
Baxışın cəllad kimi,
Qəmzələrin yağı, gözəl!
Yanaram pərvanətək,
Məclisin çırağı, gözəl!
Təşnəyi-dilsuzinəm,
Sən ol mənə saqi, gözəl!
Doldur, gətir qədəhi
Aşiqi-dövran demişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mərdanə budur sözüm,
Səni sevən candan olur.
Həmişə xəstə yatar,
Taqətdən, amandan olur.
Tərk edən dünyasını
O Şeyxi Sənandan olur.
Səbr etməz, asi düşər,
Dil ilə imandan olur.
Olmasa ilac edən,
Dərdinə dərmandan olur.
Ləblərin gövsərini
Dərdimə dərman demişəm.

Xaliqim xəlq eləmiş
Sən sənəmi göyçək, əziz.
Bəzənmiş ağ üzünü
Güləbətin birçək, əziz.
Ləbində var abi-həyat,
Nuş eyləyib içək əziz.
Rəhmin yoxdu aşiqinə
Haq gözəlsən, göyçək, əziz.
Afərin kamalına
Dəryayi-ümman demişəm.

Çox çəkdim cövrü cəfa,
İncə, nazik belliyə mən.
Müxtəsər nail oldum
Səntək şirin dilliyə mən.
Sallama qaşqabağın,
Yəqin düşdüm çilləyə mən.
Bir vəfalı dost üçün
Özüm verrəm gülləyə mən.
Altmış ilə səkkiz onu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəm elədim əlliyə mən.
Bu hesab içrə sənin
İsminə pünhan demişəm.

Heyif ki, düşdün, əzizim,
Bu cavan cavaxtıma asən.
Gözlərin etməz nəzər–
Didarıma bax, deməsən,
Var necə cavablarım,
Bir-bir deyim, çox demə sən.
Əyər olsa bir yanlışım,
Könlün sınıq haq deməsən.
Padşahım, sahib ol,
Bu tac ilə təxtimə sən.
Görübən ədalətin,
Hökmi-Süleyman demişəm.

Razısan, ay sevdiyim,
Bir əl çəkim qabağına?
Üzünü sürt üzümə,
Dodax vurum dodağına.
Dilimi qələm edib,
Busə yazım yanağına.
Dolanım qamətinə,
Zəkat olum buxağına.
Bircə gəl bizə sarı,
Yıxılım əl-ayağına.
Cumayam, bu canımı,
Yolunda qurban demişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜĞÜM ŞAH

### USTADNAMƏ

Ay həzarat, gəlin sizə söyləyim,
Dünya mənim üçün xalis ambarı.
Sən məni salıbsan Əyyub dərdinə,
Gəl elə dərdimə xalisam barı.

Dağıdıb nananı, oda gedərsən,
Gəl bəri deyərəm, o da gedərsən,
Pərim sən nə üçün oda gedərsən?
Od budu–sinəmdə xalis ambarı.

Eyvanını tikdiribsən qəlbidən,
Sərraf olan dürrü seçər qəlbidən,
Yaslanıbdı, daha çıxmaz qəlbidən,
Bu sınıq könlümdə xalis ambarı.

Meylimi bağladım yar ayağına,
Bayqu məskən saldı yar ayağına,
Abbas, əlin çatsa yar ayağına,
Döşən təmənna qıl xalisam barı.

Ustadlar ustadnaməni bir deməz iki deyər, biz də deyək iki olsun, namərd saralıb solsun.

Qoç iyidi üç şey çəkər qabağa –
Biri sirdaş, biri yoldaş, yaxşı ad.
Bir doğru söz min yalandan yaxşıdı,
İnsaf deyil, mərdi sən namərdə sat.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bədöy mənzilinə hər at yetirməz,
Nanəcibə öyüd versən götürməz,
Ölənədək nişananı itirməz,
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat.

Hüseyn sözün nə gizləyə, nə dana,
Nə yaranar, nə daha doğar ana,
Göhər mətaını açma nadana,
Tök bazara, sərrafına yaxşı sat.

Ustadlar ustadnaməni üç deyər, biz də deyək üç olsun, acgözün gözü doysun.

Öz dostunnan sınan könül, bitməyin layiq deyil,
Qədir bilməz kölgəsində yatmağın layiq deyil.
Bir səməndi saxlayasan ondan bədöy çıxmasa,
Onu dosta tərif edib, satmağın layiq deyil.

Bir qətrə sudan yaranıb bu cahana gələnlər,
Dolanıb xeyrü-şəri, yaxşı, yaman bilənlər,
Bir ustada qulluq edib, ondan dərsin alanlar,
Təklifsiz bir məclisə getməyin layiq deyil.

Nəcəf deyər: yaxşılıq et, yoldaş, etmə pis deyə,
Dərdin demə, dərman olmaz, hər nadansa, kəs deyə,
Bir yerə ki, varid oldun hamı başla istəyə,
O məclisdə acı söhbət qatmağın layiq deyil.

Keçmişdə Qəndahar şəhərində Aslan adda bir şah var idi. Onun vəziri öz qardaşı Əhməd idi. Günlərin birində Aslan şahın bir oğlu dünyaya gəldi, adını qoydular Müğüm. Ondan bir il sonra Əhməd vəzirin də bir oğlu oldu, adını qoydular Məhəmməd. Uşaqlar səkkiz yaşa çatanda onları molla yanına qoy-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dular. Molla hüvəlfətta-hül-əlimdən başladı dərs deməyə. Bunlar molladan beş il dərs aldılar. Aslan şah dedi:

– Ay Molla, bilirsən nə var? Oxuyan uşaqlarımızın səbəbinə yetim-yesir uşaqları da yığarsan, pulsuz oxuyarlar. Onlardan haq-zad almazsan. Onun əvəzində mən sana çox ənam verəcəm.

Günlər dolandı, aylar dolandı, vaxt gəlib altıncı ilə keçdi. Molla Müğüm şahnan Məhəmmədə çox fikir verirdi ki, onnar oxusun, kamala yetsin. Altıncı ilin yarısında Aslan şah mollanı evinə çağırdı, münasib adamları da topladı. Camaat yeyib, içib dağılandan sonra mollaya dedi:

– Molla, qal, sana bir sözüm var. Uşaqların ikisini də yoxlayarsan. Hansı yaxşı oxuyur, kamallıdı, mana deyərsən.

Molla dedi:

– Yaxşı.

Molla sabahı məktəbə getdi. Dərsin yarısında uşaqlara rüsxət verdi ki, gedib yarım saat gəzsinlər. Uşaqlar gəzməyə gedəndə molla bir kərpic Müğüm şahın yastığının altına, bir kağız da Məhəmmədin yastığının altına qoydu. Uşaqlar qayıtdılar, başladılar dərs oxumağa. Amma Müğüm şah yastığın altında kərpic olduğunu bilmədi. Məhəmməd bir yuxarı baxdı, boylandı. Molla bunnara fikir verirdi. Gördü Müğüm şah öz işindədi. Amma Məhəmməd oxumur. Molla soruşdu:

– Niyə rahat oxumursan?

Məhəmməd dedi:

– Molla əmi, ya yer bir təbəqə yuxarı qalxıbdı, ya da göy bir təbəqə aşağı yenibdi.

Molla dedi:

– Ay oğul, bu nə sözdü danışırsan? Necə yəni yer qalxıb, göy yenib?

Məhəmməd dedi:

– Molla əmi, yer bayaqkı kimi deyil, dəyişibdi.

Molla çəkib Məhəmmədin üzündən öpdü, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, doğru deyirsən.

Molla bu sözü yadında saxladı. Bir gün Aslan şah mollanı çağırdı ki:

– Uşaqların hansı kamallıdı?

Molla dedi:

– Sənin oğlun bir şey qanan deyil. Amma Məhəmməd çox kamallıdı. Sən yüsəbbəhidən deyirsən, o yasindən xəbər verir. Mən onun yasdığının altına bir kağız qoydum, bildi.

Söz yayılan şeydi. Bu söz hər tərəfə yayıldı. Müğüm şah çox kefsiz oldu. Həmişə qəmgin dolandı. Oydu ki, bir günnəri yenə uşaqlara istirahət verdilər. Cümə günü idi. Uşaqlar Müğüm şahla güllü bağda gəzirdilər, ancaq Müğüm şahın heç halı üstündə döyüldü. Müğüm şah bir sərv ağacının dibində fikirdəydi. Bunu qəm yuxusu tutdu. Bu qəm yuxusunda qaldı. Uşaqlar dağılıb getdilər. Bunun üstünə kim gəldi? – Darda qalanların dadına çatan Xızr peyğəmbər. Xızr peyğəmbər ona dedi:

– Oğul, nə yatıbsan, bir gözünü aç!

Müğüm şah gözünü açdı. Xızr dedi:

– Məni tanıyırsanmı? Mən müşkül işləri düzəldənəm.

Əlində bir piyala Müğüm şahın qabağına tutdu, dedi:

– Oğul, al bu piyalanı iç!

Müğüm şah dedi:

– Ağa, o suyu bizə haram buyurublar.

Xızr dedi:

– Oğul, bu sən deyən sudan deyil. Bu su Leylini Məcnuna, Fərhadı Şirinə, Arzunu Qəmbərə, Şahsənəmi Qəribə, Əslini Kərəmə yetirən sudandı.

Müğüm şah suyu aldı. Xızr dedi:

– Bu suyu sana verərəm bir allahın eşqinə, yüz iyirmi dörd min peyğəmbərin eşqinə. Ondan da Xanbalıq şəhərində Fətəli xanın qızı Gülşad xanımın eşqinə. Onu sana buta gətirərəm, səni də ona.

Bu sözdən sonra Müğüm şah camı başına çəkib içdi. Xızr



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dedi:

– Oğul, sana bu su əsər eləyirmi?

Dedi:

– Eləyir.

Xızr barmağını yuxarı qaldırıb dedi:

– Oğul, nə görürsən?

Müğüm şah dedi:

– Bir böyük şəhər görürəm.

Xızr dedi:

– Oğul, şəhərdə nə görürsən?

Müğüm şah dedi:

– Yeddi mərtəbə bir otaq görürəm, hər tərəfi şüşəbənd.

Xızr dedi:

– İmarətdə nə görürsən?

Müğüm şah dedi:

– İmarətdə küləfirəngidə bir qız görürəm. Bulud kimi saçlarını darayıb üzünə töküb. Elə bil ay buluddan çıxıb.

Xızr dedi:

– O tərəfdəki kimdi?

Müğüm belə baxanda gördü dərviş-zad yoxdu. Müğüm şah özündən gedib yerə yıxıldı. Toran çalıb, şər vaxtı olanda baxdılar ki, Müğüm şah yoxdu. Axşam oldu, əl-ayaq yığışdı. Axşam olanda Aslan şah uşaqları çağırıb dizinin dibində oturdardı. Odu ki, Məhəmməddən soruşdu:

– Qardaşın necə oldu?

Məhəmməd dedi:

– Güllü bağda oynuyurduq, bir də gördüm yoxdu, elə bildim öyə gəlibdi. İndi görürəm öydə də yoxdu.

Durdular, töküldülər güllü bağa ki, görsünlər Müğüm şah necə olub? Sərv ağacının dibində Müğüm şahı tapdılar. Götürüb öyə gətirdilər. Qonum-qonşu, qohum-qardaş yığıldı başına. Mollalar gəldilər, baxdılar, onun dərdini tapmadılar. Dünyagörmüş qarıları yığdılar. Bir iman-quran qarı var idi. Görən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi dedi:

– Buna ağası buta verib. İki gün yatar, üçüncü günü qalxıb nə mətləbi olsa sizə deyəcək.

Anası onun başını alıb dizinin üstünə, üç gün gözlədi. Üçüncü günü Müğüm şah gözünü açdı. Baxdı gördü ki, başının altında bir cam, bir quran, bir də bir saz var. Bunları qarı demişdi, başının altına qoymuşdular. Müğüm şah gördü hamı yanına yığılıb. Aslan şah dedi:

– Oğul, sənə nə olub?

Müğüm şah başını aşağı saldı, gözlərinin yaşını tökməyə başladı. Bir kəlmə də danışmadı. Yığılan adamlar ona dedilər:

– Oğul, dilini aç, bir söz söylə, görək sana nə oldu? Niyə ağlayırsan?

Müğüm şah sazı götürdü, zilini zil elədi, bəmini bəm. Sinəsinə basıb, görək nə deyir; oturanlardan nə soruşur?

Həqiqət danışıb məclisə girən,
Əvvəl həqiqəti deyən kim oldu?
Nə qədərdi yernən göyün arası,
Dünya nə üstündə sərəncam oldu?

Nə üçün yarandı ləlinən gövhər?
Nədən xəlq olubdu cisminən cövhər?
Nəyinən hörülüb bərrühi-zövhər?
Kimlər oturuban xoşqədəm oldu?

Tacı-sərin neçə əsmər qulu var?
Yerdən göyə neçə yerdən yolu var?
Cavabı verməyə kimin dili var?
Kimlər cavab verdi, kimlər xəm oldu?

O nədi ki, yetmiş iki başı var?
O nəynən hörüldü, nədən daşı var?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Laşərikin neçə sirdaşı var?
Bilməyən ustaya Müğüm şərm oldu.

Atasıynan anası baxdılar ki, Müğüm şahınkı vergidi. Adamlar onu dəli hesab edib, dağılıb hərə öz öyünə getdi. Amma əmisi oğlu Məhəmməd dedi:

– Qardaş, sən hara getsən, mən də gedəcəm.

Müğüm şah dedi:

– Yox, sən getmə, mənim başıma çox bəlalar gələcək. Sənin başın niyə bəla çəksin?

Məhəmməd əl çəkmədi, dedi:

– Olmaz, mən də gedəcəyəm. Sənin başın nə bəla çəkərsə qoy mənim başım da çəksin.

Üstünüzə xeyirli sabahlar açılsın. Sabah açıldı. Məhəmmədnən Müğüm şah iki at çəkib mindilər. Hər ikisi ata suvar olanda anası qabağını kəsib, görək nə dedi:

Əzzim oğul, gözüm oğul,
Oğul, gəl getmə, qoymaram!
Sana qurban özüm, oğul,
Oğul, gəl getmə, qoymaram!

Aldı Müğüm şah:

Əzzim ana, gözüm ana,
Halal eylə, hümbət eylə!
Sana qurban özüm, ana!
Halal eylə, hümbət eylə!

Aldı anası:

Oğul, olsa səyahətin,
Haqqa bağla etiqadın,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məndən kəsmə məhəbbətin,
Oğul, gəl getmə, qoymaram!

Aldı Müğüm şah:

Neçə sözlərin dildədi,
Seyrağıb sağı-soldadı,
Yarımın gözü yoldadı,
Halal eylə, hümbət eylə!

Aldı anası:

Sən çəkməynən bu tufanı,
Viran qoyma xanimanı,
Sana qurban anan Banı,
Oğul, gəl getmə, qoymaram!

Aldı Müğüm şah:

Mən Müğüməm, mindim ata,
Ağam veribdi baratı,
Döşündən əmdiyim südü,
Halal eylə, hümbət eylə!

Halal-hümbət eləyib düşdülər yola. Atası divanxanadan gələndə ona xəbər verdilər ki, Müğüm şahla Məhəmməd atlanıb getdi. Atası arvadını danladı, arvad ağladı. Aslan şah dedi:

– Məndən ki, icazəsiz gedib, bu gündən sonra mən onu axtaran deyiləm.

Bu söz anasına çox təsir eləməkdə olsun, Müğüm şahla Məhəmməd az gedib, çox gedib, günə bir mənzil, teyyi-mənazil getməkdə olsunlar, sizə xəbəri Gülşaddan deyim. Necə ki, Gülşadı Müğüm şaha buta vermişdilər, eləcə də qıza Mü-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ğüm şahı buta vermişdilər. Qız yol gözləyirdi. Deyirdi ki, Müğüm şahı görsəydim, ölsəydim də ahı-zarım olmazdı.

Felatda Məhəmməd bəy adlı on səkkiz, on doqquz yaşlı bir oğlan var idi. Başında da dəliləri, çox vuran-tutan bir oğlan idi. Gülşad xanıma bunun da gözü düşmüşdü. Məhəmməd bəy qızın atasına deyirdi:

– Versən allah əmriynən, verməsən zornan qızın Gülşadı alacağam.

Bunun qorxusundan qızı ona verməyə razı olmuşdular. Amma qız razı deyildi. Yanında bir zəhər şüşəsi saxlamışdı ki, əgər onu Məhəmməd bəyə versələr, özünü öldürsün. Bəli, vaxt gəldi, qızın toyun Məhəmməd bəyə eləməyə başladılar. Qızın əlacı kəsilib dedi:

– Qırx gün toy eləyin!

Fikri bu idi ki, qırx günə Müğüm şah gəlib çıxa. Bir gün qız qızlarnan səyahətə çıxdı. Gördü yolun qırağına bir karvan tökülüb. Qız dedi:

– Qızlar, siz burada durun, gedim görüm o karvan hara gedəcək?

Qız karvanın yanına getdi. Tacirin adı Xoca Sənhan idi. Sənhan qızı yanına çağırıb dedi:

– Qızım, mətləbin nədi?

Aldı qız, görək ona nə dedi:

Başına döndüyüm, ay Xoca Sənhan,
Müğüm şaha deynən dərdi-dilimi.
Atamdan, anamdan mən gəldim pünhan,
Müğüm şaha deynən dərdi-dilimi.

Yatmışdım, yuxumda badə verdilər,
Bir dərdimi min ziyada verdilər,
Zor əliynən məni yada verdilər,
Müğüm şaha deynən dərdi-dilimi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən Gülşadam, dərdi-dilim bil mənim,
Ağlayıram, çeşmim yaşın sil mənim,
Qiyamətdə ətək sənin, əl mənim,
Müğüm şaha deynən dərdi-dilimi.

Xoca Sənhan karvanı yüklədib, yola düşdü. Gedib Aslan şahın torpağına çıxdılar. Müğüm şahla Məhəmməd gəlib bunların üstünə çıxdı. Tacir baxdı ki, iki gözəl oğlandı. Soruşdu:

– Oğul, hardan gəlib, hara gedənsiniz?

Müğüm şah aldı, görək nə dedi:

Başına döndüyüm, gül üzlü Xoca,
Xocam, bu yol Xanbalığa gedirmi?
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Xocam, bu yol Xanbalığa gedirmi?

Aldı Xoca Sənhan cavabında dedi:

Başına döndüyüm, gül üzlü oğul,
Oğul, bu yol Xanbalığın yoludu,
Sana yedirərəm qəndnən noğul,
Oğul, bu yol Xanbalığın yoludu.

Aldı Müğüm şah:

Hərdən danışırsan, hərdən gülürsən,
Yaylıq alıb, çeşmim yaşın silirsən,
Yük bağlayıb hansı yerdən gəlirsən?
Xocam, bu yol Xanbalığa gedirmi?

Aldı Sənhan:

Hərdən danışıram, hərdən gülürəm,
Yaylıq alıb çeşmim yaşın silirəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yük bağlayıb Xanbalığdan gəlirəm,
Oğul, bu yol Xanbalığın yoludu.

Aldı Müğüm şah:

Mən Müğüməm, keçdim küllü varımdan,
Namusumdan, qeyrətimdən, arımdan,
Bir xəbər ver mana Gülşad yarımdan,
Xocam, bu yol Xanbalığa gedirmi?

Aldı Sənhan:

Xoca Sənhan bağça-bar deyin əsir,
Heyvalar titrəyir, nar deyin əsir,
Gülşad da Müğümə yar deyin əsir,
Oğul, bu yol Xanbalığın yoludu.

Uşaqlar Xocaynan əltəmən eləyib ayrıldılar. O vaxt yetişdilər Xanbalığa ki, gördülər bir qarı təzək yığır. Müğüm şah dedi:

– Nənə, bu gecə bizi qonaq saxlarsanmı?

Qarı dedi:

– Allaha da qurban olum, qonağına da. Ancaq yeməyə bir şeyim yoxdu.

Müğüm şah qarının əlinə bir çəngə qızıl basdı, dedi:

– Nənə, götür, hər nə lazımdı al, gətir!

Qarı bunları öyünə apardı. Bazara çıxdı, bunnara yemək-içmək, hər nə lazımdı aldı. Məhəmməd dedi:

– Qardaş, mən hər nə desəm sən dinmə.

Müğüm şah dedi:

– Baş üstə!

Məhəmməd qarının qılığına girdi, dedi:

– Qarı nənə, Fətəli xanın qızı Gülşad xanımı tanıyırsanmı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı dedi:

– Tanıyıram, bacım qızıdı, özü də toyunun şirin yeridi.

Məhəmməd dedi:

– Nə təhər eləyək onu biznən görüşdürəsən?

Qarı dedi:

– Mənim qızım onun yanında olur. Nə vaxt istəsən görüşdürə bilərəm.

Qarı sabahnan Müğüm şahın üzüyünü də götürdü, gedib qızla görüşdü. Əhvalatı ona danışdı. Qız dedi:

– Aman nənə, onu mənlə görüşdür!

Qarı geri qayıtdı, əhvalatı Müğüm şaha söylədi. Məhəmməd dedi:

– Mən gedib qıznan görüşərəm. Sən getsən özünü bildirəcəksən.

Qarı Məhəmmədə qız paltarı geyindirdi, yanına salıb toy məclisinə apardı. Məhəmməd qızlara qarışdı. Fürsət tapıb, özünü Gülşada tanış verdi. Gecənin bir zamanında Gülşad xanım qızları dağıtdı ki:

– Siz gedin, mənim əziz qonağım var, qoyun rahat eləyim.

Hamı dağılıb getdi. Qaldılar qız, qarı, bir də Məhəmməd. Qız elə bilirdi bu, Müğüm şahdı. İki yer saldı. Birini özü ilə Məhəmmədə, birini də qarıya. Məhəmməd soyunub yerinə girdi. Qarı da yatdı. Qız soyunub yerinə girəndə gördü ki, oğlan araya bir qılınc qoyub, götürdü, görək nə dedi:

Başına döndüyüm ay qarı nənə,
Bu nədi, araya gəldi pıçaqlar?!
Şirin növrağımda, yatdığım yerdə,
Qara bağrım dələr oldu pıçaqlar?!

Bilmirəm sizlərdə bu nə adətdi,
Evdəki qonağa hörmət-izzətdi;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu yatan deyəsən qul Məhəmməddi,
Onu gətir, bunu apar bu çağlar.

Mənim bu dərdimi bilən kim oldu?
Gül kimi saralıb solan kim oldu?
Gülşadın cavabın alan kim oldu,
Sən deyirdin Müğüm gəldi bu çağlar.

Məhəmməd əhvalatı qıza söylədi. Qız əhvalatı biləndən sonra şad oldu. Gecə gəlib keçdi. Səhər tezdən qarı durub, Məhəmmədi götürüb apardı. Özü də qıza tapşırdı ki, mən gə-lincə başını heç kəsə bəzətməzsən. Qarı gedəndən sonra kimi gətirdilərsə qız başını bəzəməyə razı olmadı, heç kəsi yaxın qoymadı. Şəhərdə adam qalmadı, hamısı gəldi. Qız dedi:

– Gərək flan qarı gəlsin.

Gedib Gülsəfa qarını gətirdilər. Qarı qızın başını bəzədi, öz ağırlığında ona qızıl verdilər. Qarı dedi:

– Gərək gəlini qəbristanlıqdan keçirəsiniz. Bacımın üstün-də bir az ağlıyam, xeyir-dua verim, gəlinin qədəmi mübarək olsun.

O biri tərəfdən Müğüm şaha, Məhəmmədə xəbər verdi ki:

– Qəbristanlığa gəlin. Orada gizlənin, gəlini götürüb gedin.

Məhəmməd qız paltarında gedib qabristanlıqda günbəzdə gizləndi. Bir də baxdı ki, budu, gəlini gətirirlər. Qarı başladı ağlamağa, dedilər:

– Niyə ağlayırsan?

Qarı dedi:

– Bacım vəsiyyət eləyib ki, qızım ərə gedəndə mənim qəbrimin üstünə gəlsin.

Kəcavəni qəbrin üstünə sürdülər. Qızı kəcavədən endir-dilər. Qarı qızı günbəzə apardı. Qızın paltarını tez soyundurub Məhəmmədə geydirdi. Məhəmmədi aparıb kəcavəyə qoyub dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gedin!

Bunlar getməkdə olsun, o biri tərəfdən qarı Gülşadı günbəzdən qaytarıb, Müğüm şahın yanına gətirdi. Qız gələndə Müğüm şah götürdü, görək nə dedi:

Ala gözlü mehribanım,
Səfa gəldin, səfa gəldin!
Sənə qurban şirin canım,
Səfa gəldin, səfa gəldin!

Aldı qız cavabında:

Sana deyim, cavan yarım,
Səni saldım yada, gəldim!
Sana qurban küllü varım,
Səni saldım yada, gəldim!

Aldı Müğüm şah:

Dərin dəryanı boyladın,
Gəldin burda nə söylədin?
Qul Məhəmmədi neylədin?
Mana verdin şəfa, gəldin!

Aldı qız:

Mana vermə əziyyəti,
Haqqın bu imiş mərhəmətin,
Dediyin qul Məhəmmədi,
Verdim sənə fəda, gəldim!

Aldı Müğüm şah:

Müğümə görükmə bu gündən,
Sinəmə çəkdin düyündən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İt get gözümün öyündən.
Mana vermə cəfa, gəldin!

Aldı qız:

Xudam eylər dərdə dərman,
Mən söz deyim, sən sözüm qan;
Sana qurban olsun Gülşad,
Sən sürgünən səfa, gəldim!

Bunlar burada qalmaqda olsun, kəcavəni apardılar Məhəmməd bəyin öyünə. Qız paltarında olan Məhəmmədi gərdəyin dalına qoydular. Məhəmməd dedi:

– Qırx gün oğlan mənim yanıma gəlməməlidi, anamın qırx gün yasını saxlayacağam.

Məhəmməd bəyə dedilər. Məhəmməd bəy razı oldu, amma bacısı Səlbi xanıma dedi:

– Gəlin ilə həmişə bir yerdə olarsan. Qırx gün ondan ayrı durmazsan.

Səlbi xanım başladı gəlinin yanında qalmağa, gəlin də ki, Məhəmməd.

Bir gün, beş gün, Məhəmmədin Səlbi xanımdan xoşu gəldi. Bir beş gün də keçdi, Məhəmməd bir ürəkdən min ürəyə vuruldu Səlbi xanıma. Bir beş gün də belə keçdi. Axırda Məhəmməd dözə bilməyib, əhvalatı açıb Səlbi xanıma dedi. Səlbi xanım baxdı ki, gəlin bir gözəl oğlan imiş.

Bir gün anası baxıb gördü ki, Səlbinin üz-gözünə ləkə düşüb. Dedi:

– Ay qız, sənin günün qara olsun, arvad kimi üzünə ləkə düşüb, bu nə əhvalatdı?

Qız dedi:

– Ay ana, mən gəlinin yanından hara gedirəm ki, üzümə ləkə düşsün?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səlbi anasının əlindən bir təhər qurtararaq özünü saldı Məhəmmədin yanına. Baxdı ki, Məhəmməd yatıb. Qız götürdü, görək Məhəmməd yatdığı yerdə ona nə dedi:

Xab içində yatan oğlan,
Dur, yatmağın çağı deyil.
Dərdü qəmə batan oğlan,
Dur, yatmağın çağı deyil.

Xanbalıqdan gələn kişi,
Allah kəssin belə işi,
Özü erkək, donu dişi,
Dur, yatmağın çağı deyil.

Ay uca dağların qarı,
Təzə bağçaların barı,
Qardaşımın erkək yarı,
Dur, yatmağın çağı deyil.

Məhəmməd ona fikir verirdi. Qız aldı gerisini:

Xanbalıqdan gələn çapar,
Sınıq könülləri yapar,
Qardaşım birin də tapar,
Dur, yatmağın çağı deyil.

A beymürvət çıxdı canım,
Müjganların tökür qanım,
Sana qurban Səlbi xanım,
Dur, yatmağın çağı deyil.

Məhəmməd ayılıb qalxdı. Səlbi xanım əhvalatı ona söylədi. Sonra gedib, toyladan iki at çəkdi, hər ikisi suvar olub,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yola düşdülər. Bir qədər gedəndən sonra qız fikirləşdi: «Ey dili-qafil, mən hara gedirəm? Bəlkə bu bir avara adamdı». Qız atının başını çəkib, başladı ağlamağa. Məhəmməd aldı, görək Səlbi xanıma nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Ala gözlü Səlbi xanım, ağlama!
Alışıb oduna büryan olduğum,
Ala gözlü Səlbi xanım, ağlama!

Nə baxırsan yenə maral baxışlı,
Əli əlvan, dizi bəzək naxışlı,
Qızıl tutmacalı, xurmayı saçlı,
Ala gözlü Səlbi xanım, ağlama!

Uca dağlar Məhəmmədə daldadı,
Seyrağıb yığılıb sağı-soldadı,
Müğüm şahın indi gözü yoldadı,
Ona qurban şirin canım, ağlama!

Söz qurtardı. Səlbi xanım gördü, yox, səhv eləyib, yola düşdülər. Xanbalıq şəhərinin yaxınlığında Fətəli xanın çobanı gördü ki, bir oğlan gedir, yanında da bir gözəl nazənin. Çoban bunların qabağına çıxıb, yolu kəsdi, dedi:

– Hardan gəlirsiniz, haraya gedirsiniz?

Dedilər:

– Xanbalığa gedirik.

Çoban istədi əlini Səlbi xanımın telinə çəksin. Məhəmməd gördü çoban zırının biridi, heç qanmır. Götürdü, görək çobana nə dedi:

Başına döndüyüm, elin çobanı,
Çoban, incitməynən məni, mən gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heç çəkilmir bu könlümün dumanı,
Çoban, incitməynən məni, mən gedim.

Biz də gəldik Xanbalığın elinə,
Əl vurmaynan sonam Səlbi telinə,
Peyğəmbər eşqinə, allah yoluna,
Çoban, incitməynən məni, mən gedim.

Bir dərd bilən yoxdu dərdim ağlayam,
Qürbət eldə düyünlüyəm, dağlıyam,
Məhəmmədəm, Əhməd vəzir oğluyam,
Çoban, incitməynən məni, mən gedim.

Çoban dedi:
– Olmaya sən qız yerinə köçürülən oğlansan?
Məhəmməd dedi:
– Bəli.
Çoban dedi:
– Tez rədd ol başımdan, Fətəli xan bilib nəslimi kəsər.
Gecənin yarısında getdilər qarının darvazasının dalında dayandılar. Nə qədər çağırdılar, bunlara cavab verən olmadı. Götürdü, görək Məhəmməd darvazanın dalından nə dedi:

Ay həzarat, gəlin sizə söyləyim,
Yar ucundan atılmışam nara mən.
Deyirlər hər dərdə dərman bulunmaz,
Eləmişəm bu dərdimə çara mən.

Yüklənibdi qəflə, qatır, ulaxlar,
Suyu sərin, daşı mərcan bulaxlar,
Ha cağırıram, heç eşitmir qulaxlar,
Axır cağda ürcah oldum kara mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay ağalar, sinəm üstü yaradı,
Kor taleyim mənim nə sitaradı?
Deyirlər Məhəmmədin baxdı qaradı,
Xan Səlbiyi keçirmişəm tora mən.

Qarı bunların səsini eşitdi, tez darvazayı açdı, Məhəmmədin üz-gözündən öpdü. Bunları içəri apardı. Müğüm şahı da oyatdı. Görüşdülər, öpüşdülər, şad oldular. Məhəmməd baxdı ki, Müğüm şah ondan çox inciyib, onu dindirmək istəmir. Aldı təcnis havasında görək nə dedi:

Beybafa dünyadan, qohum-qardaşdan,
İnciyən varmı heç mənim kimi.
Yaz bu sözlərimi dəftərə başdan,
Əcəl şərbətini iç mənim kimi.

Bu vəsiyyətimi yadda saxla sən,
Etiqadın bir allaha bağla sən,
Tərəqqidə tənəzzülə ağla sən,
Axıt gözlərindən yaş mənim kimi.

Qəza kəməndinə salanda məni,
Bədbəxtlik üz verib alanda məni,
Qüdrət dəftərindən siləndə məni,
Məhəmmədə ver sən baş mənim kimi.

Söz tamam oldu. Müğüm Məhəmmədnən barışdı. Qarı dedi:

– Durun, buradan gedin. Məhəmməd bəy gəlib mənim evimi yıxar.

Bunlar getməyə bina qoysunlar, sizə xəbər verim Aslan şahın arvadı Banı xanımdan.

Banı xanım aləmi-vaqyada gördü ki, oğlu bir dəryaya dü-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şüb, hayana çabalayır, bir yana çıxa bilmir. Yerindən qalxdı, ağlaya-ağlaya görək nə dedi:

Şah, taci-taxtına nə qul olubsan?
Söylə görüm, tacü taxtım necoldu?
Bilmirəm ki, nə xəyala dalıbsan,
Söylə görüm, tacü taxtım necoldu?

Bir səda alıban xəbər bilmədin,
Bənna olub sınıq könlüm hörmədin.
Bir bağ saldın, qonça gülün dərmədin,
Can içində şirin canım necoldu?

Yaşılı tökübən qara bağlaram,
Sinəm üstün çarlı-çarpaz dağlaram,
Mən Banıyam, gecə-gündüz ağlaram,
Müğüm kimi nocavanım necoldu?

Aslan şah hökm elədi. Qoşun Xanbalıq şəhərinə tərəf yol başladı. Xanbalıqnan Qəndəharın arasında bir qalaça var idi. Bunlar qalaçaya, Məhəmməd bəyin qoşunu da qalaçaya yetirməkdə olsun. Müğümnən Məhəmməd də özlərini qalaçaya verdilər. O qoşun o tərəfdən, bu qoşun bu tərəfdən qalaçanı araya aldılar. Aslan şahın qoşunu qalaçaya girib, Məhəmmədnən Müğüm şahı gördülər. Aslan şah dedi:

– Niyə bizə xəbər vermirdiniz?

Aldı Müğüm şah cavabında:

Başına döndüyüm ədalət şahım,
Nə üçün kəsilib yollarım mənim?
Əzəlindən bülbül kimi ötürdüm,
Lal olub danışmır dillərim mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəl yetiş dadıma, ey şahi-kübar,
Sana qurban olsun gözləri xumar,
Oxunmamış, əldə ərzi-halım var,
Oxusan bilərsən hallarım mənim.

Dərd bilən olmadı dərdim ağlıyam,
Zülm ucundan düyünlüyəm, dağlıyam,
Mən Müğüməm, Aslan şahın oğluyam,
Qəndəhar təki var ellərim mənim.

İşdən hali oldular. Bildilər ki, Məhəmməd bəyin qoşunu onları tutmağa gəlib. Aslan şahın qoşunu Məhəmməd bəyin qoşununu dağıtdı, Məhəmməd bəyi də diri tutdu. Məhəmməd bəy əhvalatı onlara söylədi. Aslan şah Məhəmməd bəyin günahından keçdi, öz qızını da ona verdi. Təzədən şadyanalıq keçirdilər, hər üçü qırx gün, qırx gecə toy elədilər, mən də gəlib çıxdım, toyun duvaqqapmasını oxudum:

Qədəm basıb qulluğuna,
Gəlmişik sizə, qaraqaş!
Vətənsiz qərib sayılır,
Qulluq et bizə, qaraqaş!
Bəzənib al yaşıldan,
Geyibsən təzə, qaraqaş!
Əl saxla, ürbəndini
Çəkməynən üzə, qaraqaş!
Aşıq sana tərif deyir,
Fikir ver sözə, qaraqaş!

Behiştin bir qəsridi,
Otağın sana yaraşır.
Hər yanda on dörd hörük,
Zülfün gərdənə yaraşır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Küsmüsən, gəl barışaq,
Qolların boynumdan aşır,
Camalını görənlərin
Huş gedir, xəyalı çaşır.
        Heç kim sana tay tapammaz,
        Yüz il də gəzə, qaraqaş!

Açılıb yaxan bəndi,
Dağların qarı səndədi.
Xəstələrə şəfa verən,
Behiştin narı səndədi.
Yoxsullar həsrət çəkir,
Dünyanın varı səndədi.
Zəyəmli Aşıq Orucun,
Kull ixtiyarı səndədi.
        Qəvvas olan dəryalarda
        İstəyir üzə, qaraqaş!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ƏMRAH

### USTADNAMƏ

Səhər tezdən əzmi-gülşən elədim,
Qəm məni çulğadı, ay hayıf-hayıf!
        Aşıq deyər ay hayıf,
        Kimlər oldu ay hayıf,
        Sən ilə mən sevişdim,
        Ayrı düşdüm, ay hayıf!
Bağban oldum, bağ bəslədim çifayda,
Dərmədim gülünü, ay hayıf-hayıf!

Sərrafın dəstində nə danə gördüm,
Mürğün dəhanında nə danə gördüm,
        Aşıq nə danə gördüm,
        Xalın nə danə gördüm,
        Tülək tərlan qismət oldu,
        Axır nadanə gördüm.
Ləli tapşırdılar nadanə gördüm,
Qiymətin bilmədi, ay hayıf-hayıf!

Oxudum dərsimi, çıxdım yasinə,
İyid olan ixlas bağlar yasına.
        Aşıq deyər yasinə,
        Rəqib, gərdan, ya sinə,
        İşim nə hədyan deyəm,
        Səhv anlaya, ya sına.
Xəstə Qasım ölüb gedər ya sina,
Eşidənlər deyər, ay hayıf-hayıf!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək, iki olsun.

Dəhri-fənada belə insan hanı?
Qılmaya fani onu dövran, hanı?
Ey binəva dünya, sən nə zalımsan?!
Bu qayətdə sana gələn can hanı?

Əvvəl sana gəldi Adəmü Həvva,
Beş gün qonaq oldu səndə binəva,
Öldürdün Habili, saldın bir dəva,
Düşdü arasına nahaq qan, hanı?

Neçə padşahlar gəldi sahib-cəng,
Cəmşidi-cəm, Nuşirəvanü Huşəng,
Daqyanus, Hülaku, Çəngiz, Teymur-ləng,
Onlardan bircəsi bu zaman hanı?

Neçə həkim gəldi təbibi zaman,
Ərəstu, Əflatun, Fərəzdəq, Xaqan,
İstədi dirildə özünü Loğman,
Qaldı guzəsi də yarımcan, hanı?

Dünya, səndə aşıq Səməd var idi,
Nəzmü şeri ləlü gövhərbar idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bəs bəhri-ümman hanı?

Bu dünyada heç də gəzməmişdi xəm,
Aşıq Əli oğlu Aşıq Məhərrəm,
Həsrətin çəkərdi Rum, həm Əcəm,
Əlində tütəkü balaban anı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tamam yola gedər heyif gözəllər,
Sərdə müşkü ənbər qoxuyan tellər,
Murad üstə neçə xınalı əllər,
Torpağa döndülər vay, aman, hanı?

O ala gözlərə, o gül yanağa,
O nazik əndama, o tər buxağa,
Necə qıyıb döndərirsən torpağa?
Nazənin-nazənin incə can hanı?

Hafizü, Nəvai, Füzuli, Cami,
Şeyx Sədi, Hilali, Ürfi, Nizami,
Dünya, səndə gəşt eyləyib tamami,
Firdovsitək nəzmi dürr-əfşan hanı?

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dür-əfşan,
İndi eyləmisən xaklə yeksan,
Tapmaq olmaz o kamalda can, hanı?

Müşkül işdi bir də dolana dövran,
Növbət mənə yetə, aman, əlaman!
Bir gün ola, görən, bilən, tanıyan,
Deyələr Valehi-natəvan hanı?

Ustadlar ustadnaməni üç deyər, biz də deyək üç olsun.

Adam var ki, bu dünyada
Yaranıbdı saylara,
Rüsvaylığı hardan hara
Söylənir insanlara.
El üzündən danışanda,
Özü şad olub gülər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bilməz heç qanmazlığı,
Düşübdü insanlara.

Kamal deyər əsil adam
Yaramaz iş eləməz.
Zülmlə yığılan malı
Yeyənlər nuş eləməz.
Bədəsillər əl uzadıb
Kimsəyə xoş eləməz.
Hamı deyər ayıb olsun
Duz-çörək basanlara!

Ustadlar belə ağıl edirlər ki, Əhməd adlı, ayı, günü keçmiş bir qoca kişi vardı. Əhmədin Əmrah adlı bir qəşəng oğlundan başqa övladı yox idi. Əhməd uşaqlıqdan Əmrahı öz əmisi qızı Səlminaza ad eləmişdi. Əmrah həddi buluğa çatmışdı. Günlərin bir günü Əmrah gecə yatmışdı; yuxuda onun yanına bir ərəb gəlib dedi:

– Oğul, Əmrah, qalx, bu badəni iç.

Əmrah qalxdı, badəni alıb içdi, o saat ürəyi alovlandı, dedi:

– Ağa, yandım, mənə əlac!

Ərəb dedi:

– Oğul, qorxma, Sayat pərini sənə, səni də Sayat pəriyə buta verdim. Onu sənə göstərirəm, səni də ona göstərmişəm. Gedərsən, çox cəfa çəkərsən, axırda yarına yetişərsən, murada çatarsan. Oğul, Əmrah, bax gör gələn kimdi?

Əmrah o yana-bu yana baxıb ərəbi görmədi. O saat bihuş olub, yerə yıxıldı. Sabah açıldı. Fala baxan, baxt açan, yara sarıyan, küp darayan, əfsun açan, ilan tutan – hamı töküldü gəldi. Hərəsi bir yana yozdu. Axırda bir qoca kişi gəlib çıxdı, Əmraha baxıb, gördü sifəti allanıb. Yanaqları qıp-qırmızı qızarıb. Qoca dedi:

– Oğlanın başından dağılın. Ağasından cam içib, beytəmiz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adam burada qalmasın, ağzı əyilər, gözü çıxar. Yeddi gün keçər, səkkizinci gün oğlan özü ayılıb qalxar, dərdini söyləyər. Oğlan ayılanda gərək gözəl qızlar, gəlinlər çalıb oynasın; yoxsa oğlan dəli olub, dağlara düşər.

Əhməd xoca dedi:

– Məni istəyən bu qocaya xələt!

Qocaya çoxlu xələt verdilər; qoca çıxıb getdi; səkkizinci gün Əmrah asqırıb qalxdı. Yanında qız, gəlin, toy, büsat gördü. Baxdı, öz yarını görmədi, gözlərini yaşla doldurub dedi:

– Məni öz yarıma yetirin!

Əmisi qızı Səlminaz onun yanına gəldi. Əmrah dedi:

– Mənə ağam Sayat pəri adlı bir qızı buta verib!

Əmrahın bu sözündən əmisi qızı Səlminaz küsdü, Əmrah ona dedi:

– Əmi qızı, könül qırmaq axı yaxşı şey deyil.

Əmrah saz istədi, ona bir saz gətirdilər. Əmrah sazı sinəsinə basıb görək əmisi qızı Səlminazın könlünü necə almaq istəyir:

Başına döndüyüm, xan əmim qızı,
Söylə, Səlminazım, nədən küsmüsən?
Sənə qurban şirin can, əmim qızı,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Başına döndüyüm, xan əmim oğlu,
Özüm ürəyimdə küsmüşəm səndən.
Eşidib bu sözü qan, əmim oğlu,
Özüm ürəyimdə küsmüşəm səndən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Əmrah:

Sevən sevgisindən küsmək ayıbdı,
Kipriklərin ürəyimi oyubdu;
Yəqin yadlar sənə böhtan deyibdi,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Qeyrətin var, namusun var, arın var,
Hər yanında neçə bağça-barın var;
Söyləyirlər, özgə yerdə yarın var;
Bu sözü eşidib küsmüşəm səndən.

Aldı Əmrah:

Almışam dərsimi, qaranı gördüm?
Qoynunda bəsləndim, haranı gördüm?
Əmrahın göysündə yaranı gördüm,
Söylə, Səlminazım, nədən küsmüsən?

Aldı Səlminaz:

Səlmi, qəddin görən gedir, öylənir,
Yar ucundan bağrım başı tellənir;
Qızlar arasında nələr söylənir;
Özüm ürəyimdə küsmüşəm səndən.

Əmrah dillə də ona buta verildiyini Səlminaza söylədi. Səlminaz çox kefsiz oldu. Əmrah anasının da yanına gəldi; anası ilə, Səlminazla görüşdü, halal-hümmət elədi. Axırda atasının yanına gəldi. Nə qədər yalvardılar, yapışdılar, «sənin sevgilin var, onu atıb hara gedirsən?» nə qədər elədilər, çarə olmadı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmrah gedəsi oldu. Atası onu tək başına buraxmadı. Özü də onunla bərabər yola düşdü. Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, axırda osmanlı torpağına çıxdılar. Ata, oğul bir su arxının kənarında oturdular. Bərk yorulmuşdular. Əmrah dözə bilməyib yatdı. Əhməd isə arxın qırağında tək oturmuşdu. Bir də gördü su ilə bir alma gəlir. Əhməd kişi almanı tutub yedi. Gördü biri də gəlir. Onu da tutub yedi. Yenə biri gəlir, onu da tutdu. Əhməd bildi ki, arxın başında alma bağı var. Əmrahı yuxuda qoyub, alma üçün arx yuxarı getməyə başladı. Əhməd gedib bir bağa çatdı. Bağın hasarından hər yana boylandı, bağa yol tapa bilmədi. Axırda su gilifindən özünü bağa saldı. Bu bağ kimin olsun, Mahmud Paşanın qızı Sayat pərinin. Sayat pəri çoxdan bəri əlləri qoynunda Əmrahın yolunu gözləyirdi. Payız fəsli idi. Bütün bağların meyvəsi sovulmuşdu. Sayat pəri bağda bir alma ağacı, bir də bir badam ağacı saxlamışdı. Xəzəl tökülüb, cılxa alma, badam qalmışdı. Sayat pəri yerə düşən almaları sap ilə budaqlara bağlayıb Əmraha saxlayırdı. Əhməd bağa girib axtardı. Çarhovuzun yanında bu ağacları tapdı. Əzəl alma ağacının başına çıxdı. Almaları bir-bir dərdi, yedi, sonra da dərib yerə tökdü, yığıb ciblərinə doldurdu. Bunun üstündən də yediyi almanı sinirmək üçün, badam ağacına çıxdı. Badamları dərib sındırdı, yeməyə başladı. Sayat pəri şaqqıltı eşidib qarabaşı Ağcaqıza dedi:

– Ay qız, get gör nə şaqqıltıdı, ağacları yoxla.

Ağcaqız gəldi, gördü bir çal qoca badam yeyir. Ağcaqız:

– A kişi, bu ağaca niyə çıxıbsan? – deyəndə Əhməd xoca qaban kimi ona yönəldi.

Ağcaqız yüyürüb xanımın yanına gəldi. Xanım dedi:

– Ay qız, nə var, nə yox, alma, badam, salamatdımı?

Ağcaqız dedi:

– Xanım, qulaq as deyim:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanım, bağa bir acıxmış giribdi,
Yeyib qurtarıbdı yar almasını.
Bilmirəm özünü hardan veribdi,
Yeyib qurtarıbdı yar almasını.

Yeyib, yeyib, ləzzətindən doyubdu,
Qabağını damağiylə soyubdu;
Köynəyini doldurub yana qoyubdu,
Yeyib qurtarıbdı yar almasını.

Almanı yeyibdi çıxıb badama,
Qaşqa qaban kimi sürür adama;
Ağcaqızam, deyim pərizadama,
Yeyib qurtarıbdı yar almasını.

Sayat pəri bu sözü eşidib qız dəstəsilə bağa gəldi. Gördü alma, badam nə gəzir? Qoca yeyib qurtarmağa çalışır. Dedi:

– Ay kişi, ağacdan düş!

Əhməd xoca dedi:

–Xanım, düşmərəm.

Sayat pəri dedi:

– Ay qızlar, balta gətirin, ağacı kəsəcəyəm.

Əhməd xoca dedi:

– Ay xanım, kəsmə, qoy düşüm.

Əhməd gördü ağacdan aşağı düşəndə qızlar onu döyəcəklər. Yenə yuxarı dırmandı. Sayat pəri yenə dedi:

– Ay qoca, ağacı kəsirəm, düş! – dedi.

Əhməd bu dəfə qorxub ağacdan düşdü. Qızlar bunu gözləyirdilər. Əhməd xocanı tutub çarhovuza basdılar, o ki var döydülər. Sayat pəri dedi:

– Qoca düzünü de görüm, sən kimsən, bu almanı, badamı niyə yedin?

Əhməd dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xanım, öldürmə, deyim.
Aldı Əhməd, görək nə dedi:

Başına döndüyüm, ay Sayat pəri,
Mürvət qıl canıma alma bağındı.
Gördüm bağ salıbsız, yoxdu bağbanı,
Dərdim mən bir neçə alma bağında.

Qışın şiddətindən qar olar dağlar,
Bizi burda görən hərcayı çağlar.
Duyuxu bağbanlar, qan olar bağlar,
Məni qalmaqala salma bağında.

Bir gül açılmaqla bahar, yaz olmaz,
Şamama dərməklə bostan pozulmaz.
Bir Əmrah ölməklə aşıq azalmaz;
Əmrahi itizar qılma bağında.

Sayat pəri dedi:
– Ay qoca, Əmrah kimdi? Düzünü söylə, səni buraxım.
Əhməd dedi:
– Xanım, Əmrah demirəm, həmrah deyirəm. Bizlər də həmrah yol yoldaşına deyirlər.
Sayat pəri dedi:
– Ay qızlar, bu qoca kaftar yalan deyir, vurun çal köpəyi!
Əhməd dedi:
– Ay xanım, amandı, məni öldürtmə, qoy düzünü deyim.
Sayat pəri dedi:
– Qızlar, əlinizi saxlayın, qoyun desin.
Aldı Əhməd xoca, görək nə dedi:

Bu gün, xanım, bir küstahlıq elədik,
Əl atanda tökdü yarpağı alma;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər yana çevirsən günahkarınam,
Əyibən sındırdım budağı-alma.

Qıtmır elə məni qoynun içində,
Qəlbinə tay elə, qoynun içində,
Şamama görünür qoynun içində,
Qoynunda bəzətdin bu tağı-alma.

Xəbər alma gəl sən yaşın Əhmədin,
Nuzula tökübdü dişin Əhmədin,
Kəs sinən üstündə başın Əhmədin,
Qoy qanım götürsün bu bağı-alma.

Sayat pəri dedi:
– Ay qızlar, vurun bu çal köpəyi, bəlkə düzünü deyə.
Əhməd dedi:
– Xanım, öldürtmə, bu dəfə düzünü deyəcəyəm.
Sayat pəri dedi:
– Qızlar, əlinizi saxlayın, qoyun desin.
Aldı Əhməd xoca, görək nə dedi:

Canım Əmrah, gözüm Əmrah,
Gəl, yarın bağdadı-bağda;
Sənə qurban özüm, Əmrah,
Gəl, yarın bağdadı-bağda;

Söhbəti-sazınan belə,
Ördəyi-qazınan belə,
Qırx incə qızınan belə,
Gəl, yarın bağdadı-bağda;

Peymanam dolha-doldadı,
Gözəllər saği-soldadı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əhmədin gözü yoldadı,
Gəl, yarın bağdadı-bağda;

Qarabaşlar Əhmədin salıx verdiyi yerə getdilər. Gördülər Əmrah hələ arxayın yatır. Qızların səsinə Əmrah ayıldı. Əmrah ayılanda Ağcaqız ona dedi:

– Ay oğlan, bu qızların hansını bəyənirsən, birinin yaxasından tut.

Ağcaqız bunu ondan ötrü deyirdi ki, Əmrah onu sevsin. Ancaq Əmrah Ağcaqızın cavabında sazı sinəsinə basdı. Aldı, görək nə dedi:

Bir bölük pərilər, pərizadalar,
Yenə geyinibsiz ay ağım, qazlar!
Mənə gəlsin o sizdəki qadalar,
Olun qürbət eldə dayağım, qızlar!

Alnıma tökülüb, görürsüz, tərim,
Çoxdan yar yolunda mən ki, nökərim;
Yenə gəlmədimi o Sayat pərim?
Onunçun açılmaz qabağım, qızlar!

Şana olum, zülfünüzə çatılım,
Saği olum, dəstənizə qatılım;
Əmrah deyər: qul adına satılım,
Çıxsın ölkənizə sorağım, qızlar!

Qızlar Əmrahı götürüb Sayat pərinin yanına gətirdilər. Sayat pəri Əmrahın pişvazına çıxdı.

Əmrah gördü Sayat pəri ona tərəf gəlir. Sazı sinəsinə basdı, görək nə dedi:

Yarım çıxıb yenə bağda gəzməyə,
Sallanıban yüz min nazılan gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir ayna qabaqlı, mah qələm qaşlı,
Ağ üzə xalları düzülən gəlir.

Bir xalın heyvadı – gəlməz irəngə,
Bir xalın bərgədi – gedər Firəngə,
Bir xalın aləmi salıbdı ləngə,
Bir xalın söhbəti-sazılan gəlir.

Əmrah deyər: ya rəb, bu necə işdi.
Qəfəsdə oxuyan bir tutu quşdu;
Bir xalın payızdı, bir xalın qışdı,
Bir xalın bahardı, yazılan gəlir.

Əmrah gördü ki, Sayat pəri atasını çox döydürüb. Əmrahın bundan könlü sındı, keyfi pozuldu, aldı, görək nə dedi:

Könül, sənə vəsfi-halım söyləyim,
Ya rəb, bu dünyada necolur könlüm?
Hərdən dərviş olur, hərdən dilənir,
Hərdən bəzirgandan xac olur könlüm.

Hərdən dəryalarda qarğı, qamışdı,
Hərdən bostanlarda dürlü yemişdi,
Hərdən əşrəfidi, hərdən gümüşdü,
Hərdən də pas tutub tuc olur könlüm.

Əmrah sözlərini deyə arınmaz;
Ərəb at yorulsa, könül yorulmaz.
Könül bir şişədi, sınsa sarınmaz;
Sarınsa sağalmaz, gəc olur könlüm.

Söz tamama yetişdi. Əmrah boylananda Sayat pəri gözünə sataşdı. Sayat pəri Əmrahı görüb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay Əmrah, niyə boylanırsan?
Əmrah dedi:
– Qulaq as, deyim niyə boylanıram:

Bu gün şahlar-şahını
Axtarır gözüm, axtarır;
Dəryada gözəl mahını
Axtarır gözüm, axtarır.

Verdim aşığın payını,
Yetirdim haqqı-sayını
Ərşdə mələklər tayını,
Axtarır gözüm, axtarır.

Əmrah sevdi səntək nazı,
Tuti dilli, xoşavazı,
Məhşər günü Səlminazı,
Axtarır gözüm, axtarır.

Əmrah sözü tamam elədi. Sayat pəri Səlminaz adını eşidib küsdü, çəkildi bir kənarda durdu. Əmrah bunu gördü. Qızın könlünü almaq üçün aldı, görək nə dedi:

Dedim: gülşən nədi? – Dedi: bağımdı.
Dedim: səfalıdı? – Söylədi: yox-yox.
Dedim: işrət nədi? – Dedi: səfamdı.
Dedim: gəlsən sürək. – Söylədi: yox-yox.

Dedim: əla nədi? – Dedi: gözümdü.
Dedim: şəkər nədi? – Dedi: sözümdü.
Dedim: alma nədi? – Dedi: üzümdü.
Dedim: öpməlisən! – Söylədi: yox-yox.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim: inci nədi? – Dedi: dişimdi.
Dedim: əbru nədi? – Dedi: qaşımdı.
Dedim: yumru nədi? – Dedi: döşümdü.
Dedim: əmməlisən? – Söylədi: yox-yox.

Dedim: siyah nədi? – Dedi: telimdi.
Dedim: şəkər nədi? – Dedi: dilimdi.
Dedim: nəzik nədi? – Dedi: belimdi.
Dedim: qucmalısan! – Söylədi: yox-yox.

Dedim: qulac nədi? – Dedi: qolumdu.
Dedim: uzaq nədi? – Dedi: yolumdu.
Dedim: Əmrah kimdi? – Dedi: qulumdu.
Dedim: gəlsən gedək! – Söylədi: yox-yox.

Sayat pəri Əmrahla barışdı. Onu götürüb otağına apardı.

Əmrah atası ilə bərabər bir müddət Sayat pərinin atası Mahmud paşanın evində qaldı. Qış getdi, yaz gəldi. Qoca Əhməd əkin, biçin eləmək üçün yerlərinə qayıdası idi.

Bir gün bir qarı Əmrahı Sayat pəri ilə bağda gəzən gördü. Getdi, birin də üstünə qoyub, Mahmud paşaya xəbər verdi. Mahmud paşa bunun üstündə Əmrahı tutdurub zindana saldırdı. Əhməd xoca işi belə görüb paşanın yanına getdi. Oğlunun haqq aşiqi olub, Sayat pəriyə, Sayat pərinin də oğluna aşiq olduğunu ona söylədi.

Mahmud paşanın bir gözəl tərlanı var idi. Mahmud paşa Əmrahı hüzuruna çağırtdırıb dedi:

– Ay Əmrah, hərgah sən haqq aşığısansa mənim bu tərlanıma bir tərif de.

Aldı Əmrah, görək nə dedi:

Paşam, bu tərlanı tərif eləyim,
Əzəl yaxşı olar ağı tərlanın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıldan qumroyu, ətlas düyməsi,
Qayım-qədim olsun bağı tərlanın.

Usta olan zil qumroyun pəs elər,
Tərpənəndə yerbəyerdən səs elər,
Sürmə dağıtmağa bil həpəs elər,
Keçər daşa ol qaynağı tərlanın.

Əmrah gəlib qalmaq istər bu yerdə,
Şirin şikar almaq istər bu yerdə,
Göydə qanad çalmaq istər bu yerdə,
Getməz bu sinəmdən dağı tərlanın.

Əmrahın tərlanı tərif eləməsi Mahmud paşanın çox xoşuna gəldi. Onun günahını bağışladı, qızını da ona verdi. Əmrah hələ burda qalası, xoca Əhməd isə gedəsi oldu. Əhməd xoca gedən zaman oğlu Əmrahı Sayat pəriyə bu dillərlə tapşırdı:

Mən gedirəm, Əmrah qalır yanında,
Can Əmrahın, can Sayadın, can sənin.
Onun intizarı vardı canımda,
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Gedirsən get, qoca, qalma yolundan;
Mən Əmrahı səndən yaxşı saxlaram.
Gecələr qoynumda, gündüz bağımda,
Mən Əmrahı səndən yaxşı saxlaram.

Aldı Əhməd xoca:

Görünən dağların başı daldadı,
Yığılıb seyrağıb saği-soldadı;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onun Səlmisinin gözü yoldadı,
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Doğru danış, qoca, gəl sən imana,
Görüm ürcah olsun yaman-yamana.
Səlmi dedin, məni saldın gümana;
Mən Əmrahı səndən yaxşı saxlaram.

Aldı Əhməd xoca:

Mən xoca Əhmədəm, xəyalım çaşdı,
Qocalıq əl verdi, dilim dolaşdı,
Səlmi bizim bağda böyük ağacdı;
Can Əmrahın, can Sayadın, can sənin.

Aldı Sayat pəri:

Mən Sayat pəriyəm, bağça barımdı,
Almamdı, heyvamdı, şirin narımdı;
Sənin oğlundursa, mənim yarımdı,
Mən Əmrahı səndən yaxşı saxlaram.

Xoca Əhməd Mahmud paşa ilə, oğlu Əmrahla, Sayat pəri ilə görüşüb, yola düşdü. Bir neçə gündən sonra gedib evlərinə çatdı.

Bundan xeyli keçdi. Bir gün Əmrahla Sayat pəri bağda gəzirdilər. Əmrah o yerin bağ-bağatını öz tərəflərinin bağ-bağatına oxşatdı və Səlminazı yadına düşdü. Aldı, görək nə dedi:

Səlmi deyib, dadi-bidad eyləsəm,
Ya rəb, yar ünümü eşidirmola?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onu qoyub, qeyri yerdən yar sevdim,
Onda könlü məndən qalışırmola?

Özümü Səlmiyə nökər eləsəm,
Bir neçə qulunu bekar eləsəm,
Bu şuxi tərlanı şikar eləsəm,
Məhəbbət torunu ilişirmola?

Əzəldən Əmraha ad olan Səlmi,
Dəhanı şəkərdən dad olan Səlmi,
Məni qəmdə qoyub, şad olan Səlmi,
Özgələrlə deyib-danışırmola?

Bu sözdən Sayat pəri bərk küsdü. Bağdan çıxıb getmək istədi. Bunu görüb, Əmrahın sinəsi alışdı. Aldı, görək nə dedi:

Sallana-sallana gedən salatın,
Hayana gedirsən, qız, qayıt indi?
Süsəndən, sünbüldən, tər bənövşədən,
Dəstinlə ğünçəni üz, qayıt indi.

Boyunu bənzətdim mələksimaya,
Dərdini çəkməkdən düşdüm ah-vaya;
Kəklik kimi nə qalxırsan havaya?
Tərlan yox oynadım, süz, qayıt indi.

Əgər bağban isən, bağçı məni gör,
Bağlar gül-gül oldu bağ-çəməni gör,
Əmrah deyər: Sayat, bağ çiməni gör,
Ömür başa vardı, tez qayıt indi.

Sayat pəri daha da acıqlandı. Bənövşəni dəlicəsinə dərdi, əlilə ovxalayıb yerə tökdü. Əmrah bunu görüb, aldı, görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlləri qurumuş, bədəsil xoryad,
Eləmi dərərlər yaz bənövşəni?
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altına düz bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa!
Üzüm hörmətinə bağa nur yağa.
Bir dər, dəstə bağla, sanc gül buxağa,
Oğlan qız iyləsin, qız bənövşəni.

Dağdan qar əridi, dağa xal düşdü,
Bilməm dərdim beşdi, yoxsa on beşdi.
Əmrah deyər: gülün vaxtı yetişdi,
Daha istəmirik biz bənövşəni.

Əmrah bu sözləri ilə Sayat pərinin könlünü aldı. Ordan hər ikisi çıxıb bağ-bağatın arası ilə gülə-gülə gedirdilər. Söz arasında Sayat pəri dedi:

– Əmrah, sizin yerdə də belə bağ-bağat olurmu?

Aldı Əmrah:

Bahar fəsli yaz ayları gələndə
Ötür bizim yerin qazalaqları.
Alması, heyvası, narı, turuncu,
Payız yaxşı olur qora bağları.

Yaz ayında çəltikləri əkilər.
Payız olcaq xırmanlara tökülər,
Yaxşısından bəylər üçün seçilər,
Qarpız, qovun verər bostan tağları.

Sizin yerdə ördək olar qazınan,
Bizim yerdə söhbət olar sazınan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bölük-bölük yeniyetmə qızınan,
Əmrahın köksündə Səlmi dağları.

Sayat pəri Səlminazın adı gələndə yenə acıqlanıb dedi:

– Əmrah, daha ondan keçib, gedəcəyik. Səlminazı görəcəyəm. Əgər Səlminaz məndən gözəl olsa, səndə oturacağam, yox, gözəl olmasa atamın evinə qayıdacağam.

Əmrahla Sayat pəri başladılar evə tərəf getməyə, yolda gördülər quşlar oxuyur, Sayat pəri dedi:

– Əmrah, sizin yerlərdə də sona quşlar belə ötürmü?

Aldı Əmrah:

Bizim göldə bir cüt sona dövr elər,
Başı yaşıl, ayaqları qırmızı,
İncidən, sədəfdən almış ağzına,
Alma kimi yanaqları qırmızı.

Bizim dağlar sizin dağdan ucadı,
Malım yoxdu, yara qurban bu candı;
Yaqut deyil, yəmən deyil, mərcandı;
Ağ qollarda qolbağları qırmızı.

Sayat pərim, qalx ayağa bu dəmdə,
Ağlamaqdan yaş qalmadı didəmdə.
Əmrah deyər: çalı-çarpaz sinəmdə,
Səlmi çəkib bu dağları qırmızı.

Əmrahla Sayat pəri gəlib evlərinə çatdılar. Bir gün Əmrah dedi:

– Sayat pəri, daha gedək, yerim-yurdum yadıma düşüb.

Sayat pəri dedi:

– Atamdan getmək üçün izin al, sonra gedək.

Əmrah Mahmud paşanın yanına getdi. Öz yerinə getmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üçün ondan izn aldı. Bir gün sonra Sayat pərini də götürüb yola düşdü. Gəlib Əmrahın elinə yaxın olan Qazlı gölün başına çatdılar. Əmrah sevgilisilə Qazlı gölün başında oturmuşdu. Bir də gördü göydə durnalar gedir. Aldı, görək nə dedi:

Qatarlaşıb göynən gedən durnalar,
Nə səbəbdən dəstən bölündü, durna?
Səlmi yarım yenə düşdü yadıma;
Sərində tellərin göründü, durna!

Qələm oynar Səlmi yarın qaşında,
Qul olaydım, mən duraydım qarşında,
Xan Sayatla Qazlı gölün başında,
Bizdən yara xəbər ver indi, durna!

Hər yana gedirsən çağır allahı,
Qatardan üzülüb olma kallahı,
Müjdə versin Səlminaza Əmrahı,
Bir itgincə qulun bulundu, durna!

Söz tamama yetişdi. Əmrah ilə Sayat pəri ordan keçib Əmrahgilin yurduna gəldilər. Bunları yaxşı pişvaz elədilər. Evə apardılar. Səlminaz xəbər tutdu, gəlib pəncərədən baxırdı, Əmrah Səlminazı görüb ürəyi coşdu, aldı, görək nə dedi:

Qəfil pəncərədən baxdı qayıtdı,
Tavus tamaşalı, sona Səlminaz.
Müjganların bağrım başına atdı,
Keçdi, kar eylədi cana Səlminaz.

Sənsən bu yerlərin qızıl gülləri,
Gəl yanıma, mürvət elə, ay pəri;
Vallah, billah, səni görəndən bəri,
Gəlmişəm imana, dinə, Sərminaz!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əgər aşıq isən, məşuqun hanı?
Əgər mollamısan, dərsini tanı.
İranı, Turanı, bu şirin canı,
Əmrah qurban eylər sənə, Səlminaz!

Söz tamama yetişdi. Əmrah bu dəfə də üzünü anasına tutub dedi:

Ana, sənə bir söz deyim:
Sən get onu yara deynən.
Neyləmişəm o canana,
Məsum baxdı qara deynən.

Öpmədim gülər üzündən,
Doymadım ala gözündən,
Nakəs, hərcayi sözündən,
Gül uymaz xara deynən.

Yazıq Əmrah dərdin yazar,
Şirin candan oldu bezar,
Tərlan tərlan ilə gəzər,
Uymaz ki, sara, deynən.

Əmrah sözünü tamam elədi. Anası getdi Səlminazı gətirdi. Səlminaz Əmrahla, Sayat pəriylə görüşdü. Xoca Əhməd bir yaxşı toy elədi. Eli, camaatı çağırdı. Səlminaznan Sayat pərinin əlini Əmrahın əlinə verdilər. Camaat yeyib, içib, «toyunuz mübarək olsun», – deyib dağıldı. Əmrah da sevgilisilə gün keçirməyə, dövran sürməyə başladı. Deyirlər Əmrahın toyuna bir aşıq gəldi, duvaqqapmasını belə söylədi:

Genə gəlib bahar fəsli,
Aləmi-roşən bəzənib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seçmə gözəllər əyninə
Geyib zərnişan bəzənib.
Baxırsan sağa, sola,
Görürsən hər yan bəzənib.
Səf çəkib huri, mələk,
Pəriyü qılman bəzənib.
Nasaq qılmayın dilimə,
Qoy deyim dastan, bəzənib.

Baxmasın gözəllərə
Adamların bəd nəzəri;
Əndəlib nalə çəkib,
Ölməsin güldən ötəri;
Naz ilə canım alan,
Olubdu dilim əzbəri.
Yaradan, bir rəhm elə,
Pozulmasın bu səfləri
Fəhm elə, diqqət elə,
Gör necə canan bəzənib.

Gözəllər tər əndama,
Geyinibdi, ağı yenə.
Can cəsəddən ayrılır,
Qalmadı bir tağı yenə.
Ala gözlər süzüləndə
Eyləyir misağı yenə.
Bir sənəm seyrə çıxıb,
Gör payları sağı yenə,
Şənini vəsf eləyim
Bir şuxi tərlan bəzənib.

Gəzmişəm görməmişəm
Mən bir belə gül-camalı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gülgəz kalağay
Bürünübdü qəddi-dalı.
Hal bilən, şirin gülən,
Ağ üzündə qoşa xalı,
Rəhm elə, mürvətə gəl,
Salma belə qilü qalı.
Qoy deyim, bu məclisdə,
Nə gözəl dövran bəzənib.

Dərdlilər təbib deyib,
Yığılıb dərmana bugün.
Gözəlin gül camalı
Şox salır hər yana bu gün.
Yanıram atəşinə
Mən mərd-mərdanə bugün.
Yazıq Hüseynin könlünü,
Eləmə pərvanə bugün.
Aşıqlar qara geyib,
Gözəllər əlvan bəzənib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# SEYDİ VƏ PƏRİ

## USTADNAMƏ

Qafil könül, bir məclisə varanda,
Ver qadağa acı dilə, danışma.
Hərcayı söyləmə, hərcayı demə,
Laf eyləyib, gülə-gülə danışma.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın;
Kəlmə çıxar, şirin cana yayılsın,
Aşırıb sözünü zilə danışma.

Sözün manı tutma azğın, axmağın,
Xoşlanılmaz aralıqdan çıxmağın,
Layıq deyil başa qaxıc qaxmağın,
Öz eybini bilə-bilə danışma.

Yazıq Hüseyn, əhdin yetər yerinə,
Könül bağla aşıqların pirinə,
Çək sözünü həqiqətə, dərinə,
Hər qədir bəlməzə belə danışma.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün.

Könül, mane olma yara, yoldaşa,
Cəhd et yıxılanın əllərindən qap.
Güvənmə bəyliyə, gülmə gədaya,
Axır bir gün səndən çəkərlər hesab.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay ilə gün gərdiş eylər, ötüşər,
İki sevgi peymanına bitişər,
Ruzi müqərrərdi, gələr yetişər,
Həzaran ölkə gəz, həzaranda çap.

İbrahim, elmində nabələd olma,
Qaynayıban peymana tək sən dolma,
Dünyaya qul olub, saralma, solma,
Çərxin gərdişinə eyləməzsən tab.

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun.

Sən gəl uyma hərcayiyə, nakəsə,
Naxələfdi, onda düz bazar olmaz.
Ortaq olma bivəfanın tağına,
Zatı yoxdu, şamaması tər olmaz.

Çox aşıq xəlq etdi qüdrət girdiyar,
Olubdu sözləri tamam dildə car,
Cəmi hicran çəkən nə ki aşıq var,
Mənim kimi dərdə giriftar olmaz.

Vəliyəm, açılmaz eynimin yaşı,
Əynimə geymişəm mən qəm libası,
Hər şeyin təzəsi, dostun köhnəsi–
Dönüb ilqarından biilqar olmaz.

Sizə haradan, kimdən xəbər verim, İstanbul şəhərində iki tacir qardaş var idi. Böyüyünün adı Məhəmməd tacir, xırdasının adı Əhməd tacir idi. Məhəmməd tacirin Seydi adında bir oğlu var idi, Əhməd tacirin də Məryam xanım adda bir qızı. Bir gün Əhməd tacir Məhəmməd tacirə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim bir qızım var, sənin bir oğlun. Niyə varımızı özgə yesin? Mən qızımı sənin oğluna verirəm.

Bəli, qızı oğlana ad elədilər, nişanladılar. Hər iki qardaş bir-birinə ilğar verib, ilğar aldılar.

İlahinin qəzyəsidi, yaranan dünyada qalmayacaq, Məhəmməd tacir dünyadan köç eylədi, dünya ilə halallaşıb getdi. Məhəmməd tacir ölənnən sonra Əhməd tacir vardan Seydiyə vermədi. Seydi on iki, on üç yaşına çatdı. Ayaqyalın, başaçıq çox pis günlər keçirirdi. Bir gün Seydi yolnan ağlaya-ağlaya gedirdi, bir qarı onun qabağına çıxıb dedi:

– Oğul, niyə ağlayırsan? Sən də bir addı kişinin oğlusan. Əmində olan variyyət sənin dədəyindi. Əmin qızı da sənin deyiklindi. Get, elçi göndər, qızı sana versə, variyyətdən də sana verəcək.

Seydi gedib əmisinin öyünə elçi göndərdi. Elçilərə Əhməd tacir cavab verdi ki:

– A kişi, mən adam tapmırammı qızımı verəm? Gərək ayaqyalın, aca verəm?

Qızdan soruşdular. Qız da dedi:

– Mən də getmirəm.

Elçilər geri qayıdıb dedilər:

– Oğul, qızı vermədi.

Seydi bu sözü eşidəndə ağlaya-ağlaya özünü yetirdi atasının məzar sandığının üstünə. Torpağı qucaqlayıb, atasına şikayətləndi. Başı qəbrin üstündə, onu yuxu apardı. Ağalar ağası Şahi-mərdan özünü yetirib dedi:

– Oğul, niyə ağlayıb qəmgin olursan? Al əlimnən bu camı iç!

Seydi dedi:

– Atam, anam sana qurban, axı o cam bizə nəhydi.

Əli dedi:

– Oğul, bu cam o camlardan döyül.

Seydi camı nuş elədi. Əli barmağını qaldırıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bax, nə görürsən?
Seydi dedi:
– Uzaq-uzaq yerlər görürəm.
Həzrət dedi:
– Ta nə görürsən?
Seydi dedi:
– Hind padşahının qızını görürəm.
Əli dedi:
– Hind padşahının qızı Pəri xanımı sana buta verirəm.

Seydi bir qədərdən sonra əsrəmiş nər kimi yerinnən qalxdı. Ona bir gözəllik gəlmişdi, bir gözəllik gəlmişdi, görən deyirdi: nolaydı, bir də görəydim. Seydi başladı oxumağa. Əmisi onu görüb dedi:

– Nə cür oldu ki, bu gözəlləşdi! Oğul, bu nə əhvalatdı?
Seydi dedi:
– Əmi, qoy deyim.
Aldı Seydi, görək nə dedi:

Əmi, bu gün bir mənzilə uğradım,
Hər yana dönəndə yolları yeddi.
Sual verdim, cavabımı almadım,
Bir molla göstərdi bulları yeddi.

Yeddi bülbül, yeddi güldü, yeddi nə?
Yeddi süsən, yeddi sünbül, yeddi nə?
Üç gözələ düçar oldum, yeddi nə?
Çığası, sərində, telləri yeddi.

Seydi oxur nə qələmsiz, nə yazı,
Nə məkandı – nə qışı var, nə yazı?
Dörd kitaba yazılıbdı nə yazı?
Üçü beşdi, üçü dörddü, yeddi nə?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmisi baxdı ki, Seydi çox sözlər deyir, amma heç nə başa düşmək mümkün deyil, çıxıb getdi. Əmisi gedəndən sonra anası gəldi, Seydinin əhvalını pəjmürdə görüb dedi:

– Ay oğul, başına dönüm, sana nə olub?

Aldı Seydi, görək nə dedi:

Başına döndüyüm gül üzlü ana,
Ana, halal eylə, mən gedər oldum.
Südünü əmmişəm mən qana-qana,
Ana, halal eylə, mən gedər oldum.

Öyümüzün dalı çimən, söyütdü,
Qohumum qardaşım tamam iyiddi,
Sənin hər dediyin mənə öyüddü,
Ana, halal eylə, mən gedər oldum.

Mən Seydiyəm, yardan üzməm əlimi,
Tufana vermişəm ata malımı,
Qismət olsa tapacağam Pərimi,
Ana, halal eylə, mən gedər oldum[1].

Söz tamama yetdi. Seydi saz qayıranın yanına gedib, gördü divardan bir saz asılıb, dedi:

– Əmi, o sazı mana ver!

Sazbənd dedi:

– Özüm üçün qayırmışam, sana niyə verim?

Seydi dedi:

– Onda ver bir az çalım.

Sazbənd dedi:

– Sən tacir Məhəmmədin oğlusan, sən saz çalmağı nə bilirsən?

Seydi dedi:

– Sən ver, çalaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sazbənd sazı verdi, Seydi aldı, görək ustaya nə deyir.

Başına döndüyüm, ay kamil usta,
Qadir mövlam mana buta veribdi.
Bir dərdə düşmüşəm, bir murad üstə,
Qadir mövlam mana buta veribdi.

Usta bilər ustaların halını,
Qəhri əyib qamətimi, belimi,
Yaman günnən yaxşı billəm ölümü,
Qadir mövlam mana buta veribdi.

Usta, eşqin atəşindən geri dur!
Göz yaşlarım dəyirmannar yeridir,
Mən Seydiyəm, sövdücəyim Pəridir.
Qadir mövlam mana buta veribdi.

Usta dedi:
– Oğul, saz sana peşkəşdi.
Seydi gedib anasıynan halal-hümbət elədi, tay-tuşuynan görüşdü, yolda əmisi qızı Məryam qabağı kəsdi ki:
– Əmi oğlu, haraya gedirsən?
Seydi dedi:
– Səfərə gedirəm.
Qız aldı, görək nə dedi:

Əmim oğlu, sən ha beylə döyüldün,
Gəl al məni, getmə bizim ellərdən,
Mən dönmərəm ilqarımnan, yarımnan,
Gəl al məni, getmə bizim elləldən.

Aldı Seydi cavabında:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər-səhər gəlib qarşı durarsan,
Var get, əmi qızı, durma qarşıda.
Nahaq hicran çəkib, boynun burarsan,
Var get, əmi qızı, durma qarşıda.

Aldı Məryam:

Bir daş vurram, gedər dəyər sazına,
Dözəmmərəm işvəsinə, nazına,
Mən mayılam sənin ala gözünə,
Gəl al məni, getmə bizim ellərdən.

Aldı Seydi:

Dərin-dərin dəryalara dalmadın,
Şirin canın eşq oduna salmadın,
Elçilər gələndə sən ki gəlmədin,
Var get, əmi qızı, durma qarşıda.

Aldı Məryam:

Həmişə mərd olar mərdlərin sözü,
Sinəmə çəkilib bu eşqin gözü,
Gülür Məryam xanım, öz əmin qızı,
Gəl al məni, getmə bizim ellərdən.

Aldı Seydi:

Yazıq Seydi çox mərdanə söz deyər,
Xancal alıb, qara bağrın gözdəyər,
Pəri xanım indi yolum gözdəyər,
Var get, əmi qızı, durma qarşıda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydi qəbul eləmədi, yola düşdü, o yerə çatdı ki, bir dağın damanında qaçaqlar onun qabağını kəsdi. Həramilərin hamısı qız idi. Baş hərami də Cəfər paşanın qızı idi. Seydiyə dedilər:

– Aşıqlarda pul çox olar, çıxart pulu.

Biri dedi:

– Soltan, vur bunun boynunu!

Qaçaqlar çörək yeyirdi. Bunların kim olması Seydiyə məlum idi. Biri dedi:

– Əyər haqq aşığısansa, tap görək, biz kimik, fikrimiz nədi?

Aldı Seydi:

Adını çağırram, ya mənim ağam,
Ağa, məni dərdə salan gəlindi!
Müşkülə düşmüşəm hicran içində,
Ağa, məni dərdə salan gəlindi!

Mərdi iyid mərd deyər mərd oğlu mərddən,
Sərraf olan seçər ləli gövhərdən,
Düldülün sahibi ya Şahi-mərdan,
Ağa, məni dərdə salan gəlindi!

Baxçalar gətirən heyvadı, nardı,
Mən çəkdiyim müdam ah ilə zardı,
Biçarə Seydinin yeri nə dardı…
Ağa, məni dərdə salan gəlindi!

Qızlar dedilər:

– Biz sana dedik, bizi tap, demədik ki, ağayı çağır.

Aldı Seydi:

Bu qılıqda soltan olmaz qazılar,
Bunun bu döşündə hiylə var, hiylə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ sinədə tər şamama bitibdi,
Bunun bu döşündə hiylə var, hiylə!

Sana qurban olsun bu şirin canım,
Cannan artıq nəyə gələr gümanım,
Nar, türünc oğrusu, ay Pərzad xanım,
Sənin sağ əlində hiylə var, hiylə!

Gözəllər içində əlvan donlusan,
Adam öldürərsən, qəddar qannısan,
Banı xanım, sən də ikicannısan,
Sənin o qarnında hiylə var, hiylə!

Həqiqi cavabı deyib yozuram,
Dərsimi oxuyub, özüm yazıram,
Xan Seydiyəm, öz Pərimi gəzirəm,
Mənim gəzməyimdə hiylə var, hiylə![2]

Qaçaqlar baxdılar ki, bu, haqq aşığıdı. Bunnar Seydini buraxdılar. Seydi yola düşdü. Az getdi, çox getdi, Kazım paşanın şəhərinə çıxdı. Paşanın qızı Maral xanım səyahətə çıxmışdı. Seydini əylədilər. Maral xanım ona dedi:

– Gedək bizə.

Seydi razı olmadı. Aldı Maral xanım, görək ona nə dedi:

Başına döndüyüm, ay cavan oğlan,
Getmə, oğlan mən də sana gələrəm!
Aylar, illər həsrətini çəkdiyim,
Getmə, oğlan, mən də sana gələrəm!

Aldı Seydi cavabında:

Maral xanım, bu minnəti eləmə,
Yeri, xanım, səni alan ha döyləm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu sözdəri yaraşana söyləmə,
Yeri, xanım, səni alan ha döyləm!

Aldı Maral xanım:

Hüsndə qələmlər gör necə qaşdı,
Bu necə çərxdi, bu necə işdi?
Qul-qarabaş hamsı sana peşkaşdı.
Getmə, oğlan, mən də sana gələrəm!

Aldı Seydi:

Bülbüllü baxçalar, gül mənim olsun,
Ərşi-Alosman fərmanım olsun,
Qul-qarabaş hamısı qurbanım olsun,
Yeri, xanım, səni alan ha döyləm!

Aldı Maral xanım:

Dərin-dərin dəryalara dalarsan,
Şirin canım eşq oduna salarsan.
Maral sənə qurban, haçan gələrsən?
Getmə, oğlan, mən də sana gələrəm!

Aldı Seydi:

Seydi deyər: ellər dağa köçəndə,
Qızıl gülü dəstə tutub biçəndə,
Dəvə buynuz sürüb, qum gül açanda,
Onda, xanım, gəlib alaram səni![3]

Seydini Maral xanım saxlaya bilmədi. Maral xanımla vidalaşıb yola düşdü. O yerdə gəlib çatdı ki, Pəri xanımın atası



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ölüb, taxtda Pəri xanım əyləşmişdi. Seydi baxdı ki, qız balqonnan tamaşa eləyir, sazı çıxarıb, görək nə dedi:

Aquşqadan hayıl-mayıl baxarsan,
Bilseydim gözdərin kimi axtarır.
Şirin canım eşq oduna yaxarsan,
Bilseydim gözdərin kimi axtarır.

Günəş camalına mən oldum heyran,
Ölüncə əl çəkməz söygünü söyən,
Doğru, dürüst oldu ərənlər deyən,
Bilseydim gözdərin kimi axtarır.

Seydi deyər: şux gözəllik səndə var,
Al-qumaş geymisən, üstdə zər də var,
Tovuz tamaşalı xoş əndamlı yar,
Bilseydim gözdərin kimi axtarır.

Qız vaqiyi-aləmdə Seydini görmüşdü. O saat Seydini tanıdı, əmr elədi, onu öz otağına apardılar. Bir qədər yeyib-içməkdən sonra, qız dedi:

– Seydi, peyğəmbərin buyruğu var. Şükür allaha, gəlib çıxmısan. Get bir molla tap, kəbinimizi kəsdir.

Seydi şəhərə çıxdı, bir məscidə getdi. Baxdı ki, məsciddə bir neçə molla oturub, bir-biriynən cəhd eləyir. Mollalar onu görəndə dedilər:

– Bura aşıq yeri döyül, qayıt!

Seydi dedi:

– Sözüm var sizə.

Dedilər:

– De!

Aldı seydi, mollalara görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir bölük mollalar, mollazadalar,
Şəri-peyğəmbəri istərəm sizdən.
Ərş üzündə şəmsi, mahi sevərsiz,
Şəri-peyğəmbəri istərəm sizdən.

Alma mənim, heyva mənim, nar mənim,
Namus mənim, qeyrət mənim, ar mənim,
Bir balaca nigah işim var mənim.
Şəri-peyğəmbəri istərəm sizdən.

Dərya qırağınnan ayrılır ada,
Canım qurban olsun o min bir ada,
Kəs kəfini, Seydi yetsin murada.
Şəri-peyğəmbəri istərəm sizdən[4].

Mollalar başa düşdülər ki, Seydi kəbin kəsdirməyə gəlib. Mollalar Seydiyə kəbin kəsdilər. Kəbin kağızını götürüb, Pəri xanımın yanına getdi. Pəri xanım dedi:

– Mənim dostum, düşmənim var, gərək pəhlivan kimi geyinəsən.

Seydi üçün qılınc, gürz, qalxan hazırladılar. Pəri xanım Seydidən ötrü bir səmənd at saxlamışdı. Onu da Seydiyə verdi.

Ustadlar deyir qızın balqonunun altından su fəvvarə vurub axırdı. Qız da şəklini balqondan asmışdı. Seydi qızın şəklini götürüb baxırdı. Külək vurdu, əlindən suya düşdü. Seydi su aşağı düşüb şəkili axtarmaqda olsun, Hasan paşanın mehtərləri də atları suvarmağa gətirsin. Atlar suya yaxın gəlmədi. Mehtərlər baxanda gördülər, suyun üzündə bir qız şəkli var, götürüb baxdılar, gördülər elə qızdı ki, misli, bərabəri yoxdu. Atlar onun işığından ürküb suya getmirmiş. Mehtərlər şəkli aparıb Hasan paşaya verdilər. Hasan paşa qızın şəklinə baxıb, hayıl qaldı. Çox çalışdılar, şəkli şüşədən çıxarda bilmədilər. Demə, şüşə tilsim imiş. Bir qarı var idi, adı Bayramxatun qarı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

idi. Qarı buraya gəldi, dedi:
– Mən açaram.
Hasan paşa dedi:
– Nə istəsən verərəm, aç!
Qarı dedi:
– Məni al, onu açım. Gözün bağlı olmasaydı, bu şəklin yiyəsini tapardın.
Hasan paşa dedi:
– Nənə!...
Qarı dedi:
– Nənə öz anandı. Məni al, şəkli açım.
Hasan paşa dedi:
– Aldım, aç.
Qarı bir əfsun oxudu, şəkili şüşədən çıxartdı. Hasan paşa dedi:
– Bu kimdi?
Qarı dedi:
– Öz əmin qızı Pəri xanımdı.
Hasan paşa əmr elədi ki, Pəri xanımı gətirin. Hasan paşanın adamları yürüş eləyib gedən vaxt Seydi bunların qabağına çıxdı, baxdılar ki, bu, pəhlivandı, soruşdular:
– Sən nəçisən?
Seydi götürdü, görək onlara nə cavab verdi:

Ay ağalar, bəylər, ay duran cannar,
İtirmişəm yar telini, gəzirəm.
Hər kəs tapsa müjdahını verərəm,
İtirmişəm yar telini, gəzirəm.

Dərin-dərin dəryalara dalıbdı,
Şirin canım eşq oduna salıbdı,
Pəri xanım məlul-müşkül qalıbdı,
İtirmişəm yar telini, gəzirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Düşməni ağladıb, dostu güldürrəm,
Dəsmalınan gözün yaşın sildirrəm,
Xan Seydiyəm, yəqin bil ki, öldürrəm,
İtirmişəm yar telini, gəzirəm[5].

Dedilər:
– Əşi, nə yar teli? Sən kimsən?
Aldı Seydi:

Nagahdan məni bir yuxu basdı,
O vaxtında könül istədi dostu.
Sağ tərəfdən badi-müxalif əsdi,
Yar verən tel bir ümmana qərq oldu.

Qoşunda olanlar onun sözünü xoşlamadılar. Hər tərəfdən onun üstünə hücum elədilər. Bərk dava oldu. Seydi çox adam qırdı, davada bir qarının oğlu da öldürüldü. Qoşun sınıb geri qayıtdı. Hasan paşaya xəbər verdilər ki, bir pəhlivan qoşunu qırıb, tamam qayıtdı. Hasan paşa əmr elədi ki, gərək o pəhlivan öldürülsün, Pəri xanım gətirilsin. Qoşun gəlib, qalanın dörd tərəfini bürüdü. Pəri xanım yatmışdı, Seydi götürüb dedi:

Qoşun gəldi səf-səf oldu,
Oyan, Pəri xanım, oyan!
Qalanın ətrafın aldı.
Oyan, Pəri xanım, oyan!

Ağlatseydim, güldürseydim,
Göz yaşını sildirseydim,
O qız yerinə mən olseydim,
Oyan, Pəri xanım, oyan!

Ağlımı sərdən alırsan,
Nə qəflətə qərq olursan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydini dərdə salırsan,
Oyan, Pəri xanım, oyan!

Pəri xanımın bir qulluqçusu var idi. Pəncərədən baxanda onu oxla vurub öldürdülər. Bunu Seydi görüb, kefsiz oldu. Yenə qoşuna hücum elədi, qoşunu qovub dağıtdı. Hasan paşa əmr elədi, genə qayıtsınlar. Qoşun əhli yerbəyerdən Hasan paşaya: «Ta getmirik, özün get!» – deyib dağıldılar. Hasan paşa kefsiz oldu. Qarı Hasan paşaya dedi:

– Mən dediyimi elə, mən onu tutmağın, ya öldürməyin təhərini sana deyim.

Hasan paşa dedi:

– Elərəm!

Qarı dedi:

– Bir qədər bihuşdarı aldır. Mən gedib onu bihuş eləyib, sarıyaram, siz də gəlib gətirərsiniz.

Hasan paşa bihuşdarı hazır elədi. Qarı yola düşən zaman dedi:

– Onu mən bihuş eləyəndə ot tayalarına od vuracağam, qoşunu göndərərsən gələr.

Dedi:

– Yaxşı.

Qarı ayaqyalın, başı açıq gedib Pəri xanımın pilləkanının ayağında oturdu, zağ-zağ əsməyə başladı. Hamının ona yazığı gəldi. Seydi balqona çıxmışdı, onu gördü, yazığı gəldi, tez aşağı yendi, əlinnən tutub otağa çıxartdı, dedi:

– Nənə, nəyin var?

Qarı dedi:

– Heç kəsim yoxdu.

Seydi dedi:

– Qarı, səni nənə kimi saxlayacağam.

Pəri xanım dedi:

– Seydi, bu hiyləgər qarıya oxşayır, qov getsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydi dedi:

– Yox, mən saxlayacağam, yazıqdı.

Qarını yaxşı geyindirdilər. Qarı bunnara çox hörmət göstərdi. Buna inandılar. Bir dəfə çörək bişirəndə Seydinin də, Pəri xanımın da çörəyinin içinə bihuşdarı daxil elədi. Çörəyi yeyən kimi hər ikisi bihuş oldular. Qarı Seydinin əl-ayağını möhkəm bağladı. Bir qədər keçənnən sonra Seydi ayıldı, gördü əl-ayağı bağlıdı. Qarı dedi:

– Səni Hasan paşaya verəcəyəm.

Götürdü Seydi, ona dedi:

Başına döndüyüm, ay qarı nənə,
Bu gün din günüdü, iman günüdü.
Görüm sən gələsən dinə, imana,
Nənə, bu günkü gün aman günüdü.

Aldı qarı:

Al cavabın deyim, ay Seydi oğlan,
Ağla, oğul, bu gün ölən günündü.
Mən neynirəm dini, ya da imanı,
Ağla, oğul, bu gün ölən günündü.

Aldı Seydi:

Mən necə oğuldum, sən necə ana,
Alışıb ürəyim dönübdü qana,
İrəhm eylə mənim kimi cavana,
Nənə, bu günkü gün aman günüdü.

Aldı qarı:

Harda oldum, oğul, mən sana ana?
Alışıb ürəyin, qoy dönsün qana;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yetrəcəyəm səni büyün düşmana,
Ağla, oğul, bu gün ölən günündü.

Aldı Seydi:

Baxan yoxdu xan Seydinin halına,
Bülbül kimi həsrət qoyma gülünə,
Özün öldür, vermə düşmən əlinə,
Nənə, bu günkü gün aman günüdü.

Aldı qarı:

Qarı demək olmaz məntək gəlinə,
Gümüş kəmər xub yaraşır belinə,
Yetirəcəm səni düşmən əlinə,
Ağla, oğul, bu gün ölən günündü.

Söz tamama yetdi, qarı gedib taylara od vurdu. Qoşun gəlib Seydi ilə Pərini aparanda Seydi aldı, dedi:

Canım Pəri, gözüm Pəri,
İlqarınnan dönmüyəsən.
Ağıldan olub sərsəri,
İlqarınnan dönmüyəsən.

Qaşların tağı qaradan,
Peykan oxladı yaradan,
İlqar, iman keçib aradan,
İlqarınnan dönmüyəsən.

Seydinin daşın atısan,
Yadlar hörmətin tutusan,
Bu gələn şaha gedisən
Mətlubuna çatmıyasan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydi ilə Pərini apardılar. Pəri xanım götürüb, ağlaya-ağlaya görək nə dedi:

Dağlar abı geyib, ahular qara,
Mənim üçün bu dövrana vay deyim!
Ya rəbbim, dərdimə sən eylə çara,
Çərxi dönmüş bu dövrana vay deyim!

Dəryanın üzündə gəzirdi gəşdi,
Fələyin qəhəri bizə də keşdi,
Meydanın ölübdü gəl bala teşdi,
Mən ağlayım, bu meydana vay deyim!

Mən Pəriyəm, həsrət qaldım, gülümə,
Necə dözüm, allah, belə zülümə,
Qanlı paltarımı alım əlimə,
Gün doğannan gün batana vay deyim!

Hasan paşa əmr elədi:

– Vurun bunun boynunu!

Qazı baxıb gördü ki, Seydi öləsi oğlan döyül, dedi:

– Hasan paşa, biz bunu öldürsək camaat bizdən ikrah olar. Aparaq bəzirgan yolunda su quyusuna tullayaq.

Hasan paşa razı oldu. Cəlladlar onu aparıb quyuya salmaq istəyəndə Seydi dedi:

– Zalım cəllad, qoy bir neçəsini deyim, sonra sal!

İzn verdilər. Aldı Seydi:

İstərəm aybını üzünə deyəm,
Heç kəsinən başa vurmadın dünya!
Əzəl gələnlərə hörmət eylədin,
Sonra gələnləri neylədin, dünya?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neylədin soltanı, neylədin xanı?
Göylərə hökm edən qəhrəman hanı?
Yer, göy padşahı Rüstəmi-Zalı –
O şirin-kirani neylədin, dünya?

Səndən qorxub xan Seydinin ürəyi,
Heç yanında hasil olsun diləyi,
Süleymandı yerin, göyün dirəyi,
Ona da bir izzət etmədin, dünya!

Söz tamama yetdi. Seydini atdılar quyuya. Bir neçə gün Seydi suyun içində qaldı. Əhməd adlı bir tacir gəlib bu quyudan bir az kənarda qəflə-qatırı əyləndirmişdi. Bir nəfər göndərdi ki, quyudan su gətirsin. Seydi kədirdən bərk yapışdı, su çəkən quyuya əyilib Seydini görəndə elə bildi cindi, kəndiri buraxıb çığıra-çığıra qaçdı ki:

– Quyuda cin var.

Əhməd tacir dedi:

– Başın batsın, cin nədi, suyu çək gətir!

Sövdəyərbaşı quyunun başına gələndə aldı Seydi, görək quyunun içində nə dedi:

Əzəl allahın oduynan,
Dilim mövla, mövla deyir.
Bilsmillahın zinyətiynən,
Dilim mövla, mövla deyir.

Kimiydi düşdü dərinə?
Kimiydi çıxdı sərinə?
Günü günorta yerinə,
Çəkib mövla, mövla deyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oxudum sureyi-yasin,
Sinəmdədi şovq, həvəsin,
Yazıx Seydi öx ağasın,
Görüb, mövla, mövla deyir.

Sövdəyərbaşı ipi salladı, Seydi yapışıb kənara çıxdı. O saat ağlı başından gedib bihuş oldu. Bunun üzünə su səpib özünə gətirdilər. Əhməd tacir dedi:

– Mən bunu saxlayacağam.

Əhməd tacir buna yaxşı baxdı, Seydi düzəldi.

Seydi sövdəyərbaşının yanında qalmaqda olsun, Hasan paşa Pəri xanıma adam göndərib sifariş elədi ki:

– Nə deyirsən, toyumuzu eləyəkmi?

Pəri xanım dedi:

– Heç zad demirəm, razıyam, bu şərtnən ki, səmənd atı minib meydanda yeddi dəfə hərləyəsən.

Hasan paşa kimi göndərdi, səmənd at onun başını üzdü. Səs hər yerə yayıldı. Atı gətirənə böyük ənam vəd elədilər. Bunlar burada qalsın, al xəbəri Seydidən. Seydi Sövdəyərə dedi:

– Sövdəyər əmi, mənə atalıq eləmisən, məni ölümdən qurtarmısan. Mənim bir mirazım var, izn ver, mən gedim. Əgər öldüm, çörəyini mənə halal elə, ölmədim, çörəyin özünə çatar.

Söydəyər dedi:

– Get, oğul, çörəyim halalın olsun!

Halal-hümmət eləyib ayrıldılar. Seydi yolda bir dəstə bostançıya rast gəldi. Bostançılardan birinə dedi:

– Gəlsənə paltarımızı dəyişək?

Bostançı razı oldu. Niyə də razı olmasın? Köhnə paltar verib, təzə paltar alır. Seydi bostançı tatdan bir silmə (ağac) də aldı, oldu bostançı tat.

Seydi gedirdi. Hasan paşanın nökərinin biri ona rast gəldi, dedi:

– Bir at var, onu minə bilərsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydi dedi:

– O kimin atıdı?

Dedi:

– Seydi adda bir gorbagor var idi. Onun atıdı. Heç kəs minə bilmir.

Seydi dedi:

– Ax, necə minərəm…

Seydini Hasan paşanın yanına apardılar.

Hasan paşa da ondan soruşdu:

– Bir at var, onu minə bilərsənmi?

Seydi dedi:

– Minərəm, lap canını da alaram. Mən o ata altı ay qulluq eləmişəm.

Hasan paşa dedi:

– Səni dünya malınnan qəni eləyəcəyəm. Get, o atı min. Bunu aparın atın yanına.

Seydi dedi:

– Yox, gərək Seydinin paltarını, yarağını verəsiniz. Yoxsa at məni öldürər.

Bəli, Seydinin paltarını verdilər geydi, yarağına qurşandı, altdan geyindi, üstdən qıfıllandı. Onu atın yanına ötürdülər. At onun üstünə cumanda Seydi ona bir sillə vurdu. Səsindən at onu tanıdı, başını qoydu Seydinin çiyninə, başladı ağlamağa, Seydi də ağaldı. Pəri xanımın nökəri baxırdı. Bunu Pəri xanıma xəbər verdi. Pəri xanım gəldi gördü at da ağlayır, tat da ağlayır. Pəri xanım da ağladı. Ancaq Seydini tanımadı. Hasan xanın nökəri gedib paşaya xəbər verdi. Paşa dedi:

– Necə, at da ağlayır, tat da ağlayır, Pəri də?

Pəri xanım atdan bir az aralı dayanmışdı. Seydi götürüb görək nə deyir:

> Başına döndüyüm, qurban olduğum,
> Seydi ağlar, səmənd ağlar, yar ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yanıb ataşına giryan olduğum,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.

Əlimə alaram xətavət sazı,
Yaxın gəl, eyləmə sən belə nazı,
Soyun qaraları, geyin qırmızı,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.

Ləblərin dönübdü şəkərə, qəndə,
Qadir allah, bəla versin namərdə,
Biçarə Seydini qoyma şərməndə,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.

Pəri xanım Seydini tanıdı, dedi:

– Seydi, xoş gəlmisən!

Onunla əl tutdu. Seydi baxdı ki, qız həm ağlayır, həm də hirsindən tərləyib. Aldı, görək nə dedi:

Bu yarın köçünə mehman gəlmişəm,
Süzülür sinənnən tər şirin-şirin.
Bu yerlərin gözəl seyrəngahı var,
Gətirir bağçamız bar şirin-şirin.

Rüxsarın qəmərdi, dəhanın püstə,
Həsrətin çəkməkdən mən oldum xəstə,
Qoynunan başımı al dizin üstə,
Qoy verim canımı yar, şirin-şirin.

Xan Seydi söyləyər: qadan alım mən,
Əyləngilən, qol boynuna salım mən,
Layiq gör bağında bağban olum mən,
Dərim budağınnan nar şirin-şirin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım istədi ki, Seydinin gəldiyini heç kəs bilməsin. Onun üçün dedi:

Seydi, sana bir ərzim var,
Dolan pünhanı-pünhanı.
Sana qurban püstani-nar,
Dolan pünhanı-pünhanı.

Seyrəğiblər bildirərlər,
Göz yaşını sildirərlər,
Ha bilsələr öldürərlər,
Dolan pünhanı-pünhanı.

Seyrəğib üzü gülməsin,
Qapısınnan kimsə girməsin,
Elə gəl bilən olmasın,
Dolan pünhanı-pünhanı.

Pəri deyər doğru sözü,
Sana qurban ala gözü,
Doğanda danın ulduzu,
Gəl var pünhanı-pünhanı.

Seydi atı mindi, meydana tərəf getməyə başlayanda görək Pəri xanım ona nə tapşırır:

Dərin dəryalara dalıbsan,
Gəl qoyma, səməndim, qoyma!
Bu meydana xoş gəlibsən,
Gəl qoyma, səməndim, qoyma!

Çapdır səməndimi, çapdır,
Kəllədən minarə yapdır,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəhd eylə qarıyı tapdır,
Gəl qoyma, səməndim, qoyma!

Yerişdə səməndim, yerişdə!
Səməndin nalın gümüşdə!
Qazıyı mana bağışda,
Qalanın səməndim, qoyma!

Pəri, sənin nə halındı,
Gülü qonça dahanındı,
İndi ki, meydan sənindi,
Xan səməndim, qoyma, qoyma![6]

Seydi atı sürüb Hasan paşanın qabağında dayandı, dedi:

– Paşa, sən yeddi dəfə demisən, meydanı hərlə, mən iyirmi dəfə hərləyəcəyəm.

Paşa dedi:

– Sağ ol, oğlum, səni razı eləyəcəyəm.

Seydi atı ilə bircə dəfə meydanı hərlədi, sonra gəlib Hasan paşanın qabağında dayandı, aldı, görək nə dedi:

Gəl sana söyləyim, ay Hasan paşa!
Səmənd at yeyəsi gəlsə neylərsən?
Əyricə qılıncı sənə vurarsa,
Səmənd at yeyəsi gəlsə neylərsən?

Hasan paşa dedi:

– Atın yeyəsi çoxdan ölüb. Atı hərlə, nəmərini al, get!

Seydi dedi:

Hayqırıb dağları qubar eyləsə,
Əgər qoşununu tarmar eyləsə,
Misir qılıncını aşkar eyləsə,
Səmənd at yeyəsi gəlsə neylərsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərin-dərin dəryalara dalmışam,
Cavan canımı eşq oduna salmışam,
Mən Seydiyəm, meydanına gəlmişəm,
Səmənd at yeyəsi gəlib, neylərsən?

Söz tamam olan kimi qılıncla Hasan paşanın boynundan vurdu, başı yerə düşdü. Əsrəmiş nər kimi özünü qoşuna vuranda Pəri xanım qoymadı. Qarını tapıb gətirdilər, bir dəli qatırın quyruğuna bağladılar.

Təzədən yeddi gün, yeddi gecə toy elədilər. Toyun axırında bir ustad aşıq aşağıdakı duvaqqapma ilə toyu sona verdi:

Genə gəldi bahar fəsli,
Aləmi roşən bəzənib.
Seçmə gözəllər əyninə
Geymiş zərnişan, bəzənib.
Baxırsan sağa, sola,
Görürsən hər yan bəzənib.
Səf çəkib huri, mələk,
Pəriyü-qılman bəzənib.
Nasaq qılmayan dilimə,
Qoy deyim dastan bəzənib.

Baxmasın gözəllərə
Adamların bəd nəzəri.
Əndəlib nalə çəkib,
Ölməsin güldən ötəri.
Naz ilə canım alan,
Olubdur dilim əzbəri.
Yaradan bir rəhm elə,
Pozulmasın bu səfləri.
Fəhm elə, diqqət elə.
Gör necə canan bəzənib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözəllər tər əndama,
Geyinibdir ağı yenə.
Can cəsəddən ayrılır,
Qalmadı bir tağı yenə.
Ala gözlər süzüləndə
Eyləyir nasağı yenə.
Şənini vəsf eləyim,
Bir şuxi tərlan bəzənib.

Gəzmişəm, görməmişəm,
Mən bir belə gül camalı.
Gülgəz yelənli kalağay,
Bürüyübdür qəddi-dalı.
Hal bilən, şirin gülən,
Ağ üzündə qoşa xalı.
Rəhm elə, mürvətə gəl,
Salma belə qilü qalı.
Qoy deyim, bu məclisdə
Nə gözəl dövran bəzənib.

Dərdlilər təbib deyib
Yığılıb dərmana bügün.
Gözəlin gül camalı
Şoq salır hər yana bugün.
Yanıram atəşinə
Mən mərdi-mərdana bugün.
Yazıq Hüseynin könlünü
Eyləmə virana bugün.
Aşıqlar qara geyib,
Gözəllər əlvan bəzənib.

Seydi orada padşah olub, dövran keçirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# *QEYDLƏR*

## QUL MAHMUD

Bu variant 1960-cı ildə Ağköynək kəndində yaşayan Aşıq Məmmədyardan toplanmışdır. Dastan ilk dəfə nəşr edilir.

## «NOVRUZ»

1. A ş ı q  M ə n s u r – Qazax aşıqlarındandır. Nə zaman anadan olduğu və nə zaman öldüyü barədə dəqiq məlumat yoxdur. Bəzi aşıqların dediyinə görə, XIX əsrin sonlarında yaşamışdır.

2-3. Bu bəndin rədifi olan «Qoyma gəl»in əslində «Qoyma gil» olduğunu da ehtimal etmək mümkündür.

4. Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda bu qoşma belə deyişmə şəklindədir:

Aldı Zeynəb:

Başına döndüyüm, qurban olduğum,
Oğul, gəl getmə, aman günüdü!
Ala gözlərinə heyran olduğum,
Oğul, gəl getmə, aman günüdü!

Aldı Novruz:

Başına döndüyüm, ay fağır ana,
Ana, hümmət eylə, mən gedər oldum!
Əmmişəm südünü mən qana-qana,
Ana, hümmət eylə, mən gedər oldum!

Aldı Zeynəb:

Baban xarac aldı divanxanadan,
Ölmədik qurtaraq qəmli dünyadan;
Oğul olan meylin üzməz anadan,
Oğul, gəl getmə, aman günüdü!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Novruz:

Qurban olum aşıqların pirinə,
Onları yetirir biri-birinə;
Babam bağışlasın taci-sərinə,
Ana, hümmət eylə, mən gedər oldum!

Aldı Zeynəb:

Odlara yandırdın fağır Zeynəbi,
Hicrinin düşkünü, qəmin ərbabı;
Oğul, gəl sən bir də çağır allahı,
Oğul, gəl getmə, aman günüdü!

Aldı Novruz:

Unutma Novruzu, salgilən yada,
Sən dua qıl, mən də yetim murada,
Yarsız necə dözüm fani dünyada,
Ana, hümmət eylə, mən gedər oldum!

5. «Qoşmalar» kitabında bu şer belə getmişdir:

Gecə ayaz, gündüz bulud,
Ana, yaş köynəyim qurut!
Yoxdu məndən sənə ümid,
Qaldım dəryada, dəryada.

Bu dəryada balıq çoxdu,
İnsanata ölüm haqdı,
Beş arşın kəfənim yoxdu,
Qaldım dəryada, dəryada.

Novruz ağlar yana-yana,
Balıqlar oldu divana;
Yandı bağrım, döndü qana,
Qaldım dəryada, dəryada.

6. Ö v l i y a – vəli, ənbiya isə nəbi sözünün cəmidir. Peyğəmbər mənasında işlədilmişdir.

Ə r ə n l ə r – müqəddəslər, ərlər, kişilər deməkdir. Bəlkə də «ermək» sözü ilə bağlı olub, «haqqa ermişlər» mənasını daşıyır.

7. Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda bu qoşma belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarlı dağlar genə gözümdən itdi,
Kərəm eylə, qoyma məni dəryada!
Ərşi, gürşü, yeri, göyü yaradan,
Kərəm eylə, qoyma məni dəryada!

Hanı mənim ilə yola varanlar?!
Dəryaya qərq oldu neçə min canlar;
Ərşlar, gürşlər, yerlər, göylər, ərənlər,
Kərəm eylə, qoyma məni dəryada!

Yüz iyirmi dörd min nəbi, on dörd sahaba,
Onlar yetişdikcə haqq-hesaba,
Tut Novruz qolundan, yetir Qəndaba,
Kərəm eylə, məni qoyma dəryada!

Laçınlı Məşədi Dadaşdan toplanmış variantda isə bu qoşmanın bir bəndi belədir:

Könül havalanıb ağasın gəzir,
Bu müşkül halımda sən olsan hazır;
Sənə qurban olum, ya həzrət Xızır,
İrəhm eylə, qoyma məni dəryada!

8. X ı d ı r İ l y a s (X ı z r) – dini əfsanələrə görə, İsgəndərlə birlikdə zülmata gedib, dirilik suyunu içmiş, bununla da əbədi həyat qazanmış peyğəmbərdir. Xızr bizim xüsusilə şifahi ədəbiyyətımızda yol itirənlərə kömək edən, aşiqlərə buta verib, sonra da öz məşuqələrinə çatdıran, uzaq yol getməli olanları az bir müddət içərisində istədiyi yerə yetirən, şairlərə ilham, aşıqlara aşıqlıq verən mövhum bir varlıq kimi təsəvvür və təsvir edilir. Xalq içərisində gəzən əfsanələrə görə, hətta Füzuliyə də şairlik istedadını və Füzuli təxəllüsünü o vermişdir.

Əsil həqiqətdə isə Xızr – yaşıllıq, yeni həyat, oyanmış təbiət deməkdir. Beləliklə, Xızr əsil həqiqətdə çox qədim görüşmələrlə əlaqədar əsatiri surətdir. İlya və yaxud İlyas isə çox qədim su məbudunun adıdır. Məlum olduğu üzrə, bizdə bu iki əsatiri surət çox zaman birlikdə yad edilir. Hətta çox zaman onları bir şəxsiyyət–surət hesab edərək Xıdır İlyas adlandırırlar. Xalq arasında:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xıdır İlyas, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz –

misraları ilə başlayan bir yaz bayramı mahnısı da vardır.

Xalq təsəvvüründə bu iki əsatiri surətin birləşməsi tamamilə qanunauyğundur. Susuz yaşıllıq, yağışsız bahar yoxdur. Ancaq bunların birləşməsi sayəsində «çiçək bitib, yaz başladığı» kimi xızr, yəni yaşıllıq məbudunu da ancaq abi-həyat içdikdən, yəni İlyasla birləşdikdən sonra əbədiyyət qazanmış olur.

9. Q a v v a s – əsil mənası dalğıcdır. Ədəbiyyatımızda dərin dəryalara dalmağı bacaran, inci tapmaq məharətinə malik olan ustad, sənətkar mənasında da işlədilir.

10. Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda bu şer belədir:

Nə müddətdi sən burada qalmısan,
Heyva kimi saralmısan, solmusan;
Xudam yetiribdi bura gəlmisən,
Oğul, dur götürüm xanama səni!

Dərin-dərin dəryalara dalmısan,
Dərdi, qəmi şirin cana salmısan,
Nə müddətdi sən burada qalmısan?
Oğul, dur götürüm xanama səni!

Bu qəmü qüssələr yadımdan çıxdı,
Əkdiyim meyvələr barına yetdi,
Oğul, piri-miskin qoca Əhməddi;
Oğul, dur götürüm xanama səni!

11. Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda bu qoşma belədir:

Fələk məni bir sevdaya salıbdı,
Gör necə keçinir hallarım mənim.
Bülbül idim, gül həmdəmim itirdim,
Soldu bənövşəli güllərim mənim.

Nə uymusan bir gözəlin sözünə,
Necə dözüm işvəsinə, nazına?
Necə deyim xoca Əhmədin özünə,
Gözlər Qəndab pəri yollarım mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aynabənd otaqlar qaldı şüşəli,
Üstləri bəzəkli hazar peşəli.
Atam diyarbəkirli Kərim paşadı.
Novruzam, necoldu qullarım mənim.

12. Bir sıra variantlarda Novruzla Gülşanın deyişməsi belədir:

Aldı Gülşan:

Cavan oğlan, gəl, allahı sevərsən,
Oğlan, gəl getmə sən, qoymaram səni!
İndi gedirsən, bəs haçan gələrsən?
Oğlan, gəl getmə sən, qoymaram səni!

Aldı Novruz:

Başına döndüyüm gülüm, Gülşanım,
Ağlama Gülşanım, gözlə, yar, məni!
Ölürsəm, yolunda halaldır canım,
Ağlama Gülşanım, gözlə, yar, məni!

Aldı Gülşan:

Gülşanın sözünü qoysan hesaba,
Haqq ilə yetişsən çahar əshaba;
Səni and verirəm otuz kitaba,
Oğlan, gəl getmə sən, qoymaram səni!

Aldı Novruz:

Payız olcaq bağlar tökər xəzəli,
Şəyird olan ustadından söz alı,
Adam boşlayarmı səntək gözəli,
Ağlama Gülşanım, gözlə, yar, məni!

Aldı Gülşan:

Mən Gülşanam, neyləmişəm, neyliyim,
Xəncər alıb, bağrım başın teyliyim;
Bir canım var, sənə qurban eyliyim,
Oğlan, gəl getmə sən, qoymaram səni!

Aldı Novruz:

Novruz gedib qərib eldə qalmasa,
Saralıban gültək rəngi solmasa,
Əcəl gəlib canımızı almasa,
Ağlama Gülşanım, gözlə, yar, məni!

Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda bu şer belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Gülşan:

Başına döndüyüm, qurban olduğum,
Getmə, bəy Novruzum, qarğaram səni!
Qalmadın, dünyada sürək bir səfa,
Getmə, bəy Novruzum, qarğaram səni!

Aldı Novruz:

Başına döndüyüm, qurban olduğum,
Ağlama Gülşanım, gözlə, yar, məni!
Ala gözlərinə heyran olduğum,
Ağlama Gülşanım, gözlə, yar, məni!

Aldı Gülşan:

Mən də Gülşanam güllü gülşanda,
Ayrılıq peykanı qaldı bu canda;
O ruzi-məhşərdə, haqq divanında
Tutaram qolundan ay oğlan sənin!

Aldı Novruz:

Novruz gedib qürbət eldə qalmasa,
Heyva kimi gül rəngi solmasa,
Əcəl gəlib peymanama dolmasa,
Ağlama Gülşanım, gözlə, yar, məni!

13. «Qoşmalar» kitabında bu qoşmanın iki bəndi belədir:

Qarlı dağlar gəldi, keçdi aradan,
İtirdim Qəndabı–maralı, dağlar!
Yeri, göyü, ərşi, fərşi yaradan,
Yarı saldı məndən aralı, dağlar!

Mənim sağlığıma kim guman eylər,
Boran vurar, halım çox yaman eylər,
Qarlı dağlar gündə yüz min qan eylər,
Yanan çıraqlarım qaralı, dağlar!

Ərəfsəli Aşıq Hətəmdən toplanmış variantda isə belədir:

Yaman düşdüm vətənimdən dərbədər,
İtirdim Qəndabı, maralı dağlar!
Bu duman, bu çiskin səndə nə qayda?
Çox çıraqlar səndə qaralı, dağlar!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uca dağlar başı çən duman olar,
Boran gündə yüz min əbəs qan elər.
Mənim gəlməyimi kim güman elər,
Gen dünya başına dar olu, dağlar!

Bir kimsənəm yoxdu məni dindirə,
Dindiribən ərzi-halım bildirə;
Bir ah çəkəm naləm səni yandıra,
Mən Novruzam, sinəm yaralı, dağlar!

14. «Qoşmalar» kitabında bu qoşma belə getmişdir:

Bir sözüm var neylim, deyə bilmirəm,
Sən olasan yaradanın, irəbbin!
İyid oğlu dediyindən dönməsə,
Qorxuram ki, şahım, tuta qəzəbin.

Ayaq torpağına ziyarətim var,
Dildə kəlmə, gözdə işarətim var,
Nə müddətdi səndə əmanətim var,
Neyləyim, demərəm sözün hesabın.

Nə müddətdi qaldım şahın qulunda,
Bir kimsə də yoxdu Misir elində,
Bu canımı verrəm yarın yolunda,
Novruzam, istərəm Telli Qəndabı.

Bu qoşmanın belə bir variantı da vardır:

Ayaq torpağına ziyarətim var,
Əl duada, dildə ibadətim var,
Nə müddətdi səndə əmanətim var,
Üzüm tutmur, eyləyirəm hicabı.

Nə müddətdi qaldım şahın qolunda,
Bir kəsim yox mənim Misir elində,
Bir canım var nazlı yarın yolunda,
Novruzam, istərəm Telli Qəndabı.

15. Bu qoşmanın belə bir variantı da vardır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qədir allah, özün yaxşı bilirsən.
Suçum nədi bu günaha yetişdim?
Ayrı düşdüm vətəndən, qohum-qardaşdan.
Qolu bağlı bərk zindana yetişdim!

Bülbülün nalası bağı yandırır,
Ahunun nalası dağı yandırır,
Şam şöləni verir, yağı yandırır,
Pərvanətək yana-yana yetişdim!

Surfa saldım, surfa yarın görmədim,
Bostan əkdim, şamamasın dərmədim,
Cəfa çəkdim Qəndab yarı görmədim,
Dərdi möhnət bir Kənana yetişdim!

Hər kimsə düşməsin mən düşən dərdə,
Mərd əlimiz bağlanıbdı namərdə,
Atam Kərim paşa Diyarbəkirdə,
Novruzam, Misirdə cana yetişdim!

16. «Qoşmalar»da bu qoşma ancaq Qəndabın dilindən belə getmişdir:

Dağda bitər dürlü-dürlü lalələr,
Ana, mənim dərdim Novruz dərdidi.
Yar ucundan çəkdiciyim bəlalər,
Ana, mənim dərdim Novruz dərdidi.

Bir namə yazaram atam yanına,
Bizimki də qalsın hax divanına,
Öldür, qanımı qat Novruz qanına,
Ana, mənim dərdim Novruz dərdidi.

Atam o yazığa buyurdu fərman,
Davasız dərdimə kim eylər dərman?
Bu Telli Qəndabın Novruza qurban,
Ana, mənim dərdim Novruz dərdidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

17. Laçında Məşədi Dadaşdan toplanmış variantda bu qoşmanın birinci bəndi belədir:

Əzəl başdan andü qəsəm eyləyən,
Qəsəmindən məgər dönər, soltanım?!
İki nocavana sitəm eylədin,
Yanan çıraqların sönər, soltanım!

18. Dastanın bir variantında bu şer sadəcə gəraylı şəklindədir. Birinci üç bəndi də belədir:

Mənim bu müşkül dərdimə,
Sən yetiş, rəbbim, haray!
İçmişəm qırxlar əlindən,
Qənd ilə şərabım, haray!

Hanı mənim taxtü tacım,
Kimsəyə yox ehtiyacım.
Vəzir qızı Xanım bacım;
Haqq versin mətləbim, haray!
Səni tutar təbim, haray!

Hanı mənim xanımanım?
Sizə qurban fağır canım,
Vəkil qızı Banı xanım,
Sən deyilsən babım, haray!

«Dastanlar və nağıllar»da getmiş variantda isə belədir:

Hanı mənim taxtü-tacım,
Kimsəyə yox ehtiyacım,
Vəzir qızı Xanım bacım,
Haqq versin mətləbim, haray!

Hanı mənim xanımanım,
Sizə qurban yazıq canım,
Vəkil qızı Banı xanım,
Sən deyilsən babım, haray!

Sənə qurban olum, tanrı,
Çıxart könlümdən qubarı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qazı qızı Göhər pəri,
Sal, yeri, nikabın, haray!

19. «Qoşmalar»da bu deyişmə belə getmişdir:

Aldı Kəlləgöz:

Əcəm oğlu, bir badə iç,
Mənimtək aslan əlindən.
Oynadaram, gözəl kəhlik,
Alaram tərlan əlindən.

Aldı Novruz:

Qadir allah, azad eylə,
Keçir güzaran əlindən;
Qoy başımı alım gedim
Bədəsil düşman əlindən

Aldı Kəlləgöz:

Ağzın dağıtma, heyvərə!
Gününü eylərəm qara!
Ellər bütün gəlib zara
Kəlləgöz qəhrəman əlindən.

Aldı Novruz:

İyid meydanda hərlənər,
Meydan gumur-gumurlanar,
Kəllə dönər, dığırlanar,
Həzaran qalxan əlindən.

Aldı Kəlləgöz:

Görürsənmi qulbeçəni?
Dürrü mərcandan seçəni.
Göndərirəm qan içəni,
Dağ qaçar duman əlindən.

Aldı Novruz:

Novruz dağı dəlmək istər,
Misri qılınc çalmaq istər,
Kor yapalaq almaq istər,
Sonanı tərlan əlindən.

20. «Qoşmalar»da Novruzla Şəhriyarın deyişməsinin üç bəndi belə getmişdir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Novruz:

Dərdin alım, gözəl, neçün mələrsən?
Söyləsən halını yar, sənə qurban!
Mən bülbüləm, güldən ötrü yanaram,
Layiq deyil qona xar, sənə qurban!

Aldı Şəhriyar:

Qərib oğlan, sən allahı sevərsən,
Buyur bir yanımda qal, sənə qurban!
Nə müddəti mənim könlüm məluldu,
Bu qəmli könlümü al, sənə qurban!

Aldı Novruz:

Mayıl oldum mən camalın görəndə,
Nə qalmısan xarab eldə, viranda,
Yoxdur sənin kimi əhli-danəndə,
Köç, bizim ellərə gəl, sənə qurban!

Tovuzlu Aşıq Əlidən toplanmış bir variantda isə deyişmənin iki bəndi belədir:

Aldı Şəhriyar:

Başına döndüyüm, ay qərib oğlan,
Bu pünhan dərdimi bil, sənə qurban!
Yeddi ildi tərki-vətən olmuşam,
Məni də kəndinə al, sənə qurban!

Aldı Novruz:

Başına döndüyüm, nazlı Şəhriyar,
Köç, bizim ellərə var, sənə qurban!
Mən bülbüləm, güldən ötrü yanıram,
Qoymaram qonmağa xar, sənə qurban!

## «ALI XAN»

1. Təkəbbür insana salam eyləməz – təkəbbürlü adam, dikbaş adam insana salam verməz.

2. Səyrəqib kimsəyə ənam eyləməz – əslində səg – it, rəqib – düşmən deməkdir. Şifahi ədəbiyyatımızda, xüsusilə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aşıq şerində «seyrəqib»-pis adam, başqasına məxsus olan şeyə göz dikən mənasında işlənir.

3. Ş ə c ə r ə d ə n  b a ş  v e r i b,  a y  n ə s i b  e y l ə – şəcər – ağac, sib – alma deməkdir.

4. N ə  C ə m ş i d  p a d ş a h,  n ə  d ə  C ə m  q a l d ı – Cəmşid «Şahnamə»yə görə Pişdadyan sülaləsinin dördüncü padşahı, ən əzəmətli hökümdardır. Əfsanə və rəvayətlərə görə, guya 700 il yaşamış, novruz bayramını o əsaslandırmış, şərabı o icad etmişdir. Bu ad bəzən «Cəmşid», bəzən «Cəmşidi-cəm», bəzən də sadəcə «Cəm» şəklində işlədilir. «Cəm» sözünün «cəm – cam», yəni piyalə, qədəh mənasını da daşıması bu surətin şərabla əlaqələndirilməsinə, hətta şərabı icad edən bir sima kimi tələqqi edilməsinə səbəb olmuşdur. Əslində isə çox qədim əfsanələrlə əlaqədar olan bu əsatiri surətin adı Cəm, «şid» isə parlaq, işıqlı, müqqədəs deməkdir.

5. Ç o v u ş – bu sözün müxtəlif mənaları vardır. Burada Məkkəyə gedənlərə bələdçilik edib aparan və geri qaytaran adam deməkdir.

6. «Dastanlar və nağıllar» kitabında gedən variantda bu şerin son bəndi belədir:

Qadan qaldı bu pərinin canında,
Pərvanələr yandı şamın yanında;
Üzün qara olar haqq divanında,
Tapdıq, çıxma yoldan, aman günüdü!

7. B a l a x a n a – bala–yuxarı; üst; xana-ev, otaq deməkdir. Əksər rayonlarımızda evin ikinci mərtəbəsində olan balaca otağa balaxana deyilir.

8. «Dastanlar və nağıllar» kitabında getmiş variantda bu şerin iki bəndi belədir.

Aldı Pəri xanım:

Bircə desəm görüm, günahım hansı?
Silinsin, könlümün qalmasın pası,
Düldülün sahibi, Qəmbər ağası,
Evladi-Musaya bağışla məni.

Aldı Məhəmməd:

Sənə qurban olsun ömrümün varı,
Sənsiz mən çəkərəm, bil, ahu zarı;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çuğulluq eylədi Tapdıqla qarı,
Bacı, qarı görmə bu işdə məni!

9. 1959-cu ildə Zəyəmli Aşıq Mehdidən toplanmış variatda bu deyişmənin dörd bəndi belədir:

Aldı qız:

Zalım atam məni sürgün buyurdu,
Onunçün qalmışam burda yaralı;
Məni əcəl şərbətinə doyurdu,
Günü-gündən gül irəngim saralı.

Aldı Alı xan:

Zalım atan səni sürgün buyursa,
Xəncəl alıb qara bağrım oyursa,
Fələk vurub səni məndən ayırsa,
Heç açılmaz könlüm səndən aralı.

Aldı Pəri xanım:

Seyrağıblar bir-birinə uydular,
Şərü böhtan mən yazığa qoydular.
Xəncəl alıb, qara bağrım oydular,
Onunçün düşmüşəm eldən aralı.

Aldı Alı xan:

Qoşundan ayrılıb gəldik biz pünhan,
Söylə dərdin mənə nişanbanişan.
Sana qurban olsun vannı Alı xan,
Söylə görüm, gözəl, əslin haralı?

Qazaxlı Aşıq Həsəndən toplanmış variantda bu deyişmə belədir:

Səhər olcax bir ov çıxdı qarşıma,
Könül səni gördü, ya bir maralı.
Üzün mahi-taban, camalın günəş,
Elə sandım sənsiz yer, göy qaralı.

Aldı Pəri xanım:

Qardaşım sinəmi şan-şan eylədi,
Yaralıyam mən, başına döndüyüm!
Xəncərinən qara bağrım teylədi;
Yaralıyam mən, başına döndüyüm!

Aldı Alı xan:

Ay ağalar, neyləmişəm, neylərəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəncərinən qara bağrım teylərəm;
Bir canım var, sana qurban eylərəm,
Söylə görüm kimsən, əslin haralı?

Aldı Pəri xanım:

Səhər-səhər doğan dan ulduzuyam,
Atamın, anamın xoş avazıyam.
Adım Pəri, Hacı Sayad qızıyam,
Yaralıyam mən, başına döndüyüm!

Aldı Alı xan:

Qoymuşam yolunda mən bir şirin can,
Didələrim yaş yerinə verər qan;
Sana qurban olsun vanlı Alı xan,
Könlüm heç düşməsin səndən aralı.

10. Qazaxdan toplanmış variantda bu şer belədir:

Ay ağalar, neyləmişəm, neylərəm,
Xəncəlinən bağrım başın teylərəm,
Bir canım var yara qurban eylərəm,
Yaralıyam mən, başına döndüyüm!

Çarxı-fələk gör nə işlər qayırdı,
On yaşından gözlərimi doyurdu,
Zülümünən qardaşımdan ayırdı,
Yaralıyam mən, başına döndüyüm!

Pənah gətdim qəbirsanlıq daşına,
İrəhm eylə gözdən axan yaşıma,
Pəri deyər: dönüm, Alı xan, başına,
Qayıt, götü, xan, başına döndüyüm!

11. Şəmkirli Aşıq Mehdidən toplanmış variantda Alı xanın dilindən deyilən qoşmanın iki bəndi belədir:

Aldı Alı xan:

Başına döndüyüm, gül üzlü Pərim,
Pərim, gedirsən, bəs haçan gələrsən?
Can ayrıldı, cəsəd qaldı verana,
Yarım, gedirsən, bəs haçan gələrsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəs mən necə tab gətirim fərağa?
Qaralar geyinim başdan ayağa;
Alı xanı salma gözdən irağa,
Yarım, gedirsən, bəs haçan gələrsən?

Laçın rayonunun Qılıclı kəndində yaşayan Haqverdidən toplanmış variantda Pərinin dilindən deyilən qoşmanın iki bəndi belədir:

Aldı Pəri xanım:

Bu ahu fəryadım başımdan aşıb,
Qürbət vilayətdə ürəyim bişir,
Atam-anam yaman yadıma düşüb,
Yarım, gedərgiyəm, yenə gələrəm.

Pəri ilqar verdi, getdi yüz ilə,
Qorxursnamı əlin məndən üzülə?
Özün tapşır məni Qara Vəzirə,
Yarım, gedərgiyəm, yenə gələrəm.

12. «Dastanlar və nağıllar» kitabında getmiş variantda bu şer belədir:

Qara Vəzir, sən allahı sevərsən,
Öldürmə oğlumu, aman günüdü!
Öldürübən mənə zülüm elərsən,
Öldürmə oğlumu, aman günüdü!

Bir çıxmadım eyvanına, köşkünə,
Fələk kəmənd atdı ömrüm beş günə;
Adı bəlli gözəl şahın eşqinə,
Öldürmə oğlumu, aman günüdü!

And içirəm mərd iyidlər sərinə,
Yaradanın ərəninə, pirinə,
Qiya baxsan, səni salar dərinə,
Öldürmə oğlumu, aman günüdü!

13. Bu qoşmanın belə bir variantı da vardır:

Gələn bəzirganlar, gedən xocalar,
Bu naməni Alı xana yetirin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yata bilməm ay qaranlıq gecələr,
Bu naməni Alı xana yetirin!

Naməni yazanın şuxdu qələmi,
İmrandı dilləri, xoşdu kəlamı;
Qırdı oğlanlarım kürvə haramı,
Bu naməni Alı xana yetirin!

Pəri deyər: dərdim bir üz, bir üzdü,
Həkim, loğman bağlar bir üz, bir üzdü;
Xəbər alsa, bilsin, yerim Bitlisdi,
Bu kağızı Alı xana yetirin!

14. Qazaxlı Aşıq Həsəndən toplanmış variantda bu şer belədir:

Aldı Pəri xanım:

Nagah yerdən urcah oldum,
Pənah gətdim sənə, qardaş!
Hər dərdlərdən xilas oldum,
Pənah gətdim sənə, qardaş!

Aldı çoban:

Nagah yerdən urcah oldun,
Pənah gətdin mənə, bacı!
Dərdlərindən agah oldum,
Pənah gətdin mənə, bacı!

Aldı Pəri xanım:

Dərin dəryaya dalarlar,
Canım odlara salarlar,
Durmazlar, indi gələrlər,
Pənah gətdim sənə, qardaş!

Aldı çoban:

Dərin dəryaya dalaram,
Canım odlara salaram,
Qisasın özüm alaram,
Qoymanam divana, bacı!

Aldı Pəri xanım:

Mən Pəriyəm, günü qara,
Günü gündən qəlbim yara;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dilimdən çəkdilər dara,
Pənah gətdim sənə, qardaş!

Aldı çoban:

Nə gəzirsən dağdan dağa?
Canım yolunda sadağa;
Nə sözün var de Budağa,
Canım qurban sənə, bacı!

15. Qazaxlı Aşıq Həsəndən toplanmış variantda bu şer belədir:

Başına döndüyüm, qurban olduğum,
Əgər görsən, Alı xana de gəsin!
Alışıb oduna qurban olduğum,
Əgər görsən, Alı xana de gəsin!

Haradan görəsən tapasan onu,
Oddan köynəyidi, alovdan donu;
Ətəyin tutaram qiyamət günü,
Əgər görsən, Alı xana de gəsin!

Mən Pəriyəm, fələk eylədi sitəm,
Nə ola o yarın əlindən tutam;
Fələyin padşahı bürcündə yatan,
Mənsurtək çəksələr dara, de gəlsin!

16. «Dastanlar və nağıllar» kitabında getmiş variantda bu şerin iki bəndi belədir:

Qadir mövlam, sən bilirsən,
Qovğalıdı başım mənim!
Ayrı düşdüm Pəri xandan,
Nə müşküldü işim mənim!

Nə acı mənim avazım,
Dərdimi dəftərə yazım:
Düşüm qürbət ellər gəzim,
Dərvişlikdir peşəm mənim!

17. «Dastanlar və nağıllar» kitabında gedən variantda bu şerin dörd bəndi belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Alı xan:

Başına döndüyüm, sövdəyər başı,
Namə yazan gözəl Pərim necoldu?
Ayağına dəyməsin yolların daşı,
Namə yazan o dilbərim necoldu?

Aldı bəzirgan:

Başına döndüyüm, ay Alı dərviş,
Namə mənə nagah yerdən tuş oldu.
Ağladı, didədən getdi qanlı yaş,
Namə mənə nagah yerdən tuş oldu.

Aldı Alı xan:

Tanımam sultanı, tanımam xanı,
Görünmür nazlı yar, görünmür, hanı?
Gəl sən sızıldama bu Alı xanı,
Namə yazan mehribanım necoldu?

Aldı bəzirgan:

Dolandım dünyanı, oğul, hər nə var,
Dadına yetişsin Heydəri-kərrar,
Sənə qurban olsun Saleh sövdayar,
Namə mənə nagah yerdən tuş oldu.

18. Qazaxlı Aşıq Həsəndən toplanmış variantda bu şer belədir:

O vaxtı ki, Tapdıx gəldi bazardan,
İstədi ki, məndən kam alı, dərviş!
Seyrağıbı qurtarmasın azardan,
İstədi məninən cəm olu, dərviş!

O vaxtı ki, çıxdıq Vandan, İrandan,
Namus deyib, keçdik başınan candan,
Duran bəylər, xəbər alın çobandan,
Üç qaldıq orada yaralı, dərviş!

Qanlı fələk genə bizi dindirdi,
Gözlərimi qanlı yaşla doldurdu,
Qara Vəzir bir cüt balam öldürdü,
Qanlarına qanı sən alı, dərviş!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər-səhər doğan dan yıldızıyam,
Aşıqların söhbətiyəm, sazıyam,
Adım Pəri, Hacı Sayad qızıyam,
İstərsən göstərim camalı, dərviş!

Ordubadlı Havva Həsən qızından toplanmış variantda isə belədir:

Nə zamandan tərki-vətən olmusan,
Şatırlı, şuturlu, mayalı dərviş!
Dindirrəm, başını salar aşağı,
Gəlindən abırlı, həyalı dərviş!
Gəzirsən Bitlisi yaralı dərviş!

Nə istərsən gedim alım bazardan,
Səyrağıbı qurtarmasın azardan,
O gün oldu Tapdıx gəldi bazardan,
İstədi mənimlə kam alı, dərviş!

Qüdrətdən qələm çəkmiş qaşa da,
Yazılanlar əlbət gələr başa da,
Qırx gün qoydu bir qaranlıq meşədə,
Sənin itirdiyin maralı dərviş!

Duran vəzir, sən ha məni dindirin,
Dindiribən cin atına mindirin,
Qara Vəzir, bir cüt oğlum öldürdün,
İstəsə qanıma qan alı, dərviş!

Qarşında durmuşam, sən məni tanı,
Gedərik, inşallah, vətənə sarı,
Atam Hacı Sayad, öz adım Pəri,
İstəsən göstərim camalı, dərviş!

Şəmkirli Aşıq Mehdidən toplanmış variantda isə qoşma belədir:

Sən nə üçün tərki-vətən olubsan,
Qəfləli, qatırlı, mayalı dərviş?
Dindirəndə bircə kəlmə dinməzsən,
Gəlin-qızdan abır-hayalı dərviş?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözəl atam məni saldı nəzərdən,
Seyrağıbı qurtarmasın azardan,
Xanı öyrətdi Tapdıx gəldi bazardan,
Eylədi bir ayrı xiyalı, dərviş!

Zalım fələk məni yaman dindirdi,
Dindiribən eynim qannan doldurdu,
Qara Vəzir bir cüt oğlum öldürdü,
İstəsən qanına qan ala, dərviş!

O vaxt ki, Vandan çıxdım İrandan,
Yar yolunda keçdim baş ilə candan,
Xəbər al bu duran Budaq çobandan,
Mən çox gözləmişəm yaralı, dərviş.

## «LƏTİF ŞAH»

Bu dastan Aşıq Şenliyin hicri 1262-ci ildə yazdığı «Lətif şah» dastanının bir variantıdır. Bu variant 1944-cü ildə Laçın rayonundakı Minkənddə yaşayan İfrat Cəfər oğlundan toplanmışdır. Toplayanı Əhliman Axundovdur.

1. A ş ı q  A l ı – təqribən 1820-ci illərdə Göyçə mahalının Qızılvəng kəndində anadan olmuşdur. XIX əsrin aşıq musiqisinə bələd olan ən görkəmli el şairlərindən biridir. Onlarca aşığın ustadıdır. Aşıq Ələsgər də onun yetirmələrindəndir. 1907-ci ildə öz kəndlərində vəfat etmişdir. Yaxşı dastanları, aşıq havaları və ustadnamələri ilə məşhurdur.

2. Bu şerin ilk iki bəndi Aşıq Şenliyin «Lətif şah» dastanında belədir:

Xab içində yatan bixəbər oğlan,
Bir od salıb şirin cana, gedirəm.
Dərdindən mən oldum dəli-divana,
Atəş tutdub, yana-yana gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yetircək tökərəm yaşılı, alı,
Qaraları geyib, gözlərəm yolu.
Saxlaynan yadigar bu ərzi-halı,
Sana verib bir nişana gedirəm…

3. D ö n  b ə r i,  q ı z,  g ü n ə ş  ç ı x s ı n  o y u n a – bəri dön ki, günəş səni ovlamaq üçün şikarına çıxsın.

4. Bu şer Aşıq Şenlikdə belədir:

Yığılıban seyrəngaha çıxıblar,
Böyün bayramıdır, bəli, qızların.
Bir-birinə nazü qəmzə satırlar,
Ətr saçır sərində teli qızların.

Baharın gözüdü haramı, yağı,
Məhbub da sinəmə çəkibdi dağı;
Gülüstannan Güllü dolanır bağı,
Yox imiş fəndinən feli qızların.

Salatın sallanır, gəzir bir təhər,
Saçının qoynudu bağıstan, şəhər:
Sarıtelnən Sona gəlir hər səhər,
Bülbül sədalıdı dili qızların.

5. Bu bəndin misraları, şübhəsiz, pozulmuşdur. Son misra, ehtimal ki, «biçildi məhəbbətimin, eşqimin gül budaqları» mənasındadır.

6. Bu deyişmə Aşıq Şenlikdə belədir:

Aldı Lətif şah:

Kəsildi nişana, yad oldu vətən,
Gözdən itdi bizim yerin dağları.
Leyl, nahar intizarım var canda,
Bülbül fəğan eylər sübhün çağları.

Aldı Lələ:

Səbr eylə sən hər zülmün bəlasına,
Fələk dərgahində sınar çağları.
Bir darışlığa verər min genişlik,
Qüdrətindən o var edib yoxları.

Aldı Lətif şah:

Yaxın mənzilimiz həsrət daşıdı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cismimi yandıran eşq ataşıdı;
Eldən ayrı düşmək haqqın işidi,
Fələk vurub ayrı saldı sağları.

Aldı Lələ:

Ricaynan içilməz fələyin zəhri,
Salıbsan zəhmətə, çəkərəm qəhri;
Talandı könlümün nayiman şəhri,
Sınıbdı qəlbimin dal budaxları.

Aldı Lətif şah:

Lətif şah da vətənindən cidadı,
Üstümüzdə qadir mövlam xudadı;
Fələk bizi oxyayıynan budadı,
Soldu Səlbim şəccarəsi, tağları.

Aldı Lələ:

Qəmginli Ləlɘyəm, artırma cəzam,
Od tutuban yanır cəsədim, əzam;
Artar bu dərd-qəmim, əksilməz qəzam,
Sönübdü könlümün şam çıraqları.

7. Bu deyişmə Aşıq Şenlikdə belədir:

Aldı Mehriban Soltan:

Mən səni görəndə aslan donunda,
Əlindəydi şah babamın fərmanı,
Üzümü mən sürtdüm xaki-payına,
Yüz axçıya baxış etdin bir məni.

Aldı Lətif şah:

Bir qıya baxışın aldı canımı,
Keşkə görmüyəydim zülmkar səni,
Təğayıl hücmünən aldın canımı,
Birməmişdim bu qılıqda mən səni.

Aldı Mehriban Soltan:

İlğar versəm ilğarımda duraram,
Xülusunan murad almaq diləram,
Bir gününü min gününə calaram,
Can, dildən bilsən xüluskar məni.

Aldı Lətif şah:

Mən səni görmüşdüm müddət çağında,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Artırıb möhnəti qəm fərağında,
Növbahar fəslində, əlvan çağında,
Qızıl güləm, bülbül kimi sar məni.

Aldı Mehriban Soltan:

Menriban Soltanam mən baxtı qara,
Salamnan bağlamam bel xüluskara.
Əgər gəlməsəydin bizim diyara,
Yandırardın Kərəm kimi, yar, məni.

Aldı Lətif şah:

Biçarə Lətifi sən qoydun belə,
Eşqin vücuduna saldın vəlvələ;
Huridən, pəridən, qılmandan əla,
Mələkdən də əfzəl bilmişəm səni.

8. Y a x a r d ı  a t ə ş i n  v ə r b ə v ə r  m ə n i – burada «vər»- dərəcə, qat mənasında işlədilmişdir.

9. Bu gəraylı Aşıq Şenlikdə belədir:

Vardım dostun bağına,
Məşəqqət divanı gördüm.
Ziyarət edib Tur dağın,
O şuxi tərlanı gördüm.

Əbrişin muy saği-solda,
Cığa pərvaz edər teldə;
Üzə gülür sidqi-dildə,
Sevdiyim cavanı gördüm.

Mən Lətifəm, cürə sazı,
Mən yazığa eylər nazı;
Hindistan şahının qızı,
Telli Mehribanı gördüm.

10. Bu qoşma Aşıq Şenlikdə belədir:

Ağa Lələ, şikayətə gəlmişəm,
Bu gün əhvalımın yaman günüdü!
Fələyin tədbiri təğayır oldu,
Dönüb dövran, axır zaman günüdü!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Necoldu babamın səcərə taxtı?
Fələk məni qürbət elə buraxdı;
O sirr sinəmin düşgüncə vaxtı;
Tədbirli sinəmin duman günüdü!

Lətifəm, sökdürrəm qəmli yaxanı,
Fələk vurub övladımı, xanamı;
Tülək tərlan cəngə salıb sonamı,
Əl-əldən üzülüb, aman günüdü!

11. Bu hərbə-zorba Aşıq Şenlikdə belədir:

Aldı İsfəndiyar:

Öz ricannan gəlmə əcəl qəhrinə,
Mən bu cəngi Nuh tufannan almışam!
Cövlan edib sən şikarı alarkən,
Sən şikarı ovlağımda vurmuşam.

Aldı Lətif şah:

Nə qiya baxırsan, sevda şəridi,
Eşqə düşən günü mən də ölmüşəm.
Bir gözəlin xəyalıynan gəzirəm,
Pərvanətək özüm oda salmışam.

Aldı İsfəndiyar:

Pəhlivanam, at belində gəzərəm,
Yüz-yüz düşməni bir çiril düzərəm;
Qan olmayan günü qəmgin gəzərəm,
Mən bir qanalıcı cəllad olmuşam.

Aldı Lətif şah:

Batmagilən eşq əhlinin ahına,
Səni qərq eylərəm qəm dərgahına;
Sidqinən sığınan şahlar şahına,
Ondan mən həmişə qüvvət almışam.

Aldı İsfəndiyar:

İsmim İsfəndiyar, xışmım namidar,
Hindistan elini edən taramar;
Farsın padşahına peşkaş yek hazar,
Mehriban Soltanı şikar almışam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:

Lətif şah da mindi əcəl atına,
Gəlmişəm meydana yar qeyratına;
Gözüm görə-görə əcəl qatına,
Əcəl köynəyini geyib gəlmişəm.

12. Bu qoşma Aşıq Şenlikdə belədir:

Mənim mürğ durnam, xüdam eşqinə,
Qanad çal hər yana bir xəbər eylə!
Uçan quşlar rəhm eləmir halıma,
Qərq oldum ümmana, bir xəbər eylə!

Fələk məni saldı Reyin nəhrinə,
Əyyub möhnətinə, Yusif qəhrinə;
Hindistan elindən Yəmən şəhrinə,
İxtiyar Lələmə bir xəbər eylə!

Lətif şaham, mən də bir boyu bəstə,
Toyum yasa döndü dəryalar üstə,
Şığa pəncərədən, qon dizi üstə,
Mehriban Soltana bir xəbər eylə!

13. Y u n i s m ö h n ə t i n ə, Y u s i f q ə h r i n ə – dini əfsanələrə görə, Yunis yahudi peyğəmbərlərindən hesab olunur. Guya ki, onu təqib etmişlər. Gəmiyə minərək qaçmaq istəmiş, lakin gəmiçi onun mövcud dinə qarşı çıxdığını bilib, dənizə atmışdır. Guya dənizdə onu bir nəhəng balıq udub, mühafizə etmiş, sonra sahilə çıxartmışdır. Buna görə də Şərq əsatir-əfsanələrində Yunis əzab-əziyyətə düşmüş, başı bəlalar çəkmiş, möhnətkeş adam kimi tanınmışdır.

Yusif isə yenə də dini əfsanələrə görə kənanlı Yəqub peyğəmbərin oğludur. Atası onu oğlanlarının hamısından artıq sevirmiş. Bunun səbəbi o imiş ki, Yusif həm zəkada, ağıl-kamalda, həm də gözəllikdə qardaşlarından çox seçilərmiş.

Əfsanəyə görə, qardaşları atalarının ona bəslədiyi belə hüsnirəğbəti dözə bilməmiş, aparıb çöldə bir quyuya salmış, qanlı köynəyini gətirib atalarına vermiş, yalandan Yusifi canavar yemiş olduğunu demişlər. Yəqub bu dərdə dözə bilməmiş, ağlamaqdan gözləri kor olmuşdur. Yusif isə oradan keçən karvan başçısı tərəfindən xilas



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edilərək Misrə aparılmış, qul kimi Misrin valisinə satılmışdır. Əfsanənin sonrası valinin evindəki hadisələri təsvir edir:

Valinin öz gözəlliyi ilə məşhur olan qadını Züleyxa Yusifə aşiq olur, lakin istədiyinə razı edə bilmədiyi üçün şər ataraq, onu zindana saldırır. Uzun illər keçir, vali ölür. Yusif zindandan qurtarır, Misirin hakimi dərəcəsinə qalxır. Qardaşlarını, atasını tapır, Züleyxanı da alır.

Ümumiyyətlə Şərqdə, eləcə də bizim həm şifahi, həm də yazılı ədəbiyyatımızda Yusif gözəllik rəmzi kimi şöhrətlənmişdir. Bu misradakı «Yusif qəhri» ifadəsi isə Yusifin həyatının birinci yarısına işarədir.

14. Bu qoşma Aşıq Şenlikdə belədir:

Bu naməni yetir yazıq Lələmə,
Nigahi-hükkamə bir niyaz etsin.
Döşənsin babamın xaki-payına,
O ruzəlməqama bir niyaz etsin.

Yazıq yarım məlul qalıb dəryada,
Atam yoxdu yetə dəryada dada.
Üçlər, beşlər özü yetişsin dada,
Axırəlzamana bir niyaz etsin.

Mehriban Soltan da deyər əlaman!..
Açılmaz başımda dağ ilə duman;
Sidqinən çağırram: ya şahi-mərdan!..
On iki imama bir niyaz etsin.

15. Bu qoşma Aşıq Şenlikdə belədir:

Dərya, sənin bir insafın olmazmı?
Hər tərəfdən hasar çəkmə yoluma!
Səni, məni yaradanın eşqinə,
Mən bülbüləm, həsrət qoyma gülümə!

Qadir mövla, səndən dilərəm dilək,
Gəl məni dəryada eləmə həlak;
Ölmək istəmirəm, möhlət ver, fələk,
Nazlı yarım gözün dikib yoluma.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lətif dərdə düşüb, dərman bulunmaz,
Allahın yazısı gözə görünməz,
Fələyin tədbiri təğayir olmaz.
Gilayım səhv düşdü, gəldi dilimə.

16. Bu qoşma Aşıq Şenlikdə belədir:

Xəbər alsan, nəcibzadə nəsliyəm,
Vətən mülkündə oturdum bir zaman.
Sən kimi şahları etdim payəndaz,
Şad oldum, murada çatdım bir zaman.

Hindistan elinə mən daxil oldum,
Tacir libasında bəzirgan oldum;
Mehriban Soltanı baxçada buldum,
Şad oldum, murada çatdım bir zaman.

Hindistan elində qurdurdum darı,
Öldürmə lələmi, qoy deyim barı;
Bir qılıncla yıxdım İsfəndiyarı,
Fars elində qovğa etdim bir zaman.

Lətif deyər: tifil ikən neylədim,
Həramilər həmgahından boyladım;
Qırdım bəzirganı, nəzir payladım,
Al qumaşlar aldım, satdım bir zaman.

17. Sən kimi şahları payəndaz ilə,
Xakilə payimə saldım bir zaman.

Payəndaz-ayaqaltı, xak-torpaq, pay-ayaq deməkdir. Xakipay-ayaq torpağı, ayaq altının torpağı mənasında istər yazılı, istərsə də şifahi ədəbiyyatımızda tez-tez işlənir. Burada olduğu kimi – «xak ilə payimə» şəklində işlədilməsi, şübhəsiz, yanlışdır. Maraqlıdır ki, bu səpkidən olan yanlışlıqlar «Lətif şah» dastanında çoxdur.

18. Bəzirgan soyardım, dənglər paylardım – dəng – pul deməkdir. Hər hansı bir şeyin dəyərsiz olduğunu demək üçün işlədilən: «Mən buna bir dəng də verməərəm» kimi ifadələr indi də dilimizdə vardır.

19. Bu deyişmə Aşıq Şenlikdə belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:
Necə səbr eləsin yaralı canım,
Eşq ucunnan canım oda düşübdü;
Üz sürtüb xakinə, ayaq öpərəm,
Yazıq canım gör nə hala düşübdü?!
Aldı Əsma xanım:
Bu nə sevda idi gəldi başıma,
Dərd əhlilər qəm, qubara düşübdü.
Çar tərəfdən ahü fəğan elərlər,
Sınıq könlüm tarımara düşübdü!
Aldı Lətif şah:
Nə yazılsa ilahidən o gələr başa,
Yığılan zalımlar, edin tamaşa.
Fürsət mənim idi əvvəl həmişə,
İndi fürsət zülmkara düşübdü!
Aldı Əsma xanım:
Sevərsən allahı, o aləmdarı,
Dolandır başına, azad et yarı;
Dilimin əzbəri, didəmin nuru,
Könlümün tərlanı tora düşübdü!
Aldı Lətif şah:
Lətif şah da əcəl şərabın içər,
Könül quşu indi bədəndən uçar;
Əlacsız, mümkünsüz qalmışam naçar,
Aslan canım pis azara düşübdü.
Aldı Əsma xanım:
Əsma xanım cağrır şahi-xudanı,
Ədalətlə özün eylə divanı;
Zülmünən öldürmə belə cavanı,
Qəzəbindən ahu zara düşübdü.
20. Bu deyişmə Aşıq Şenlikdə belədir:
Aldı Əsma xanım:
Başına döndüyüm, ay Lətif şahım,
Verdiyim ilqardan dönən deyiləm.
İstərəm ləbindən bir busə alam,
Çəkilib kənarda duran deyiləm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Lətif şah:

Çox da cəfa çəkmə, biçarə gözəl,
Sən deyən ilqardan dönən deyiləm.
Könül müştaqının mübtəlasıyam,
Hər kəsi bir gözdə görən deyiləm.

Aldı Əsma xanım:

Lətif şahım sən də məni dindirsən,
Bu sınıq könlümü bir sevindirsən,
Qılınc çalıb xan qardaşım öldürsən,
Mən də sənə düşmən olan deyiləm.

Aldı Lətif şah:

Tifil ikən sevda tapan pirrəni,
Kirpik kaman, sinəm üstə fərmanı.
Əlimdən uçurdum tülək tərlanı,
Qara zağa meyl verən deyiləm.

Aldı Əsma xanım:

Əsma xanam, öz canımdan usannam,
Belə ki, durmuşam bir nahaq qanam.
Mən də sənin kimi bəni-insanam,
Şahmar olub, səni çalan deyiləm.

Aldı Lətif şah:

Sərgərdan Lətifə sən etmə minnət,
Bu sınıq könlümə yaraşmır zinyət;
Özün huri olsan, məkanın cənnət,
Müsafirxanana girən deyiləm.

21. Bu gəraylı Aşıq Şenlikdə belədir:

Şah, sana müjdələr olsun,
Ürəyinə qoydum düyünü,
Buyururdun cəlladlara,
Gördün ki, olmaz oyunu.

Virandı könlümün mülkü,
Yıxaram binanı bil ki,
Yeyəməzsən, qotur tülkü,
Mən təki aslan payını.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lətifə atdın kəməndi,
Əsma xanım qurdu fəndi;
Ala gözlü yarın indi,
Gedib, tutaram toyunu.

22. «Lətif şah» dastanında yanlış ifadələr, yerində işlədilməyən sözlər, bəzən hətta mənasız misralar, bəndlər çoxdur. Misal üçün, elə bu bəndin birinci iki misrası belədir:

Qoca Lələm, nə dərd-qəmə dalmısan?
Hicran qəhri dal qəddini əyibdi.

Aydındır ki, «dal qəddini» deyil, «düz qəddini», aşıq təbiri ilə deyilsə, «əlif qəddini» olmalı idi. Çünki «dal qədd» onsuz da əyilmiş qədd, əyri qədd deməkdir. Onu əyməyə ehtiyac yoxdur.

Yaxud: dastanın bir yerində Mehriban Soltanın dilindən deyilir:

Bu Mehriban sənə mübtəla oldu.

Aydındır ki, buradakı «mübtəla» sözü də yerində işlədilməmişdir və s.a.

23. Bu gəraylı-deyişmə Aşıq Şenlikdə belədir:

Aldı Mehriban Soltan:

Gəl görüm nə xəyaldasan,
Məni gözdən salan yarım!
İlqarı puç bivəfasan,
Etibarı yalan yarım!

Aldı Lətif şah:

Deyim sana vəsfi-halım,
Budu başa gələn, yarım.
Qərq oldum dərya-ümmana,
Məni götdü talan, yarım!

Aldı Mehriban Soltan:

Tənə edib, töhmət vurma,
Yarına xəcalət vermə,
Əlində qədəh ha durma,
Saqi kimi dolan, yarım!

Aldı Lətif şah:

Baş əymərəm iltimasa,
Məni saldın qəmli yasa,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoyma məni xalqı-nasa,
Şadi-xürrəm olan yarım!

Aldı Mehriban Soltan:

Mehribanım qəm sağısı,
Əlimdə qədəh ağısı,
Daldada canım yağısı,
Üzdə şirin gülən yarım!

Aldı Lətif şah:

Lətifəm, dərd-qəm mədanı,
Qandırmaq olmur nadanı,
Sərin yolunda qoyanı,
Etibarsız bilən yarım!

24. Bu qoşma Aşıq Şenlikdə belədir:

Bibafa yar etibarın kəsibdi,
Yazım göz yaşımnan namə, yalvarım.
Əgər ondan mənə imdad olmasa,
İzin versin hicri-qəmə yalvarım.

Mən sənə neylədim, tanrı zalımı?
Heç bir soruşmadın vəsfi-halımı;
Tutdum ətəyindən, kəsdin əlimi,
Gedim qürbət eldə kimə yalvarım?

Əsma xanam, düşdüm fəndü fellərə,
Axdı didəm yaşı, döndü sellərə;
Öz dərdimi dastan edim dillərə,
Qəm buludu töküm, nəmə yalvarım.

25. Bu deyişmə Aşıq Şenlikdə belədir:

Aldı Lələ:

Bir fəqirin babalına batıbdı,
Onun üçün bir minnətə gəlmişəm.
Fars elindən Əsma xanım gəlibdi,
Onun üçün bir minnətə gəlmişəm.

Aldı Mehriban Soltan:

Gətir görüm Əsma xanım boyunu,
Xudam sevindirməz qəlbi xayını,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məndən qabaq tutaq onun toyunu,
O qəribdi, mənim üçün ar deyil.

26. A r a  y e r d ə  m a b e y n i n i  d ü z ə r ə m – «mabeyn» sözü ara deməkdir. Sözlərin burada olduğu kimi, həm özünü, həm də tərcüməsini bir yerdə işlətmək hallarına da bu dastanda tez-tez təsadüf edilir. Misal üçün «quş» da çox zaman «müğr quşu» şəklində işlədilir. Burada «aralıqda aranızı düzəldərəm» demək istəmişdir.

27. Aşıq Şenliyin yazdığı «Lətif şah» dastanı Naxçıvanın Şıxmahmud kəndində yaşayan Aşıq Məhəmmədəli Nəbiyevin dəftərindən götürülmüşdür. Üzünü köçürən Əhliman Axundov olmuşdur. Aşıq Məhəmmədəli bu dastanı Şıx-Mahmudlu Abdulladan yazmışdır.

Abdullanın dediyinə görə, o, «Lətif şah» dastanını Aşıq Şenlikdən öyrənmişdir. Aşıq Şenlik öz dastanını yazıb tamamladığı tarix haqqında dastanın axırında deyir:

Sefil Şenlik, dərdin çoxdu sinədə,
Söz bənd oldu yüz yetmiş dörd xanədə,
Min iki yüz altmış iki sənədə,
Sərgərdan Lətifin yadigarıdı.

## ABDULLA VƏ CAHAN

Bu dastan Qazax rayonunun Ağköynək kəndində yaşayan Aşıq Məmmədyardan toplanmışdır.

1. Cəbrayıl variantında bu qoşma belədir:

Xab içində yatan bixəbər səyyad,
Tərlan mənəm, qeyri tərlan istəmə!
Deyərlər ki, özgəsini sev, saqın,
Sev cahanı, qeyri cahan istəmə!

Düyüm qaldı ağ üzündə nişana,
Qarlı dağlar qərq olubdu dumana,
İnsaf deyil, yaxşı gedər yamana,
Yaxşısan yaxşı sev, yaman istəmə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aragılan, axtar, tap məni pünhan,
Atam Camal bəydi, öz adım Cahan,
Anam Sarabanu, əmimdi Bünyan,
Sev cahanı, qeyri cahan istəmə!

Bu qoşmanın belə bir variantı da vardır:

Xab içində yatan xəbərsiz oğlan,
Tərlan mənəm, ayrı tərlan istəmə!
Bəs deyərlər sevən alar sevəni,
Sev Cahanı, ayrı Cahan istəmə!

Bizlərdə adətdi saza söz demək,
Kabab deyə qara bağrım közdəmək,
Məndən deyin, səndən ilqar gözdəmək,
Gəlsə yüz min əbrü kaman, istəmə!

Elim xəbər alsan nişanbanişan,
Arayıb axtarsan pünhan və pünhan,
Atam Camal bəydi, öz adım Cahan,
Sev Cahanı, ayrı Cahan istəmə!

2. «Aşıqlar» kitabında bu qoşma belədir:

Namə, gedər olsan yarın yanına,
Sən allah, sən tarı, yarı de gəlsin!
O uymasın fani dünya malına,
Sinəm oldu qəm tüccarı, de gəlsin!

Yazın gəlsin, yaz, baharın işləsin,
Qışın gəlsin, o qoynumda qışlasın,
Nə taxsırım varsa de bağışlasın,
Mənəm onun günahkarı, de gəlsin!

Namə, yetiş bircə dindir o yarı,
Taxsırım nə isə söyləsin barı,
Belə olar aşnaların ilğarı?!
Mənəm onun vəfadarı, de gəlsin!

3. Dastanın Cənubi Azərbacanda Canşalı kəndindən toplanmış bir variantında bu qoşma belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mötəbər gözəllər ilqarı bütün
Olur, onun kimi gözəl yar olsun!
Ayrılmazdım onun gül camalından,
Yaranların evi tarümar olsun!

Bir alma göndərdim mən sənə, nigar,
Gözüm yollardadır, könlüm intizar,
Dərdü qəmi varsa, məhəbbəti var,
Bir nişana göndər yadigar olsun!

Bizi ayrı salan çərxi-fələkdir,
Şirin canım yar yolunda həlakdır,
Atma Abdullanı, sənə gərəkdir,
Sirr sözün yadlara aşikar olsun!

4. Dastanın Cənubi Azərbaycan variantında bu qoşma belədir:

Canımdan əziz, ey mehriban lələ,
Lələ, hanı bəs Cahanım, görünməz?
Alışıb, oduna büryan olduğum,
Lələ, hanı bəs Cahanım, görünməz?

Qəvvas olub, dəryalara daldığım,
Əziz canım eşq oduna saldığım,
O əfşan zülfündən nişan aldığım,
Lələ, hanı bəs Cahanım, görünməz?

Bilirsənmi hansı bağın barıdı,
Almasıdı, heyvasıdı, narıdı,
Yazıq Abdullanın Cahan yarıdı,
Lələ, hanı bəs Cahanım, görünməz?

5. Cənubi Azərbaycan variantında bu qoşma belədir:

Sallana, sallana gedən salatın,
Kəhlik kimi yerişindən bəllidir.
Yel atdı rübəndi, göründü üzü,
Canım alan baxışından bəllidir.

Sinəm bənzər Savalanın qarına,
Dəyişməm dünyanın küllü varına,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yumruluqda oxşar Kürdaş narına,
Dik püstanlar duruşundan bəllidir.

Həsrətini çəkib Hələb, Bağdad, Çin,
Camalı bir günəş, özü göyərçin,
Ağ üzündə siyah zülfü çinbəçin,
Tərlan ovu alışından bəllidir.

O görünən zənəxdanda nə xaldı?
Qaşların qarası canımı aldı;
Öldürsən də canım sənə halaldı,
Müjganların vuruşundan bəllidir.

Abdullanın ağlın sən aldın əldən,
Siyah tel içinə cumubdu gərdən,
Barilahım, özün saxla nəzərdən,
Bir ay doğub, doğuşundan bəllidir.

6. Cənubi Azərbaycan variantında və «Aşıqlar» kitabında bu qoşma belədir:

Sallanıban gedən dilbər!
Dedi: getsən, gəlirəm mən.
Dedim: gözəl, dərdim çoxdur,
Dedi: dərman bilirəm mən.

Göldən uçurdum sonanı,
Bu yerdə qoyduq binanı,
Gündə gördüyüm cananı,
Görməyəndə ölürəm mən.

Vəfası olmaz yalanın,
Ağlı olmaz çox gülənin,
Abdullayam, dərd bilənin,
Yüz il keçsə, quluyam mən.

7. Bu şerin Cənubi Azərbaycan və «Aşıqlar» kitabında nəşr edilmiş variantı belədir:

Çəkərəm qılıncı, girrəm meydana,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəzərəm meydanı zərəfşan qana,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!

Şəki, Şirvan, qətli-fərman ya mənim,
Əzbərimdir qırxlar piri ya mənim,
Cahan xanım ya sənindir, ya mənim,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!

Abdullayam qızıbanı şirvan oynar,
Qalxan gümbüldənər, şəmşir dar oynar,
Baş kəsilər, meydan qızıl qan oynar,
Gəlirsən meydana, gəl indi, gəl, gəl!

## MƏHƏMMƏD VƏ GÜLƏNDƏM

Bu dastanın bir variantı 1940-cı ildə Şamxor rayonunun Cilli kəndində Aşıq Qasım Nəsib oğlundan toplanmış, bir variantı isə 1961-ci ildə Azərnəşr tərəfindən çap edilmiş «Azərbaycan xalq dastanları»nın II cildində getmişdir.

Dastanın bu cildə daxil edilmiş variantı aşıqdan toplanmış olduğu şəkildədir.

Bunun ən qədim variantı Gəncəli aşıq Meydandan toplanmışdır. Bu variantda Aşıq Ələsgərin «Gözləyər» adlı nəsihətamiz bir şeri ustadnamə kimi verilmişdir. Aşiq Qiyasın dediyinə görə, Aşıq Ələsgər bu dastanı bir toyda söyləmiş, ustadnaməni isə elə orada dastandan qabaq bədahətən oxumuşdur.

Dastanın bir variantı da Cənubi Azərbaycanın Canşalı kəndindən toplanmışdır. Bu variantda dastanın adı «Məlik Məhəmməd və Güləndam»dır. Bu tamamilə başqa bir variantdır. Bu varianta görə, Məlik Məhəmməd Həmədan şəhərində Allahverdi sövdəyərin oğlu, Güləndam isə Yəmən şahının qızıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HEYDƏR BƏY

Bu variant 1960-cı ildə Şamxorda Aşıq Hüseyn Seyfəlidən toplanmışdır. Dastan ilk dəfədir ki, nəşr edilir.

1. «Qoşmalar» kitabında bu deyişmə belə getmişdir:

Süsənbər:

Budur, gəldi Heydər, iyidlər xası,
Qayıt bu sevdadan, əl götür məndən!
Mən səni öldürsəm kim tutar yası?
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Sənsən fələk əhli, gözəllər xası,
Maralım, ceyranım, dönmərəm səndən!
Gey, sənə yaraşar toyluq libası,
Maralım, ceyranım, dönmərəm səndən!

Süsənbər:

Bizim eldə bağça olar, bar olmaz,
Sizin yerdə heyva olar, nar olmaz,
Öldürsələr məndən sənə yar olmaz,
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Bizim eldə bahar olmaz, yaz olmaz,
Sizin yerdə ördək olar, qaz olmaz,
Görməmişəm, qızdan şəmşirbaz olmaz,
Maralım, ceyranım, dönmərəm səndən!

Süsənbər:

Süsənbərəm, alışıban yanaram,
Hər nə desən, mən sözündən qanaram,
Mən gedər, qürbətdə səni anaram,
Qayıt bu sevdadan, əl götür məndən!

Heydər bəy:

Heydər bəyəm oldum dəli, divana,
Yarın aylığını kar eylər cana,
Getsən İsfahana, nisfi-cahana,
Maralım, ceyranım, dönmərəm səndən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dastanın Kəlbəcərli aşıq Hüseyn Nədirxanlıdan toplanmış variantında bu deyişmə belədir:

Aldı Süsənbər:

Gəl, gəl, Heydər bəyim, qullar ağası,
Qayıt bu sevdadan, əl götür məndən!
Öldürrəm mən səni, kim tutar yası?
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Gəl, gəl, fərə kəhlik, gözəllər xası,
Maralım, ceyranım, dönmərəm səndən!
Əyninə yaraşır ərlik libası,
Maralım, ceyranım, dönmərəm səndən!

Aldı Süsənbər:

Dost yolunda başı-candan keçərəm,
Ağı oxuyub, qaraları seçərəm,
Bir qılınca səni iki biçərəm,
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Bizim yerdə söhbət ola, saz ola,
Sizin yerdə ördək ola, qaz ola,
Görməmişdik qızdan şəmşirbaz ola,
Maralım, ceyranım, dönmərəm səndən!

Aldı Süsənbər:

Süsənbərəm səni üryan eylərəm,
Eşqin kürəsində büryan eylərəm,
Bir qılınca səni qurban eylərəm,
Qayıt bu sevdadan, əl götür məndən!

Aldı Heydər bəy:

Heydəri eyləmə dəli-divana,
Yanaram oduna misli-pərvana,
Getsən İsfahana, nisfi-cahana,
Maralım, ceyranım, dönmərəm səndən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

2. Dastanın Kəlbəcər variantında bu şer belədir:

Tək-təkana qaldım badi çöllərdə,
Solub heyva kimi saralı canım.
Nə yarım vardı, nə də yoldaşım,
İndi olub dağların maralı canım.

İsfahandan çıxdım, getdim ziyada,
Qədir mövlam özü yetişmiş dada,
Hər yana baxıram–on-on beş cada,
Bilmirəm hansıynan var ola canım.

Heydər bəyəm: nə mürdəyəm, nə zində,
Bilmirəm ki, nə məzhəbdəyəm, nə dində,
Qohum, qardaş görsə məni bu gündə,
Deyib ağlamazmı yaralı canım?!

3. Dastanın Kəlbəcər variantında bu şer belədir:

Könül bir gözələ aşıq olubdu,
Hər gündə min dəfə görəsim gəlir.
Leyli yanağında bir gül bitibdi,
Məcnun kimi onu dərəsim gəlir.

Türkman gözəlindən bir sən qalmısan,
On dörd hörük dal gərdənə salmısan,
Bir canım var, yar, əlimdən almısan,
Bir quru qəfəsdə nəfəsim gəlir.

Leyli-Məcnun körpüsündən keçmişəm,
Sərin-sərin sularından içmişəm,
Heydər bəyəm, bir sevdaya düşmüşəm,
Özümün özümə güləsim gəlir.

«Qoşmalar» kitabında bu şer belə getmişdir:

Könül üç gözəlin sevdasındadır,
Gündə hər birini görəsim gəlir.
Leyli buxağında açılmış güllər,
Məcnunam, dərməyə həvəsim gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Türkmən gözəlindən bir sən qalmısan,
Dörd yanına on dörd hörük salmasın,
Bir canım var, yar, əlimdən almısan,
Özümün özümə güləsim gəlir.

Leyli-Məcnun körpüsündən keçmişəm,
Əyilibən sərin suyun içmişəm,
Heydər bəyəm, bir sevdaya düşmüşəm,
Bir quru qəfəsəm, nəfəsim gəlir.

4. Dastanın Kəlbəcər variantında bu deyişmə belədir:

Aldı Əhməd şah:

Durum indi səndən xəbər alayım,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?
Xəncər alım, səni şan-şan eyləyim,
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

O günü ki, çıxdım əlvan dağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.
Əşrəfi düzdürmüş solu sağına,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Əhməd şah:

Oxuduğum əlif idi, bey idi,
Arqadaşlar əhdiciyin yeyidi,
Heydər bəy dediyin kimin nəyidi?
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?

Aldı Süsənbər:

Getsin payız, gəlsin yazın havası,
Silinsin, qalmasın könlümün pası,
Heydər bəy – Şah Abbas qullar ağası,
Mən çəkdiyim Heydər bəyin dərdidi.

Aldı Əhməd şah:

Söylə, çəpəl, köksün niyə ötürdün?
Göz yaşından səcərayı bitirdin?
Şah qulundan mana dölmü gətirdin?
Söylə, çəpəl, dərdi-vərəm nəyindi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Süsənbər:

Dərin-dərin dəryalara ha daldım,
Heyvatək saralıb, gül təki soldum,
Bir qılınca onu atından saldım,
Mən çəkdiyim o yazığın dərdidi.

5. «Qoşmalar» kitabında bu şer belə getmişdir:

Başına döndüyüm, qurban olduğum,
Şahım, məni dərdə salan bu qızdı.
Alışıb oduna büryan olduğum,
Şahım, məni dərdə salan bu qızdı.

Yaxın ikən mənzil oldu iraxlar,
Evimizdə yanar şamlar, çıxarlar,
Qızıl qəbzəlidir gümüş yaraxlar,
Şahım, məni dərdə salan bu qızdı.

Heydər bəyəm, düşdüm yarın qəhrinə,
Gözəllikdə gəlməz heç kəs təhrinə,
Xəbər alsan–getdi Kişmir şəhrinə,
Şahım, məni dərdə salan bu qızdı.

Dastanın Kəlbəcər variantında bu qoşma belədir:

O günü ki, çıxdım əlvan dağına,
Şahım, məni dərdə salan bu qızdı.
Dodaqları bənzər gül yarpağına,
Şahım, məni dərdə salan bu qızdı.

Yaxşı ikən mənzil oldu iraqlar,
Didəmdən axıtdım qanlı faraqlar,
Qəbbası qızıldı, gümüşdən mıxlar,
Şahım, məni dərdə salan bu qızdı.

Heydər bəyəm, düşdüm yarın qəhrinə,
Təhri bənzər qızıl gülün təhrinə,
Xəbər alsan–getdi Kişmir şəhrinə,
Şahım, məni dərdə salan bu qızdı.

6. Dastanın Kəlbəcər variantında bu şer belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm, ədalət şahım,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.
Sabahım, sərtacım, ay qibləgahım,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.

Mən Kəşmirdə qoyub gəldim elimi,
Hər xoyada dərdirmərəm gülümü,
Oydursan didəmi, kəsdirsən dilimi,
Mən gəlmişəm, Heydər bəyə gedərəm.

Süsənbərəm, oldum eşqə bəndigan,
Yaş yerinə didələrim tökər qan,
Öldürsən də məni, Heydərə qurban!
Mən gəlmişəm, öz yarıma gedərəm.

## SƏLİM ŞAH

Bu variant 1960-cı ildə Tovuzda yaşayan Aşıq Abuldan toplanmışdır. Dastan ilk dəfədir ki, nəşr edilir.

## MÜĞÜM ŞAH

Bu dastan 1959-cu ildə Şamxor royonunun Zəyəm kəndində Aşıq Orucdan toplanmışdır. Dastanın hələlik başqa variantı əldə edilməmişdir.

## ƏMRAH

Bu variant 1964-ci ildə Naxçıvanın Şıxmahmudlu kəndində yaşayan Aşıq Həsəndən toplanmışdır.

Dastanın variantları 1937-ci ildə «Dastanlar və nağıllar» kitabında (toplayanı H. Əlizada), 1962-ci ildə isə «Azərbaycan xalq dastanları» kitabında (toplayanı və tərtib edəni Əhliman Axundov) nəşr edilmişdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SEYDİ VƏ PƏRİ

«Seydi və Pəri» dastanının müxtəlif yerlərdən toplanmış bir sıra variantları vardır. Bu variantlar bir-birinə çox yaxındır. Fərq, əsasən, surətlərin adlarında və qoşmalardadır. Misal üçün, bu variantların birinə görə, Seydi Əhməd kişi adlı bir yoxsul adamın oğludur. Əhməd kişi onu nəzir-niyazla tapmışdır. Seydi yoxsulluqdan təngə gəlir. Dərdli-fikirli günlərinin birində yuxuda gavur qızı Pərini görür, aşıq olur, aşıqlığa çatır, butasının arxasınca səfərə çıxır. Yolda Nərgiz adlı bir dövlətli qızı ilə rastlaşır. Nərgiz Seydini sevir, lakin bu, Seydini yolundan eləyə bilmir. O çox əziyyətlər çəkdikdən sonra Pərini tapır, alır, qayıdan baş Nərgizi də götürüb, vətəninə gəlir.

Dastanın ikinci variantına görə, Seydi Tağı adlı bir yoxsulun oğlu, Pəri isə Tağının dövlətli qardaşı Nağının qızıdır. Uşaqlar göbəkkəsmə adaxlıdılar. Lakin onlar evlənə bilmirlər. Dövlətli qardaş əhdi pozur. Seydi qürbət ölkələrə gedir. Həsən bağbanın qızı Nərgiz ona aşıq olur. Camal paşa adlı biri onu zindana salır. Pərini də güclə almaq istəyir. Nəhayət, Seydi düşmənlərə qalib gəlib, Pərini alır, Nərgizi də götürür. Hətta gəlib öz nişanlısını da alır.

Dastanın belə variantlardan əsaslı şəkildə fərqinin bir müstəqil versiyası da vardır. Bu versiyaya görə Ərcmən şəhərində Hacıbala və Arzuman adlı iki qardaş yaşayır. Hacıbalanın Güllü adlı bir qızı, Arzumanın isə Seydi adlı bir oğlu vardır. Uşaqlar bir məktəbdə oxuyurlar. Molla bunların sevişdiklərini görüb qızın atasına xəbər verir. Hacıbala Seydini sürgün eləyir. Seydi çox yerlər gəzdikdən sonra gedib Dağıstana çıxır. Burada Şeyx Şamilin valilərindən biri olan Mirzəli Əfəndi ilə tanış olur. Sərdari-əzəm Hacı Murad onu Şeyx Şamilin yanına aparır. Seydi Şeyxin ona qoşduğu ləzgilərin köməyi ilə Samuru keçib, Nügədiyə gəlir, oradan da Ərcmana gəlib, sevgilisi Güllünü alır. Bütün variantlardan aydın bir şəkildə görünür ki, bu dastan vaxtı ilə çox mükəmməl olmuş, zaman keçdikcə unudulub bu hala düşmüşdür.

1. Cəbrayıldan toplanmış variantda bu şer belədir:

Düşdü xəyalıma uzaq cadalar,
Gələr qulağıma ağır sədalar,
Dün içdim yuxuda şirin badalar,
Dərman olmaz bu dərdimə, gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şamil mahalında, Şamil elində,
Gözəl adı dastan olub dilimdə,
Bir canım var o Pərinin yolunda,
Dərman olmaz bu dərdimə, gedərəm.

Seydi deyər: bu dərd canım əridi,
Getməz isəm həsrət məni çürüdü,
Kafir Gizmin qızı – adı Pəridi,
Dərman olmaz bu dərdimə, gedərəm.

2. Zaqataladan toplanmış variantda bu şer belədir:

Ya Urum qızısan, ya osmanlısan,
Aşıq öldürməyə gözü qanlısan,
Gözəllər içində adlı-sanlısan,
Uğrun baxışında heylə var, heylə!

Sən mənim soltanım, sən mənim xanım,
Sana qurban olsun bu şirin canım,
Dərdimin dərmanı sən Pəri xanım,
Əlvan naxışında heylə var, heylə!

Pərdənin dalından qaş-göz süzərsən,
Qiya baxıb, bağrım başın üzərsən,
Seydi deyib, bu dünyanı gəzərsən,
Şümşək çıxışında heylə var, heylə.

3. Cəbrayıldan toplanmış varinatda bu şer belədir:

Aldı Seydi:

Atam Tağı çox kasıbdı, möhtaşdı,
Odu, əmim qızı, tez atdı, qaşdı.
Anamın gözünü qoymuşam yaşdı,
Qaş-yaş tökər indi, yəqin bilirəm.

Aldı Nərgiz:

Bülbül olub, bir qonaydım gülünə,
Şirin danış, qurban olum dilinə,
Götür məni apar ulus elinə,
Qəbul qılsan, oğlan, sana gələrəm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Seydi:

Seydi deyər: ellərimiz köçəndə,
Ağ oxuyub, qaraları seçəndə,
Bir də bahar gəlib, çiçək açanda,
Onda gəlib yəqin səni alaram.

Aldı Nərgiz:

Mən Nərgizəm səni çox şad elərəm,
Qohum-qardaşını mən yad elərəm,
Qorxma, xanımanın abad elərəm,
Qəbul qılsan, oğlan, sana gələrəm!

4. Qazaxdan toplanmış variantda bu şer belədir:

Şəriət başında əyləşən qazı,
Kəbini kəsməyi istərəm səndən.
İstəmə yar yara qalsın tamarzı,
Kəbini kəsməyi istərəm səndən.

Mən söylüyüm sizə, qulaq asasız,
Dediyim sözlərə barmaq basasız,
İncitməyib, kəbinimi kəsəsiz,
Kəbini kəsməyi istərəm səndən.

Seydi deyər: mənim dərdim azıdı,
Bu işlər də sövda deyil, yazıdı,
Adı Pəri, Gavargizmin qızıdı,
Kəbini kəsməyi istərəm səndən.

Kəlbəcər variantında isə aşağıdakı kimidir:

Hikmət məclisində əyləşən qazı,
Şəri-peyğəmbəri istərəm sizdən.
Könlüm, bilirsiniz, nələr arzular,
Şəri-peyğəmbəri istərəm sizdən,

İstəmirəm inciyəsiz, küsəsiz,
Mənim bu ərzimə qulaq asasız,
Nazlı ceyranıma kəbin kəsəsiz,
Şəri-peyğəmbəri istərəm sizdən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seydi deyər: bu gün bahardı, yazdı,
Göllərdə üzüşən sona ilə qazdı,
Adı Pəri, özü maraltək qızdı,
Şəri-peyğəmbəri istərəm sizdən.

5. Başqa bir variantda bu qoşma belədir:

Ay ağalar, gəlin sizə söyləyim,
Sən verən tel bir ümmana qərq oldu.
Bir canım var, yara qurban eyləyim,
Sən verən tel bir ümmana qərq oldu.

Nagahandan məni bir yuxu basdı,
O vaxtın da könlüm istədi dostu,
Sağ tərəfdən badi-müxalif əsdi,
Sən verən tel bir ümmana qərq oldu.

Mənim şikarım kaş olaydı qara,
Çəkildi sinəmə dağ ilə yara,
Seydi deyər: mən öləydim biçara,
Sən verən tel bir ümmana qərq oldu.

6. Qazaxdan toplanmış «Seydi» dastanında bu gəraylını Pəri ata yox, Seydiyə deyir. Dastanın bu variantına görə gəraylı belədir:

Çapdır Səməndini, çapdır,
Kəllədən minarə yapdır,
Axtar bir qarını tapdır,
O birlərin qoyma, Seydi!

Yerişdə Səmənd, yerişdə!
Səməndin nalın gümüşdə!
Qazını mana bağışda!
Qalanların qoyma, Seydi!

Gördünmü dağlar aşanı,
Haşadan bəylər haşanı,
Axtar tap Calal paşanı,
O birlərin qoyma, Seydi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜNDƏRİCAT


Qul Mahmud....................................................................3
Novruz.........................................................................25
Alı xan..........................................................................58
Lətif şah.......................................................................96
Abdulla və Cahan.........................................................134
Məhəmməd və Güləndam..............................................167
Heydər bəy...................................................................231
Səlim şah......................................................................254
Müğüm şah...................................................................274
Əmrah...........................................................................296
Seydi və Pəri.................................................................319
***Qeydlər.......................................................................345***




PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Azərbaycan folkloru külliyyatı,**
**XXI cild, Dastanlar (XI kitab),**
Bakı, "Nurlan" nəşriyyatı, 2010.

*Nəşriyyat direktoru:*
***Nadir Məmmədli***

Kompüterdə yığdı:
***Səadət Əliyeva***

**Korrektoru:**
***Güllər Qələndərli***

Kompüter tərtibçisi və
texniki redaktoru:
***Ramin Abdullayev***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 24,5 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com